ISSN 1810-911X

İPƏK YOLU

İPEK YOLU ✦ ИПЕК ЙОЛУ

TƏSİSÇİ: AZƏRBAYCAN UNİVERSİTETİ
PUBLISHED: AZERBAIJAN UNIVERSITY
УЧРЕДИТЕЛЬ: УНИВЕРСИТЕТ АЗЕРБАЙДЖАН

№ 4. 2014

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə № 472

REDAKSİYA HEYƏTİ:

Akif Musayev
(baş redaktor)

Eldar Qəhrəmanov
Dünyamalı Vəliyev
(baş redaktorun müavinləri)

Ziyad Səmədzadə
Teymur Bünyadov
Asəf Hacıyev
Əli Nuriyev
Səlahəddin Xəlilov
Yusif Məmmədov
Telman Əliyev
Vilayət Quliyev
Xaləddin İbrahimli
Rövşən Quliyev
Habil Qurbanov
Mais Əliyev
Həsən Əlibəyli
Tofiq Vəliyev
Akif Əlizadə
Hüseyn Hüseynov
Vüqar Nəzərli
Xədicə İsgəndərli
Bijan Fəzlullahi
(ABŞ)
Murat Barkan
Behzat Gürkan
(Türkiyə)
Erhan Özdəmir
(Türkiyə)
Bayram Kodaman
(Türkiyə)
Mətin Özkul
(Türkiyə)
Elşən Əliyev
Venera Şərifzadə
(məsul katib)

Texniki heyət:
Zamin Əliyev

Korrektorlar:
Ayşən Hüseynova
Nisə Babayeva

EDITORIAL BOARD:

Akif Musayev
(editor in chief)

Eldar Kahramanov
Dunyamali Veliyev
(deputy editor in chief)

Ziyad Samedzadeh
Teymur Bunyadov
Asef Hagıyev
Ali Nuriyev
Selaheddin Khalilov
Yusif Mamedov
Telman Aliyev
Vilayet Quliyev
Xaleddin Ibrahimly
Rovshen Quliyev
Habil Qurbanov
Mais Aliyev
Hasan Alibeyly
Tofiq Veliyev
Akif Alizadeh
Hussein Husseinov
Vuqar Nazarli
Khadija Iskandarly
Bijan Fezlollahi
(USA)
Murat Barkan
Behzat Gurkan
(Turkey)
Erhan Ozdemir
(Turkey)
Bayram Kodaman
(Turkey)
Metin Ozkul
(Turkey)
Elshan Aliyev
Venera Sharifzadeh
(secretary responsible)

Technical staff:
Zamin Aliyev

Correctors:
Ayshan Huseynova
Nisa Babayeva

РЕДАКЦИОННЫЙ СОВЕТ:

Акиф Мусаев
(главный редактор)

Эльдар Кахраманов
Дуньямалы Велиев
(зам главного редактора)

Зияд Самедзаде
Теймур Бунядов
Асаф Гаджиев
Али Нуриев
Салахаддин Халилов
Юсиф Мамедов
Тельман Алиев
Вилаят Гулиев
Халеддин Ибрагимли
Ровшан Гулиев
Хабил Гурбанов
Маис Алиев
Гасан Алибейли
Тофик Велиев
Акиф Ализаде
Гусейн Гусейнов
Вугар Назарли
Хадиджа Искендерли
Бижан Фазлуллахи
(США)
Мурат Баркан
Бехзат Гюркан
(Турция)
Эрхан Оздемир
(Турция)
Байрам Кодаман
(Турция)
Метин Озкул
(Турция)
Эльшан Алиев
Венера Шарифзаде
(ответственный секретарь)

Технический персонал:
Замин Алиев

Корректоры:
Айшан Гусейнова
Ниса Бабаева

Redaksiyanın ünvanı: Bakı şəhəri, Yasamal ray, S.Dadaşov küçəsi, 84.	***Telefonlar:*** (994 12) 430 51 79, 430 42 82, ***Fax:*** (994 12) 430 49 29, 430 50 79	İnternet ünvanımız: ***www.au.edu.az*** e-mail: ***office@au.edu.az***	***Azərbaycan Universitetinin mətbəəsində çap olunmuşdur.***	***Çapa imzalanmışdır:*** 25.10.2014 Tiraj 500.

MÜNDƏRİCAT

Eldar Qəhrəmanov
Gənclərin həyatı gələcəyin təməlidir....5

İQTİSAD ELMLƏRİ

■ **REAL SEKTOR**
Malik Tağıyev
İqtisadiyyatın dövlət tənzimlənməsinin bir sıra elmi, nəzəri-metodoloji məsələləri və Azərbaycan modelinin xüsusiyyətləri....14
Elçin Əkbərov
Turizmin növləri kontekstində Azərbaycanın turim sektorunun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi....23
Nəzrin Ələkbərova
Qloballaşma transmilli şirkətlərin inkişaf amili kimi....30

■ **MALİYYƏ**
Vüqar Nəzərov
Sahibkarlığın maliyyə infrastrukturunun inkişafının əsas istiqamətləri....37
Vüqar Nəzərov
Tədiyyə balansı və onun tərtib olunmasının nəzəri prinsipləri....45
Rəna Hüseynova
İntellektual kapitalın müasir vəziyyəti və inkişaf meyilləri....56
Taleh Məmmədov
Neft gəlirləri, büdcə xərcləri və inflyasiya....64
Səbuhi Əliyev
Qanuni bank fəaliyyətinə mane olmanın ümumi cinayət-hüquqi xarakteristikasi: cinayətin obyektiv cəhəti....74

■ **İNSTİTUSİONAL SEKTOR**
Asəf Kazımov
İnsan resursları departamentinin funksional inkişaf dinamikası və ona təsir edən amillər....88
Asif Heybətov
Klaster təşəbbüslərinin reallaşdırılmasının regional-iqtisadi inkişafa təsiri....95

■ **FİLOLOGİYA ELMLƏRİ**
Yadigar Əliyev
"Kitabi-Dədə Qorqud"un dilində mürəkkəb sintatik bütövlər....102
Xədicə Cəfərova
Neo-viktorian romanı postmodern janrı kimi....106
Sadiq Qarayev
Çağdaş dövrdə roman janrının inkişaf xüsusiyyətləri....114
Aytən Musayeva
Amerika ədəbiyyatinda O.Henrinin yeri....123

■ **BEYNƏLXALQ MÜNASİBƏTLƏR**
Nigar Əlizadə
Avropada İslamın meydana gəlməsinin sosial-fəlsəfi təhlili....130
Qərib Əsgərov
Beynəlxalq təhlükəsizlik sistemi və terrorizm....138
Sitarə Əliyeva
Reklamların formalaşma tarixindən....144

■ **MAGİSTR TRİBUNASI**
Mələknaz Yusifova
Ernest Hemequey Azərbaycan dilində....150
Rəna Əliyeva
Dialektlərin spesifik xüsusiyyətləri, coğrafi dialektlər....154
Bəyim Əliyeva
İnterferensiya linqvistik tədqiqatların obyekti kimi....159
Nərmin Quliyeva
ABŞ və Rusiyanın İranın nüvə proqramına dair mövqeyi....165
Orxan Zülfüqarov
İsrail və onun ABŞ-da lobbisi: Dayaq, yoxsa yük?....171

■ **TƏLƏBƏ TRİBUNASI**
Pərvin Arıxbəyli
Vergi sistemi və iqtisadiyyatda vergilərin rolu....178

"İpək yolu" jurnalına məqalələrin təqdim olunma qaydaları....183

CONTENTS

Eldar Gahramanov
Formation of the youth is the faundation of the future....5

ECONOMIC

■ **REAL SECTOR**
Malik Tagiyev
Government regulation of economy on a number of scientific, theoretical and methodological issues and characteristics of azerbaijan model....14
Elchin Akbarov
A brief outlook to the tourism sphere of azerbaijan republic on the context of tourism types....23
Nezrin Alekperova
Globalization as factor of development of transnational corporations....30

■ **FINANCE**
Vugar Nazarov
Main directions of development of financial infrastructure of entrepreneurship....37
Vugar Nazarov
Balance of payment and the theoretical principles of its composition....45
Rena Huseynova
Current state and tendencies of development of the intellectual capital....56
Taleh Mammadov
Oil revenues, budget expenditures and inflation....64
Sabuhi Aliyev
Criminal law aspects of prevention of legal banking activity objective side of the crime....74

■ **INSTITUTIONAL SECTORS**
Asaf Kazimov
The functional development dynamics of human resources department and impacting factors....88
Asif Heybatov
Impact of the implementation of the cluster initiatives on regional economic development....95

■ **INDUSTRY**
Yadigar Aliyev
Complex syntactical units in the language of "Kitaby Dada Gorgud"....102
Khadija Jafarova
Neo-victorian novel as postmodern subgenre....106
Sadig Garayev
The development features of the novel genre at the modern times....114
Ayten Musayeva
O'Henry's role in American literature....123

■ **INTERNATIONAL RELATIONS**
Nigar Alizadeh
Socio-philosophical analysis of the emergence of islam in europe....130
Garib Askerov
System of international security and terrorism....138
Sitara Aliyeva
The history of the formation of advertisements....144

■ **TRIBUNE FOR GRADUATE STUDENTS**
Malaknaz Yusiphova
Ernest hemingwey in Azerbaijan language....150
Rana Aliyeva
The specific features of dialects, geographic dialects....154
Bayim Aliyeva
Interference as object of linguistic researches....159
Nermin Guliyeva
Positions of U.S. and Russia on the nuclear program of Iran....165
Orkhan Zulphugarov
Israel and its lobby in United States: stronghold or burden?....171

■ **TRIBUNE FOR UNDERGRADUATE**
Parvin Arixbayly
Taxation system and the role of taxes in economy....178

Rules of presentation of articles to the journal "Ipek yolu"....183

СОДЕРЖАНИЕ

Елдар Гахраманов
Формирование молодожи это фундамент будущего....5

ЭКОНОМИЧЕСКИЕ НАУКИ

■ **РЕАЛЬНЫЙ СЕКТОР**
Малик Тагиев
Некоторые научно, теоретические и методологические вопросы государственного регулирование экономики и особенности модели Азербайджана 14
Эльчин Акперов
Оценка конкурентоспособности туристического сектора азербайджана в контексте видов туризма....23
Незрин Алекперова
Глобализация как фактор развития транснациональных корпораций....30

■ **ФИНАНСЫ**
Вугар Назаров
Основные направления развития финансовой инфраструктуры предпринимательства....37
Вугар Назаров
Платежный баланс и теоретические принципы его составления....45
Рена Гусейнова
Современное состояние и тенденции развития интеллектуального капитала....56
Талех Маммедов
Доходы от продажи нефти, бюджетные расходы, инфляция....64
Сабухи Алиев
Общая уголовно-правовая характеристика препятствованию законной банковской деятельности: объективная сторона преступления....74

■ **ИНСТИТУЦИОНАЛЬНЫЙ СЕКТОР**
Асаф Казимов
Динамика функционального развития департамента человеческих ресурсов и факторы, влияющие на это....88
Асиф Гейбатов
Влияние реализации кластерных инициатив на региональное экономическое развитие....95

■ **ТОРГОВЛЯ**
Ядигар Алиев
Сложная синтаксическая единица (на основе языка «Китаби-Деде Коркут») 102
Хадиджа Джафарова
Неовикторианский роман как постмодернисткий субжанр....106
Садых Караев
Особенности развития жанра романа на современном этапе....114
Айтен Мусаева
Место О.Генри в Американской литературе....123

■ **МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ**
Нигяр Ализаде
Социально-философский анализ появления ислама в европе....130
Гариб Аскеров
Система международной безопасности и терроризм....138
Ситара Алиева
Об истории формирования реклам....144

■ **ТРИБУНА МАГИСТРАНТОВ**
Мелекназ Юсифова
Эрнест хемингуэй в Азербайджанском языке....150
Рена Алиева
Специфические особенности диалектов, географические диалекты....154
Байим Алиева
Интерференции с точки зрения лингвистических зучений....159
Нармин Гулиева
Позиции США и Россия по ядерной программе Ирана....165
Орхан Зульфугаров
Израиль и его лобби в США: оплот или бремя?....171

■ **ТРИБУНА СТУДЕНТОВ**
Парвин Арыхбейли
Налоговая система и её роль в экономике....178

Правила приема статей в журнал «Ipek Yolu»....183

GƏNCLİYİN FORMALAŞDIRILMASI GƏLƏCƏYİN TƏMƏLİDİR

Eldar QƏHRƏMANOV
Azərbaycan Universitetinin rektoru,
İqtisad elmləri namizədi, dosent

Rəyçi: Fəlsəfə üzrə fəlsəfə doktoru dos.Y.P. Əhmədov
Açar sözlər: gənclik, mənəvi məsuliyyət, yetkinlik, əxlaq, davranış

Cəmiyyətin siyasi həyatında baş verən dəyişiklik onun bütün sahələrində də tədrici dəyişikliyə gətirib çıxarır. Uzun illər yaşadığımız quruluşun dağılması cəmiyyətdə iqtisadi və mənəvi böhran yaratdı. Düşdüyümüz siyasi, iqtisadi və mənəvi çətinlik cəmiyyətin hər bir üzvünü, xüsusilə də gəncləri daha çox çaşdırdı, ən böyük zərbəni də məhz onlar öz üzərlərində hiss etdilər. Maddi təminat uzun illər mənəvi yüksəlişin qayğısına qalmağı unutdura bildi və bu vəziyyət bir çox mənəvi dəyərlərin unudulmasına, əvvəllər cəmiyyət tərəfindən qəbul edilməyən davranış normalarının adi hal almasına, bir sözlə insanların, xüsusən də gənclərin mənəvi dünyasının pozulmasına gətirib çıxartdı. Həyatın bütün sahələrində birbirinin ardınca buraxılan səhvlər, insanın təkamülünün onsuz da aşağı olan səviyyəsindəki durğunluq, təhsil sistemində yaranan qarmaqarışıqlıq, müasir həyatımızın normal sayılmayan mənəvi durumu onsuz da nə etmək lazım olduğunu bilməyən gəncləri daha da çaşdırdı, mövcud qaydalara, əxlaq normalarına qarşı onlarda biganəlik yaratdı, onların möhkəmlənməmiş xarakter və iradələrini daha da zəiflətdi və ümumiyyətlə onların acizliyini göstərdi.

Cəmiyyətin sabahı üçün məsuliyyət daşıyan gənclər dərk etməlidir ki, özünü təkmilləşdirmədən, yetkin şəxsiyyət kimi formalaşmadan heç nəyə nail olmaq mümkün deyildir. Həyat sübut edir ki, insanın özünü dərk etməsi, əxlaqlı olması çox əlverişlidir və insanı insan edən onun şüurunun yüksək səviyyəsidir. Özünün yetkinliyinin qayğısına qalmayanı cəmiyyət özü cəzalandırır. Təbiət qanunlarına biganə olan, onu pozanlar mütləq cəzalanır, təbiətlə harmoniyada yaşayanlar isə mükafatlandırılır [3,182]. Uzun illər gənclərlə iş təcrübəmə əsaslanaraq qəti qənaətə gəlmişəm ki, hamı kimi, gənclər də insanın layiq olduğu səviyyədə yaşamır və bunu intuitiv hiss etdiyindən çox narahatdır, necə yaxşı yaşamağı, hansı yollarla xoşbəxt olmağı, özünə və başqalarına necə kömək etməyi bilmir və anlamırlar.

Bütün bunları dərk etmək üçün heç olmasa müvəqqəti olaraq dayanmalı, yanlış fikirlərdən uzaqlaşmalı, illərlə toplanan baxışları saf-çürük etməli, kim olduqlarını, nə istədiklərini, hansı məqsədlə yaşadıqlarını başa düşməyə çalışmalıdırlar. Gənclər əmin olmalıdır ki, mənəvi durum–Təbiət qanunlarının kodeksidir, onların təkmilləşməsinə, özlərinə və kainatla onların harmoniyasına imkan yaradan qapıdır. Təcrübə göstərir ki, gənclər bu harmoniyaya can atır. Əlbəttə insan təcrid olunmuş varlıq deyil, o, bütün kosmosa, təbiətə, özünü əhatə edən hər şeyə təsir edir və layiq olduğu əks təsirə məruz qalır. Canlı varlıqlarda enerji

sahəsinin mövcudluğu sübut olunmuşdur və bu sahədə həmin canlı varlıq haqqında bütün məlumatlar toplanır və keçirilən daxili hisslər hesabına o da dəyişir. Bu kəşf təsdiq etdi ki, toxunma ilə hiss edilən və hiss edilməyən, maddi və qeyri-maddi nə varsa, hər şey bir-biri ilə qırılmaz bağlıdır, bir bütövlük təşkil edirlər.

Gənclərin həqiqi dəyərləri və həyatın mənasını tapmaları üçün daxili bir inqilab lazımdır. Pis işlərə güc hesabına yox, bunu istəyənlərin birləşməsi ilə qalib gəlmək olar [1,49].

Nə üçün yaxşı olmaq lazımdır? Yaxşı olmaq nədir? Yaxşı olmağın bizim üçün bir faydası varmı? Doğrudanmı "yaxşı" adamlar "pislərdən" üstündür? Yaxşı olsam xoşbəxt ola bilərəmmi?

Mənəvi durumdakı xəstəliyin müalicəsi gənclərin özlərindən asılıdır. Ancaq tam əminliklə deyə bilərəm ki, onlar qəbul olunan əxlaq normalarına əməl etsələr, doğrudan da mənəvi durumlarındakı xəstəliyi müalicə etməyi ürəkdən istəsələr, yalnız xoşbəxt olmayacaq, həm də həyatda böyük uğurlar qazanacaqlar. Söhbət adi müvəffəqiyyətdən getmir, o uğurlardan gedir ki, doğrudan da hər bir adam üçün vacibdir və o, artıq məqsədə çatmaqdır; bir sözlə, bu həqiqi mənəvi təkamülü nəzərdə tutur, gündəlik həyatdakı uğurlar da bura daxildir.

İnsan bütün yaratdıqlarını, etdiyi bütün xeyirxahlığı ondan tələb olunduğuna, ondan bu cür etməyi gözlədiklərinə və yaxşı adam olmaq üçün etmir, sadəcə olaraq, o, başqa cür edə bilməz, ona görə ki, o özü xeyirxah adamdır və onun istənilən hərəkətindən məhəbbət yayılır. O, məhz belə istədiyinə görə bunu edir, ona görə ki, onun daxili arzuları bundan ibarətdir. İnsanın yaradıcılıq aktı, fərdi yaradıcılıq qərarı kənardan, hətta ona ən əziz və yaxın adamlar tərəfindən belə stimullaşdırıla bilməz. Cəmiyyət, dövlət, millət... insanı onun həyatının əsası olan yaradıcılıqla təmin edə bilməz. İnsanın özünün əl işi – onun üçün ən əsas və mühümdür. Cəmiyyət insanı aclıqdan, yoxsulluqdan, quldurluqdan və zorakılıqdan qoruyan qanunlar və qaydalarla təmin edir. Hətta bu qeysər funksiyası qüsursuz yerinə yetirilsə də insan özünü xoşbəxtliyin zirvəsində hiss etmir. Toxluq və firavanlıq onu həyata stimullaşdıra bilməz. İnsanın qəlbi boşluğa dözmür, təltəlşüurun reallaşmamış tələbatları tələsdirdiyindən onun ayaqları və əlləri iş görür.

Son illər mənəvi yetkinliyə qazanılacaq uğurların güclü aləti kimi baxanlar azalıb, adamlar maddi təminatı cəmiyyətdə tutulacaq mövqenin açarı kimi qəbul etməyə daha çox meyillidirlər. Əslində isə yalnız mənəvi cəhətdən yetkin olanlar Təbiətlə harmoniyada yaşaya bilir. Xüsusilə dünya tarixinin indiki dövrü mənəvi yetkinliyin zəruriliyini, onun bütün uğurlarımızın açarı olmasını təsdiq edir. Yüksək əxlaq normaları ilə yaşayan hər kəs üçün həyat mənalı olur və o, istədiyinə həyatda nail ola bilir [2,26].

Hər bir adam üçün cəmiyyətdə, siyasətdə, dövlət strukturunda müəyyən yer tutmaq – hər hansı təmənnasız ali məqsədləri həyata keçirmək üçün vasitə əldə etmək deməkdir. Bu məqsədlərin konkret nədən ibarət olmasını başa düşməyəndə bu yolun özü vasitədən məqsədə çevrilir. Bütövlükdə məni məşğul edən və mənim həyatıma çevrilən bu məqsədlərə nail olduqdan sonra daha yüksək və daha əlverişli mövqe görünür, bununla məşğul olmaq isə mənim növbəti məqsədimə çevrilir. Lider olmaq, rəhbərlik etmək, üstünlük qazanmaq uğrunda çarpışmaya qoşulmaq olar – dünya məkanında min ildən çox şərti işarə kimi

götürülən simvol olmağa cəhd etmək olar.

İnsan müvafiq qaydalarla yaşayanda həqiqi səadətin mənbəyi olan yüksək xoşbəxtlik onun üçün açılır, bu qaydaları həyata keçirəndə onun müsbət nəticələrini görür və bu qaydalarla yaşamağa üstünlük verir. Həqiqi davranış normaları heç kəs tərəfindən yazılmır, o, Təbiətin yaddaşında qeyd olunur və yalnız yüksək şüur səviyyəsində onları dərk etmək olar. Yaxşı, tam, ədalətli və xoşbəxt yaşamaq üçün buna çatmaq vacibdir. İnsanlar ona görə səhv hərəkət edir ki, onlar xeyir və şərin təbiətini anlamır, subyektiv baxışlarından və şəxsi ambisiyalarından, xeyirlərindən imtina edə bilmirlər. Cəmiyyətdə nail olduğu uğurlar da, qarşılaşdığı çətinliklər də, qazandığı və itirdiyi hər şey də insanın özündən asılıdır. Həyat eşqi güclü olan gənclərin enerjisi onlara çox uğurlara imza atmağa imkan verir. Bunun üçün, ilk növbədə, istək lazımdır, nə istədiyini dərk etmək isə olduqca vacib mənəvi keyfiyyətdir. Gənclərin nə istədiklərini anlamaları, onlara mane olanları görmələri olduqca vacibdir və bu sabahkı uğurların təminatıdır. Gənclərin bu günkü seçimindən onların xoşbəxt gələcəyi asılıdır [8,245]. Xoşbəxtlik və səadət axtarışında olan insan çox vaxt Təbiətin müdrikliyini və özünü dərk etmədiyindən səhvlər edir və bu ona görə baş verir ki, biz hələ də nəyin yaxşı və nəyin pis olduğunu, ədalət və ədalətsizliyin necə olduğunu tam dərk edə bilmirik. İnsan bəzən elə şəraitlə toqquşur ki, əxlaqi baxımdan seçim qarşısında qalır və düz qərar qəbul etməkdə çətinlik çəkir, çünki düzün necə olması haqqında onun tam təsəvvürü yoxdur. Adamlar "yaxşı" və "pisi" fərqləndirə bilmir, bütün normaların hədləri silinib, davranış normaları sürüşkəndir, manipulyasiya predmetinə çevrilmişdir.

Gənclərin həqiqi əxlaqı, davranış normalarını dərk etməsi olduqca vacibdir. Öz daxili aləmlərinin eybəcərliklərini gizlədən, insanları aldadan riyakarlardan qorunmaq, onları yaxşı tanımaq lazımdır. Bu riyakarlar öz günahlarını gizlətmək üçün sinələrinə döyüb hay-küy salmaqdan çəkinmir, insanları çaşdırmağa çalışırlar. İnsan çalışmalıdır ki, onu qiymətləndirsinlər, hörmət etsinlər və sevsinlər. Gənclər bəzən düşünür ki, başqalarının onu qəbul etməsi üçün yaxşı olmalıdır. Ona elə gəlir ki, zəiflik göstərsə heç kəs ona hörmət etməyəcək və ona görə də çox vaxt öz zəifliyini etiraf edə bilmir.

Uzun illər boyu kimlərinsə tərəfindən zorla qəbul edilmiş təhsil sistemi çərçivəsində yaşamağımız bu sahədə indi sərbəst addım atmağımıza, müstəqil öz təhsil sistemimizi yaratmağımıza mane olur və təəssüf ki, bu buxovdan xilas olmaq üçün heç bir cəhd belə göstərmirik. Vaxtilə Şimala dikilən baxışlarımız indi Qərbə çevrilib, vaxtilə danışmağa üstünlük verdiyimiz əcnəbi dilin istiqaməti dəyişib, düşüncə tərzimiz, təfəkkürümüz yeni tapdığımız himayədarların heç də geniş olmayan və bizdən bir çox halda geri qalan düşüncələrinə köklənir. Ələbaxımlıq, hazıra sahib olmaq kimi hamının pislədiyi həyat qaydalarında yaşamağa kimlərinsə bizi məcbur etməyə çalışması və buna görə də təhsilimizdə əsaslı dəyişiklik etməyə mane olması hələlik öz bəhrəsini verir. Tərbiyə və təhsilin düzgün əlaqələndirilməməsi, "bağça-ailə", "məktəb-ailə", "ali məktəb-ailə" əlaqələrinin düzgün qurulmaması, gənc nəsilə qəbul olunmuş əxlaq normalarının və çoxlu səhvləri olan təhsil sisteminin zorla qəbul etdirilməsi heç də yaxşı hal deyildir [9,378].

İnsan həyatının geniş işıqlandırılmış və Günəşlə qızdırılmış ərazisində az və ya çox

dərəcədə becərilmiş sahələr – iki-üç min peşə, mümkün missiyalar (siyasi, mədəni, gizli) və bir neçə sabit geridə qalanlar üçün sahələr var. Fəaliyyət göstərmək arzusu hiss edən hər bir adam məhz həyatın bu sahələrindən birində hərəkət etməyə başlayır və burada yer tutmaq və möhkəmlənməyə çalışır. İnsan özü çox vaxt düşdüyü bu çərçivənin onun üçün dar olduğundan, onun hərəkət etməsinə imkan verdiyindən əziyyət çəkir. Bu ərazidə min illərlə qəbul olunmuş qaydalar var. Burada öz yerini saxlamaq üçün o mübarizə aparmalıdır, hər an mübarizə kəskinləşir. İnsan bu mübarizədə bərkiyərək öz istədiyi keyfiyyətləri özündə formalaşdırır. Həyat ərazisi sonsuzdur, həqiqətən onun sərhəddi yoxdur və hər tərəf Günəşlə qızdırılır və çox məhsuldardır. Hər bir adam heç kəsə mane olmadan və heç kəsin ona maneçiliyinə imkan vermədən bu həyatda özünə yer tuta bilər. Mən heç kəsin çalışmadığı yerdə əmək sərf etməkdən zövq alıram, heç kəsin əvvəllər məni tanımadığı yerdə fəaliyyət göstərmək istəyirəm. Heç kəsdən məsləhət almaq olmayacaq (ümumiyyətlə biz məsləhəti sevirikmi?), heç kəslə yersiz rəqabət aparmayacağam – mənim səhvimə sevinən, bundan pis niyyətlə istifadə edən, səhvimi üzümə çəkən yoxdur, heç kəs başımın üstündə dayanmır. Heç kəs bunu məndən yaxşı görə bilməz, mənim kimi edə bilməz – bu fikir məni ruhlandıracaq. Söhbət olanlardan nəyi isə seçməkdən, məşğul olmaqdan yox, Günəş altında özünə yer tutmaqdan gedir. Bunu bacaranlara, sabahını düşünərək yaşayanlara Ulu Tanrı həmişə nəvazişlə yanaşır.

Gənc daxilən hiss etməlidir ki, ona şəxsiyyət kimi yanaşırlar. O, daxilən tərəddüd etdiyindən, özünə inamı zəif olduğundan, özünə, kimlərinsə ona necə münasibət göstərməsi ilə qiymət verir. Özünə inam şəxsi hisslər və bacarığa əsaslanmalıdır. Yaşa dolduqca köməksizlik və zəifliyin uşaq duyumu təkrar olunur, o vaxtlar bu cəhətlərinə görə valideynləri tərəfindən cəzalandırılırdılar. Uşaq vaxtı qorxurdular ki, valideynləri onları sevməsələr ölərlər. Bu onunla bağlıdır ki, uşaq vaxtı biz tam böyüklərdən asılıyıq [7,116]. Bu cür davranış modeli ictimai xadimlər üçün də xarakterikdir. Onlar riyakarcasına "yaxşı" olmağa çalışır, başqalarının onları qiymətləndirməsi qayğısına qalır, çünki öz dəyərlərini duya bilmirlər. Bu cür adamlar psixoloji olaraq başqaları vasitəsilə yaşayırlar. Bu müxtəlif cür təzahür etsə də hamıda eynidir. Həyatda özünə layiqli yer tutmaq üçün gənclərin özlərini dərk etməsi olduqca vacibdir.

Cəmiyyətin inkişafının indiki durumu, ölkələr arasındakı münasibətlərdə yaranan vəziyyətin kəskinləşməsi, təbiət və cəmiyyətin qarşılıqlı harmoniyasının insanların günahı nəticəsində pozulması E. və J.Qonkur qardaşlarının söylədikləri fikir ətrafında bizi dərindən düşünməyə vadar edir: "Deyirlər ki, Bertelo qabaqcadan demişdir ki, guya elmi inkişaf yüz ildən sonra insanlara atomun nə olduğunu aydınlaşdıracaq və insan öz arzusu ilə Günəş işığını məhdudlaşdıra, onu söndürə və yenidən yandıra biləcəkdir. Kloz Bernar öz tərəfindən bəyan etdi ki, fiziologiyanın öyrənilməsi yüz ildən sonra ona gətirib çıxaracaq ki, insan həyatını idarə etmək və insan yaratmaq mümkün olacaqdır. Biz bunlara etiraz etmədik, ancaq belə düşünürük ki, dünya bunlara gəlib çatanda qoca, müdrik, ağ saqqallı Allah əlində açar bağlamaları Yer kürəsinə enəcək və bəşəriyyətə deyəcəkdir: Cənablar, bağlanırıq!" [8,145].

Düşünürük ki, indi həmin vaxt gəlib çatmışdır və insanlar hamletsayağı "olum ya ölüm"

qarşısında dayanmışdır. Bəşəriyyətin düşdüyü bu vəziyyət üçün məsuliyyət yaşlı nəslin üzərinə düşsə də, onu xilas etmək, buraxılan səhvlərin öldürücü acı nəticələrini aradan qaldırmaq kimi məsuliyyətli və şərəfli bir vəzifəni yerinə yetirmək şansı gənclərə nəsib olmuşdur. Bəşəriyyətin düçar olduğu bu bəlalardan çıxmaq üçün gücsüz olduqlarını daxilən duyan yaşlı nəsil onu xilas etməyə layiq olan gənclərin imkanına, intellektinə, öz üzərlərinə düşən vəzifələri başa düşməyə hazır olmaqlarına qısqanclıqla yanaşır, gənclərin onlara qarşı hakim olacaqlarından ehtiyatlanırlar. Lakin unutmaq olmaz ki, tarixin gedişinə mane olmaq, onu ləngitmək, öz axarından yayındırmaq mümkün olsa da, elə işlər var ki, ona mane olmağa, ləngitməyə heç kəs qadir deyildir.

Gənclərin dünya görüşünün formalaşmasında mühüm mərhələ olan ali məktəb illərindən səmərəli bəhrələnmək üçün gənclərə yardımçı olmaq, mövcud şəraiti dəyişdirmək vaxtı çatmışdır. Gənclərdə məhz bu illərdə qulaq asmaq vərdişi və danışmaq qabiliyyəti formalaşır.

Müasir həyatda passivlik, fəaliyyətdəki cavabdehsizlik və çox vaxt, təəssüf ki, qəbul edilən qərarlardakı savadsızlığımız bizə Şərin törətdiyi ziyandan da böyük zərbə vurur. Bu gün biz bunu daha çox hiss edirik. Düzdür, müasir sivilizasiyanın bütün ziddiyətlərinə baxmayaraq adamların sosial ədalət uğrunda, öz hüquqları və yaxşı həyat uğrunda mübarizəyə fəallıqları artmışdır [6,38]. Cəmiyyətdə baş verən demokratik proseslər sayəsində adamlar daha çox öz talelərinin sahibi olmağa meyil edirlər. Qonaq olduğumuz təbiətdə özümüzü qonaq kimi aparmamağımız, ev sahibini bizim istədiyimiz kimi həyatını dəyişdirməyə məcbur etmək arzumuzla barışmaq istəməyən təbiətin sürprizlərini, ictimai həyatda bizə miras qalan ziddiyyətləri düzgün dərk etmək və onu aradan qaldırmaq üçün müasir gənclərin üzərinə çox böyük və taleyüklü bir vəzifə düşür. Bu günkü həyatımızda kompromisə meyil etməyən, yeniliyə daha çox can atan gənclərin böyük rolu var [5,79].

Təsadüfi deyil ki, ictimai dəyişikliklərin lideri çox vaxt cavan adamlar olur. M.Robespyer 34 yaşında yakobinçilərin rəhərlərindən biri oldu, onun yaxın silahdaşlarından biri L.Sen Jyust artıq 25 yaşında böyük fransız inqilabında aparıcı siyasi simalardan birinə çevrilmişdir. Napaleon Bonapart 24 yaşında general rütbəsi almış, 30 yaşında isə Fransanın birinci konsulu olmuşdur. T.Cefferson 26 yaşında Virginiyanın qanunverici məclisinin deputatı seçilmiş, 33 yaşında isə ABŞ-ın yaranmasını elan edən məşhur "Müstəqillik Bəyənnaməsi"nin layihəsinin müəllifi olmuşdur. Bütün ölkələrin inqilabi hərəkatlarında gənclər böyük rol oynamış, hətta bu hərəkatların liderləri içərisində çoxlu gənclər olmuşdur. Azərbaycanın milli azadlıq hərəkatının tarixində gənclərin xüsusi rolu olmuşdur.

Elmin, mədəniyyətin inkişafında yeni cığırları da çox vaxt gənclər salır. Nyuton heç 24 yaşı olmamış differensial və inteqral hesablamalar ideyasını işləyib hazırlamış, ümumdünya cazibə qüvvəsi qanununu açmışdır. Fransız riyaziyyatçısı E.Qaluanın tədqiqatları cəbrin və riyaziyyatın inkişafına böyük təsir göstərmişdir –o, cəmi 20 il yaşamışdır. İ.Mençikov 22 yaşında embriologiya sayəsində mühüm işə görə təltif edilən K.Bera mükafatını almışdır. A.Eynşteyn 25 yaşında nisbilik nəzəriyyəsini kəşf etmiş, B.Heyzenberq isə 24 yaşında olanda N.Borla birlikdə Kvant mexanikasının əsaslarını işləyib hazırlamışdır. A.Puşkin 24 yaşında "Ruslan və Lyudmila" poemasını yazmış, M.Lermontov isə cəmi 26 il yaşamışdır. F.B.Qauf

öz məşhur nağıllarını çap etdirəndə 24 yaşı var idi. S.Paxmaninovun 19 yaşında yazdığı "Aleko" operası Moskva konservatoriyası tələbəsinin diplom işi idi. A.Rafael hələ 17 yaşında olarkən öz istedadını göstərmiş, M.Müşfiq, A.Zeynallı gənc ikən dünyalarını dəyişsələr də əvəzsiz incilər yaratmışlar. İnsanın həyatına şərait olduqca böyük təsir göstərir. Lakin bununla belə, insanın özündən çox şey asılıdır. Tarixdə talenin sınaqlarına baxmayaraq öz qarşılarına qoyduqları məqsədə nail olan adamlar çox olmuşlar. T.Şlimanın həyatı buna parlaq misaldır. Hələ 8 yaşında Homerin "Odisseya" əsərini oxuduqdan sonra öz qarşısında sirli Troyanı tapmaq kimi fantastik məqsəd qoymuşdur. Şliman peşəkar arxeoloq və ya tarixçi olmasa da bütün ömrü boyu bu uşaqlıq arzusu ilə yaşamışdır. O, əmin idi ki, Homer nağıl danışmamış, real həyatı əks etdirmişdir. Nəhayət yetkin yaşlarında Şliman öz arzusunu reallaşdırdı, dünya mədəniyyətinin inkişafına böyük töhfə verərək Troya şəhərini tapdı.

Sokrat çox danışdığından mühakimə olundu. Nəsimi dindən sui-istifadə edənləri ifşa etdiyindən dərisi soyuldu. Həqiqəti eşitmək istəməyən Neron Senekanı öldürdü. Görünür bütün dövrlərdə həqiqət pis niyyətli insanlar üçün dözülməz olmuşdur, ona görə də yaxşı adamlar onlar tərəfindən həmişə ləkələnmişlər. Qeyd etmək lazımdır ki, yüksək əxlaq nümunəsi göstərmək olduqca çətindir, çünki bu ağır fərdi iş tələb edir, bunu da hər adam öz boynuna götürə bilmir. "Sənə qarşı edilməsini istəmədiyin şeyləri başqasına etmə" kəlamına əməl edənlər getdikcə azalır, müdrik adamlara oxşamaq istəyənlər demək olar ki, yoxdur.

Dərk etmək lazımdır ki, xeyirxahlıq, səxavət yolu – yeganə mümkün yoldur. İnsanlar bu yola düşməyəndə və ya bu yolu azanda həyat onları cəzalandırır, onları dairədə hərəkət etməyə vadar edir, bu da əzablara gətirir və insanları əsas məqsədlərindən xeyli uzaqlaşdırır. Onlar yüksək xoşbəxtliyə və arzuladıqları səadətə nail ola bilmirlər, onların bir ümidi qalır: əvvəllər əldə edə bilmədiklərini nə vaxtsa edəcəklər – yüksək insani xeyirxahlığa can atırlar. Ancaq bu yol asan deyil, çoxlu problemlər və maneələr var – onları dəf etmək üçün hər bir adam özünü hazırlamağı bacarmalıdır.

İndiki dövrdə hər bir adamın cavabdehliyinin artması cəmiyyət haqqında biliklərə tələbatı artırır. Şatobrianın dediyi kimi, biliklərə arxalanmayan fəaliyyət cinayətdir. Müasir cəmiyyətdə demokratik proseslərin inkişafı insanların mədəniyyəti və təhsilinin səviyyəsinin artması ilə uyğunlaşmasa mümkün deyildir. Demokratiya yüksək mədəniyyətə, səriştəliliyə arxalanmasa cəmiyyət üçün məhvedici olar. Antik dövrün filosofu Sokratın faciəli həyatı Yunan mədəniyyətinin ləkəli səhifəsidir. Xalq məclisi tam demokratik, lakin olduqca ədalətsiz şəkildə filosofa ölüm hökmü çıxarmışdır.

Hər bir adam seçdiyi peşəsindən asılı olmayaraq, möhkəm biliyə malik olmalıdır ki, dünyada gedən hadisələri anlamağa, ictimai həyatda fəal iştirak etməyə bu biliklər kömək etsin. Unutmaq lazım deyil ki, həm yaşlı nəslin, həm özünüzün, həm də gələcək nəslin taleyi sizlərin əlindədir. Yaxşı-yaxşı düşün, gələcəyimiz üçün dünənin səhvlərini saf-çürük et, bu günü layiqli yaşamağa öyrən, sənə olan ümidləri doğrultmaq üçün kamilləş. Sokrat demişkən: "Özün özünü dərk et!"

Gənclər bu gün kimlərə oxşamaq, kimləri təqlid etmək istəyirlər? Məgər onlar, Pifaqora, Sokrata, Konfutsiyə, Nizamiyə, Leonardo da Vinçiyə, Tusiyə, Füzuliyə, Şekspirə məftun-

durlarmı? Əlbəttə yox. Onlar daha çox zəif, əsəbi, xeysiyyatsız və özlərinə əmin olmayan adamları, hər cür dəyərlərdən məhrum, ictimai tüfeyliləri, cəmiyyətə heç nə verməyənləri yamsılayırlar. İndi yüksək mənəviyyat və əxlaq nümunəsi varmı? Onlar çox azdır. Bizim cəmiyyətdə pul gətirən və ya müəyyən qrupun mənafeyinə xidmət edən şeylər dəyərləndirilir, mənəvi yetkinliyə çatan azlıq isə naməlum qalır. Sanki vicdan, rıtsarlıq, xeyirxahlıq kimi anlayışlar dəbdən düşmüşdür. Orta əsrlərdə rıtsarlıq alicənablıq, nəciblik hesab olunurdu. Rıtsar olmaq üçün hər bir adam yeni həyata başlamalı, ibadət etməli, günah işlətməkdən qaçmalı, yetimlərə və dul qadınlara yardım etməli, mərd, fədakar olmalı, təmiz, sadiq qalmalı, heç kəsin malına göz dikməməli idi. O, geniş ürəkli olmalı, vətənin, sevdiyi qadının qayğısına qalmalı, həmişə təmiz vicdan haqqında düşünməlidir ki, heç kəs onu günahlandıra bilməsin və çox ciddi olmalı, heç kəsdən özünü üstün tutmamalıdır. Öz əməlləri və mənəvi yetkinliyi ilə hamıya nümunə ola biləcək çoxlu adamlar var ki, heç kəs onları tanımır. Bu yüksək səviyyəyə qalxmaq üçün təkcə ali təhsil haqqında diplom kifayət deyildir [8,136].

Gənclik – insan həyatının ən gözəl və ən cavabdehli dövrüdür. Məhz bu vaxt gənc daha çox mürəkkəb problemlərlə qarşılaşır və onu həll etməli olur.

İndiki gənclik artıq dünənki deyil, onlar öz sözlərini deməyə, bəşəriyyətin gələcəyini müəyyənləşdirməyə, öz talelərini özləri həll etməyə qadir olan gənclikdir.

Öz şəxsi istəkləri, arzuları ilə yaşayanlar, riyakarlar gənclərin düzgün yaşamalarına mane olmağa çalışır, onların yetkin şəxsiyyət kimi formalaşmasına əngəl olurlar. Onlara qarşı isə yalnız gənclər özləri dayana bilər. Onların öz güclərinə əminlikləri gələcək uğurlarının təminatıdır. İlk növbədə isə özünü duymaq, özünü dərk etmək, təkmilləşmək, şüurun yüksək səviyyəsinə çatmaq vacibdir.

Dünya yüksək intellekt sahiblərinə hörmət edir, onunla fəxr edir, ancaq yüksək şüur sahibi olanları az tanıyır, belə ki, onlar da gizli qalmağa üstünlük verirlər. Onların dahiliyi fiziki yox, mənəvi cəhətdəndir. Belə bir sual yarana bilər ki, yüksək şüurlu adamlar mütləq əxlaqlı olurlarmı? Axı bu şüurun o səviyyəsidir ki, bu vaxt kimlərəsə ziyan vurmaq, hər hansı qeyri-etik hərəkət etmək mümkün deyildir. Bu onunla izah onulur ki, ali şüur – mənəviyyatın ən yetkin səviyyəsidir və bu yüksək əqlin varlığını istisna etmir. Yüksək mənəvi səviyyə həmişə yüksək əxlaqi və təkamül səviyyəsinə uyğun gəlir. İnsanın mənəvi inkişafı nə qədər yüksəkdirsə, onun özünə qarşı tələbi də bir o qədər yüksək olur.

Bəşəriyyətin əxlaqi problemi onun mənəvi inkişafın qayğısına qalmamasıdır. Yalnız dini deyil, həm də mənəvi təkmilləşmə yolu ilə insanlar böyük uğurlar qazana bilər. Adi insanın davranışını əxlaqi hesab etmək olmaz, belə ki, insanın təkamülü olduqca aşağı səviyyədədir. Dərk olunmayan əxlaq həqiqi əxlaq ola bilməz. Təəssüf ki, insanlar şikayətlərində, tələblərində olduqca inadkardırlar, cavabdehlik anı gələndə isə, yalnız az adam bu inadkarlığını saxlaya bilir.

Elmi nailiyyətlərimiz durmadan yüksələ bilər, öz rahatlığımız naminə çoxlu yeni kəşflərə imza ata bilərik, ancaq mənəvi yetkinlik olmadan qazandığımız uğurların ləzzətini, zövqünü duya bilmərik, bu uğurlar bizə xeyirdən çox ziyan vura bilər. İnsanın mənəvi yetkinliyinin qayğısına cəmiyyətdən daha çox onun özü qalmalıdır, insan öz sabahının qayğısına özü qal-

malıdır. Gənclərin indiki durumu nikbin olmağa əsas verir, lakin nail olduqlarımızla kifayətlənməməli, daha inadkarlıq və əzmlə irəliyə doğru getməliyik. Gənclərin dəyərləri yaxşı dərk etmələri, bu dəyərlərə qarşı düzgün münasibətlərini qura bilmələri bərk narahatlıq doğursa da hər halda vəziyyət tamamilə ümidsiz səviyyədə də deyildir. Ən başlıcası isə gənclərin bu dəyərləri dərk etmək üçün istəklərinin olmamasıdır. Bu işdə onlara yardımçı olmaq, onları istiqamətləndirmək böyük uğurlar üçün ümid verir. İnanırıq ki, mənəvi dünyamızın böyük üfüqlərindəki uğurlarımız hələ qabaqdadır.

Bu gün ölkəmizdə gedən dəyişikliklər, gənclərə dövlət qayğısının artması, bir sıra taleyüklü məsələlərin onlara həvalə edilməsi bizdə belə bir inam yaradır ki, Azərbaycanda XXI əsr Əxlaqı bütün dünyaya nümunə olacaq səviyyəyə qalxacaqdır. Sadəcə olaraq, arzulamaq azdır, bunu reallaşdırmaq üçün iş görmək lazımdır.

Ədəbiyyat:

1.Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir", Bakı 1998
2.Heydər Əliyev. "Müstəqillik yollarında", Bakı 1997
3.Heydər Əliyev və Müstəqil Azərbaycan gəncliyi. Bakı 2003
4."Xalqın böyük xilaskarı". Bakı 2001
5."Dövlətçilik naminə". Bakı 2001
6.M.Mərdanov. "Təhsil millətin gələcəyidir", Bakı 2002
7.S.Xəlilov. "Lider,dövlət,cəmiyyət", Bakı 2001
8.Y.P Əhmədov. "Fəlsəfədə gənclərin mənəvi dünyası", Bakı 2007
9.Y.P Əhmədov. "Mənəvi yetkinlik fəlsəfəsi", Bakı 2010

Abstract

FORMATION OF THE YOUTH IS THE FAUNDATION OF THE FUTURE

Eldar GAHRAMANOV

Rector of Azerbaijan University, PhD of Economics

Key worlds: youth, moral responsibility, maturity, ethics, behavior

The future of humanity depends on spiritual maturity of today's young people. Now they have the opportunity to live a decent life. In today's world of globalization, it is necessary to learn living with the new requirements, and the role of social conditions in the education of the youth is important. It has also highlighted the true moral standards of conduct and responsibility to society, which should increase the level of education and culture.

Резюме

ФОРМИРОВАНИЕ МОЛОДОЖИ ЭТО ФУНДАМЕНТ БУДУЩЕГО

Елдар ГАХРАМАНОВ

Ректор Университета "Азербайджан" к.э.,доц

Ключевые слова: молодожь, моральная ответственность, зрелость, нравственность, поведение

Будущее человечества зависит от духовной зрелости сегодняшней молодёжи, которая имеют возможность достойно жить . В нынешнем мире глобализации нужно жить по новым требованиям, и в этом немоловажную роль, конечно, играет воспитания молодёжи на общественных условиях. Важны также истинные моральные нормы поведения, а также ответственность перед обществом, которая должно возрастать для повышения уровня образования и науки.

İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN BİR SIRA ELMİ, NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ VƏ AZƏRBAYCAN MODELİNİN XÜSUSİYYƏTLƏRİ

Malik TAĞIYEV
"Azərbaycan" Universitetinin müəllimi,dissertant

Rəyçi: iqtisad üzrə fəlsəfə doktoru., dos. V.M. Nəzərov
Açar sözlər: Dövlət tənzimlənməsi, iqtisadi tənzimləmə, makroiqtisadi tənzimləmə, hüquqi tənzimləmə, bazar münasibətləri, qarışıq iqtisadiyyat, dövlət büdcəsi, maliyyə-kredit, vergi yükü, dünya təsərrüfatı

Dünya təcrübəsi göstərir ki, sosial-iqtisadi sistemin formalaşdırılması, normal fəaliyyəti və inkişafı istiqamətləri dövlətin bu proseslərdə iştirakı səviyyəsi ilə bilavasitə bağlıdır. Bu baxımdan iqtisadiyyatın normal inkişafı üçün onun dövlət tərəfindən nizamlı şəkildə tənzimlənməsi zəruridir və dövlətin ictimai həyatın bütün fəaliyyət dairələrinə müdaxiləsini zəruri edir. Lakin fərdlərin, eləcə də, təsərrüfat subyektlərinin məsuliyyət hissinin azalmaması, onların daha yüksək nəticələr əldə etmək üçün maraqlarının təmin olunması üçün bu müdaxilənin özünün də müəyyən həddi olmalıdır. Dövlət tənzimlənməsində həmin amillərin nəzərə alınması, onların araşdırılması və tədqiqi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir.

İqtisadiyyatın dövlət tənzimlənməsi probleminin müxtəlif aspektlərinin tədqiqində dünya iqtisadçıları ilə yanaşı, Azərbaycanın görkəmli iqtisadçı alimləri, o cümlədən Z.Ə.Səmədzadə, T.S.Vəliyev, A.A.Nadirov, A.K.Ələsgərov, H.V.Allahverdiyev, S.K.Hüseynov, R.M.Cəbiyev, S.İ.Səfərov, H.Y.İsmayılov və digərləri xüsusi rol oynamışlar. Ölkənin bir planlı iqtisadi sistemdən bazar iqtisadiyyatına keçməsi, bu kontekstdə tam dövlət tənzimlənməsi və azad bazar iqtisadiyyatının təzahürləri ilə yaxından tanışlıq və iştirak dünya elminə kifayət qədər yeni metodların və nəzəriyyələrin gətirilməsi ilə nəticələnmişdir. Buna baxmayaraq, hər bir dövr üçün spesifik xüsusiyyətlərə malik Azərbaycan iqtisadiyyatının müasir bazar münasibətləri şəraitində dövlət tənzimlənməsi problemlərinin araşdırılması hələ də öz əhəmiyyətini qoruyub saxlamışdır.

Mənbələrə görə dövlətin idarə olunması haqqında elm XII-XIII əsrlərdə Şərq cəmiyyətlərində yaradılmışdır. Çində Li Qounun əsərlərini, XIII əsr ərəb-islam ədəbiyyatındakı "Yolda mirvarilər və ya hökmdarların siyasəti", "Kələklər və bicliklər", "Səhvlər və sevinclər", "İşlərin nizamlanmasında incəliklər haqqında", "Hakimiyyətin qurulması", "Siyasət", "Müharibədə kələklər və bicliklər", "Hökmdarın həmsüfrələrinə xatırlatma" və s. kimi bir sıra əsərləri; hind-müsəlman "Güzgülər" ədəbiyyatındakı "Müharibə və cəsurluq qanunları", "Yer hakimiyyətinə göstərişlər", " Hökmdarların sərvəti" əsərlərini göstərmək kifayətdir [1, s.728]. Cəmiyyətin təkamül mərhələlərində dövlətin rolu əhəmiyyətinə və miqyasına görə heç də eyni səviyyədə olmamışdır. Hələ qədim dövrlərdə dövlətin rolu əsasən cəmiyyətdə hakim olan sosial qrupun mülkiyyətinin daxili və xarici təhlükələrdən

qorunmasından ibarət olurdu. Dövlət təsərrüfat proseslərinə demək olar ki, o qədər də qarışmırdı, ya da ona çox məhdud çərçivədə müdaxilə edirdi. Dövlətin əsas diqqəti vergi yığımı vasitəsilə xəzinəni doldurmaqla, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsindən ibarət olurdu. Qeyd olunan tədbirlər dövlətin təsərrüfat strukturlarının formalaşmasına və iqtisadi inkişafına müəyyən şərait yaradırdı.

İqtisadiyyata dövlət müdaxiləsinin tarixi əmtəə-pul təsərrüfatının formalaşması ilə natural təsərrüfatı sıxışdırması ilə başlamışdır. Məhz buna görə də, dövlətin cəmiyyətdə rolunu ayrı-ayrı iqtisadi məktəblər müxtəlif cür görürdülər. Məsələn, XVII əsr merkantilistləri dövlətin əsas vəzifələrini ticarəti həvəsləndirməkdə görür və dövlətin fəal surətdə iqtisadiyyata müdaxiləsinin tərəfdarı kimi çıxış edirdilər. Fizokratlar təsərrüfat fəaliyyətində tam azadlığın üstün olmasını sübut etməyə çalışır və dövlətin cəmi üç funksiyasını önə çəkirdilər. Dövlətin birinci və ən mühüm funksiyası – təbii qaydanı hakimiyyətə göz tikə biləcək günahkar və cahil əllərdən və ən əsası, onun əsasında duran şeyi-mülkiyyəti qorumaq. Fiziokratların fikrincə, qanun-qayda cəmiyyətdə birləşmiş insanlar üzərində irsi və suveren hakimiyyətin gücü ilə təmin edilən və mühafizə olunan mülkiyyət hüququndan ibarətdir. İkinci funksiya təhsildir. Bodo deyir: "Ən ümumi təhsil birinci əsl sosial əlaqədir" [1,s.729]. Kenə (1694-1774) də, təbii qaydanın mövcudluğu və onu dərketmə üsulları ilə əlaqədar maarifləndirməni təkidlə tövsiyə edir [1,s.729]. Təhsilin zəruriliyini onlar bütün vətəndaşları əhatələyən təhsilin, maariflənmiş ictimai fikrin, fiziokratik qəddarlığın şəxsi qəddarlığa çevrilməsinin qarşısını alan yeganə vasitə olması ilə əsaslandırırdılar [1, s.729]. İctimai səciyyəli müəssisələrin məzmunu dövlətin üçüncü funksiyasıdır. Fizokratlar yazırdılar ki, məgər yaxşı mülkiyyətçi-sahibkar, hər şeydən əvvəl öz torpaqlarında yollar çəkdirməməlidirmi, axı yollar və kanallar müxtəlif bölgələr arasında əlaqə yaradılması üçün çox gərəklidir [1, s.729].

Dövlətin rolu barədəki fikirlərin inkişafında növbəti mərhələ öz əksini A.Smitin (1723-1790) "Xalqların sərvətlərinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində əksini tapmış klassik nəzəriyyə olmuşdur. O bildirirdi ki, "bazar qüvvələrinin azad oyunu ("laisser faire" prinsipi) harmonik quruluş yaradır". Klassik yanaşmalara müvafiq olaraq dövlət insan həyatının və onun mülkiyyətinin təhlükəsizliyini təmin etməli, mübahisəli məsələləri həll etməli, yəni fərdin müstəqil görə bilmədiyi və ya az səmərə ilə gördüyü işləri görməlidir. Bazar iqtisadiyyatında təsərrüfat fəaliyyəti subyektlərinin hamısı üçün ən vacib şey əsas iqtisadi azadlıqlara, yəni fəaliyyət sahəsinin seçimi azadlığına, rəqabət azadlığına zəmanətdir. Smitə görə, dövlətin praktik siyasəti güzəşt ruhlu olmalıdır ki, bu da tez uğur qazanmağa kömək edir.

Müasir dövlət nəzəriyyəsi iqtisadi nəzəriyyədə iki istiqamətdə təmsil olunmuşdur: neoklassik və keynisçi. Dövlətin bazar iqtisadiyyatına və inkişaf iqtisadiyyatına fəal müdaxiləsinin əsas nəzəriyyəçisi məşhur ingilis iqtisadçısı C.M.Keyns (1883-1946) olmuşdur. Cari məqalədə Keynsin nəzəriyyəsinin iqtisadi mahiyyəti ətraflı şərh ediləcəkdir.

XIX əsrdən etibarən dövlət iqtisadiyyata nəzarəti və onun tənzimləmə funksiyasını daha çox yerinə yetirməyə başlamışdır. Dövlətin iqtisadiyyata müdaxiləsi Birinci Dünya müharibəsindən sonra daha da güclənmişdir. Ona görə də iqtisadiyyatın tənzimlənməsi an-

layışı müəyyən qədər təkmilləşmiş dövlət quruluşunun yaranması dövrünə təsadüf edir. İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektiv mümkünlüyü, iqtisadi inkişafın, istehsalın təmərküzləşməsinin və kapitalın müəyyən səviyyəsində meydana çıxır.

Azad sahibkarlıq sisteminin yaranmasıyla əmək bölgüsü və təsərrüfat əlaqələri həm ölkə daxilində və həm də beynəlxalq şəraitdə eninə (ekstensiv) və dərinə (intensiv) inkişaf etməyə başlayır. Nəticədə, dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsinə çox ciddi zərurət yaradır. Azad sahibkarlığın yaranmasının ilkin mərhələlərində iqtisadiyyatın dövlət tərəfindən tənzimləmə tədbirləri o qədər də hiss edilcək dərəcədə deyildi. Dövlətin tənzimləmə funksiyaları xüsusilə bazar iqtisadiyyatının inkişaf etmiş müasir dövründə güclənir. Bu isə istehsalın mərkəzləşməsi, iqtisadiyyatda korporativ birliklərin meydana çıxması, beynəlxalq iqtisadi münasibətlərin daha intensiv xarakter alması ilə bilavasitə bağlıdır. Beləliklə, artıq XX əsrin əvvəllərində dövlət tənzimləməsi dünyanın aparıcı dövlətlərinin iqtisadi inkişafının vacib faktoruna çevrilir. Ancaq Birinci Dünya müharibəsi, xüsusilə, 1929-1933-cü illərin dünya iqtisadi böhranı iqtisadiyyatın dövlət tənzimləməsini təsərrüfat həyatının ayrılmaz mexanizmi olduğunu daha da aktuallaşdırdı. Bir çox ölkələrin iqtisadiyyatı böhran və depressiyadan dövlətin aktiv müdaxiləsi olmadan çıxmaq iqtidarında deyildi. Artıq XX əsrin ikinci yarısında qəti olaraq sübut olundu ki, müasir istehsalat iqtisadiyyatın bütün aspektləri üzrə dövlətin müdaxiləsini zəruri edir. Bunun bir çox səbəbləri vardır. XX əsrin ikinci yarısında təsərrüfat proseslərinin dövrülüyü, işsizlik və inflyasiya nizamsız xarakter almağa başladı. Bunlarla yanaşı, beynəlxalq aləmdə yeni hərbi toqquşmalar ehtimalı meydana çıxdı. Bütün bunlar səylərin konkret, strateji istiqamətlərdə makroiqtisadi dayanıqlığın və inkişafının təmin edilməsinə yönəltmək, digər tərəfdən isə hərbi sənaye sahəsinə kapital qoyuluşunun artırılmasını tələb edirdi. Bu cür strateji vəzifələrin öhdəsindən ancaq dövlət gələ bilərdi, xüsusilə də, elmi texniki tərəqqinin inkişafı və onun istehsalata tətbiqi ilə bağlı sahələrdə. Bütün bunlarsız, əhəmiyyətli dərəcədə maliyyə vəsaitləri tələb edilən, normal, rəqabətqabiliyyətli, iqtisadiyyatın sürətlə inkişafını təmin etmək mümkün deyildi.

Dövlətin hərbi qüdrəti, ordunun gücü həmin ölkənin iqtisadiyyatının inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Müasir iqtisadi proseslərə dövlətin müdaxilə etməsinin zəruriliyi həmçinin xalqların özünüqoruma və inkişafa olan obyektiv tələbatları ilə də şərtənir. Hər bir ölkədə mövcud olan iqtisadi sistemin xarakterinə və konkret tarixi şəraitə uyğun olaraq iqtisadi tənzimləmə tipi formalaşır. İnzibati-amirlik idarəetmə sisteminə əsaslanan keşmiş Sovet imperiyası dövründə direktiv idarəetmə forması nəinki makroiqtisadi proseslərə, təsərrüfatın hər bir sahəsinə, müəssisələrə, zavoda, fabrikə, sovxoza, kolxoza, hətta onların daxili strukturlarına belə tətbiq edilirdi. Ancaq, həyat sübut edir ki, hər şeydə olduğu kimi, dövlətin iqtisadi proseslərdə iştirakında da optimal həddolmalıdır. Ona görə də hər şeydən əvvəl aydınlaşdırmaq lazımdır ki, iqtisadiyyatın dövlət tənzimlənməsinə nə qədər, hansı sahələrdə ehtiyac vardır. Bu isə bütövlükdə iqtisadiyyatın ümumi vəziyyətindən, onun daxili strukturlarından və xarici əlaqələrindən, milli xüsusiyyətlərindən asılıdır. Bununla bərabər dövlətin təsərrüfat həyatına lazım olduğundan artıq və yaxud lazım olduğundan az müdaxilə etməsi iqtisadi inkişafa mane olacaqdır.

Dövlətin iqtisadiyyata müdaxiləsinin dərəcəsi, onun nüfuz dairəsi haqda suala ilk cavab axtaran məşhur iqtisadçı A.Smit olmuşdur. Uzun müddət iqtisadiyyatın idarəolunması və tənzimlənməsi sahəsində A.Smitin nəzəriyyəsi əsas götürülmüşdür. Görünməyən əl təlimi kimi məhşurlaşmış olan bu nəzəriyyəyə görə, bazar iqtisadiyyatı öz-özünü avtomatik tənzimləyən bir sistemdir. Klassik istiqamət uzun müddət -1929-33-cü illər böhranına qədər iqtisadi inkişafda hakim olmuşdur.

A.Smitin iqtisadi təliminin əsas ideyalarından biri ondan ibarət idi ki, əgər iqtisadiyyat dövlət tərəfindən tənzimlənməzsə, iqtisadiyyat səmərəli fəaliyyət göstərəcək. Avropanın elmi-iqtisadçılarına qədər yaşayıb və yaradan böyük ərəb mütəfəkkiri İbn-Xəldun da (1334-1406) iqtisadiyyata dövlət müdaxiləsinin xalqın həyat şəraitinin ağırlaşmasına səbəb olmasını söyləmişdir.

Lakin ötən dövrlərdən fərqli olaraq, XX əsr öz tələblərini diqtə etməyə başladı. Bazar iqtisadiyyatının artan qeyri-sabitliyi A.Smitin və onun ardıcıllarının iqtisadiyyatda dövlətin rolu haqqındakı baxışlarına yenidən baxılmasını ciddi zərurətə çevirdi. Dövlətin iqtisadiyyatda rolu barədə yeni ideyanın müəllifi Kembric Universitetinin professoru D.M.Keyns oldu.1936-cı ildə çap olunmuş "Məşğulluq, faizin və pulun ümumi nəzəriyyəsi" əsərində ilk dəfə o, İngiltərənin, ABŞ-ın və bir çox Qərb ölkələrinin iqtisadiyyatında tətbiq edilən dövlətin iqtisadi tənzimlənməsi reseptini təklif etdi.Keynsin tədqiqatının əsas ilkin anı, iqtisadiyyatda məcmu tələbin tənzimlənməsi hesab olunur. A.Smitdən fərqli olaraq, Keyns məcmu tələbi stimullaşdırmaqla istehsalın və əmtəə təklifinin genişlənməsinə təsir etməyin mümkün olduğunu sübut etdi. Keyns bazarın özü-özünü tənzimləməsi mexanizminə inanmadığına görə, normal iqtisadi artım və tarazlı inkişafın təmin edilməsi üçün iqtisadiyyata dövlətin müdaxiləsini zəruri hesab edirdi. Bununla yanaşı, kredit faizlərinin azaldılmasına, dövlət xərclərinin artırılması və kapital qoyuluşunun səmərəliliyinin artırılmasına, istehsalın genişləndirilməsi, işsizliyin azaldılması və gəlirin artırılması tədbirlərinə xüsusi önəm verilirdi.

Qeyd etmək lazımdır ki, emprik xarakterə malik Keyns təlimi təcrübədən doğmuşdur. Yəni böhran dövründə ondan çıxmaq tədbirlərini ancaq dövlət həyata keçirə bilərdi. Bu halda Keyns özü yazırdı: "Mən misal gətirə bilərəm ki, klassik nəzəriyyə ümumi hal üçün qəbul edilə bilməz, çünki o, baxdığı iqtisadi situasiya xüsusi hal üçün yararlıdır. Bu xüsusi vəziyyət cəmiyyətin iqtisadi mənafeləri ilə çox vaxt üst-üstə düşmür və ciddi əyintilərə gətirib çıxarır" [2, s.2].

Keyns doktrinası ən dolğun tətbiqini ABŞ-da prezident F.D.Ruzveltin siyasətində tapdı və səmərəli nəticələr verdi. ABŞ prezidenti F.Ruzvelt 1933-cü ildə Keynsə yazdığı məktubunda göstərirdi ki, "ortodoksal iqtisadi siyasətdən ümumi qəti tədbirlərə keçmək lazımdır". Belə tədbirlərə əlahiddə hallarda əl atmaq olardı. Nəticədə belə məlum oldu ki, doktrina nəinki böhrandan çıxmaq üçün təməl daşı olmuşdur, habelə kapitalist sisteminin gələcək inkişaf təmayülünü müəyyən etmişdir.

Keynisçilik haqqında danışanda qeyd etmək lazımdır ki, bu, yalnız dövlət bölməsinin və ümumiyyətlə dövlət müdaxiləsinin müdafiə edilməsi deyil, həm də iqtisadiyyatın tənzim olunmasının xüsusi konsepsiyasıdır. Hər şeydən əvvəl, bu, dolayısıyla makroiqtisadi tən-

zimləmə konsepsiyasıdır. Onun əsas məqsədləri məşğulluq və iqtisadi artımda sabitlik, alətləri isə dövlət büdcəsi və pul-kredit siyasətidir.

Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda dövlət tənzimlənməsinin Keyns modeli əsasən aşağıdakı istiqamətlərdə ümumiləşdirilmişdir: - dövlət büdcəsi vasitəsilə milli gəlirin xeyli hissəsinin yenidən bölüşdürülməsinə nail olmaq; - dövlət və qarışıq müəssisələrin yaradılması hesabına geniş formada sahibkarlığın dövlət bölməsinin yaradılması; - iqtisadi mühiti sabitləşdirmək, dövri enib - qalxmaları yumşaltmaq, milli məhsulun yüksək artım sürətinə nail olmaq və məşğulluğun səmərəli səviyyəsini təmin etmək üçün büdcə, maliyyə-kredit tənzimlənməsindən geniş istifadə olunması.

ных субъектов предпринимательства внутренней финансовой инфраструктуры, которая позволяет крупным холдинговым корпорациям использовать для развития своей финансовой устойчивости, не только собственные финансовые ресурсы, а также привлекать дополнительные ресурсы с финансовых рынков.

Финансовая инфраструктура предпринимательства с помощью осуществления своих специфических функций реализует свои задачи и цели. Функции финансовой инфраструктуры предпринимательства можно классифицировать по двум основным группам:

- В первую группу можно отнести основные функции которые, непосредственно осуществляют взаимодействие и взаимосвязь с предпринимательскими структурами. В этом процессе формирования, распределения и использования финансовых средств, возникают определенные экономические отношения, при этом элементы и институты финансовой инфраструктуры генерируют указанные экономические отношения с предпринимательскими структурами;
- Ко второй группе следует отнести производные функции финансовой инфраструктуры предпринимательства. Данные функции непосредственно не связаны с деятельностью предпринимательских структур. Однако посредством собственных механизмов и инструментов не напрямую, а косвенным образом обеспечивают регулирование деятельностью малого, среднего и крупного бизнеса.

Элементы и институты финансовой инфраструктуры предпринимательства в процессе реализации своих функций основываются на следующие базовые принципы:

- государственное регулирование и контроль хозяйственной деятельности малого, среднего и крупного предпринимательства;
- обеспечение финансовой самостоятельности как элементов и институтов финансовой инфраструктуры, так и предпринимательских структур. Это означает что, государство не несет какие-либо финансовые обязательства за деятельность предпринимательских структур и не вмешивается в финансовые операции и хозяйственную деятельность субъектов предпринимательства;
- должна быть обеспечена прозрачность деятельности хозяйствующих субъектов, для этого необходимо регулярно опубликовать финансовую отчетность данных субъектов;
- как известно конечной целью хозяйственной деятельности любого субъекта предпринимательства является получение прибыли. Поэтому, следует строить финансовые взаимоотношения между участниками хозяйственной деятельности на взаимовыгодной основе. Для эффективного функционирования финансовой инфраструктуры предпринимательства необходимо построить соответствующую обеспечивающую подсистему- функциональный механизм данной инфраструктуры. Этот механизм является совокупностью путей, форм и методов регулирования финансовой инфраструктуры предпринимательства. Эти форм и методы кратко можно охарактеризовать следующим образам:

1) государственное регулирование финансовой инфраструктуры - одно из направ-

лений реализации общей финансовой политики государства и предполагает формирование законодательной базы деятельности финансовой инфраструктуры в целом и ее отдельных элементов и институтов;

2) Рыночный механизм регулирования финансовой инфраструктуры предпринимательства- это механизм, который обеспечивает доступность кредитных ресурсов для субъектов предпринимательства, выявляет среднею норму доходности капитала, определяет ликвидность фондовых и денежных операций предприятий;

3) механизм внутреннего регулирования финансовой инфраструктуры предпринимательства - это механизм, который действует в рамках самой финансовой инфраструктуры и в сфере решения различных проблем финансово-хозяйственных институтов финансовой инфраструктуры, регламентирует оперативные управленческие решения в этом процессе. Ряд направлений деятельности финансовой инфраструктуры регулируется общей стратегией и финансовой политикой. А по некоторым аспектам устанавливается система внутренних стандартов, требований и нормативов;

4) Система, включающая конкретные методы и приемы управления элементов и институтов финансовой инфраструктуры предпринимательства. Элементы и институты финансовой инфраструктуры, в процессе управления и контроля своей финансово-хозяйственной деятельностью для достижения необходимых результатов, используют большой спектр методов и приемов, к которым относятся методы технико-экономических расчетов, экономико- статистические методы, методы сравнения, экономико-математические методы и т.д.

Для достижения цели и реализации своих функции финансовой инфраструктуры следует разработать и внедрить эффективный механизм ее регулирования.

Как отмечают исследователи ряда стран СНГ , «инфраструктура поддержки … предпринимательства носит больше декларативный характер, а также имеет ряд существенных институциональных недостатков: нескоординированность действий ее отдельных составляющих на всех уровнях, неравномерность распределения объектов инфраструктуры поддержки малого предпринимательства, недостаточный по количеству и качеству объем комплексных услуг (отсутствие сертификации), отсутствие единой классификации и терминологии отдельных элементов государственной и негосударственной инфраструктуры (бизнес-инкубатор, технопарк и пр.), что не позволяет использовать определенные законодательством льготы, сокращает количество и снижает качество услуг, оказываемых субъектам предпринимательства» [1, стр.45].

При анализе динамики развития предпринимательских структур в Азербайджане можно проследить устойчивую динамику их роста за последние 5-7 лет. В Азербайджане начиная с 2006 года наблюдаются высокие темпы экономического роста и это выражается в устойчивой положительной динамике роста ВВП страны. Доля частного сектора в ВВП остается стабильной и составляет в среднем 82,3% за последние 6 лет. Учитывая рост объема ВВП с каждым годом соответственно увеличивается объем доли частного сектора ВВП страны (см. таблица 1,2).

Основными элементами финансовой инфраструктуры предпринимательства яв-

ляются банки и инвестиционные фонды. Среди инвестиционных фондов в Азербайджанской Республике особо можно выделить деятельность Национального Фонда Помощи Предпринимательству Министерства Экономики и Промышленности Азербайджанской Республики. Как видно из графика 1 и 2 льготные кредиты предоставлялись в 2012-году в основном крупному бизнесу. Но большая часть инвестиционного финансирования предоставлялось малому бизнесу. Это в основном связано с государственной программой поддержки малого бизнеса и стимулирования инновационной деятельности малого предпринимательства.

График 1: Структура льготных государственных кредитов в 2012 году



Источник: Годовой отчет Национального Фонда Помощи Предпринимательству Министерства Экономики и Промышленности Азербайджанской Республики. стр, 60.

График 2: Структура финансированных инвестиционных проектов малого, среднего и крупного бизнеса.



Источник: Годовой отчет Национального Фонда Помощи Предпринимательству Министерства Экономики и Промышленности Азербайджанской Республики. стр, 61.

Таблица 1

Динамика роста ВВП.

	2007	2008	2009	2010	2011	2012	2013
Объем ВВП в миллион манатах	28360,5	38005,7	34578,7	41574,7	50069,1	53995,0	42748,3
Рост в %-х	25	10,8	9,3	5,0	0,1	2,2	5,4

Источник:http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=136&Itemid=144&lang=az

Таблица 2
Доля частного сектора в ВВП (в %-х)

	2008	2009	2010	2011	2012	2013
Доля частного сектора в ВВП (в %-х)	84,5	81,2	81,7	82,5	83	83

Источник:http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=136&Itemid=144&lang=az

По нашему мнению, для эффективного развития финансовой инфраструктуры предпринимательства в республике должны быть разработаны и реализованы ряд мер. К примеру:

- следует стимулировать создание государственных и, в особенности, частных инвестиционных фондов для финансирования предпринимательских структур;
- развитие деятельности банков и кредитных организаций на прямую работающих с малым, средним и крупным бизнесом;
- создание и активизация деятельности кредитно- консалтинговых бюро;
- привлечения пенсионных фондов, страховых организаций к кредитованию предпринимательских структур. В этом аспекте следует особенно уделить внимание созданию новых страховых услуг, которые бы снизили риски предпринимательских структур, проводящих инновационную деятельность;
- также, в республике следует создать и развить такие элементы и институты финансовой инфраструктуры предпринимательства, как лизинговые компании, общества взаимного кредитования, финансовые институты, проводящие деятельность синдицированного кредитования, фондов содействия предпринимательству и других институтов альтернативного кредитования.

Заключение

На настоящий момент финансовая инфраструктура предпринимательства в республике хотя и сформирована в каких то аспектах, но все же есть еще недостатки и слабые места, которые требуют создания и развития соответствующих институтов для эффек-

тивного функционирования финансовой инфраструктуры. Но следует отметить, что даже существующие на данный момент элементы и институты финансовой инфраструктуры предпринимательства не в полной мере удовлетворяют потребности предпринимательских структур. На современных условиях и этапе развития рыночных отношений и экономики страны, одним из основных стратегических направлений государственной политики развития предпринимательства должно стать стимулирование развития финансовой инфраструктуры предпринимательства. Это в существенной мере зависит от уровня развития национальной экономики, структурных изменений происходящих в ней, от общей социально-экономической, финансовой политики государства.

По нашему мнению, в Азербайджанской Республике для эффективного развития финансовой инфраструктуры предпринимательства можно достичь созданием определенной общественно-экономической среды. Эта среда характеризуется определенной ситуацией в предпринимательской сфере, для наличия которой необходимо развитие ряда взаимосвязанных и взаимодополняющих социально-экономических, политических и правовых институтов и адекватное финансовое обеспечение.

Литература:

1. Давлетова И.М., Хисаева А.И. «Развитие инфраструктуры поддержки малого предпринимательства». Жур. «Известия Российского Государственного Педагогического Университета им. А.И. Герцена», том13 /2007.

2. Залозная Г.М., Майоров А.А. «Финансовая составляющая эффективность предпринимательства в Оренбургской области», Жур. «Вестник Адыгейского Государственного Университета», серия 5: Экономика, выпуск N 2/2012.

3. Годовой отчет Национального Фонда Помощи Предпринимательству Министерства Экономики и Промышленности Азербайджанской Республики, 2012 г.

4.http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=136&Itemid=144&lang=az

Xülasə

SAHİBKARLIĞIN MALİYYƏ İNFRASTRUKTURUNUN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

Vüqar NƏZƏROV

Ümumi iqtisadiyyat kafedrasının müdiri, Azərbaycan Universiteti iqtisadiyyat üzrə fəlsəfə doktoru

Açar sözlər: sahibkarlığın maliyyə infrastrukturu, sahibkarlığın maliyyə infrastrukturunun elementləri və qurumları, elementlərin tətbiqi metodları və yolları

Məqalədə sahibkarlığın maliyyə infrastrukturu haqqında müxtəlif müəlliflərin fikirləri öyrənilmişdir. Sahibkarlığın maliyyə infrastruktur şəraitinin müasir vəziyyəti və bu sahə

üzrə problemlərin həlli yolları analiz edilmişdir. Müəllif sahibkarlığın maliyyə infrastrukturunun inkişafının əsas tendensiyalarını göstərir və onun effektiv inkişafı üçün təkliflərini verir.

Abstract

MAIN DIRECTIONS OF DEVELOPMENT OF FINANCIAL INFRASTRUCTURE OF ENTREPRENEURSHIP

Vugar NAZAROV

Chair of "General economy" department, Azerbaijan University, Ph.D. on economics, asc.prof.

Key words: Financial infrastructure of entrepreneurship, elements and institutes of financial infrastructure of entrepreneurship, methods and ways of implementation of elements, institutes of financial infrastructure of entrepreneurship

The ideas of different authors on the infrastructure and financial infrastructure of entrepreneurship are studied in the article. The modern situation in financial-infrastructural provision of entrepreneurship and the ways of solution of the main problems in this field are analysed here. The author points to the main tendencies of development of financial infrastructure of entrepreneurship and proposes ideas for its effective development.

TƏDİYYƏ BALANSI VƏ ONUN TƏRTİB OLUNMASININ NƏZƏRİ PRİNSİPLƏRİ

Vüqar NƏZƏROV
iqtisad üzrə fəlsəfə doktoru Azərbaycan Universiteti

Rəyçi: Azərbaycan Universteti, "Ümumi iqtisadiyyat" kafedrasının baş müəllimi Aqil Eyvazov

Açar sözlər: tədiyə balansı, mənfi saldo, müsbət saldo, xarici ticarət, cari əməliyyatlar balansı, xidmətlər balansı

Dünya təsərrüfat sistemi geniş əhatəli bir sistemdir və bütün ölkələr onun iştirakçılarıdır. Bu iştirakın fəallığı və ayrı-ayrı ölkələrin dünya təsərrüfatına inteqrasiya dərəcəsi müxtəlif olsa da, elə bir ölkə yoxdur ki, onu əhatə edən aləmlə bu və ya digər dərəcədə qarşılıqlı iqtisadi əlaqədə olmasın. Xarici tərəfdaşlarla bağlı iqtisadi əlaqələr ölkə iqtisadiyyatını dünya təsərrüfatının tərkib hissəsinə çevirən təsərrüfat əlaqələrini özündə əks etdirir. XX əsrin sonlarında beynəlxalq iqtisadi münasibətlərdə baş verən köklü dəyişikliklər, xüsusilə dünya iqtisadiyyatının və təsərrüfat həyatının qloballaşması obyektiv olaraq milli iqtisadiyyatların qarşılıqlı asılılıqlarını artırmışdır. Nəticədə, xarici iqtisadi fəaliyyət milli iqtisadiyyatın inkişafının əsas amillərindən birinə çevrilmişdir.

Ümumdünya təsərrüfat əlaqələri özünün inkişafında bir-birini əvəz edən müəyyən mərhələlərdən keçmişdir ki, bu da dünya təsərrüfatının bütövlüyünün möhkəmlənməsini və beynəlxalq iqtisadi münasibətlərin tərkibcə mürəkkəbləşməsini səciyyələndirir. Belə ki, beynəlxalq iqtisadi münasibətlər ticarət və xidmətlərdən tutmuş, kapital ixracı və beynəlxalq istehsalın yaranmasına, daha sonra vahid dünya valyuta, kredit və qiymətli kağızlar bazarının formalaşmasına kimi uzun bir inkişaf yolu keçmişdir.

Dünya təsərrüfat sistemində beynəlxalq əmtəə və xidmətlər, həmçinin maliyyə bazarları bir-biri ilə sıx şəkildə qovuşaraq ölkənin milli gəlirlərinin həcminə, məşğulluğun və inflyasiyanın səviyyəsinə, xarici borclara və digər makroiqtisadi göstəricilərə bilavasitə təsir göstərir. Beləliklə, hər bir dövlət öz iqtisadi siyasətini qurarkən makroiqtisadi göstəricilərin açıq iqtisadiyyat şəraitində qarşılıqlı əlaqələr mexanizmini nəzərə almalı, həyata keçirilən siyasəti yalnız öz ölkəsi üçün deyil, digər dövlətləri də nəzərə alaraq qiymətləndirməlidir ki, düşünülməmiş addımlar və neqativ hallar aradan götürülsün. Açıq iqtisadiyyat ilk növbədə ölkənin beynəlxalq əmtəə, xidmət və kapital mübadiləsində iştirakını səciyyələndirən əsas makroiqtisadi göstəricilərin müəyyən olunmasını və ölçülməsini öyrənməli, sonra bu göstəricilərin qarşılıqlı əlaqəsini əks etdirən makroiqtisadi model qurulmalı və sonda bu modelin köməyi ilə bu və ya digər ölkələrdə həyata keçirilən iqtisadi siyasətin əmtəə, xidmət və kapital axınına hansı şəkildə təsir göstərməsi araşdırılmalıdır. Bu cür məsələlərin təhlilinin və qiymətləndirilməsinin əsası kimi tədiyyə balansı çıxış edir.

Tədiyyə balansı müəyyən dövr ərzində ölkə rezidentləri ilə digər ölkə, ölkə qrupları və beynəlxalq təşkilatlar arasında iqtisadi əlaqələrin yekun nəticələrini dəyər formasında əks etdirdiyinə görə beynəlxalq iqtisadiyyatın inkişafı, həmçinin əsas partnyor olan ölkələrin iqtisadi inkişafındakı başlıca dəyişikliklər tədiyyə balansının vəziyyətinə təsir göstərən əsas amillər kimi çıxış edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası istər sabiq Sovetlər Birliyinin tərkibində olarkən, istərsə də müstəqilliyinin ilk illərində özünün tədiyyə balansını tərtib etməmişdir. Yalnız 5 ildən bir Azərbaycan Dövlət Statistika İdarəsi tərəfindən sahələrarası balans hazırlanırdı ki, burada da Azərbaycandan çıxarılan və gətirilən malların statistikası verilirdi. Azərbaycan Respublikasının keçmiş SSRİ tərkibində axırıncı dəfə sahələrarası balansı 1987-ci ildə hazırlanmışdır. Sovetlər Birliyinin tərkibində olarkən tədiyyə balansı yalnız ittifaq üzrə tərtib olunurdu. Respublikamızda ilk dəfə olaraq tədiyyə balansı 1994-cü ildə Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən tərtib edilmiş və Nazirlər Kabinetinin 08 fevral 1995-ci il tarixli 25 saylı qərarına əsasən Azərbaycan Respublikasının tədiyyə balansının tərtib olunması Mərkəzi Bank tərəfindən həyata keçirilir. Nazirlər Kabinetinin 18 dekabr 2003-cü il tarixli 160 saylı qərarına əsasən isə tədiyyə balansı hesabatının və proqnozlarının tərtib edilməsi mexanizminin təkmilləşdirilməsi prosesi daha da dərinləşdirilmişdir.

Beynəlxalq statistikada tədiyyə balansından statistik təhlilin mühüm vasitəsi kimi geniş istifadə olunur. Onun məlumatları əsasında ölkənin istər daxili iqtisadiyyatının mövcud vəziyyəti və inkişaf meyilləri, istərsə də xarici iqtisadi əlaqələr sferasının vəziyyəti haqqında fikir yürütmək mümkün olur. Başqa sözlə, tədiyyə balansı makroiqtisadi model kimi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya səviyyəsini qiymətləndirməyə imkan verir.

Hazırda dünya ölkələri üzrə tədiyyə balanslarının davamlı şəkildə kəsirli olması bir çox ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərən amillərdəndir. Adətən, tədiyyə balansının kəsirli olmasına bir sıra makroiqtisadi göstəricilər – milli məsrəflərdə özünü göstərən dəyişikliklər, valyuta məzənnələrinin enib-qalxması, tələbdə və məhsuldarlıqda və s. əks olunan dəyişikliklər ciddi təsir göstərir. Bu baxımdan yaranmış kəsirin örtülməsi üçün daxili və xarici amillərdən istifadə etməklə onun tənzimlənməsi zərurəti meydana çıxır.

Qlobal maliyyə böhranı birmənalı şəkildə göstərdi ki, iqtisadi artımın keyfiyyətini, milli iqtisadiyyatın davamlılığını, tədiyyə balansının tarazlığını təmin etmədən bütövlükdə cəmiyyətin və iqtisadiyyatın davamlı inkişafına nail olmaq mümkün deyildir. Son illərdə "Əsrin müqaviləsi"nin nəticəsi olan böyük neft ixracı davamlı olaraq tədiyyə balansının cari hesabının müsbət saldosuna və ölkəyə güclü valyuta axınına səbəb olmuşdur. Böyük neft gəlirləri makroiqtisadi sabitliyə və daxili maliyyə ehtiyatlarının artımına gətirib çıxarmışdır ki, bu da dövlətimizə qlobal böhranın təsirlərini yumşaltmaq üçün nəzərə çarpacaq fəaliyyət imkanı vermişdir. Eyni zamanda ölkəmizin kapital idxal edən ölkədən ixrac edən ölkəyə və təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilməsi ölkəmizin tədiyyə balansının saldosuna təsir göstərən mühüm amillərdəndir.

Ölkənin beynəlxalq münasibətlərinin geniş kompleksi onun beynəlxalq əməliyyatlarının ənənəvi olaraq tədiyyə balansı adlandırılan balans hesabında öz əksini tapır. Tədiyyə balansı

beynəlxalq əməliyyatların balans hesabı olmaqla daxilolmalar və tədiyyələrin fərqi şəklində ölkənin beynəlxalq təsərrüfat əlaqələrinin bütün kompleksinin dəyər formasında ifadə olunmasıdır. Tədiyyə balansı müəyyən müddət ərzində (ay, rüb, il) bir ölkənin rezidentləri ilə (ev təsərrüfatları, firmalar və dövlət) digər ölkələr arasında həyata keçirilən bütün iqtisadi bağlaşmaların yekunlarının sistemləşdirilmiş statistik yazılışıdır.

İqtisadçı alimlərin əsərlərində tədiyyə balansına verilən tərifləri nəzərdən keçirərək belə qənaətə gəlmək olur ki, bütün bu tərifl ər praqmatik xarakter daşıyır və tədiyyə balansı ölkənin xarici iqtisadi fəaliyyət göstəricilərinin statistik təsviri kimi şərh olunur. Rusiya iqtisadçıları V.B.Buqlay və N.N.Liventsevin fundamental tədqiqatlarında tədiyyə balansına aşağıdakı kimi tərif verilir: "Tədiyyə balansı müəyyən dövr ərzində ölkə rezidentləri ilə digər ölkə, ölkə qrupları və beynəlxalq təşkilatlar arasında həyata keçirilən iqtisadi əməliyyatlar haqqında statistik məlumatlardan ibarətdir" [1; s.83].

BVF-nin metodik göstərişlərində deyilir: "Tədiyyə balansı müəyyən dövr üçün statistik göstəricilər cədvəli olmaqla aşağıdakıları özündə əks etdirir: a) digər ölkələrlə əmtəə, xidmət və gəlirlər üzrə əməliyyatları; b) mülkiyyət mübadiləsini və digər ölkələrlə münasibətdə qızıl ehtiyatları, xüsusi borcalma hüququ olan kollektiv valyuta (SDR), maliyyə öhdəlikləri və tələblərindəki dəyişmələri; v) mühasibat nöqteyi-nəzərindən qarşılıqlı ödənilməyən əməliyyat və dəyişikliklərin maliyyələşdirilməsi üçün zəruri olan birtərəfli köçürmələri". Bu cür göstərişlərlə əlaqədar olaraq yalnız həyata keçirilən əməliyyatlar haqqında məlumatların deyil, həmçinin əməliyyatların balanslaşdırılması üçün süni şəkildə tərtib olunmuş göstəricilərin də tədiyyə balansına daxil edilməsi tövsiyə olunur [2; s. 23].

Beynəlxalq qaydalara görə tədiyyə balansının tərtibatı zamanı hesab vahidi kimi milli valyutadan istifadə olunur. Lakin bir sıra hallarda, xüsusilə də, ölkə beynəlxalq təşkilatlara hesabat verərkən tədiyyə balansının ABŞ dolları ilə ifadəsinə zərurət yaranır. Göstəricilərin ABŞ dollarına çevrilməsi zamanı bir qayda olaraq, tədiyyə balansı tərtib olunan andakı bazar məzənnəsi əsas götürülür. Əgər ölkədə xarici iqtisadi əməliyyatlar üzrə hesablaşmalar üçün bir neçə valyuta məzənnəsindən istifadə olunursa, onda göstəriciləri ABŞ dollarına çevirmək üçün orta məzənnədən istifadə olunur. İstənilən halda tədiyyə balansının hər bir komponentini ABŞ dollarına çevirərkən yalnız bir valyuta məzənnəsindən istifadə etmək gərəkdir [3; s.129].

Tədiyyə balansı formasında ölkələrin xarici iqtisadi əməliyyatlarının yekun nəticələrinin uçota alınması tarixdə ilk dəfə XVI əsrin sonlarında Böyük Britaniyada təsadüf olunmuşdur. Qeyd edək ki, bu, erkən merkantilizm baxışları ilə əlaqədar olmuşdur. Merkantilistlərin fikirlərinin əsas müddəası zənginliyi pulla ifadə etməklə sərhədlənirdi və bu da "dövlət nə qədər zəngindirsə, bir o qədər də pula sahibdir" tezisinin formalaşmasına gətirib çıxarmışdır. Merkantilizm ideyaları milli iqtisadiyyatı təşviq etməyə, onun xarici rəqabətdən qorunmasına və xarici bazarlarda iqtisadi fəaliyyəti genişləndirməyə yönəldilmiş və daha sonralar proteksionizm siyasətinin təməl nəzəriyyəsi kimi qəbul olunur.

Dünya iqtisad elminin baniləri A.Smit və D.Rikardo tədiyyə balansının tərtib olunması

probleminin həllinə yeni elementlər gətirmişlər. A.Smitin "mütləq xərclərin üstünlüyü nəzəriyyəsi" və D.Rikardonun "müqayisəli istehsal xərcləri nəzəriyyəsi" gələcəkdə tədiyyə balansının araşdırılmasının əhəmiyyətini daha da artırdı. Belə ki, onların fikrincə kapitalist istehsal üsulunun inkişafı ilə əlaqədar olaraq kapitalın beynəlxalq hərəkətinin güclənməsi və digər xarici iqtisadi əməliyyatların artması tədiyyə balansının strukturunun mürəkkəbləşməsinə və əhəmiyyətinin artmasına səbəb oldu. "Beynəlxalq ticarətin inkişafının əsası kimi" mütləq xərclərin çıxış etməsi tezisini ilk dəfə elmə A.Smit gətirmişdir. Tezisdə əsas prinsip ondan ibarətdir ki, istənilən ölkə ona lazım olan əmtəələri bu əmtəələrin daha az xərclərlə istehsal edildiyi ölkələrdən idxal etməli, özünün digər ölkələrə nisbətən ən az xərclərlə istehsal etdiyi malları isə ixrac etməlidir ki, bu da aparılan xarici ticarət əməliyyatlarının effektivliyini təmin edir [4; s. 139]. A.Smitin bu istiqamətdəki baxışları sonradan tanınmış iqtisadçı D.Rikardo tərəfindən inkişaf etdirildi və yeni nəzəriyyə mütləq deyil, "müqayisəli istehsal xərcləri nəzəriyyəsi" formasında yenidən irəli sürüldü [5; s. 152].

ABŞ və Böyük Britaniya iqtisadçıları XX əsrin əvvəllərində tədiyyə balansının tərtibinin daha mükəmməl metodlarını işləyib hazırladılar. İlk dəfə tədiyyə balansı rəsmi olaraq xarici iqtisadi əlaqələrin 1922-ci ildəki göstəriciləri əsasında 1923-cü ildə ABŞ-da bu ölkənin Ticarət Nazirliyi tərəfindən tərtib olunaraq nəşr edilmişdir. Bu balans vahid metodika əsasında tərtib olunmadığı üçün nəşr rəsmi xarakter daşımamışdır [6; s. 239].

Dünya təsərrüfat sisteminin formalaşması müxtəlif ölkələri məcbur edirdi ki, xarici iqtisadi əlaqələrə və beynəlxalq hesablaşmalara aid göstəricilərin hesablanması və tədiyyə balansının tərtib olunma metodikasını vahid formaya salsınlar. Tədiyyə balansının tərtib olunmasının vahid forma və metodikasına nail olmaq üçün 1947-ci ildə, əvvəlcə Millətlər Liqası, sonralar isə BVF, ABŞ və İngiltərədə tərtib olunan tədiyyə balansının forma və metodikasını bütün dünya ölkələri üçün standartlaşdırdılar və bu sənədlər məhz həmin ildə, bir sıra ölkələrin mütəxəssisləri tərəfindən bəyənildikdən sonra, Birləşmiş Millətlər Təşkilatının (BMT) sənədləri kimi dərc olundu. Bu dövrdən başlayaraq BVF tərəfindən bu sənədlər tədiyyə balansının işlənməsi qaydalarının, formalarının və prinsiplərinin əsas bazası kimi tövsiyə olunmağa başladı. Hazırda BVF-yə üzv olan bütün ölkələr üçün tədiyyə balansının tərtibi vahid metodika əsasında həyata keçirilir [3; s.125].

Tədiyyə balansının tənzim edilməsi məsələsi hər zaman iqtisadçıların diqqət mərkəzində olmuşdur. Həmin dövrdə tədiyyə balansının tənzimlənməsi məsələsinə J.M.Keyns də xüsusi diqqət yetirirdi və bu məsələ ilə bağlı özünün modelini hazırladı. Belə ki, hal-hazırda dünya ölkələri tədiyyə balansının tənzimlənməsinin Keyns modelinə istinad edirlər. Keyns modelinə görə iqtisadi durumu saxlamaq, yeni yaranan milli sənaye sahələrini qorumaq, dövlət büdcəsinin gəlirlərini artırmaq, dempinqi neytrallaşdırmaq, ölkənin müdafiə qabiliyyətini lazımi səviyyədə saxlamaq və s. məqsədlərlə xarici iqtisadi fəaliyyətin, o cümlədən, tədiyyə balansının dövlət tərəfindən tənzimlənməsi zərurəti ilə əsaslandırılır [8; s.115].

BVF tərəfindən tövsiyə olunan tədiyyə balansı ikili uçot prinsipləri əsasında tərtib olunur, yəni, hər bir xarici əməliyyatın nəticələri eyni zamanda iki hesabda qeyd olunur. Adətən

əmtəələrin ölkəyə gəlməsi balansın debetində "–" işarəsi ilə, ölkədən çıxması kredit hesabında "+" işarəsi ilə qeyd edilir [6; s. 246].

BVF tərəfindən işlənmiş standart təsnifata əsasən tədiyyə balansı iki əsas bölmədən ibarətdir: (I) real maddi sərvətlərin (əsasən əmtəə və xidmətlər) beynəlxalq hərəkətini əks etdirən cari əməliyyatlar hesabı və (II) bu axının maliyyələşdirilməsi mənbələrini göstərən kapital və maliyyə əməliyyatları hesabı (cədvəl 1.1.). Bu bölmələr də öz növbəsində ayrı-ayrı maddələr qrupundan ibarətdir. Analitik məqsədlər üçün tədiyyə balansının bütün maddələri şərti olaraq "xətdən yuxarı" və "xətdən aşağı" maddələrə bölünür. Əsas və balanslaşdırıcı maddələr olan "xətdən yuxarı" maddələr beynəlxalq ehtiyatlardakı dəyişikliklər istisna olmaqla maddi sərvətlərin və kapitalın hərəkətini əks etdirir. "Xətdən aşağı" maddələr isə dövlətin və Mərkəzi Bankın beynəlxalq aktiv və ehtiyatlarının həcmindəki dəyişiklikləri göstərir [7; s. 94].

Tədiyyə balansının spesifik maddəsi kimi "səhvlər və buraxılmalar" maddəsi çıxış edir. Bu maddədə obyektiv və subyektiv səbəblər üzündən digər maddələrdə nəzərə alınmayan buraxılmalar və statistik hesablamalarla əlaqədar səhvlər göstərilir. "Səhvlər və buraxılmalar" aşağıdakı hallarda yaranır. Əgər konkret saziş üzrə tədiyyə balansında yalnız debet və ya kredit göstəricisi qeyd olunubsa, yaxud da bu və ya digər bir səbəb üzündən kredit göstəricisi debet göstəricisindən fərqlənirsə, bu zaman göstəricilər üzrə müəyyən ziddiyyətlər yaranır.

Tədiyyə balansının ən çox praktik və analitik əhəmiyyət kəsb edən hissəsi kimi cari əməliyyatlar hesabı çıxış edir. Cari əməliyyatlar hesabı bir tərəfdən ölkənin müəyyən zaman kəsimində xarici tərəfdaşlarla qarşılıqlı əlaqələrinin nəticəsini, digər tərəfdən isə daxili investisiya və yığımlar balansını əks etdirir. Tədiyyə balansının cari əməliyyatlar hesabı dörd əsas qrupa bölünür: ticarət balansı, xidmətlər balansı, gəlirlərin hərəkəti və cari transfertlər üzrə əməliyyatlar [6; s.309].

1.1. Ticarət balansı. Cari əməliyyatlar hesabının bu maddələr qrupu üzrə başlıca olaraq malların ixrac və idxalı qeydə alınır. Bütün mallar üzrə ixrac və idxalın dəyəri arasındakı olan fərq ticarət balansıdır. Tədiyyə balansına yalnız ticarət balansının o hissəsi daxil edilir ki, bu balansda ticarət əməliyyatları üzrə ödəmələr artıq aparılıb və ya təcili olaraq ödənilməlidir. Ticarət sövdələşmələri üzrə olan hesablarda mövcud olan və hələ ödənilməmiş hissə hesablaşma balansına və yaxud müstəqil ticarət balansına daxil edilir.

Cari əməliyyatlar hesabının əsas alt bölməsi olan xarici ticarət balansı tədiyyə balansının əsas tərkib hissəsidir. Bu balansın aktivliyi və ya passivliyi ölkənin dünya təsərrüfatı sistemində yerini və tərəf müqabili olduğu ölkələrlə iqtisadi əlaqələrinin səviyyəsini xarakterizə edir. İqtisadiyyatı zəif inkişaf etmiş ölkələr üçün ticarət balansının aktiv olması daha mühümdür. Çünki ölkəyə daxil olan valyuta vəsaitlərinin beynəlxalq öhdəlikləri və tədiyyə balansının başqa bölmələri üzrə mənfi saldonu ödəmək üçün kifayət etməsi çox vacibdir.

1.2. Xidmətlər balansı. Tədiyyə balansının cari əməliyyatlar hesabının digər əhəmiyyət kəsb edən maddələr qrupu xidmətlərdir. Xidmətlər ya sərbəst şəkildə ya da əmtəə və xid-

mətlərin geniş kateqoriyasının tərkib hissəsi kimi nəzərdən keçirilə bilər. Xidmətlər qrupuna aşağıdakılar daxildir: nəqliyyat xidmətləri, səfərlər, rabitə xidmətləri, inşaat, sığorta, maliyyə və s. xidmətlər.

Təcrübi olaraq bütün dünya ölkələrində beynəlxalq xidmətlərin ən başlıca kateqoriyası kimi nəqliyyat xidmətləri çıxış edir. Buraya dəniz, dəmiryolu, hava, avtomobil, boru kəməri və digər nəqliyyat növləri ilə əlaqədar olan bütün nəqliyyat xidmətləri aiddir. Daşınmaların dəyəri, idxal və ixracı fob (fob-beynəlxalq ticarətdə mal göndərilməsinin şərtlərindən biri, bu vaxt satıcı malları öz hesabına əvvəlcədən razılaşdırılmış yükvurma limanında müəyyən edilmiş müddətdə alıcının kirayə götürdüyü gəmiyə çatdırmağa və malın təhvili ilə bağlı işləri öz üzərinə götürür) qiymətlərinə əsasən hesablanır. Malların idxalı üzrə qeyri-rezident firma tərəfindən göstərilən nəqliyyat xidmətləri debetə yazılır, belə ki, xidmətlərə görə ödənişlər həyata keçirilir. Əksinə, ixrac ilə əlaqədar rezident firmanın xarici alıcıya təklif etdiyi xidmətlər isə tədiyyələrin əldə olunması ilə əlaqədar kredit bölməsində göstərilir [6; s. 242].

Ümumiyyətlə qeyd etmək lazımdır ki, müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrdə xidmət sferası dinamik inkişaf edən sektor kimi çıxış edir. Onun rolu ödəmə və gəlirlərin strukturunda durmadan artır. Çoxnövlü ticarət mallarının istehsalının və tədarükünün artması ilə əlaqədar olaraq ənənəvi xidmət sahələri (nəqliyyat, bank, sığorta, rabitə) köklü şəkildə inkişaf edir.

1.3. Gəlirlər. Cari əməliyyatlar hesabının gəlirlər bölməsində rezident və qeyri-rezidentlərin əməyinin ödənilməsi və investisiyalar üzrə gəlirlər əks olunur. Əmək haqqı ölkə sərhəddindən kənarda bir ölkə rezidentinin digər ölkə rezidentləri üçün gördüyü işlər müqabilində əməyinin pul və ya natural formada ödənilməsi deməkdir. İşçilər kateqoriyasına ölkə ərazisində bir ildən az olaraq fəaliyyət göstərən mövsümi işçilər, həmçinin ölkə sərhəddinə yaxın işçilər aid edilir. Əgər işçi bir ildən artıq ölkə ərazisindədirsə, onda onun gəlirləri emiqrant köçürmələri kimi qeydə alınır. İnvestisiya üzrə gəlirlər xarici maliyyə aktivləri müqabilində rezidentlərin əldə etdikləri gəlirlərdir. Buraya kapitalda iştiraka (dividend) və borc öhdəliklərinə görə gəlirləri də (faizlər) aid etmək olar. İnvestisiya üzrə gəlirlər aşağıdakılardan ibarətdir: birbaşa və portfel investisiyaları, həmçinin digər investisiyalar üzrə gəlirlər [7; s.310].

1.4. Cari transfertlər. Transfertlər–maddi resursların əvəzində heç bir dəyər ekvivalenti ödənilmədən ölkələrarası hərəkətini ifadə edir, yəni transfertlər istiqamətindən asılı olaraq tədiyyə balansının ya debetində, yaxud da kreditində əks olunur. Transfertlər iki cür olur: cari və kapital. Cari transfertlər tədiyyə balansının cari əməliyyatlar hesabında, kapital transfertləri isə kapital və maliyyə əməliyyatları hesabında qeyd olunur.

Qeyd edək ki, cari əməliyyatlar hesabı ölkənin tədiyyə vəziyyəti haqqında kifayət qədər məlumat verir. Bəzən cari əməliyyatlar balansının saldosunu (NE) xalis ixrac adlandırırlar. Cari əməliyyatlar hesabı üzrə müsbət saldonun (NE>0, cədvəl 1.1.) olması ona dəlalət edir ki, ölkə idxal olunandan daha çox həcmdə mal və xidmət ixrac edir. Bu da ölkədə əlavə valyuta vəsaitlərinin yaranmasına səbəb olur. Əlavə valyuta vəsaitlərinin bir hissəsi yığıma,

qalan hissəsi isə digər öhdəliklər üzrə ödəmələrə və ya xarici ölkələrə kredit köməyi göstərməyə sərf olunur. Deyilənləri nəzərə alaraq, tədiyyə balansının strukturunu aşağıdakı cədvəl şəklində vermək olar:

Cədvəl 1.1.

Tədiyyə balansının strukturu:

№	Hesablar	Kredit (pul gəlirləri)	Debet (pul ödənişləri)	saldo
1	Əmtəələr balansı	İxracdan əldə edilən gəlir	Əmtəə idxalı üçün xərclər	
2	Xidmətlər balansı	Qeyri-rezidentlərə göstərilən xidmətlərdən əldə olunan gəlir	Ölkə rezidentlərinə xaricdə göstərilən xidmətlərin ödənilməsi	
3	Köçürmələr balansı	Xaricdən köçürmələr	Xaricə köçürmələr	
4	Cari əməliyyatlar hesabı (1+2+3)			NE
5	Kapitalla əlaqədar olan əməliyyatlar	Kapitalın idxalı	Kapitalın ixracı	NKE
6	Mərkəzi Bankın valyuta ehtiyatları	Valyuta ehtiyatlarının xaricdə artması	Ölkədə valyuta ehtiyatlarının artması	AR

Əgər ölkənin cari əməliyyatlar hesabı müsbət saldoya malikdirsə, onda milli yığımın müəyyən hissəsini xaricə investisiya formasında ixrac edir və bu da ölkədə istehsalın və ixracın stimullaşdırılmasını və yeni valyuta vəsaitlərinin əmələ gəlməsini şərtləndirir. Beləliklə də, milli yığım (S) daxili (İd) və xarici (İx) investisiyaların cəminə bərabər olur: S=Id+Ix

Xalis ixracın mənfi olması (NE<0) ixracın həcminin idxalın həcmindən az və dünya bazarına ixrac olunan mal və xidmətlərinin rəqabətə davamlılığının aşağı səviyyədə olduğunu göstərməklə yanaşı, ölkənin xarici borclarını da artırır. Bu da ölkənin xarici borclarla və kreditlərlə yaşamasına və ya əvvəllər topladığı yığımdan istifadə etməsinə səbəb olur [9; s.410].

Beləliklə, nəticə çıxarmaq olar ki, cari əməliyyatlar üzrə hesabın müsbət saldoya malik olması ölkənin investisiya potensialının artmasını sübut edir, mənfi saldo isə, əksinə, ölkədən valyuta vəsaitlərinin xaricə axınını göstərir.

Cari əməliyyatlar hesabı iki əsas cəhəti ilə seçilir: birincisi, cari əməliyyatlar hesabı öz təbiətinə görə birdəfəlikdir, yəni cari əməliyyatlar kapitalın hərəkəti üzrə əməliyyatlardan fərqli olaraq başa çatmış əməliyyatlar sayılır; ikincisi, yalnız iqtisadi deyil, həmçinin siyasi səbəblərin təsiri ilə də qısamüddətli dövrdə dəyişikliyə məruz qala bilən kapital əməliyyatlarından fərqli olaraq cari əməliyyatlar daha sabitdir. Bütün bunların nəticəsi olaraq cari əməliyyatlar hesabına daha mühüm iqtisadi tərkibə malik göstərici kimi yanaşılır.

Tədiyyə balansının cari əməliyyatlar hesabında əks olunan əmtəə və xidmətlərin beynəlxalq hərəkəti bu yollarla maliyyələşdirilə bilər: aktivlərin bir hissəsinin xaricilərə satılması, yəni xarici kapitalın ölkə iqtisadiyyatına birbaşa və portfel investisiyaları formasında cəlb

olunması yolu ilə; xarici bank, hökumət və ya beynəlxalq təşkilatlardan alınan borclar vasitəsilə; Mərkəzi Bankda qorunan rəsmi valyuta ehtiyatlarının sərf olunması hesabına. Ölkənin aktivlərinin alqı-satqısı ilə əlaqədar olan bütün bu əməliyyatlar tədiyyə balansının kapital və maliyyə əməliyyatları hesabında əks etdirilir [8; s. 205].

Əmtəə və xidmətlərin idxal və ixracını maliyyələşdirən kapitalın beynəlxalq hərəkətini əks etdirən kapital və maliyyə əməliyyatları hesabı quruluşuna görə iki başlıca kateqoriyaya ayrılır: kapital transfertləri və qeyri-maliyyə aktivlərinin alqı-satqısını əhatə edən kapital üzrə əməliyyatlar hesabı; xarici maliyyə aktivləri və öhdəlikləri üzərindəki mülkiyyət hüququnun dəyişməsi ilə nəticələnən əməliyyatları əks etdirən maliyyə hesabı. Bu balans aşağıdakı maddələrdən ibarətdir: kapital transfertləri, sahibkar kapitalı, borc kapitalı və s.

Əsas kapitalın istifadə olunması, alışı və ya kreditor tərəfindən borcların ləğv olunmasını nəzərdə tutan transfertlər kapital transfertləri qrupuna aid edilir. Kapital transfertləri dövlət və özəl sektor transfertlərindən ibarətdir. Kreditor tərəfindən borcların ləğv olunması dövlət transfertlərinin ən iri maddəsi kimi çıxış edir. Əgər iki ölkə arasında borcların tam və ya qismən ləğv olunması haqqında razılıq müvafiq müqavilə ilə təsdiqlənibsə, belə halda ləğv olunmuş borc məbləği dövlət transferti kimi tədiyyə balansında qeydə alınır. Əsas kapital alışının ödənilməsi məqsədilə bir dövlət tərəfindən digərinə verilən vəsaitlər investisiya transfertlərini ifadə edir. Kreditor bank, korporasiya və qeyri-dövlət təşkilatları tərəfindən borcların qismən və ya tam ləğv olunması, həmçinin miqrasiya ilə bağlı transfertlər özəl sektor transfertlərinə aid edilir.

Ümumiyyətlə, qeyd edək ki, kapital və maliyyənin hərəkəti hesabı ölkəyə daxil olan və ölkədən çıxarılan kapitalın, verilmiş və alınmış beynəlxalq kreditlərin həcmini əks etdirir. Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu xalis kapital ixracı (NKE) adlanır. Əgər NKE>0 olarsa (cədvəl 1.1.), onda ölkə kapitalı ixrac edir, əksinə NKE<0 olarsa, onda ölkə kapitalı idxal edir. Ölkənin kapitalı ixrac və ya idxal etməsi cari əməliyyatlar hesabının saldosuna bağlıdır.

Cari əməliyyatlar hesabının saldosu ilə kapital və maliyyənin hərəkəti hesabının saldosunun cəmi tədiyyə balansının saldosunu verir. Əgər cari əməliyyatlar hesabının saldosu kapital və maliyyənin hərəkəti hesabının saldosundan böyük olarsa (NE>NKE), onda ölkənin tədiyyə balansı müsbət saldoya, əksinə cari əməliyyatlar hesabının saldosu kapital və maliyyənin hərəkəti hesabının saldosundan kiçik olarsa (NE<NKE), onda ölkənin tədiyyə balansı mənfi saldoya malik olur. Ölkənin tədiyyə balansı saldosunun mənfi olması o deməkdir ki, ölkə müəyyən dövr ərzində idxalla əlaqədar olan əməliyyatlara ixracdan əldə etdiyi gəlirdən daha çox vəsait ödəyib. Bu isə ölkənin mərkəzi bankının valyuta ehtiyatlarının azalması ilə (AR) nəticələnir. Əksinə, ölkənin tədiyyə balansı üzrə müsbət saldosunun olması onu göstərir ki, ölkə qeyd olunan dövr ərzində idxalla əlaqədar olan əməliyyatlara ixracdan əldə etdiyi gəlirdən az vəsait ödəyib. Bu isə ölkənin Mərkəzi Bankının valyuta ehtiyatlarının (AR) artmasına səbəb olur.

Əgər ölkənin tədiyyə balansı kəsirlidirsə, mövcud valyuta ehtiyatları siyasəti hesabına onu ödəməlidir. Bunun üçün isə ölkə malik olduğu valyuta vəsaitlərinin bir qismini satmaq, xarici

ölkələrdən borc almaq və ölkə aktivlərini satmaq yolu, daha dəqiq desək iqtisadiyyata xarici kapital qoyuluşlarını birbaşa və portfel formasında cəlb etməklə reallaşdıra bilər. Qeyd edək ki, tədiyyə balansının maliyyələşdirilməsinin də müəyyən bir həddi vardır. Belə ki, tədiyyə balansının uzunmüddətli dövr üçün kəsirli olması tələb aktivlərinin zəifləməsinə və mərkəzi bankın valyuta ehtiyatlarının tükənməsinə gətirə bilər. Bu zaman isə heç kəs (dövlət və beynəlxalq təşkilat) ölkənin minimum rəsmi qızıl valyuta ehtiyatlarından artıq kredit vermək istəməyəcəkdir ki, bu da ölkənin xarici kreditorlara olan borclarını ödəmək imkanlarını və həmçinin valyuta ehtiyatlarının idxalını ödəmək üçün kifayət edib-etməməsini əks etdirən aşağıdakı qaydada hesablanan göstərici vasitəsi ilə müəyyən edilir:

$$\text{Yetərlilik} = \frac{\text{xalis xarici valyuta ehtiyatları}}{\text{idxalın ümumi həcmi}} x\,12\ \text{ay}$$

Bu göstərici üç aylıq idxalı ödəməkdən aşağı səviyyədə olarsa ölkənin ödəmə qabiliyyəti qeyri-qənaətbəxş qiymətləndirilir və yeni kreditlərin alınması imkanları məhdudlaşır. Ölkə iqtisadiyyatının belə böhranlı vəziyyətdən yeganə çıxış yolu milli valyutanın devalvasiyası vasitəsilə tədiyyə balansının tənzimlənməsidir. Lakin milli valyuta məzənnəsi ilə tədiyyə balansının tənzimlənməsi iqtisadiyyatda ən ağır və ən çətin hal kimi qəbul edilmişdir. Çünki belə tənzimlənmə ölkə iqtisadiyyatında da xoşagəlməz vəziyyət doğura bilər [8; s.248].

Məşhur alim M.X.Lindert tədiyyə balansını kinokameraya bənzədərək qeyd edir ki, "O, nəyin yaxşı, nəyin isə pis getdiyini göstərə bilmir. Ancaq o, hansısa proseslərin getdiyini göstərir və bununla da müstəqil nəticələr çıxarmağa kömək edir. Bu mənada tədiyyə balansı nadir sənəddir. O, hər hansı bir ölkənin dünyanın digər ölkələri ilə olan maliyyə axınını real şəkildə əks etdirir və bir çox siyasi məsələlərin həllində belə informasiyalara ehtiyac var" [10; s.309].

Ümumiyyətlə, tədiyyə balansı ölkə iqtisadiyyatının maliyyə vəziyyətinin, xüsusilə də xarici iqtisadi əlaqələr sahəsində vəziyyətin ən aydın güzgüsüdür. Ona görə tədiyyə balansını bəzən xarici iqtisadi əlaqələrin "barometri" kimi də adlandırırlar. Ölkənin beynəlxalq iqtisadi inteqrasiyada və dünya valyuta sistemində mövqeyi bu balansda aydın əks olunur. Məhz bu cəhətinə əsasən də tədiyyə balansının aktiv saldoya malik olması ölkə iqtisadiyyatı üçün olduqca önəmlidir. Tədiyyə balansının müsbət və ya mənfi saldoya malik olması milli iqtisadiyyatın inkişafına güclü təsir göstərir. Başqa sözlə, ölkənin tədiyyə balansının vəziyyəti bir sıra makroiqtisadi göstəricilərlə (milli gəlir, məşğulluğun səviyyəsi, ümimi daxili məhsulun (ÜDM) artım sürəti, inflyasiyanın səviyyəsi, valyuta məzənnəsi, əmək haqqı, gəlirlərin bölüşdürülməsi, rəsmi xarici borclar və s.) sıx bağlıdır. Odur ki, hər hansı bir ölkə özünün ümumi iqtisadi siyasətinin konseptual əsaslarını hazırlayarkən mütləq qarşılıqlı iqtisadi əlaqələrdə olduğu ölkələrin və beynəlxalq səviyyədə makroiqtisadi göstəricilərin fəaliyyət mexanizmini izləməli və tədqiq etməlidir. Bu onunla izah olunur ki, bu halda beynəlxalq səviyyədə ola biləcək mənfi nəticələri vaxtında müəyyən etmək və aradan qaldırmaq imkanı yaranır.

Ədəbiyyat:

1. Буглай В.Б., Ливенцев Н.Н. Международные экономические отношения. М., "Финансы и статистика", 1996, 158 стр.;
2. BVF-nın tədiyyə balansı üzrə metodikası. 350 s.;
3. Красавина Л.Н. Международные валютно-кредитные и финансовые отношения. М.: Финансы и статистика, 1994, 588 стр.;
4. Смит А. Исследование о природе и причинах богатства народов. Москва, 1962;
5. Рикардо Д. Начало политической экономики и налогового обложения. Москва, Экономическая классика, 1993, том 1;
6. Джалил Сейидоглу. Улусларарасы финанс. Станбул, 1997, 470 с.;
7. Кейнс. Дж. М. Общая теория занятости, процента и денег. Москва: Гелиос. НРБ, 2002, 352 стр.;
8. Halil Seyidoğlu. Uluslararası iktisat. Teori Politika və uyğulanma. İstanbul, 1996, 720 s.;
9. Həsənov R.T., Həsənli Y.H. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Bakı: 2002, səh.312;
10. Линдерт П.Х. Экономика мирохозяйственных связей. М.: Прогресс, 1992, 520 стр.;

Abstract

BALANCE OF PAYMENT AND THE THEORETICAL PRINCIPLES OF ITS COMPOSITION

Vugar NAZAROV

Ph.D on economics, Azerbaijan University

Key words: balance of payment, negative balance, positive balance, foreign trade, balance of current transactions, balance of servises

The article reflects the value of interventions to improve the regulatory balance of payments. In some countries, the non-conformed data is included in the balance of payments with similar statistics, which leads to certain inaccuracies in the analysis and forecasts

The article reflects necessity of the balance of payments for external debt payments, movements of short-term investments, received foreign credits, the amount of "errors and omissions." It also points out the advisability to accurately reflect stock exchange and the monetary gold of the country's reserve position in IMF in the articles of reserve assets.

Резюме

ПЛАТЕЖНЫЙ БАЛАНС И ТЕОРЕТИЧЕСКИЕ ПРИНЦИПЫ ЕГО СОСТАВЛЕНИЯ

Вугар НАЗАРОВ

д.ф.п.э., Университет «Азербайджан»

Ключевые слова: платежный баланс, отрицательный баланс, положительный баланс, внешняя торговля, баланс текущих операций. баланс услуг.

В статье отражается значение проводимых мероприятий по усовершенствованию системы регулирования платежного баланса. В некоторых странах возникают проблемы несоответствия данных, отраженных в платежном балансе, с аналогичными статистическими данными, что приводит к определенным неточностям проводимых анализов и высказываемых прогнозов.

Обосновывается необходимость отражения в платежном балансе страны выплат внешних долгов, движений краткосрочных инвестиций, полученных иностранных кредитов, объем «ошибок и пропусков». Кроме этого, подчеркивается целесообразность четкого отражения запасов валют и монетарного золота страны, резервной позиции в МВФ в составе статьи резервных активов.

İNTELLEKTUAL KAPİTALIN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF MEYİLLƏRİ

Rəna HÜSEYNOVA
ADİU, "İnformasiya iqtisadiyyatı və texnologiyaları" kafedrası, doktorant

Rəyçi: i.ü.f.d. V.Ə. Nəzərov
Açar sözlər: intellektual kapital, insan kapitalı, intellektual mülkiyyət, iqtisadi nəzəriyyə, şirkət

Məqalədə intellektual kapitalın mahiyyəti və nəzəri xüsusiyyətləri təhlil edilir. Burada müəllif tərəfindən intellektual kapitalın inkişafına dair iqtisadi nəzəriyyə və iqtisadi fikir tarixi materialları, intellektual kapitalın sinergetik effektini yaradan amillər, intellektual kapitalın komponentlərarası fərqli xüsusiyyətləri və s. mühüm məsələlər tədqiq olunur. Yekunda müəllif öz tədqiqatının nəticələrini əks edib.

Müasir dövrdə dünyanın aparıcı dövlətlərində postindustrial istehsala keçidinin əsas problemlərindən biri intellektual potensial və intellektual kapitalın formalaşması, inkişaf etməsi və səmərəli istifadə edilməsinin təşkili ilə əlaqədardır. Məhz intellektual kapital istehsal texnologiyaları və məhsulların yenilənməsinin tempi və xarakterini müəyyənləşdirir, müəssisələrə bazarlarda ən başlıca rəqabət üstünlüklərini verir. Yəni, bu aspektdən yanaşdıqda qeyd etmək lazımdır ki, intellektual kapital müəssisə və şirkətlərin bazarlarda sabit və dayanıqlı intellektual üstünlüklər sisteminin təcəssümü kimi dəyərləndirilə bilər.

Milli müəssisələrdə intellektual kapitalın müasir vəziyyəti və dəyişiklik meyilləri barədə dəyərləndirmələr etməzdən öncə sözügedən kateqoriyanın məzmununda dəqiqləşdirilmələr aparılmalıdır. Bunun üçün isə hər şeydən öncə intellektual kapital ilə əlaqədar fikirlər sistemləşdirilməlidir.

Ümumiyyətlə, qeyd etmək yerinə düşərdi ki, iqtisadi nəzəriyyə və iqtisadi fikir tarixi materiallarına müraciət əsasında aşkar görünür ki, qeyri maddi (intellektual) kapital haqqında təsəvvürlərə A.Smit, C.S. Millin əsərlərində hələ XVIII əsrdə rast gəlmək mümkündür.

Lakin "intellektual kapital" anlayışının elmi dövriyyə daxil edilməsi son dövrlərə təsadüf olunur. Amerika iqtisadçısı C.Helbreyt XX əsrin 60-cı illərində bu anlayışdan, ilk olaraq, istifadə etmişdir. 60-cı illərdə iqtisadçı-neoklassik M.Fridman müəssisələrin aktivlərinin tərkibindən humanitar kapitalı fərqləndirərək şirkət kapitalının digər hissələrindən fərqli məziyyətlərinə diqqəti yönəltmişdir.

XX əsrin 80-ci illərin sonlarında K.E.Sveybi intellektual kapitalın geniş strukturda təhlilini vermişdir. Sözügedən strukturun tərkibində üç əsas komponentə: fərdi sərişdə, şirkətin daxili və xarici strukturuna xüsusi olaraq diqqət yönəldilirdi. Fərdi sərişdə Sveybiyə görə, insanların müxtəlif şəraitlərdə fəaliyyət göstərə bilmək bacarığı kimi təqdim olunurdu. Adətən, bu anlayışın məzmunu insan kapitalı anlayışının məzmununa da uyğun gəlirdi və eyni zamanda işçilərin bilik, bacarıq, təhsil, sosial vərdişləri və dəyərlərini əhatə edirdi. Şirkətlərin daxili

strukturuna –müəssisələrin məqsəd və vəzifələri, texnologiyalar, kompüter və inzibati sistemlər, qeyri formal təşkilatlar, daxili şəbəkələr, mədəniyyət və təşkilat üzvlərinin əzm və səyləri daxil edilirdi. Şirkətlərin xarici strukturuna sifarişçi və tədarükçülər, rəqiblər, ticarət markaları, reputasiya və imic (sima) arasındakı əlaqə və nisbətlər daxil edilirdi.

İntellektual kapitalın təbiəti ilə əlaqədar ilk araşdırmalar isə "Fortune" jurnalının redaksiya kollegiyasının üzvü T.Stüart tərəfindən aparılmışdır. Eyni zamanda,1998-ci ildə biliklərin idarə olunması sahəsində ixtisaslaşan qrup tərəfindən "Journal of intellectual Capital" jurnalı nəşr olunmağa başlanıldı. Jurnal ildə 4 dəfə nəşr olunur və burada öz fikirlərini ifadə edən mütəxəssislər özlərinin intellektual kapital hərəkatının nümayəndələri kimi təqdim edirdilər. Onlar akademik elmi təsisatların nümayəndələrinin fikirlərini praktiki olaraq qabaqladıqlarını iddia edirdilər. Təbiidir ki, sözügedən jurnalda intellektual kapital ətrafında diskussiya xarakterli fikirlər irəli sürülmüşdür.

Bu xüsusda, Stüartın fikirlərinə diqqət yetirilməsi yerinə düşərdi. O, 1991-ci ildə dərc etdirdiyi məqaləsində yazırdı ki, "İntellektin gücü: intellektual kapital kimi Amerika üçün daha qiymətlidir". O, intellektual kapital dedikdə şirkətə bazarda rəqabət üstünlüyü verən işçilərinin bilik və bacarıqlarının məcmusunu başa düşürdü (patentlər, proseslər idarəetmə vərdişləri, texnologiyalar, istehlak və tədarük barəsində təcrübə və informasiya). Bu biliklərin birləşməsindən intellektual kapital yaranır.

Göründüyü kimi, Amerika iqtisadi məktəbinin nümayəndəsi T.Stüart müəssisələrin intellektual kapitalı dedikdə, müəssisədə məhsul istehsalı üçün istifadə edilən toplanmış biliklər məcmusu (informasiya, məlumat bazası) başa düşürdü. T.Stüart eyni zamanda hesab edirdi ki, intellektual kapital təkcə məhsulun istehsalı üçün deyil, həmçinin müəssisənin fəaliyyəti üçün də bütünlükdə tələb olunur [1, s.387].

İsveç tədqiqatçısı K.Sveybı hesab edirdi ki, müəssisələrin intellektual kapitalı mənfəət əldə edilməsinə səbəb olan, müəssisənin bütün biliklərinin məcmusundan ibarətdir. Buraya ideyalar, innovasiyalar, reputasiya (etibar), imic daxil edilirdi. Lakin o bu kateqoriyanın məzmununa işçilərin qabiliyyətini daxil etmirdi [2, s.285].

İntellektual kapitala daha detallı struktur yanaşması Leyf Edvinson tərəfindən təklif olunmuşdur. O, Skandiya sığorta şirkətində intellektual kapitalın idarə edilməsi məsələsində məsul şəxslərdən hesab olunur. Edvinson sığorta şirkətinin intellektual resurslarının monitorinqi sistemini işləyib hazırladı. İntellektual kapital struktur kapitalı və insan kapitalına; struktur kapitalı isə öz növbəsində müştəri kapitalı və təşkilati kapitala; təşkilati kapitalda müvafiq olaraq innovasiya və proseslər kapitalına bölünürdü.

Təbiidir ki, qərb iqtisadi fikrində müəssisələrin intellektual kapitalı ilə əlaqədar Leyf Edvinsonun mühakimələrinə alternativ fikirlər də olmuşdur.

Bütün fikirlərin ümumiləşdirilməsi əsasında iki əsas yanaşmanın diqqəti cəlb etdiyini xüsusi olaraq qeyd etmək olar. Birinci yanaşma yuxarıda da göstərildiyi kimi Leyf Edvinsonun yanaşmasıdır ki, burada müəssisələrin intellektual kapitalının əsas elementləri insan, istehlak, təşkilati kapitallar hesab olunur. İkinci yanaşma Enni Brukinqin yanaşmasıdır ki, burada– bazar aktivləri, intellektual mülkiyyət aktiv kimi, insan aktivləri və infrastruktur aktivləri

xüsusi olaraq qeyd olunur. Lakin hər iki yanaşmada ümumi olan bəzi cəhətlərə diqqət yetirilməsi yerinə düşərdi.

İntellektual kapital nəzəriyyəsinin banilərindən hesab edilən İsveç maliyyə korporasiyası "Skandiya"-nın direktorlar şurasının üzvü L.Eddvinson intellektual kapital anlayışına aşağıdakı məzmunu daxil edir: "bu yeni iqtisadiyyatda dəyər yaradılan yeni sferadır" [3, s.177].

Burada intellektual kapitalın – biliklərin, bacarıqların, işçi təcrübələrinin, işçilər, şirkətin struktur bölmələrinin, menecerlərin arasında təşkilati və sosial qarşılıqlı əlaqələrin məcmusu nəzərə alınmırdı.

Britaniya tədqiqatçısı E.Brukinq intellektual kapitalı nəzərdən keçirərkən onun tərkib hissəsində dörd elementi xüsusi olaraq qeyd edirdi: bazar aktivləri; intellektual mülkiyyət və yaxud aktiv; insan kapitalı və infrastruktur aktivi [4, s.115].

Göründüyü kimi, "müəssisələrin intellektual kapitalı" kateqoriyası ilə əlaqədar dünya iqtisadçılarının əksəriyyətinin nisbi yekdil fikrə gəlməsi üçün sözügedən baxışlarda ciddi təkamül prosesi baş vermişdir.

Qeyd etmək lazımdır ki, iqtisadi fikirdə müxtəlif fikirlərin təhlil edilməsi üçün xüsusi cədvəl hazırlanmışdır.

Cədvəl 1.

İnsan və intellektual kapital nəzəriyyəsinin inkişafında elmi fikrin təkamülü

İnsan və intellektual kapital konsepsiyaları	Konsepsiyaların qısa məzmunu	Tədqiqatçılar
İnsan kapitalı nəzəriyyələri (1960-1961-cı illər)	Təhsilin, işçilərin biliklərinin, investisiyaların insan kapitalına təsiri	T.Şults, M.Bouman
İnsan kapitalı nəzəriyyəsi	əmək fəaliyyətində və istehsalda işçilərin bilik və bacarıqlarının qiymətləndirilməsi	Q.Bekker
İnsan kapitalı nəzəriyyəsi (1970-1985-ci illər)	Təhsil və təlimə ayrılmış xərclər kapital qoyuluşu, biliklərin, bacarıqların-insan kapitalının toplanılması kimi qəbul edilir	B.Veysbord, L.Turou, U.Bouen, M.Fişer
İnsan kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	Nəzəriyyənin mərkəzində- işçilərin təşkilat üçün yaratdıqları əlavə dəyər dayanır. İşçilər müəssisələrin aktivi, xərc mənbəyi deyil, gəlir mənbəyi kimi qəbul edilir	M.Blauq, S.Bouls, B.Çizvik, A.Aulin, B.Banq
İnsan kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	Şirkətə resurslar baxımından yanaşılma- insan resursları ehtiyatı olan şirkət davamlı inkişaf edən və rəqabəqabiliyyətli sayılır	D.Barney

İnsan kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	İnsan kapitalı öz daşıyıcılarına gəlir əldə etmək imkanı yaradan insan qabiliyyətinin məcmusu hesab olunur. Kapital insanın fitri qabiliyyətlərinin investisiya qoyuluşları ilə inkişafına əsasən formalaşır. Bu keyfiyyət ictimai istehsaldakı digər kapital formaları ilə ümumidir.	S.M.Klimov
İnsan kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	İnsan kapitalı- bazar iqtisadiyyatında insanın məhsuldar qüvvəsi formasıdır. İnsan kapitalı – yatırımlar vasitəsi ilə insanda cəmlənmiş sağlamlıq, bilik, bacarıq, qabiliyyət, ruh yüksəkliyi məcmusudur. Bütün bunlar əmək fəaliyyətinə tətbiq edilir və məhsuldarlığın yüksəlməsinə səbəb olur.	A.N.Dobrının, S.A.Dyatlov
İntellektual kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	İntellektual kapital təşkilata əlavə dəyər yaratmaq imkanı yaradan biliklərin məcmusudur. T.Stüart İK strukturuna insan və təşkilat kapitalını da daxil etdir	T.Stüart
Müəssisənin intellektual kapitalı nəzəriyyəsi (1997-ci ildən indiki vaxta qədər	İntellektual kapital şirkətin sahib ola bilməyəcəyi resursdan-işçilər tərəfindən yaradılmışdır. İntellektual kapitalın müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə edilməsi problemi nəzərdən keçirilir. İntellektual kapitalın strukturu təklif olunur: struktur kapitalı (müştəri kapitalı və təşkilati kapital), insan kapitalı	L.Edvinsson, M.Meluon
Müəssisənin intellektual kapitalı nəzəriyyəsi (1990-cı ildən indiki vaxta qədər	İntellektual kapitalın üç hissəli konsepsiyası: insan, təşkilati, sosial kapital	M.Yundt, R.Daft, K.Ueyt, R.Şuller
İntellektual kapitalı nəzəriyyəsi (1990-cı illərdən indiyə qədər)	İntellektual kapitalın struktur yanaşması hazırlanmış: xarici, daxili struktur, fərdi səlahiyyətlilik	K.Sveybi
Müəssisələrin intellektual kapital nəzəriyyəsi (1990-cı ildən indiki vaxta qədər)	İntellektual kapitalın strukturu təklif olunmuşdur: qeyri maddi bazar aktivləri, intellektual mülkiyyət aktivləri, infrastruktur aktivləri, humanitar aktivləri	A.Brukinq, E.Mota

Müəssisələrin intellektual kapital nəzəriyyəsi (1990-cı ildən indiki vaxta qədər)	Müəssisələrin intellektual kapitalının tərkibinə daxildir: insan kapitalı (şirkət işçilərinin təcrübə, bilik, bacarıq, vərdişləri, innovasiya və ümumi mədəniyyətə meyillilikləri); struktur kapitalı –patent, ticarət markası, idarəetmənin təşkilati strukturu, informasiya bazası	V.L.İnozemtsev
Müəssisələrin intellektual kapitalı (1990-cı ildən indiki vaxta qədər)	Müəssisələrin İntellektual kapitalı-intellektual aktivlərin dəyəridir (intellektual mülkiyyət, intellektual qabiliyyətlər, toplanmış informasiya, digər subyektlərlə qarşılıqlı əlaqə). İntellektual insan və təşkilati kapitallardan da ibarətdir. Burada əsas tərkib hissəsi təşkilati kapitaldır.	V.B.Leontyev

Cədvəldəki bütün fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, intellektual kapital sinergetik effekt yaradan və müəssisə tərəfindən istifadə edilən bilikdir və onun bazasında intellektual potensial dayanır:

1. Bütün müəlliflər intellektual aktivin əsas elementi kimi insan kapitalını (humanitar aktivlər, fərdi bacarıq, insan aktivləri) nəzərdə tutur;

2. Bütün müəlliflər intellektual kapitalın əsas elementi kimi, xarici strukturu qəbul edirlər. Birinci qisim yanaşmalarda xarici struktur qismində bazar aktivləri, istehlakçı kapitalı və s., ikinci yanaşmada isə sifarişçi, tədarükçü, rəqiblər arasındakı münasibət və əlaqələri təqdim edilir.

3. Bütün struktur konsepsiyalarında innovasiya kapitalı (intellektual mülkiyyət, təşkilati kapital) vacib hesab edilir.

Yuxarıda qeyd edilən hər üç element demək olar ki, bütün müəlliflər tərəfindən müəssisələrin intellektual kapitalının strukturuna daxil edilmişdir. Sözügedən struktura, eyni zamanda, sosial kapitalı da daxil etmək lazımdır. Çünki sosial kapital- hər zaman təşkil edilmiş qarşılıqlı təsir prosesinin məhsuludur və buna görə də onun ictimai təbiəti fərdi təbiətini üstələyir. İkincisi sosial kapital sosial cəhətdən təşkil edilmiş ictimai sistemin elementi kimi xüsusi mülkiyyət ola bilməz və ictimai sərvət funksiyasını daşıyır.

Daha bir maraqlı fakt kimi qeyd olunmalıdır ki, iqtisadi ədəbiyyatlarda çox zaman intellektual kapital və insan kapitalı anlayışları və bütünlükdə intellektual kapitalın ayrı-ayrı komponentləri arasındakı fərqlər nəzərdən qaçırılır. Məhz bu səbəbdən də intellektual kapitalın strukturu və digər məsələlər ətrafında yaranan fikir müxtəlifliklərı özünü büruzə verir. Müvafiq olaraq, intellektual kapitalın komponentlərarası fərqli xüsusiyyətlərinə də diqqət yönəldilməsi yerinə düşərdi. Bu xüsusda nəzərə almaq lazımdır ki, adi biliklər insan kapitalının, ancaq yeni biliklər intellektual kapitalın xüsusiyyətləridir. Lakin başlıca fərqlər özünü

sözügedən kapitalların məhsullarının xüsusiyyətlərində də özünü büruzə verir. Qeyd edilən fərqlərin bir qədər əyani olaraq sezilməsi üçün cədvəl tərtib olunmuşdur.

Hal-hazırda intellektual kapital anlayışı tam məzmunu ilə heç bir beynəlxalq konvensiyada işlədilmir. Lakin eyni zamanda kifayət qədər yaxşı hazırlanmış üsullar əsasında intellektual mülkiyyətin ayrı-ayrı komponentləri hesablanılır. İntellektual konsepsiyalar əsasında Şimali Avropa və Amerika ölkələrində uğur qazanmış konsultasiya şirkətləri fəaliyyət göstərir. Həmin şirkətlərdə xüsusi xidmət növü, "intellektual kapitalın auditi" fəaliyyət göstərir. Nümunə üçün qeyd etmək lazımdır ki, sözügedən ölkələrdə qeyri maddi aktivlərin hesablanmasını da əhatə edən xüsusi illik hesabat materialları dərc olunmaqdadır. Bütün bunlar intellektual kapitalın əsas ünsürləri hesab edilən qeyri maddi aktivlərlə əlaqədar yeni paradiqmaları formalaşdırmışdır [5, s.8].

Dünya Bankının və BMT-nin İnkişaf Proqramının məlumatlarına görə müasir dövrdə dünyada fiziki kapital və yaxud maddi sərvətlər bütün dəyərlərin 16%-ni, təbii sərvətlər 20%-ni, insan kapitalı və yaxud insana yatırılmış dəyər məcmusu 64% civarındadır. Dünyanın inkişaf etmiş ölkələrində bu göstərici 80% olmuşdur.

Bu göstəricilər inkişaf etməkdə olan ölkələrdə müvafiq olaraq 26%; 16%; 58% -dir. Bu səbəbdən də dünya dövlətlərinin əksəriyyətində əsas məqsədlərdən biri kimi intellektual kapitalın çəkisinin artırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsidir.

Göründüyü kimi, müasir dövrdə cəmiyyətdə intellektual kapital əsas sərvət növü kimi diqqəti cəlb edir. Məhz intellektual kapitaldan iqtisadi sistemlərin rəqabət qabiliyyətliliyi asılıdır və intellektual kapital iqtisadi sistemlərin inkişafında ən başlıca resurs və komponentlər məcmusu kimi diqqəti cəlb edir. Dünyanın bir çox aparıcı ölkələrində mütəxəssis dəyərləndirmələri əsasında belə qənaətə gəlmək mümkündür ki, qeyri maddi aktivlərin (intellektual kapital) müəssisə və şirkətlərin bazar qiymətləri strukturunda çəkisi xeyli artmışdır.

Şəkil 1.Müəssisələrin bazar dəyəri komponentləri, indeks S&P500



Mənbə: [9].

Digər maraqlı fakt kimi qeyd olunmalıdır ki, Dünya Bankının məlumatlarına görə insan kapitalına investisiya qoyuluşları adi istehsala çəkilən xərclərdən 5-6 dəfə çox mənfəət gətirir. İqtisadi artımın 15-16%-i fiziki kapital, 20%-i təbii sərvətlər, 65%-i isə insan və sosial kapital ilə bağlıdır[6].Eyni zamanda, indiki dövrdə lider şirkətlərin kapitalının dəyərinin 35%-i intellektual mülkiyyətin payına düşür. Qeyri istehsal sferasında isə bu göstərici daha yüksəkdir və təxmini olaraq, 50-55% civarındadır. Bu tendensiya dünya praktikasında artıq 80-ci illərdən müşahidə olunmağa başlanmış, 90-ci illərdə bir qədər sürətlənmiş və 2000-ci illərdən dövrün ən nəzərəçarpacaq reallığına çevrilmişdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ABŞ-da sənaye sektorunun müəssisələrinin əsas fondlarının ümumi dəyəri 1982-ci ildə müəssisə dəyərinin 60%-ni təşkil edirdisə, bu göstərici 90-cı illərdə 30-37%-ə qədər enmişdir [7]. Müəssisələrin yerdə qalan dəyər hissəsi təbiidir ki, qeyri maddi sferaya keçirilmişdi. Belə bir mənzərə yüksək texnologiyalar müəssisələrində özünü daha qabarıq büruzə verməkdədir. "İnterbrend" şirkətinin məlumatlarına görə İBM şirkətinin qeyri maddi aktivlərinin dəyəri şirkətin bütün dəyərinin 83%-ni təşkil edir [8].

Göründüyü kimi bilik, intellektual fəaliyyətin nəticələri və onlara bərabər sayılan vasitələrin (şirkət adları, brednlər və s.) individuallaşdırılması, istehsal edilmiş əmtəə və xidmətlər, əmtəə nişanları, xidmətlər nişanları və s. dəyərin yüksəlməsinin əsas mənbələri kimi çıxış edirlər. Bu səbəbdən də indiki dövrdə intellektual resurs və kapitaldan səmərəli istifadə olunması məsələsinin əhəmiyyəti korporativ idarəetmə məsələləri içərisində getdikcə daha çox diqqəti cəlb etməkdədir. Müvafiq olaraq, intellektual potensialın yüksələrək intellektual kapitala çevrilməsi məsələsi dünyanın aparıcı dövlətlərinin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Bir çox statistiki hesablamalarda intellektual mülkiyyət obyektlərinin dəyərinin hesablanılmasına getdikcə daha çox diqqət yetirilməkdədir. Bir maraqlı faktı xüsusi olaraq qeyd etmək lazımdır ki, biliklərə əsaslanan, informasiya iqtisadiyyatına keçmək üçün əhalinin 60-90%-i ali təhsil almalıdır.

Təxmini olaraq, 3-4 il bundan əvvəlki hadisələr dünyanın bütün müəssisələri qarşısında dövrün yeni tələblərinə uyğunlaşmaq zərurəti ilə qarşı-qarşıya qoydu. Müşahidələr göstərdi ki, müəssisələrin yeni şəraitə uyğunlaşa bilmək qabiliyyəti bir qisim şirkətlərin intellektual resurslardan istifadə olunması səviyyəsindən, digərləri üçün isə İntellektual Kapital Konsepsiyasını qəbul etməyə hazır olmaq səviyyəsindən asılılığını daha qabarıq büruzə verməyə başladı. Təkzibedilməz faktdır ki, inkişaf etmiş dövlətlər təkcə maddi resurslar deyil, eyni zamanda intellektual kapitalın ayrı-ayrı komponentlərindən istifadə edilməsi istiqamətində xeyli irəli getmişlər.

Ədəbiyyat:

1. Стюарт Т. Интеллектуальный капитал. Новый источник богатства /Т. Стюарт .- М.: Format, 2009. – 468 с.

2. Нонака И. Компания – создатель знания. /И.Нонака, Х.Такеучи М.: ЗАО «Олимп-Бизнес», 2008. –503 с.

3. Лукичева Л. И. Управление интеллектуальным капиталом./ Л.И. Лукичева. -

Омега-Л, 2008.-350 с.

4. Брукинг Э. Интеллектуальный капитал., СПб, 2001. с. 214.

5. Козырев А.Н., «Экономика интеллектуального капитала», «Санкт-Петербургский Государственный Университет Научно–исследовательский Институт Менеджмента, Научные доклады», СПб. 2006, №7(R), с.8

6. Тугускина Г. Н., «Интеллектуальный капитал — прорывной фактор экономики», "Управление персоналом" N22 2008; http://www.top-personal.ru/issue.html?1814 [просмотр от 22.12.2014]

7. http://www.kylbakov.ru/page110/page184/index.html[просмотр от 21.12.2014]

8. http://www. oceantomo. com/about/intellectualcapitalequity[просмотрот 20.12.2014]

Abstract

CURRENT STATE AND TENDENCIES OF DEVELOPMENT OF THE INTELLECTUAL CAPITAL

Rena HUSEYNOVA

ASEU, department of "Information economy and technologies" Ph.D student

Keywords: intellectual capital, human capital, intellectual property, economic theory, company

In article the essence of the intellectual capital and its theoretical features are analyzed. The author investigates such important questions as historical materials of economic thought of the economic theory, concerning the intellectual capital, the factors generating synergetic effect of the intellectual capital, various intercomponent features of the intellectual capital, etc. At the end of the article the author reflects the scientific conclusions.

Резюме

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ТЕНДЕНЦИИ РАЗВИТИЯ ИНТЕЛЛЕКТУАЛЬНОГО КАПИТАЛА

Рена ГУСЕЙНОВА

АГЭУ, кафедра «Информационная экономика и технология», докторант

Ключевые слова: интеллектуальный капитал, человеческий капитал, интеллектуальная собственность, экономическая теория, компания

В статье анализируется сущность интеллектуального капитала и её теоретические особенности. Автор исследует такие важные вопросы как исторические материалы экономической мысли экономической теории, касающихся интеллектуального капитала, факторы, порождающие синергетический эффект интеллектуального капитала, различные межкомпонентные особенности интеллектуального капитала и др. В конце статьи автор отражает свои научные выводы.

NEFT GƏLİRLƏRİ, BÜDCƏ XƏRCLƏRİ VƏ İNFLYASİYA

Taleh MƏMMƏDOV
Azərbaycan Universiteti, dissertant

Rəyçi: i.ü.f.d. Səkinə Hacıyeva
Açar sözlər: Neft gəlirləri, Neft Fondundan transfertlər, büdcə xərcləri, İnflyasiya, M0 və M2 pul aqreqatları

Neft gəlirləri, büdcə xərcləri, inflyasiya arasındakı əlaqələr makroiqtisadi prosesləri özündə əks etdirir, bütünlüklə cəmiyyətimizi maraqlandıran mövzudur. Cəmiyyətin bütün subyektləri istəyir ki, ölkəmizin gəlirləri və valyuta ehtiyyatları artsın, büdcə xərcləri səmərəli və təyinatı üzrə istifadə edilsin və inflyasiya - qiymət artımı olmasın. Statistik məlumatlar göstərir ki, Azərbaycanda neft gəlirləri, büdcə xərcləri, inflyasiya artan dinamika nümayiş etdirir. Ölkəyə sürətli pul axımı və onun iqtisadiyyata yönəldilməsi dövriyyədə pul artıqlığı yaradır və inflyasiyaya səbəb olur. Ona görə də neft gəlirləri, büdcə xərcləri, inflyasiya mövzusunu araşdırmaq, onların bir-biri ilə əlaqəsini təhlil etmək, ölkəmiz üçün çox aktualdır.

Məqalədə statistik məlumatlardan istifadə edilərək illər üzrə neft gəlirləri, büdcə gəlir və xərcləri, inflyasiya ilə bağlı göstəricilərin müqayisəsi aparılmış, onların bir-biri ilə əlaqəsi araşdırılmışdır. Məqalədə həmçinin dövlətin bu istiqamətdə həyata keçirdiyi tədbirləri vurğulamaqla yanaşı, müəyyən tövsiyyə xarakterli fikirlər qeyd edilmişdir.

1994-cü ildən bəri Azərbaycanda neft sənayesində xarici tərəfdaşlarla birgə aparılan uğurlu işlərin nəticəsi kimi, ölkəmizə böyük miqdarda neft gəlirləri daxil olmağa başlayıb. Əsrin müqaviləsi 1994-cü ilin sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 13 ən iri neft şirkəti ilə bağlanılmışdır. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı. İri həcmdə neft gəlirləri ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və Respublikamız üçün parlaq inkişaf imkanları açır. Ümumiyyətlə, neft fondu yaratmaqda əsas məqsəd cari neft gəlirlərilə, indiki xərcləri bir-birindən bacardıqca çox ayırmaqdan ibarətdir. Bu o qədər də asan olmayan bir məsələdir. Belə ki, indiki nəsil istəyir ki, qısa müddətdə neft gəlirlərinin bəhrəsini görsünlər. Bu isə o zaman mümkün olardı ki, neft gəlirləri ya əhali arasında bölünsün, ya da istehlak məqsədilə dövlət tərəfindən təşkil olunmuş şəkildə xərclənsin. Amma, dünya ölkələrinin tarixi təcrübəsi göstərir ki, zəif qeyri-neft sektoru və

tam inkişaf etməmiş maliyyə sistemi olan ölkələrdə neft gəlirlərinin indiki nəsil vətəndaşlar arasında bölünməsi və ya istehlaka xərclənməsi neft gəlirlərinin ümumi faydasını ciddi şəkildə azaldır və həm də böyük makroiqtisadi sarsıntılara səbəb ola bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Neft Fondu əsasən yığım məqsədilə yaradılan bir fonddur. Azərbaycanda Dövlət Neft Fondunun yaradılması çox düzgün və vaxtında atılmış bir addım idi. Hökumət ARDNF-nin yaradılması və onun vəsaitlərindən istifadə edilməsi istiqamətdə həm institusional, həm də proqram xarakterli bir sıra uğurlu işlər görüb.

Azərbaycanın təsdiq olunmuş neft ehtiyatı 7 milyard barel, qaz ehtiyatı isə 1,38 trilyon kubmetrdən bir az artıqdır. 2013-cü ildə 44.3 mln ton, hazırda isə respublikamızda gündəlik 877 min barel neft hasil edilir. (BP şirkətinin 2014-ci ilin sonuna olan məlumatı) [2, http://www.bp.com/en/global/corporate/about-bp/energy-economics/statistical-review-of-world-energy.html]

Azərbaycana 2000-ci ildən başlayaraq neft gəlirləri axmağa başlamışdır. Bu dövrdən sonra neft istehsalının illər üzrə artması müşahidə olunmuşdur. İlk illərdə əldə edilən gəlirlərin yeni layihələrə sərf olunması və Bakı - Tbilisi - Ceyhan neft kəmərinin çəkilməsi neft ixracının artımına səbəb olmuşdur ki, bu da öz növbəsində xarici ölkələrə neft nəql etmə gücünü artırdı. Bundan əlavə olaraq, neftin qiymətlərində olan artım fondun gəlirlərinin artmasına şərait yaratdı. Müxtəlif illərdə Azərbaycanın neft gəlirləri və Azərbaycan neftinin orta illik dünya bazar qiyməti aşağdakı cədvəldə göstərilmişdir.

Cədvəl 1.

[5, http://www.bp.com/en/global/corporate/about-bp/energy-economics/statistical-review-of-world-energy.html]

	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013
neft gəlirləri mln manatla	470	294.9	364	316.5	660	986	1886	11864	8274	13088	15628.3	13674	13600
1 barel neft ABŞ dolları ilə	24.9	26	28.84	38.1	54	59	64	98	62	93	120	110	107.9

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 dekabr 2013-cü il tarixli Fərmanı ilə Dövlət Neft Fondunun 2014-cü il üçün büdcəsi təsdiq edildi. Neft Fondunun təsdiq olunmuş büdcəsinə uyğun olaraq, 2014-cü ildə Fondun gəlirlərinin 11 626 943,4 min manat, xərclərinin isə 11 349 934,8 min manat təşkil etməsi nəzərdə tutulur.

Dövlət Neft Fondunun 2014-cü il büdcəsinin gəlirlərinin aşağıdakı daxilolmalar hesabına formalaşması nəzərdə tutulur: [5, http://www.oilfund.az/az_AZ/hesabatlar-ve-statistika/-hesabat-arxivi.asp]

Cədvəl 2

№	Gəlir mənbələri	Gəlirlərin məbləği (min manat)
1	Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla)	11 221 286,4
2	Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər	1 661,6
3	Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər	6 276,0
4	Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər	379 580,7
5	Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar	18 038,7
6	Qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalar	100,0
	Cəmi:	**11 626 943,4**

Bununla belə, bəzi önşərtlərə (hasilatın istismar və investisiya xərclərinin gözlənilən dinamikası, nəqliyyat xərcləri və eləcə də dünya bazarında neftin gözlənilən qiymətləri haqqında fərziyyələr) əsaslanaraq gözlənilən gəlirləri qiymətləndirməyə cəhd etmək mümkündür. Belə cəhdlər edilir. Həm ABŞ, ARDNŞ, həm də ARDNF tərəfindən önşərtlərə əsaslanaraq və xam neftin qiyməti üçün 5 ssenarini (bir barel üçün 18, 25, 35, 45 və 60 dollar) nəzərdən keçirərək gözlənilən gəlirlərə dair hesablamalar aparmaq olar ki,bunun nəticəsi də aşağıdakı qrafikdə əks etdirilir.

Cədvəl 3 [6, www.farcenter.az/general/.../Hesabat%20-%]



Gördüyümüz kimi, 2024-cü ilin sonuna, yəni kontraktın başa çatma müddətinə Azərbaycanın kumulyativ mənfəət neftinin dəyəri neftin qiymətindən (bir barel üçün 18, 25, 35, 45 və 60 dollar) asılı olaraq 50-210 mlrd ABŞ dolları ola bilər. Onu da qeyd edək ki, cari neft gəlirləri neft fondundan müxtəlif böyük layihələrə sərf olunur. Bunlardan qaçqın və məcburi köçkünlər üçün yaşayış yerlərinin tikilməsi, Bakı Tbilisi Ceyhan neft kəmərinin çəkilməsi, Oğuz-Qəbələ su kəmərinin, Bakı Tbilisi Qars dəmir yolunun çəkilişini və.s göstərmək olar. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2014-cü il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir.

Cədvəl 4

[5, http://www.oilfund.az/az_AZ/hesabatlar-ve-statistika/hesabat-arxivi.asp

№	Xərclər	Xərclərin məbləği (min manat)
3.1.	Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi	300 000,0
3.2.	Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsinə transfert	9 337 000,0
3.3.	Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi	80 221,3
3.4.	Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi	132 311,0
3.5.	2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi	33 680,0
3.6.	Azərbaycan Respublikasında bütün yaşayış məntəqələrinə çıxış imkanı yaradan yüksək sürətli fiber-optik şəbəkənin qurulması layihəsinin maliyyələşdirilməsi	100 000,0
3.7.	Neft-Qaz və Neft-kimya Kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi	285 000,0
3.8.	Türkiyə Respublikasında "Star" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi	223 582,5
3.9.	TANAP layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi	800 000,0
3.10.	Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər	58 140,0
	Cəmi:	**11349 934,8**

Dövlət başçısı cənab İlham Əliyev "Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" sazişin təsdiq edilməsi haqqında qanunu imzalamışdır.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsinin beş il ərzində reallaşması nəzərdə tutulmuşdur. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirəcək bu layihə 7 milyard ABŞ dollarına başa gələcək. Uzunluğu təqribən iki min kilometr olan boru kəmərinin diametri 56 düyüm və ya 1,4 metr nəzərdə tutulmuşdur. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 milyard kubmetrə, 2023-cü ildə 23 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. Onu da deyək ki, ilk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhəddində təhvil veriləcək. TANAP layihəsində ARDNŞ 80 faiz, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20 faiz paya malikdir. Şübhəsiz TANAP layihəsinin reallaşması Azərbaycanın gəlirlərini daha da artıracaqdır. Neft gəlirlərinin artdığı şəraitində ölkənin qarşısında duran əsas problem isə bu gəlirlərdən səmərəli istifadəni təmin etməkdir. Onu da qeyd etmək labütddür ki, dövlət büdcəmizin gəlirlərinin əhəmiyyətli hissəsi neft fondundan ayrılan transfertlərlə formalaşır. Digər büdcə gəlirlərinin, yəni vergi və yığımların formalaşmasında Azərbaycanda fəaliyyət göstərən neft şirkətlərinin ödəmələri də mühüm paya malikdir.

Dövlət büdcəsinin gəlirləri və neft fondundan büdcəyə transfertlər aşağdakı cədvəldə göstərilmişdir.

Cədvəl 5.

	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013
Dövlət büdcəsinin gəlirləri (mln manatla)	1.225	1481	2055	3881	6006.6	10762	10326	11402	15700	17281	19496
Neft fondundan Büdcəyə transfertlər (mln manatla)	100	130	150	585	585	3800	4915	5915	9000	9905	11350

[5, http://www.oilfund.az/az_AZ/hesabatlar-ve-statistika/hesabat-arxivi.asp]

Dövlət büdcəsinin gəlirləri ildən ilə durmadan artır. Büdcə gəlirlərində cədvəldə göründüyü kimi neft fondundan transfertlər mühüm rol oynayır. Büdcəyə edilən transfertlər ölkəyə gələn neft gəlirlərinin müəyyən hissəsinin büdcə xərcləri şəklində bölünməsinə şərait yaradır. Son 10 ildə Büdcə gəlirləri 13 dəfəyə qədər artıb. 2009-cu ildən bəri büdcə gəlirlərinin 50%-dən çoxu neft fondundan transferlərlə maliyyələşir. Büdcə xərclərinin ildən - ilə artığı bir şəraitdə gəlirlərin təmin olunmaması və nəticədə neft fondundan büdcəyə əhəmiyyətli ayırmalara gətirib çıxarır. Lakin, neft ölkəsində iqtisadi siyasət elə qurulmalıdır ki, guya ki,

heç neft gəlirləri yoxdur. Ancaq bu halda neft gəlirləri ümumi iqtisadi inkişafa müsbət təsir edə bilər.

Neft gəlirləri dövlət tərəfindən əsasən üç məqsəd üçün xərcələnsə yaxşı olar:

1. İnsan kapitalının inkişafına;
2. İri infrastruktur layihələrinə;
3. Ölkədə münbit mikroiqtisadi mühitin yaradılmasına.

Fikrimizcə, neft pullarının inkişaf üçün xərclənməsi, ölkəmizin coğrafi şəraiti (regionda yeri, təbii ehtiyatları və iqlim şəraiti), iqtisadi inkişaf səviyyəsi, sosial sahədəki vəziyyət, iqtisadi, siyasi və sosial institutların hazırki inkişaf səviyyəsini nəzərə alaraq aşağıdakı istiqamətərdə istifadə edilməsi çox məqsədəuyğun olardı.

1. Neft-kimya sənayesinin inkişafına;
2. Təhsil sahəsinə;
3. Səhiyyə sahəsinə;
4. Nəqliyyat infrastrukturunun inkişafına;
5. Kənd təsərrüfatının inkişafına;
6. Turizmin inkişafına;
7. İqtisadi və insan inkişafı ilə bərabər dayanıqlı inkişafın digər mühüm amili olan.

Ekoloji balansın qurunub saxlanmasına ancaq aşağıdakı cədvəldə dövlət büdcəsinin xərc istiqamətinə nəzər salsaq yuxarıda sadalanan sahələrə ayrılan büdcə xərclərinin ümumi büdcə xərclərinin çox az bir hissəsini təşkil etdiyinin şahidi olarıq:

Dövlət büdcəsinin xərcləri.

Cədvəl 6 [3, http://www.stat.gov.az/source/finance/]

Milyon manatla

	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013
Xərclər-cəmi	1234.5	1502.1	2140.7	3790.1	6086.2	10774.2	10503.9	11765.9	15397.5	17416.5	19143.5
o cümlədən:											
İqtisadiyyata	242.9	290.9	444.7	1246.9	2350.0	4958.6	4373.9	4889.9	6803.2	6960.7	8207.5
Sosial-mədəni tədbirlərə	535.2	642.2	843.3	1049.7	1670.3	2312.5	2763.0	2901.4	3447.2	4072.9	4081.8
onlardan:											
Təhsil	234.8	294.1	372.5	479.1	723.0	979.7	1147.9	1180.8	1268.5	1453.2	1437.7
Səhiyyə	55.3	73.5	115.3	162.0	257.2	346.2	402.4	429.2	493.4	609.4	618.9
Sosial müdafiə və sosial təminat	214.0	236.5	304.9	341.5	594.8	846.4	1054.4	1123.0	1495.4	1769.5	1750.3
Mədəniyyət, incəsənət, informasiya	31.0	38.2	50.6	67.1	95.3	140.2	158.3	168.4	189.9	240.8	274.9
Elmə	16.6	20.0	28.8	32.0	43.9	62.1	83.3	92.8	106.1	116.7	117.0

Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	120.6	155.9	206.4	278.7	431.3	533.9	648.9	668.5	710.3	929.2	1049.3
Qanunvericilik və icra hakimiyyəti, yerli özünü-idarəetmə orqanlarının saxlanmasına	68.8	89.3	123.9	142.8	198.8	252.4	289.7	303.0	281.9	342.3	349.3
Sair xərclər	250.4	303.8	493.6	1040.0	1391.9	2654.7	2345.1	2910.3	4048.8	4994.7	5338.6

Müasir modernləşən respublikamızda artan neft gəlirləri ilə paralellik təşkil edən büdcə xərclərinin artımı öz növbəsində pul miqdarında meydana gələn artımla müşaiət olunmaqdadır. Cədvəldən göründüyü kimi respublikamızda inflyasiya səviyyəsi 2003-ci ildən sonra daha da güclənməyə başlamışdır və pik səviyyəyə 2008-ci ildə çatmışdır.

İnflyasiya dərəcəsi illər üzrə **Cədvəl 7-də verilmişdir.**

[4, http://www.cbar.az/lpages/statistics/key-macroeconomic-indicators/]

	2001	**2002**	**2003**	**2004**	**2005**	**2006**	**2007**	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**
İnflyasiya faizlə	1.5	2.8	2	6.7	9.6	8.3	16.7	20.8	1.5	5.7	7.9	1.1	2.4

Tarixə nəzər salsaq AR-nın milli valyutası tədavülə 15 avqust 1992-ci ildə buraxılmışdır. 1994-ci ilə qədər Rusiya rublu ilə paralel 1manat = 10 rubl nisbətdə istifadə olnurdu. 1994-cü ildə isə manat yeganə qanunu ödəniş vasitəsi oldu. 1992-94-cü ildə Azərbaycanda hiperinflyasiya dövrü olub. İnflyasiya 1992-ci ildə 1012.3%, 1993-cü ildə 1229.15%, 1994-cü ildə 1763.5% olmuşdur. Manat Rusiya rubluna nisbətən 10 dəfə, dollara nisbətən isə 245 dəfə düşmüşdür. Kasıblıq səviyyəsi 68 %-ə çatmışdır. Bundan sonra isə köklü islahatlar keçirilmiş, strategiya və proqramlar qəbul edilmişdir. Ən böyük strategiya 1994-cü ildə start götürən neft strategiyası olmuşdur. Dayanıqlı iqtisadi siyasət, islahatlar inflyasiya proseslərini zəiflətməyə başlatdı. 1996-2003-cü illərdə inflyasiya sürəti 2.3 %-dən yüksək olmamışdır [4. 201]. Cədvəl 4-ə nəzər yetirdikdə belə nəticəyə gəlmək olar ki, neft gəlirlərinin artması nəticəsində cəmiyyətdə, əhalinin gəlirlərinin artması inflyasiyanın sürətlənməsinin amili kimi qeyd edilməlidir. İnflyasiya dərəcəsi əvvəlki ilin göstəricisinə nəzərən hesablandığına görə az görsənə bilər. Lakin, 2013-cü ildə qiymətlərin səviyyəsi 2004-cü ildəki qiymətlərin səviyyəsinə nisbətən 110% dən, yəni 2.1 dəfədən çox artmışdır. Manat 2.1 dəfədən çox dəyərdən düşmüşdür. Dövlət büdcəsinin xərcləri 2003-cü ildə 1.2 mlrd manat olduğu halda, 2013-cü ildə 19.364 mlrd manata çatması Azərbaycanda inflyasiyanın canlanma amili olmuşdur. Həmçinin pul miqdarında ortaya çıxan artış, iqtisadiyyatda mal və xidmət istehsalının artmasına yol açır və ya bunu təmin edə bilirsə, bu halda qiymətlərin ümumi səviyyəsində

bir artım ortaya çıxmayacaqdır. Bəzi iqtisadçılar qeyd edirlər ki, inkişaf etmiş bir iqtisadiyyatda 2-3% səviyyəsindəki qiymət artımları, az inkişaf etmiş ölkələrdə isə 5-6% qiymət artımları təhlükəli sayılmamaqdadır. Lakin Azərbaycanda emissiya həcminin ÜDM-dəki artımından çox olması, bank kreditlərinin artması, maaşların yüksəlməsi, dövlətin müxtəlif təşviq məqsədli fəaliyyətləri (məsələn, kənd təsərrüfatı məhsullarının yüksək qiymətlərlə dövlət tərəfindən satın alınmasıyla bu pulun əlavə satın alma gücü olaraq bazara çıxması), fərdlərin yığımlarının bazara axışı kimi səbəblər bazardakı pul miqdarının artmasına və dolayısıyla inflyasiyaya yol açan faktorlar olaraq sayıla bilər. Pul dəyərinin düşməsi, keçmişə nisbətlə eyni mal, ya da xidmətin daha çox miqdarda pul xərcləmə deməkdir. Pulun dəyərdən düşməsi dövlət xərcləmələrinin rəqəm olaraq artmasına gətirib çıxaracaqdır. Pul dəyərindəki düşmənin təsiri ilə dövlət xərcləmələrində meydana gələn görünüşdəki artımı qeyd edə bilmək üçün qiymət indekslərindən istifadə edilir. Qiymət indeksləri köməyi ilə xərcləmələrdəki görünüşcə və həqiqətdə artım nisbətini təsbit etmək mümkün olar.

Azərbaycanda pul dövriyyəsini tənzimləyən əsas orqan Azərbaycan Respublikasının Mərkəzi Bankıdır. Mərkəzi Bankın əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyini təmin etməkdir. Mərkəzi Bank müxtəlif tədbirlərlə pul dövriyyəsini tənzimləməyə, dövriyyənin obyektiv tələbatından artıq pul vəsaitini yığmağa çalışır. Buna ən çox pul kredit tənzimləməsi ilə nail olur. Son illər ərzində Azərbaycan iqtisadiyyatında işgüzar fəallığın qeyri-ənənəvi yüksəlişi əsasən neft gəlirlərinin sosial-iqtisadi inkişaf məqsədləri üçün istifadəsinin davam etməsi, özəl sektorun və qeyri-neft sektorunun inkişafına dövlətin maliyyə dəstəyinin artırılması və geniş miqyaslı sosial proqramların reallaşması nəticəsində iqtisadiyyatda məcmu xərclərin (istehlak, investisiya və dövlət xərcləri) genişlənməsi ilə əlaqədar olmuşdur. Bütün bunlar pula tələbi əhəmiyyətli dərəcədə artırmışdır. Nəticədə M2 aqreqatının artım tempi Ümumi daxili məhsulun artım tempini dəfələrlə üstələmişdir. Hazırda narahatlıq doğuran problemlərdən biri də ümumi pul kütləsinin tərkibində nağd pul dövriyyəsinin (M0) üstün xüsusi çəkisidir. Mərkəzi Bankın son məlumatlarına görə, bu ilin avqust ayında müvafiq göstərici 49.5% təşkil edib. Mərkəzi Bankın məlumatına görə, bu ilin avqust ayında ötən ilin müvafiq dövrünə nisbətən manatla müddətli əmanət və depozitlərin 33% artdığı halda, manatla nağd pul kütləsi (M0) 11% artmışdır. Bu tendensiya rəsmi mövqelərdən M2 pul aqreqatının strukturunda müəyyən keyfiyyət dəyişiklikləri kimi təqdim olunsa da istənilən halda nağd pul kütləsinin də artımı mütləq mənada gizli pul axınlarının genişlənməsinə və inflyasiya yaradıcı amillərin fəallaşmasına gətirib çıxarır. Beləliklə də iqtisadiyyatda milli valyutanın məzənnəsinin bahalaşması, dövlət xərclərinin kəskin artması ilk növbədə öz mənfi təsirini qeyri-neft sektorunun inkişafında göstərməkdədir. Buna görə də Azərbaycan iqtisadiyyatının qarşısında duran həlli vacib olan məsələlərdən biri də yaxın və ortamüddətli dövrdə bu göstəricilərin artım tempinin optimal səviyyəsini müəyyənləşdirmək və ona uyğun gələn dövlət siyasətini qurmaqdan ibarətdir.

Ədəbiyyat:

1. Pul və banklar. Dərslik. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatı - 2012

2. www.bp.com
3. www.stat.gov.az
4. www.cbar.az
5. www.oilfund.az
6. http://www.farcenter.az

Abstract

OIL REVENUES, BUDGET EXPENDITURES AND INFLATION

Taleh MAMMADOV

Ph. D. student of Azerbaijan University

Keywords: oil revenues, transfers of Oil Foundation, budget expenditures, inflation, monetary aggregates M0 and M2

Oil revenues, budget spending and inflation reflects the relationship between macroeconomic developments, the issue concerning our society as a whole. All the subjects of society wants to increase our revenues and foreign exchange reserves, the efficient budget spending and to prevent inflation. Statistics show that the use of oil revenues, budget spending and inflation shows a growing trend. Rapid flow of money into the country and direction of the country's economy creates a surplus of money in circulation that causes inflation. Therefore, exploring the issue of the oil revenues, budget expenditures and inflation, analyzing their relationship with one another, is very important for our country.

Oil revenues, the budget of income and expenses, and inflation indicators are compared and the relationship between each other is investigated in the article by using the statistical data. The article also stresses the activities being implemented by the government and recommends specific ideas.

Резюме

ДОХОДЫ ОТ ПРОДАЖИ НЕФТИ, БЮДЖЕТНЫЕ РАСХОДЫ, ИНФЛЯЦИЯ

Талех МАММЕДОВ

Диссертант Университета "Азербайджан"

Ключевые слова: доходы от продажи нефти, нефтяной фонд, бюджетные расходы, инфляция, денежные агрегаты M0 и M2.

Связь между нефтяными доходами, бюджетными расходами и инфляцией отражает в себя макроэкономические процессы и в целом находится в среде интересов общественности. Все субъекты общества заинтересованы в увеличении доходов и валютных резервов страны в эффективном и целенаправленном использовании бюджетных расходов, а также в стабильной целевой политике. Статистические данные показывают растущую динамику нефтяных доходов, бюджетных расходов и инфляции в Азербай-

джане. Большой приток денег в страну и направления их в экономику создаёт избыток денег в обороте и является причиной инфляции. Поэтому исследование нефтяных доходов, бюджетных расходов и инфляции, анализ их взаимосвязи является актуальной темой.

В статье прыведена сравнения динамики нефтяных доходов, бюджетных доходов и расходов и инфляции. Отмечены мероприятия, проведенные государством в этом направлении и даны соответствующие рекомендации.

QANUNİ BANK FƏALİYYƏTİNƏ MANE OLMANIN ÜMUMİ CİNAYƏT-HÜQUQİ XARAKTERİSTİKASI: CİNAYƏTİN OBYEKTİV CƏHƏTİ

Səbuhi ƏLİYEV
Hüquq üzrə fəlsəfə doktoru

Rəyçi: h.e.n,dos. Şöhlət Kərimov
Açar sözlər: bank, kredit, zərər, kriminal əməl, cinayət, hərəkət və hərəkətsizlik

Bank sahibkarlıq subyekti olmaqla, mövcud və beynəlxalq şəraitə uyğun olaraq daim dəyişən, inkişaf edən və bu inkişafı ilə paralel olaraq hüquq sistemində yeniləşməni, uyğunlaşmanı tələb edən iqtisadiyyatın inkişaf etməsində mühüm vasitədir. Müasir bank çoxtərəfli fəaliyyət göstərərək, nəhəng pul dövriyyəsi ilə xarakterizə olunur və iqtisadiyyatın müxtəlif sahələrini maliyyələşdirməklə iqtisadi tərəqqiyə zəmin yaradır.

Pul və maliyyə dövriyyəsi, habelə bank fəaliyyəti ilə bağlı iqtisadi münasibətlərə, başqa sözlə, maliyyə-kredit sferasına (iqtisadiyyatın maliyyə-kredit sektoruna) qəsd edən cinayətlərlə mübarizə cinayət hüququnun ən aktual vəzifələrindən biri sayılır. Ölkədə bank fəaliyyətinin geniş vüsət aldığı və bu fəaliyyətə xüsusi diqqət yetirildiyi bir dövrdə, bu fəaliyyət növünün tənzimlənməsinin cinayət-hüquqi aspektləri barədə elmi araşdırmaların aparılması və bu barədə təkliflərin verilməsi olduqca zəruridir.

Aydın bir həqiqətdir ki, müasir cəmiyyət və dövlətlərdə iqtisadiyyatın öz funksiyasını lazımınca (normal) yerinə yetirməsi üçün pul gəlirlərini (pul əmanətlərini) bir yerə cəmləməyin, səfərbər etməyin və onları kapitala çevirməyin dəqiq sistemi olmalıdır; belə sistem mövcud olmadan ölkə, iqtisadiyyatının öz qarşısında duran aktual və prioritet əhəmiyyətli vəzifələri yerinə yetirməsi qeyri-mümkündür. Pul gəlirlərinin (pul əmanətlərinin) bir yerə cəmləmə, səfərbər olunma və onları kapitala çevrilmə sistemində banklar vacib yer tutaraq, həmin sistemin başlıca və əsas həlqəsi sayılır. Sahibkarlıq fəaliyyətinin subyekti sayılan banklar mürəkkəb və çox planlı səlahiyyətlərə malik olub, maliyyə sahəsində, pul tədavülü sferasında fəaliyyət göstərirlər. Onların həyata keçirdikləri fəaliyyətin predmetini pul vəsaitləri, qiymətli kağızlar və metallar kimi nemətlər təşkil edir ki, həmin nemətlər ödəniş, tədavül və pul formasında kredit funksiyalarını yerinə yetirir. Başqa sözlə ödəniş, tədavül və pul formasında kredit funksiyalarını yerinə yetirən nə varsa onların hamısı bank fəaliyyətinin predmeti olur.

Bazar iqtisadiyyatının formalaşdığı və inkişaf etdiyi müasir dünya dövlətlərində banklar ssuda kapitalının xüsusi sferasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan xüsusi növ müəssisə (təşkilat) olub, ssuda kapitalının cəmləşməsini, səfərbər olunmasını, hərəkət etməsini və bölüşdürülməsini həyata keçirir. Hüquqi şəxs statusuna malik olan banklar şəxslərin (həm fiziki, həm də hüquqi şəxslərin) sərbəst qalmış pul vəsaitlərini əmanətə (depozitə) qəbul edir, bu yolla həmin vəsaitləri geri qaytarmaq, müddətlilik və əvəzlilik şərtləri ilə öz adından və öz hesabına yerləşdirir, subyektlər üçün bank hesabı açır (onların bank hesabını aparır),

qiymətli kağızları (çekləri, vekselləri, istiqrazları və s.) ödəniş üçün qəbul edir, akkreditivlər verir, ödəniş sənədləri (kredit kartları, hesab kartları və digər ödəniş sənədləri) buraxır, pul köçürmələrini və elektron ödənişlərini həyata keçirir, eləcə də bir sıra digər əməliyyatlar aparır, əqdlər bağlayır.

Bank fəaliyyətinin nə qədər önəmli, əhəmiyyətli və vacib olmasını göstərmək üçün təkcə onu qeyd etmək kifayətdir ki, bankların köməyi və vasitəsi ilə xalq təsərrüfatının, iqtisadiyyatın ayrı-ayrı sahələrinin (sənayenin, ticarətin, nəqliyyatın və s.) və kənd təsərrüfatının maliyyələşdirilməsi (kreditləşdirilməsi) həyata keçirilir. Təsadüfi deyildir ki, kredit əməliyyatı bank fəaliyyətinin əsası və məğzi sayılır. Təbiidir ki, ölkə iqtisadiyyatı və xalq təsərrüfatı üçün son dərəcə böyük əhəmiyyəti olan bank fəaliyyətinin həyata keçirilməsi cinayətkar qəsdlərdən, ictimai təhlükəli əməllərdən, qorunmalı, müdafiə edilməlidir, onlarla mübarizə aparılmalıdır. Bunu üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (AR CM-nin) 190-cı maddəsi belə əməllərdən birinə, yəni mühüm sahibkarlıq subyekti olan, qanuni bank fəaliyyətinə mane olmağa görə cinayət məsuliyyəti nəzərdə tutur [2, səh. 177].

Həmin maddənin 1-ci hissəsində deyilir ki, fərdi sahibkarın və ya kommersiya təşkilatının qeydiyyatından qanunsuz olaraq imtina etmə və ya onların qeydiyyatından boyun qaçırma, müəyyən fəaliyyət növünü həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz olaraq imtina etmə və ya onun verilməsindən boyun qaçırma, təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq fərdi sahibkarın və ya kommersiya təşkilatının hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma, habelə fərdi sahibkarın və ya kommersiya təşkilatının müstəqilliyini qanunsuz məhdudlaşdırma və ya onların fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə, bu əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən sui-istifadə etməklə törədildikdə beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.[2, səh. 178].

AR CM-nin göstərilən maddəsi qanuni bank fəaliyyətinin həyata keçirilməsinə mane olmaq kimi ictimai təhlükəli kriminal əmələ tətbiq olunmalıdır. Başqa sözlə əgər qanuni bank fəaliyyətinə mane olunarsa, belə əməllər AR CM-nin 190-cı maddəsi ilə tövsif edilməlidir. Bunun iki səbəbi vardır. Birinci səbəb ondan ibarətdir ki, AR CM-nin 190-cı maddəsi, onun adından açıq-aşkar göründüyü kimi, qanuni sahibkarlıq fəaliyyətinə mane olmağa görə məsuliyyət nəzərdə tutur.

Əvvəldə qeyd etdiyimiz kimi bank fəaliyyəti mühüm sahibkarlıq növlərindən biri, bankların özü isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan xüsusi xarakterli müəssisə (təşkilat) sayılır. Məlum olduğu kimi banklar öz hüquqi statusuna görə kommersiya təşkilatı sayılır. Ona görə ki, banklar kommersiya təşkilatları üçün xarakterik olan iki əlamətə cavab verir: AR Mülki Məcəlləsinin (MM-in) 43-cü maddəsinin 5-ci hissəsində göstərilən həmin əlamətlər bunlardan ibarətdir: birincisi, kommersiya təşkilatlarının fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarətdir; ikincisi, kommersiya təşkilatları götürülən mənfəəti iştirakçılar arasında bölüşdürən hüquqi şəxslərdir [3, səh. 79]. Heç kəsə sirr deyildir ki, banklar mənfəət götürmək və götürülən mənfəəti iştirakçılar arasında bölüşdürmək məqsədi ilə yaradılır.

AR CM-nin 190-cı maddəsində məhz kommersiya təşkilatının (o cümlədən fərdi

sahibkarın) dövlət qeydiyyatından qanunsuz olaraq imtina etməyə və digər hərəkətlərə görə məsuliyyət nəzərdə tutulur; bu hərəkətlər isə öz növbəsində qanuni sahibkarlıq fəaliyyətinə mane olmanı ifadə edir. Deməli bankların dövlət qeydiyyatından qanunsuz olaraq imtina edilərsə və digər qanunsuz hərəkətlərə yol verilərsə, bu kimi hərəkətlər qanuni sahibkarlıq fəaliyyətinə mane olmaq kimi ictimai təhlükəli kriminal əməlin törədilməsinə səbəb olur; belə əməl isə məlum və aydın məsələdir ki, AR CM-nin 190-cı maddəsi ilə tövsif edilməlidir.

Bank fəaliyyətinə mane olma kimi ictimai təhlükəli kriminal əmələ ümumi cinayət-hüquqi xarakteristika verərkən hər şeydən öncə onu qeyd etməliyik ki, həmin əməl AR Konstitusiyasının (o cümlədən digər qanunlarının) 59-cu maddəsinin sahibkarlıq fəaliyyətinin azad və sərbəst şəkildə həyata keçirilməsi üçün verdiyi təminatı pozan vəzifəli şəxslərin törətdiyi cinayətlər sırasına aiddir. Azad sahibkarlıq hüququnun həyata keçirilməsi prinsipindən çıxış edən həmin maddədə deyilir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər [1]. Bu səbəbdən istənilən şəxs başqaları ilə birlikdə azad və sərbəst şəkildə bank fəaliyyəti ilə məşğul ola bilər.

İqtisadi fəaliyyəti, eləcə də sahibkarlığı həyata keçirmənin metodu sayılan bank fəaliyyəti bu fəaliyyətlə məşğul olan bankların müstəqil olmalarını nəzərdə tutur. Bankların müstəqil olmaları isə banklara, onların fəaliyyət istiqamətlərini, formalarını və metodlarını müəyyən edən hər hansı orqanın rəhbərlik etməməsi deməkdir. Səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxsləri qanuni sahibkarlığın, o cümlədən qanuni bank fəaliyyətinin həyata keçirilməsi üçün AR Konstitusiyası səviyyəsində verilən təminatı pozmamalıdırlar ki, bu onların üzərinə düşən əsas vəzifələr sırasına daxildir. Əgər onlar belə təminatı pozarlarsa, bu qanuni sahibkarlıq, o cümlədən qanuni bank fəaliyyətinə mane olmağa yönələn əməlin törədilməsi deməkdir və ya vəzifəli şəxslərin etdiyi cinayət sayılır; həmin əməl isə qeyd etdiyimiz kimi AR CM-nin 190-cı maddəsi ilə nəzərdə tutulan məsuliyyətə səbəb olur.

Qanuni bank fəaliyyətinə mane olma kriminal əməlinin obyektiv cəhəti. Cinayət hüquq nəzəriyyəsindən bizə məlumdur ki, cinayətin obyektiv cəhəti dedikdə, Cinayət Məcəlləsi (cinayət qanunu) ilə qorunan obyektlərə (ictimai münasibətlərə) zərər (ziyan) vuran ictimai təhlükəli kriminal qəsdi xaricən xarakterizə etməyə imkan verən mühüm, zəruri və kifayət edən əlamətlərin (elementlərin) məcmusu başa düşülür. Bank fəaliyyətinə mane olma cinayətinin obyektiv cəhətinə gəldikdə isə, qeyd etməliyik ki, həmin cinayət maddi deyil, formal tərkibli cinayət sayılır. Cinayət hüquq nəzəriyyəsindən bildiyimiz kimi, formal tərkibli cinayətlərin obyektiv cəhətinin məcburi əlaməti (elementi) qismində yalnız ictimai təhlükəli əməl (kriminal hərəkət və ya hərəkətsizlik) çıxış edir. İctimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizlik) törədildiyi andan formal tərkibli cinayət başa çatmış sayılır.

Bank fəaliyyətinə mane olma kimi formal tərkibli cinayətin obyektiv cəhətinin məcburi əlamətinə (elementinə) gəldikdə isə, qeyd etmək vacibdir ki, bank fəaliyyətinə mane olma əməlinin özü həmin cinayətin, yəni AR CM-nin 190.1. maddəsində nəzərdə tutulan cinayətin obyektiv cəhətinin məcburi əlaməti (elementi) hesab edilir. Həmin maddədə göstərilən

cinayətin obyektiv cəhəti bank fəaliyyətinə mane olma kimi əməldə ifadə olunur ki, həmin əməl vəzifəli şəxsin öz qulluq mövqeyindən sui-istifadə etməsi ilə törədilir. Bank fəaliyyətinə mane olma dedikdə isə, bu və ya digər əngəlin yaradılması başa düşülür ki, bunun nəticəsində bank fəaliyyətinin həyata keçirilməsi mümkün olmur. Digər tərəfdən həm də elə bir şərait yaradılır ki, bu şəraitdə bank fəaliyyəti ilə məşğul olmağın qarşısı alınır.

Qanuni bank fəaliyyətinə mane olma əməli AR CM-nin 190.1. maddəsinin dispozisiyasında sadalanan bir neçə alternativ hərəkətdə ifadə olunur. Bu səbəbdən qanuni bank fəaliyyətinə mane olma cinayətlərin alternativ növünə aiddir. Cinayət hüquq nəzəriyyəsindən məlum olduğu kimi, cinayətin obyektiv cəhəti alternativ hərəkətlərdə ifadə olunur; cinayətin törədilməsi üçün alternativ hərəkətlərdən birinin edilməsi kifayətdir. Alternativ hərəkətlərdən məhz birinin törədilməsi cinayətin başa çatmasına səbəb olur. Alternativ hərəkətlər isə aşağıdakılardan ibarətdir:

1) bankın qeydiyyatından qanunsuz olaraq imtinaetmə;

2) bankın qeydiyyatından boyun qaçırma;

3) bank fəaliyyətini həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən qanunsuz olaraq imtina etmə;

4) xüsusi razılığın (lisenziyanın) verilməsindən boyun qaçırma;

5) bankın hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma;

6) bankın müstəqilliyini qanunsuz məhdudlaşdırma;

7) bankın fəaliyyətinə başqa cür qanunsuz müdaxilə etmə.

Sadaladığımız alternativ hərəkətlərdən hər hansı biri vəzifəli şəxsin öz qulluq mövqeyindən sui-istifadə etməsinin köməyi və vasitəsilə törədildikdə bank fəaliyyətinə mane olunur və AR CM-nin 190.1. maddəsində nəzərdə tutulan cinayət tərkibi yaranır. Qulluq mövqeyindən sui-istifadəyə gəldikdə isə, qeyd etməliyik ki, vəzifəli şəxs ona verilmiş hüquq və səlahiyyətlərdən sui-istifadə edərsə, bu, vəzifəli şəxsin qulluq mövqeyindən sui-istifadə etməsini bildirir. Vəzifəli şəxsin öz qulluq mövqeyindən sui-istifadə etməsi həm də onda ifadə edilir ki, vəzifəli şəxs ona verilmiş hüquq və səlahiyyətləri aşır; bunun da nəticəsində qanuni bank fəaliyyətinə mane olunur. Hesab edirik ki, vəzifəli şəxsin öz qulluq mövqeyindən sui-istifadə etməsinin köməyi və vasitəsi ilə törətdiyi alternativ hərəkətlərdən hər birinin cinayət hüququ konteksində təhlilini və onların ictimai təhlükəli kriminal əməl kimi xarakteristikasını qeyd etməliyik. İlk növbədə bankın qeydiyyatından qanunsuz olaraq imtina etmə kimi cinayət əməlini nəzərdən keçirək və onun mahiyyətinə aydınlıq gətirməyə təşəbbüs göstərək.

Hər şeydən əvvəl qeyd edək ki, "Banklar haqqında" AR Qanununda göstərildiyi kimi fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir [5]. Hüquqi şəxs olması səbəbindən bank dövlət qeydiyyatına alınmalıdır.

AR Mülki Məcəlləsinin 44.1. maddəsinə qeyd olunur ki, hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Başqa sözlə hüquqi

şəxsin dövlət qeydiyyatına alınması məcburidir. Nəzərə almalıyıq ki, hüquqi şəxsin, o cümlədən bankın yaradılması bir neçə mərhələdən ibarət olan mürəkkəb prosesdir. Dövlət qeydiyyatına alınmaq həmin mərhələlərdən biri olub, vacib və mühüm hüquqi əhəmiyyət kəsb edir. Belə ki, dövlət qeydiyyatına alınmaq mərhələsində banka dövlət tərəfindən rəsmi surətdə hüquqi şəxs statusu verilir. Məhz dövlət qeydiyyatına alındığı andan bank hüquqi şəxs kimi tanınır.

Bankların dövlət qeydiyyatına alınması ilə əlaqədar münasibətlər 12.12.2003-cü il tarixli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" AR Qanunu ilə tənzimlənir [6]; burada hüquqi şəxslərin dövlət qeydiyyatına alınma qaydaları göstərilmişdir. Əgər hüquqi şəxsləri dövlət qeydiyyatına götürən orqanın səlahiyyətli vəzifəli şəxsi həmin qaydaları, yəni qanunvericiliyi pozarsa, onun bu əməli hüquqi şəxsin, o cümlədən bankın dövlət qeydiyyatından qanunsuz olaraq imtina etmə hesab edilir və AR CM-nin 190.1. maddəsi ilə nəzərdə tutulan cinayət tərkibinin yaranmasına səbəb olur. Halbuki vəzifəli şəxs tərəfindən bankın dövlət qeydiyyatına alınması üçün zəruri olan bütün əsaslar vardır.

Bankların dövlət qeydiyyatından qanunsuz olaraq imtina etmə dedikdə, dövlət qeydiyyatını aparan orqanın səlahiyyətli vəzifəli şəxsinin belə qeydiyyat üçün bütün əsasların olmasına baxmayaraq, qeydiyyatı həyata keçirməyi açıq şəkildə istəməməsi başa düşülür. Lakin dövlət qeydiyyatını həyata keçirməyi istəməyin bütün hallarını istisnasız olaraq, dövlət qeydiyyatından qanunsuz olaraq imtina etmə hesab etmək olmaz. Məsələ burasındadır ki, müəyyən hallarda dövlət qeydiyyatından imtina etmə qanuni (hüquqauyğun) sayılır; onlara dövlət qeydiyyatından qanuni imtina halları deyilir ki, həmin hallar aşağıdakılardan ibarətdir;

1) AR-nin müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər AR Konstitusiyasına, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" AR Qanununa və digər qanunvericilik aktlarına zidd olduqda;

2) ərizədə göstərilən məlumatlar və (və ya) ona əlavə edilən sənədlər yanlış olduqda;

3) yaradılan bankın məqsədləri, vəzifələri və fəaliyyət formaları qanunvericiliyə zidd olduqda;

4) firma adlarının qorunması haqqında qanunvericiliyin tələbləri pozulduqda;

5) AR-nin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsis sənədlərində aşkar edilmiş çatışmazlıqlar "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" AR Qanunu ilə müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda. Qalan digər hallar şübhəsiz ki, bankın dövlət qeydiyyatından qanunsuz olaraq imtinaetmə sayılır. İmtina etmə dedikdə, dövlət qeydiyyatı orqanının səlahiyyətli vəzifəli şəxsinin aktiv hərəkətləri başa düşülür ki, belə hərəkətlər xüsusən də ifadə oluna bilər:

1) təsis olunmaq (yaradılmaq) üçün bankdan zəruri sənədlərin (təsis sənədlərinin) qəbul olunmamasında;

2) bankın dövlət reyestrinə daxil edilməsinə yönələn lazımi hərəkətlərin edilməməsində;

3) bankın təsis edilməsi barədə müraciət edən şəxslərə dövlət qeydiyyatı haqqında şəhadətnamənin verilməməsində və s.

Bankın hansı dövlət orqanında qeydiyyata alınmasına gəldikdə, qeyd etməliyik ki, banklar

kommersiya təşkilatı olub, sahibkarlıq fəaliyyətinin subyekti sayılır. Sahibkarlıq fəaliyyətinin subyektləri isə "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" AR Prezidentinin 25.10.2007-ci il tarixli Sərəncamına əsasən, 01.01.2008-ci il tarixindən etibarən AR Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınır. Belə ki, həmin Sərəncamda AR Vergilər Nazirliyi sahibkarlıq subyektlərinin fəaliyyətinin "Bir pəncərə prinsipi" üzrə vahid dövlət qeydiyyat orqanı kimi müəyyən edilir. Əgər Vergilər Nazirliyinin səlahiyyətli vəzifəli şəxsi bankın dövlət qeydiyyatından qanunsuz olaraq imtina edərsə, o, AR CM-nin 190.1.maddəsində nəzərdə tutulan əmələ görə cinayət məsuliyyətinə cəlb olunur.

Bankın qeydiyyatından boyun qaçırma dedikdə, qeydiyyat orqanının vəzifəli şəxsinin zəruri təsis sənədlərini təqdim edən bankı müəyyən edilmiş müddətdə qeydiyyata almaq kimi öz üzərinə düşən vəzifəni yerinə yetirməməsi başa düşülür. Bu, qanuni bank fəaliyyətinə mane olmağın gizli formasıdır. Özü də bankın qeydiyyatından boyun qaçırma rəsmi xarakter daşımır. Bu cəhəti ilə o, barəsində danışdığımız əvvəlki cinayət-hüquqi hərəkətdən, yəni bankı qeydiyyata almaqdan qanunsuz olaraq imtina etmədən fərqlənir. Belə ki, bankı qeydiyyata almaqdan qanunsuz olaraq imtina etmə kimi hərəkət rəsmi xarakter daşıyır.

AR MM-in 44-cü maddəsinə görə, hüquqi şəxslər xüsusi icazə (lisenziya) alınması tələb edilən və zəruri olan fəaliyyət növləri ilə məşğul ola bilərlər. Bu kimi fəaliyyəti həyata keçirmək hüququ isə xüsusi icazə (lisenziya) alındığı andan və ya xüsusi icazədə (lisenziyada) göstərilən vaxtda əmələ gəlir. Bank fəaliyyəti məhz xüsusi icazə (lisenziya) alınması tələb edilən və zəruri olan fəaliyyət növlərindən biri sayılır. AR Prezidentinin 03.09.2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında" Qaydalarına görə bank fəaliyyəti lisenziya alınması tələb edilən fəaliyyət növlərinə aid edilir. "Banklar haqqında" AR Qanunu da bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyanın və icazənin alınması haqqında göstəriş ifadə edir. Bu qanun həm də bank fəaliyyətini həyata keçirmə üçün lisenziyanın, habelə icazələrin verilməsi qaydalarını müəyyən edir; qanunun II fəsli məhz həmin qaydaların tənzimlənməsinə həsr edilmişdir.

Bank lisenziyası dedikdə, "Banklar haqqında" Qanunla müəyyən edilmiş qaydada verilən, fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılmalı olan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıq başa düşülür. Bank fəaliyyəti üçün lisenziya qanunvericiliyə uyğun olaraq AR Mərkəzi Bankı tərəfindən verilir. Yazılı formada və müddətsiz olan bank lisenziyası AR Mərkəzi Bankı tərəfindən verildiyi gündən qüvvəyə minir.

Bank lisenziyası alınması üçün bankın təsisçiləri və ya qanunvericiliyə müvafiq qaydada vəkil edilmiş şəxslər AR Mərkəzi Bankına müraciət etməlidirlər. Müraciətin forması və məzmunu, ona əlavə edilən sənədlər AR Mərkəzi Bankının normativ xarakterli aktları ilə müəyyən edilmiş tələblərə cavab verməlidir. İlk növbədə söhbət AR Mərkəzi Bankının İdarə Heyətinin 17.09.2013-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Bank lisenziyalarının və

icazələrin alınması üçün müraciət qaydaları haqqında təlimat"ından gedir.

Bank lisenziyasının alınması üçün edilən müraciətə iki mərhələdə baxılır. Birinci mərhələ ilkin müraciət edilməsini və ona baxılmasını nəzərdə tutur. İkinci mərhələ isə bank dövlət qeydiyyatına alındıqdan sonra bank lisenziyası almaq üçün yekun müraciət edilməsindən və ona baxılmasından ibarətdir. İlkin müraciətə bir sıra sənədlər əlavə olunur ki, həmin sənədlərin siyahısı "Banklar haqqında" Qanunun 8.2-ci maddəsində verilir. AR Mərkəzi Bankı bank lisenziyası alınması üçün ilkin müraciətə müsbət baxdıqda (ilkin müraciətə müsbət baxılması haqqında qərar qəbul etdikdə) yekun müraciətə baxılır. Yekun müraciətə də bir sıra sənədlər əlavə edilir ki, həmin sənədlər "Banklar haqqında" Qanunun 8.10-cu maddəsi ilə müəyyən edilmişdir. AR Mərkəzi Bankı yekun müraciətə və əlavə olunmuş sənədlərə ən geci 30 təqvim günü müddətində baxmalıdır. Əgər yekun müraciətdə və ya ona əlavə edilmiş sənədlərdə səhvlər, eləcə də çatışmamazlıqlar müəyyən edilməzsə, AR Mərkəzi Bankı bank lisenziyasının verilməsi haqqında qərar qəbul edir və bu barədə müraciət edənlərə 5 təqvim günü müddətində yazılı bildiriş göndərir.

Əgər AR Mərkəzi Bankının vəzifəli şəxsi bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilməsindən qanunsuz olaraq imtina edərsə, onun bu əməli (hərəkəti) AR CM-nin 190.1-ci maddəsi ilə nəzərdə tutulan cinayət tərkibini yaradır və məsuliyyətə səbəb olur. Əvvəldə qeyd etdiklərimizin məna və mahiyyətindən görünür ki, "imtina etmə" dedikdə, AR Mərkəzi Bankının vəzifəli şəxsinin fəal hərəkətləri başa düşülür; bu hərəkətlər isə ona gətirib çıxarır ki, bank fəaliyyətini həyata keçirmək üçün lisenziya (bank lisenziyası) verilməsindən qanunsuz olaraq imtina edilir. Bu istiqamətdə AR Mərkəzi Bankının vəzifəli şəxsinin fəal hərəkətləri ifadə oluna bilər:

1) bank fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan sənədlərin qəbul edilməməsi (burada AR Mərkəzi Bankının vəzifəli şəxsi heç bir əsas olmadan sənədləri qəbul etmir);

2) bank lisenziyasının AR Mərkəzi Bankı tərəfindən tərtib edilən mərkəzi reyestrə daxil edilməsi üçün zəruri olan hərəkətlərin edilməməsi (burada AR Mərkəzi Bankının vəzifəli şəxsi reyestrə bank lisenziyasının verilməsi haqqında məlumatı daxil etmir);

3) bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilməməsi (burada AR Mərkəzi Bankının vəzifəli şəxsi heç bir qanuni əsas olmadan bank lisenziyasını vermir).

Bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilməsindən qanunda nəzərdə tutulan hər hansı əsasa görə imtina oluna bilər ki, buna qanuni imtina halları deyilir. Qanuni imtina halları mövcud olduqda AR Mərkəzi Bankının vəzifəli şəxsi bank lisenziyasının verilməsindən imtina edə bilər və onun bu əməli AR CM-nin 190-cı maddəsi ilə nəzərdə tutulan kriminal əməlin törədilməsinə səbəb olmur və cinayət sayılmır. Qanuni imtina hallarının nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, belə hallar bank lisenziyasının verilməsi şərtlərinə zidd olan və onları pozan hallardır. Bank lisenziyasının verilməsi şərtləri isə "Banklar haqqında" AR Qanununun 14-cü maddəsində sadalanır; yalnız həmin şərtlər gözlənildikdə və onlara əməl olunduqda bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilə bilər. Əgər qanunla müəyyənləşdirilmiş şərtlər gözlənilməzsə və onlara əməl olunmazsa, təbiidir ki, AR Mərkəzi Bankının vəzifəli şəxsi bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya

verilməsindən imtina edə bilər və qanuni olması səbəbindən belə imtina cinayət məsuliyyətinə səbəb olmur. Qanuni imtina halları "Banklar haqqında" AR Qanununun 14-cü maddəsinə uyğun olaraq aşağıdakılardan ibarətdir:

1) bankın ilkin nizamnamə kapitalının AR Mərkəzi Bank tərəfindən ilkin müraciətin təsdiq edildiyi zaman müəyyən edilmiş miqdardan az olması;

2) mühüm iştirak paylarının sahibi olan bir və ya bir neçə təsisçisinin banka təsirinin onun etibarlı və prudensial idarə olunması üçün təhlükə törədəcəyinə əsaslar verən faktların məlum olması;

3) bank ilə mühüm iştirak payı olan xarici bank və ya xarici bank holdinq şirkəti arasında münasibətlər AR Mərkəzi Bankının nəzarət funksiyalarını həyata keçirməsinə mane olması;

4) mühüm iştirak paylarının sahibləri olan fiziki şəxslər və hüquqi şəxslərin icra orqanlarının rəhbərlərinin məqbul və lazımi keyfiyyətlərə malik şəxslər olmamaları;

5) digər hallar.

Eyni zamanda belə halların qəti və dəqiq siyahısı "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun 11-ci maddəsində də verilmişdir ki, onlara aiddir [10]:

1) xüsusi razılıq (lisenziya) verilməsi qaydalarında nəzərdə tutulmuş sənədlər təqdim olunmadıqda;

2) ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

3) müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün ərizəçilərin zəruri şəraiti olmadıqda;

4) müəyyən ixtisas tələb edən fəaliyyət növü ilə məşğul olmaq üçün müraciət etmiş ərizəçi, bu fəaliyyət növü ilə məşğul olmaq üçün mütəxəssislərin işə cəlb ediləcəyi nəzərdə tutulan hallarda isə həmin mütəxəssislər müvafiq ixtisasa malik olmadıqda;

5) qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

Qeyd olunanlara həm də onu əlavə etmək lazımdır ki, bank lisenziyasının alınması üçün AR Mərkəzi Bankına edilən müraciətdə və ya ona qoşulmuş (əlavə edilmiş) sənədlərdə səhvlərin və ya çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırılmaması da bank lisenziyası verilməsindən imtina edilməsi üçün qanuni əsas ola bilər. Belə ki, edilmiş müraciətdə və ya təqdim olunmuş sənədlərdə səhvlər və ya çatışmazlıqlar müəyyən edildikdə onların aradan qaldırılması üçün AR Mərkəzi Bankı müraciət edənlərə 15 təqvim günü ərzində müvafiq bildiriş göndərir. Əgər səhvlər və ya çatışmamazlıqlar aradan qaldırılmazsa onda AR Mərkəzi Bankı bank lisenziyasının verilməsindən imtina edir. Belə imtina halı əlbəttə ki, qanuni və əsaslı olması səbəbindən AR CM-nin 190-cı maddəsində nəzərdə tutulan cinayət tərkibini yaratmır.

Bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilməsindən boyunqaçırma, bank fəaliyyətinə mane olma cinayətinin obyektiv cəhətini xarakterizə edən alternativ hərəkətlərdən biridir. Belə ki, əgər bank lisenziyası verilməsindən AR Mərkəzi Bankının vəzifəli şəxsi boyun qaçırarsa, onun bu hərəkəti də AR CM-nin 190-cı maddəsi ilə tövsif olunan kriminal ictimai təhlükəli kriminal əməlin törədilməsinə səbəb olur. Bank lisen-

ziyasının verilməsindən boyun qaçırma dedikdə, AR Mərkəzi Bankının vəzifəli şəxsinin bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyanın qanunla müəyyənləşdirilmiş müddətdə vermək vəzifəsini yerinə yetirməməsi başa düşülür. "Banklar haqqında" AR Qanununun 8.4. və 8.11-ci maddələrinə görə, AR Mərkəzi Bankı ilkin müraciətə ən geci 90, yekun müraciətə isə ən geci 30 təqvim günü müddətinə baxmalıdır. Deməli qanunvericilik bank lisenziyasının verilməsi üçün ən geci 120 təqvim günü müəyyən edir ki, AR Mərkəzi Bankının vəzifəli şəxsi həmin müddət ərzində müraciət edənlərə bank lisenziyasını verməlidir. Əgər o, həmin vəzifəni yerinə yetirməzsə, bu, bank lisenziyasının verilməsindən boyun qaçırmanı ifadə edir. Bank lisenziyasının verilməsindən boyun qaçırma mahiyyətcə, bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyanın rəsmiləşdirilməsi müddətini (120 təqvim günü) uzatmaq olub, qanunsuz olaraq imtina etmənin passiv forması sayılır. Məsələn, AR Mərkəzi Bankının vəzifəli şəxsi bank fəaliyyətini həyata keçirməyin lazımi və zəruri olmamasını bəhanə edərək bank lisenziyasının verilməsini qeyri-müəyyən müddətə təxirə salır və yubadır. AR Mərkəzi Bankının vəzifəli şəxsi öz davranışına haqq qazandırmaq üçün hər hansı arqument gətirmir və ya ümumiyyətlə bu barədə müraciət edənlərə heç bir məlumat vermir; o, həm də öz davranışına haqq qazandırdığı hallarda da bank lisenziyası verilməsindən boyun qaçırmış olur. Bu kimi hallarda AR Mərkəzi Bankının vəzifəli şəxsi bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verməyə borclu olduğu halda, heç bir üzrlü və obyektiv səbəb olmadan, yəni qanunda nəzərdə tutulan hər hansı əsas olmadan, yalan və uydurma bəhanələrlə lisenziya verilməsi müddətini yubadır və qeyri-müəyyən müddətə təxirə salır.

İndi də bank fəaliyyətinə mane olma cinayətinin obyektiv cəhətinin ifadə olunduğu növbəti alternativ hərəkətlərdən birinə, yəni bankın hüquqlarını və ya qanuni maraqlarını məhdudlaşdırma hərəkətinə cinayət-hüquqi xarakteristika verilməsinə təşəbbüs göstərək. Qeyd etməliyik ki, heç bir vəzifəli şəxs bankların hüquqlarını və qanuni maraqlarını (mənafelərini) məhdudlaşdırmaq ixtiyarına malik deyildir; yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda bankların hüquqları və qanuni maraqları məhdudlaşdırıla bilər. Bankların hüquqlarının və qanuni maraqlarının (mənafelərini) məhdudlaşdırılmasının nə demək olduğuna gəldikdə isə, qeyd etməliyik ki, vəzifəli şəxsin istənilən hərəkəti bankların fəaliyyət sferasının daralmasına səbəb olarsa o, bankların hüquqlarını və qanuni maraqlarını (mənafelərini) məhdudlaşdırılması hesab edilir. Belə ki, qanun sahibkarlıq fəaliyyətinin subyekti kimi bankları müəyyən sferada fəaliyyət göstərmək hüququ ilə təmin edir; həmin sfera imkan verir ki, banklar öz qanuni maraqlarını təmin etsin və hüquqlarını realizə etsin (yəni həyata keçirsin). Əgər vəzifəli şəxslərin hərəkəti bu sferanın məhdudlaşdırılmasına səbəb olarsa, həmin hərəkət AR CM-nin 190-cı maddəsi ilə nəzərdə tutulan cinayət əməli sayılır. Özü də bankların hüquqlarının və qanuni maraqlarının məhdudlaşdırılmasına yönələn hərəkət təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olaraq edilməlidir.

Bankların hüquqlarının və ya qanuni maraqlarının məhdudlaşdırılması ifadə oluna bilər:

1) bu və ya digər bankın fəaliyyəti üçün diskriminasion (ayrı seçkiliyə səbəb olan) şərait yaradılması barədə normativ akt qəbul edilməsi;

2) müəyyən banka münasibətdə diskriminasiyaya (ayrı seçkiliyə) yol verilməsinə yönələn

hərəkət edilməsi;

3) hər hansı bankın hüquqlarının pozulmasına yönələn hərəkətə yol verilməsi;

4) başqa banklara münasibətdə digər bankın heç bir qanuni əsas olmadan üstünlük hüququ, güzəşt və imtiyazla təmin edilməsi;

5) bankın maliyyə-kredit bazarında iştirak etməsinə mane olan hərəkətlər edilməsi;

6) bankın üzərinə qanunsuz olaraq ayrı-ayrı kateqoriya şəxslərə xidmət göstərmək vəzifəsi qoymaq;

7) bankı qanunvericilikdə nəzərdə tutulan güzəşt və üstünlükdən məhrum etmək və s.

Bank fəaliyyətinə mane olma cinayəti həm də bankın fəaliyyətini qanunsuz məhdudlaşdırma kimi hərəkətin vasitəsi ilə də törədilə bilər. Nəzərə almalıyıq ki, kommersiya təşkilatlarının müstəqilliyini qanunsuz məhdudlaşdırma AR CM-nin 190.1. maddəsinə ifadə olunan cinayət-hüquq normasının dispozisiyasında sadalanan alternativ hərəkətlərdən biridir.

Bildiyimiz kimi sahibkarlıq fəaliyyətinin subyekti olan banklar müstəqil olub, dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir. "Banklar haqqında" AR Qanununun 2.4-cü maddəsində göstərilir ki, cari bank fəaliyyəti ilə bağlı qərarları qəbul edərkən kredit təşkilatları (o cümlədən banklar) dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməz. Odur ki, əgər dövlət hakimiyyət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri bankın fəaliyyətinə qarışarsa, bu əməl hüquqazidd müdaxilə və bankın müstəqilliyini qanunsuz məhdudlaşdırma sayıldığına görə, AR CM-nin 190.1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

Bankların müstəqilliyini qanunsuz məhdudlaşdırma müxtəlif hərəkətlərin edilməsində ifadə oluna bilər ki, həmin hərəkətlərin əhatə dairəsi kifayət dərəcədə genişdir. Özü də bankların müstəqilliyinin qanunsuz məhdudlaşdırılmasına yönələn hərəkətləri vəzifəli şəxslər törədirlər. Məsələn, belə hərəkətlərə aiddir: bankın müəyyən bank fəaliyyət növü ilə məşğul olmasının əsassız olaraq qadağan edilməsi; bank fəaliyyətinin hər hansı sferada həyata keçirilməsinə heç bir qanuni əsas olmadan mane olma; bankın müştərilərə göstərdiyi xidmətlərə görə xidmət haqlarının müəyyən edilməsi; bankın göstərdiyi xidmətlərdən istifadə edən müştəri kontingentinin seçilməsinə və müəyyənləşdirilməsinə mane olma; bankın öz fəaliyyət proqramını müstəqil surətdə formalaşdırmaq imkanına maneçilik törədilməsi və s.

Bununla yanaşı istənilən müdaxiləni bankların müstəqilliyini qanunsuz məhdudlaşdırmaq kimi hesab etmək olmaz. Belə ki, bəzi fəaliyyət növləri ilə banklar məşğul ola bilməz; "Banklar haqqında" AR Qanunu onları "banklar tərəfindən həyata keçirilməyən fəaliyyət növləri" termini ilə əhatə edir. Həmin Qanunun 33-cü maddəsinə görə, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz. Əgər banklar belə fəaliyyət növləri ilə məşğul olarsa, buna müvafiq dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən müdaxilə olunmalıdır və belə müdaxilə bankların müstəqilliyini məhdudlaşdırma (cinayət) sayılmır.

Əgər banklar qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata keçir-

məyə vəzifəli şəxslər tərəfindən məcbur edilsə, bu bankların müstəqilliyini məhdudlaşdırma hesab olunur və AR CM-nin 190.1-ci hissəsində nəzərdə tutulan cinayət tərkibini yaradır. Belə ki, "Banklar haqqında" AR Qanununun 2.4-cü maddəsində göstərilir ki, kredit təşkilatları qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata keçirməyə məcbur edilə bilməz.

Bank fəaliyyətinə mane olmaq cinayətinin ictimai cəhətdən təhlükəli olması özünü ilk növbədə onda biruzə verir ki, o, vacib sosial-iqtisadi hüquqi imkanlara malik olan şəxslərin (vətəndaşların) AR Konstitusiyasında təsbit olunan azad sahibkarlıq hüququnu pozur. Digər tərəfdən həmin cinayətin ictimai təhlükəliliyi və kriminal əməl olması qanuni sahibkarlıq fəaliyyətinə mane olmaqda ifadə olunur.

Bildiyimiz kimi, iqtisadi fəaliyyət, ümumiyyətlə onun istənilən növü, o cümlədən sahibkarlıq fəaliyyəti qanunda nəzərdə tutulmuş qayda əsasında həyata keçirilməlidir ki, həmin qayda ümumi prinsiplər müəyyən edir. Sahibkarlıq fəaliyyətini həyata keçirməyin qanunla müəyyənləşdirilmiş qaydasının ümumi prinsipləri əgər bu və ya digər ictimai təhlükəli kriminal əməlin törədilməsi səbəbindən pozularsa, belə əməl cinayət sayılır. Bu baxımdan bank fəaliyyətinə mane olma kimi ictimai təhlükəli kriminal əməl sahibkarlıq fəaliyyətini həyata keçirməyin qanunla müəyyənləşdirilmiş qaydasının ümumi prinsiplərini pozan cinayət hesab edilir.

Qeyd etməliyik ki, şəxslərin iqtisadi fəaliyyətlə məşğul olmaları ilə bağlı olaraq yaranan ictimai münasibətlərin mahiyyətini iki başlıca prinsip təşkil edir. Söhbət bir tərəfdən azad iqtisadi fəaliyyət, digər tərəfdən isə iqtisadi fəaliyyətin qanun əsasında həyata keçirilməsi kimi iki vacib və zəruri prinsipdən gedir. Əgər bank fəaliyyətinə mane olunarsa, bu əməl göstərdiyimiz iki prinsipə əsaslanan ictimai münasibətlərə qəsd edən cinayətlər sayılır; belə cinayətlər isə iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin sisteminə daxildir.

Məlum olduğu kimi səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxsi istənilən kommersiya təşkilatının, o cümlədən bankların qeydiyyatından qanunsuz olaraq imtina edərsə və ya onun qeydiyyatından boyun qaçırarsa, eləcə də digər hüquqazidd hərəkətlərə yol verərsə bu sahibkarlıq və ya digər fəaliyyət sahəsində vəzifə cinayəti sayılır. Sahibkarlıq və ya digər fəaliyyət sahəsində vəzifə cinayətləri isə iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə aiddir.

Bank fəaliyyətinə mane olma kimi ictimai təhlükəli kriminal əməli vəzifəli şəxs törədir. Bu baxımdan isə həmin əməl iqtisadi fəaliyyət sahəsində vəzifəli şəxslərin törətdikləri cinayətlər sırasına aiddir. Nəzərə almalıyıq ki, belə cinayətlər iqtisadi fəaliyyət sahəsində cinayətlərin növlərindən biri sayılır.

Sahibkarlığı və digər iqtisadi fəaliyyəti tənzim edən ictimai münasibətlərin cəmiyyətdə vacib rol oynaması, mühüm əhəmiyyət kəsb etməsi hər kəsə bəllidir. Həmin ictimai münasibətlərə hər hansı ictimai təhlükəli əməl, o cümlədən bank fəaliyyətinə mane olma əməli qəsd edərsə, belə əməl cinayət sayılır. Deməli bank fəaliyyətinə mane olma sahibkarlığı və digər iqtisadi fəaliyyəti tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlər sırasına aiddir.

Nəhayət bank fəaliyyətinə mane olmanı biz, sahibkarlıq sahəsində cinayət kimi tanımalıyıq; sahibkarlıq sahəsində olan cinayət isə iqtisadi fəaliyyət sahəsində törədilən

cinayətlərin növlərindən biri sayılır.

Beləliklə, nəticə olaraq bildirmək lazımdır ki,:

- pul və maliyyə dövriyyəsi, habelə bank fəaliyyəti ilə bağlı iqtisadi münasibətlərə, başqa sözlə, maliyyə-kredit sferasına (iqtisadiyyatın maliyyə-kredit sektoruna) qəsd edən cinayətlərlə mübarizə cinayət hüququnun ən aktual vəzifələrindən biri sayılmalıdır və ölkədə bank fəaliyyətinin geniş vüsət aldığı və bu fəaliyyətə xüsusi diqqət yetirildiyi bir dövrdə, bu fəaliyyət növünün tənzimlənməsinin cinayət-hüquqi aspektləri barədə elmi araşdırmalar aparılmalı və bu barədə təkliflər verilməlidir;
- AR CM-nin 190-cı maddəsi qanuni bank fəaliyyətinin həyata keçirilməsinə mane olmaq kimi ictimai təhlükəli kriminal əmələ tətbiq olunmalıdır;
- AR CM-nin 190-cı maddəsində məhz kommersiya təşkilatının (o cümlədən fərdi sahibkarın) dövlət qeydiyyatından qanunsuz olaraq imtina etməyə və digər hərəkətlərə görə məsuliyyət nəzərdə tutulur; bu hərəkətlər isə öz növbəsində qanuni sahibkarlıq fəaliyyətinə mane olmanı ifadə edir. Deməli bankların dövlət qeydiyyatından qanunsuz olaraq imtina edilərsə və digər qanunsuz hərəkətlərə yol verilərsə, bu kimi hərəkətlər qanuni sahibkarlıq fəaliyyətinə mane olmaq kimi ictimai təhlükəli kriminal əmələin törədilməsinə səbəb olur; belə əməl isə AR CM-nin 190-cı maddəsi ilə tövsif edilməlidir;
- İstənilən müdaxilə bankların müstəqilliyini qanunsuz məhdudlaşdırmaq kimi hesab edilməməlidir. "Banklar haqqında" AR Qanunu ilə müəyyənləşdirilən banklar tərəfindən həyata keçirilməyən fəaliyyət növləri (topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak) ilə banklar məşğul olarsa, buna müvafiq dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən müdaxilə olunmalıdır və belə müdaxilə bankların müstəqilliyini məhdudlaşdırma (cinayət) sayılmamalıdır;
- Sahibkarlıq fəaliyyətini həyata keçirməyin qanunla müəyyənləşdirilmiş qaydasının ümumi prinsipləri əgər bu və ya digər ictimai təhlükəli kriminal əmələin törədilməsi səbəbindən pozularsa, belə əməl cinayət sayılmalıdır, bu baxımdan bank fəaliyyətinə mane olma kimi ictimai təhlükəli kriminal əməl sahibkarlıq fəaliyyətini həyata keçirməyin qanunla müəyyənləşdirilmiş qaydasının ümumi prinsiplərini pozan cinayət hesab edilməlidir;
- Bank fəaliyyətinə mane olma cinayəti iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin sisteminə daxildir. Səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxsi istənilən kommersiya təşkilatının, o cümlədən bankların qeydiyyatından qanunsuz olaraq imtina edərsə və ya onun qeydiyyatından boyun qaçırarsa, eləcə də digər hüquqazidd hərəkətlərə yol verərsə, bu sahibkarlıq və ya digər fəaliyyət sahəsində vəzifə cinayəti sayılmaqla, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə aid olmalıdır. Çünki həmin ictimai münasibətlərə hər hansı ictimai təhlükəli əməl, o cümlədən bank fəaliyyətinə mane olma əməli qəsd edərsə, belə əməl cinayət sayılır və deməli bank fəaliyyətinə maneolma sahibkarlığı və digər iqtisadi fəaliyyəti tənzimləyən ictimai münasibətlərə qəsd edən cinayətlər sırasına aiddir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitusiyası. «Azərbaycan» qəzeti, 15 dekabr 2005-ci il, № 290;
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2015;
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Digesta nəşriyyatı, 2015;
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / F.Y. Səməndərovun redaktəsi ilə. Bakı: Digesta, 2014;
5. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu. 16 yanvar 2004-cü il, № 590-IIQ;
6. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" AR Qanunu, 12.12.2003-cü il, № 560-IIQ;
7. "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" AR Prezidentinin 25.10.2007-ci il tarixli Sərəncamı;
8. "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında" Qaydaları, 03.09.2002-ci il tarixli AR Prezidentin Fərmanı;
9. "Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında təlimat", AR Mərkəzi Bankının İdarə Heyətinin 17.09.2013-cü il tarixli qərarı;
10. "Sahibkarlıq fəaliyyəti haqqında" AR Qanununun, 15.12.1995, № 405;
11. Səməndərov F.Y. Cinayət hüququ. Ümimi hissə. Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2002;

Abstract

CRIMINAL LAW ASPECTS OF PREVENTION OF LEGAL BANKING ACTIVITY OBJECTIVE SIDE OF THE CRIME

Sabuhi ALIYEV

Ph.D. on law. ANAS

Key words: bank, credit, damages, criminal act, crime, action and inaction/

Being a subject of entrepreneurship, bank acts as a significant mediator for developing economy, constantly adapting to existing circumstances and to international community, as well as demanding innovations and customization in legal system.

Contemporary bank gets engaged in wide ranges of activities, is characterized by large cash turnover and establishes basis for economic progress via financing various areas of economy.

Prevention of crimes offending against cash and financial turnover, as well economic relations related to bank activity, financial-credit sphere (financial-credit sector of economy) is one of vital tasks of criminal law. Considering popularization of bank activity throughout the country, and special attention to this area, we stress the necessity of conducting scientific researches of criminal and judicial aspects of this activity regulation and making relevant suggestions.

In the context presented, the article characterizes impeding legal bank activity as crime act against bank activity, briefly analyses penal and legal norms against such crime provided by Criminal Code of the Republic of Azerbaijan.

Резюме

ОБЩАЯ УГОЛОВНО-ПРАВОВАЯ ХАРАКТЕРИСТИКА ПРЕПЯТСТВОВАНИЮ ЗАКОННОЙ БАНКОВСКОЙ ДЕЯТЕЛЬНОСТИ: ОБЪЕКТИВНАЯ СТОРОНА ПРЕСТУПЛЕНИЯ

Сабухи АЛИЕВ

к.ю.н. НАНА

Ключевые слова: банк, кредит, ущерб, криминальное деяние, преступление, действие и бездействие

Являясь субъектом предпринимательства, банк выступает в роли важного посредника развития экономики, постоянно изменяющегося для адаптации к существующим обстоятельствам и международной среде, и параллельно требующего инноваций в правовой среде. Современный банк осуществляет многогранную деятельность, характеризуется крупным денежным оборотом и создает базу экономического прогресса, финансируя различные сферы экономики.

Борьба с преступлениями, посягающими на денежный и финансовый оборот, экономические отношения, связанные с банковской деятельностью, иными словами, на финансово-кредитную сферу (кредитно-финансовый сектор экономики), является одной из актуальных задач уголовного права. В период, когда банковская деятельность приобрела немалый масштаб внутри страны, и этой сфере уделяется особое внимание, крайне необходимо проведение научных исследований в уголовно-правовых аспектах регулирования данной деятельности и подготовка соответствующих предложений.

В данном контексте представленная статья характеризует противодействие законной банковской деятельности как преступное деяние, совершаемое против банковской деятельности, и кратко анализирует уголовно-правовые нормы, предусмотренные Уголовным Кодексом Азербайджанской Республики в отношении данного преступления.

İNSAN RESURSLARI DEPATRAMENTİNİN FUNKSİONAL İNKİŞAF DİNAMİKASI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Asəf KAZIMOV
Azərbaycan Universitetinin doktorantı

Rəyçi: dos. Elşad Yusifov
Açar sözlər: insan resursları, insan resursları departamenti, funksional inkişaf

Məqalədə müəssisələrdə İnsan Resursları Departamentinin funksional inkişaf dinamikasının ümumi məqsədləri tədqiq olunur, insan resurslarının idarə edilməsinin funksiyaları və o cümlədən potensial işçi mənbələrini müəyyən etmək və seçmək imkanları nəzərdən keçirilir, həmçinin İnsan Resursları Departamentinin qarşısında duran əsas vəzifələr təhlil olunur.

İnsan anlayışının əhəmiyyətinin getdikcə artdığı bir vaxtda doğru iş üçün müvafiq insanın seçilməsi İnsan Resursları Departamentinin ən vacib vəzifələrindən birinə çevrilmişdir. Şirkətin insan resurslarına qoyulan sərmayənin əslində şirkətin məqsədlərinin həyata keçirilməsi istiqamətində məhsuldarlığını və təsirliliyini artırdığını başa düşən firmalar təlim və tərbiyəyə əhəmiyyət verməyə başlamışlar. Müasir dövrdə bir çox şirkətlər rəqabətdə uduzmamaq üçün insanı idarə edilməli olan bir resursdan çox, investisiya qoyulması lazım olan bir amil kimi görməyə başlamışlar ki, bu düşüncə tərzi İnsan Resursları Departamentinin şirkətin əsas struktur bölmələrindən birinə çevrildiyini təsdiq edir. Xüsusən bu sahədə insan resurslarının əsas funksiyaları olan müasir standartlara uyğun işçilərin seçilməsi üçün hazırlanan, peşə-ixtisas və yüksək səviyyəli menecerlər üçün tətbiq olunan psixoloji testlər, peşələr üzrə karyera və motivasiya, əməyin analitik üsullarla qiymətləndirilməsi sistemlərinin qurulması və onların baza tarif sistemi ilə əlaqələndirilməsi və vahid elektron mərkəzdən idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən də insan resursları ilə bağlı layihələrin həyata keçirilməsində insan faktoru vacib rol oynayır. Müəssisələrdə heyətin idarə edilməsi ilə paralel olaraq inkişaf etmiş bütün nəzəriyyələrin təməlini işçilərlə aparılan iş təşkil edir. İşçilərin tapılması, təhsili, əməkhaqqı sistemlərinin təşkili və əmək şəraitinin yaxşılaşdırılması kimi işçi qüvvəsi və iş ilə əlaqədar olan bütün fəaliyyətlər izah edilir. İnsan resurslarının idarə edilməsi ilə bağlı nəzəriyyələrdə çalışanlar ayrı-ayrı izah edilir. Hər bir işçinin müəssisəyə verdiyi faydanın maksimum səviyyəyə yüksəldilməsinə çalışır. İşçi qüvvəsinin idarə edilməsi fəaliyyəti idarəçilik ilə paralel təzahür etmir. Buna görə də işçilərlə rəhbərlik arasında əlaqə yaradıcı rolunu həyata keçirir. İnsan resurslarının idarə edilməsi rəhbərliyin ehtiyac duyduğu insan resurslarını təmin etmək istiqamətində fəaliyyətlərin həyata keçirilməsinə əsaslanır. İnsan gücünə olan tələbat nəzərə alınır. Planlaşdırma, müşahidə və nəzarət fəaliyyətləri burada daha çox əhəmiyyət kəsb edir [1, 393-394].

İnsan resursları ilə əlaqədar meydana çıxan problemlərin həll edilməsində məsuliyyət daşıyan şəxslər rəhbər işçilərdir. Heyətin üzvləri arasında əlaqələri inkişaf etdirmək vəzifəsini

isə insan resurslarının idarə edilməsi departamentinin rəhbəri həyata keçirir. Bu rəhbər işçi birləşdiricisi funksiyasını həyata keçirərək şirkəti bütün bir varlıq olaraq ələ alır, məhsuldarlığın yüksəlməsi istiqamətində fəaliyyətləri həyata keçirmək üçün digər bütün departamentlərin rəhbərləri ilə iş birliyi yaradır. İnsan resurslarının idarə edilməsi proaktivdir, yəni hadisələr cərəyan etməmişdən əvvəl planlar tərtib edilir və vəziyyətin yerinə yetirilməsi istiqamətində tələblər hazırlanır. Ancaq heyətin idarə edilməsi isə reaktivdir, hadisələr və problemlər meydana çıxdığı zaman onların həlli yolu axtarılır. Müəssisə daxilində işçilər mahiyyəti artıran bir amil kimi deyil, investisiya qoyulan bir resurs kimi qiymətləndirilməlidir. Buna görə də insan resurslarının idarə edilməsində əsas diqqəti cəlb edən fəaliyyətlər bunlardır: işçilərin seçilməsi, işgörmə qabiliyyətinin (performans) təyini, inkişaf və mükafatlandırma [5, 15-16].

Müəssisələrdə insan resurslarının idarə edilməsinin funksiyaları aşağıdakı istiqamətlərdə aparılmaqdadır.Bu funksiyalara:

1. İş analizləri;
2. İnsan resurslarının planlaşdırılması;
3. İnsan resurslarının seçilməsi və yerləşdirilməsi;
4. İnsan resurslarının təhsili və ixtisaslaşdırılması (treyninq);
5. Oriyentasiya (adaptasiya);
6. Əməyin ödənilməsi;
7. İşlərin qiymətləndirilməsi;
8. Əməyin motivləşdirilməsi və stimullaşdırılması;
9. Əməyin mühafizəsi;
10. Davranış məcəlləsi- daxildir.

Qeyd olunanları aydın təsəvvür etmək üçün aşağıdakı fəaliyyətlər üzrə ətraflı təsvir edək:

1. Planlaşdırma və siyasət – təşkilati strategiyanı və fəaliyyət hədəflərini dəstəkləyən və onlarla uzlaşan insan resursları planlarını və siyasətini inkişaf etdirmək. Bura aşağıdakı tədbirlər daxildir:

- Strateji məqsədlərin inkişaf etdirilməsinə kömək göstərilməsi;
- Müəssisənin məqsəd və vəzifələrinin həyata keçirilməsi üçün kadr tələbatının müəyyən edilməsi;
- İnsan Resursları planının hazırlanması və məqsədlərin həyata keçirilməsi üçün İnsan Resursları Departamentinin yaradılması.

2. Potensial işçi mənbələrini müəyyən etmək və seçmək –müəssisənin tələblərini yerinə yetirmək üçün vaxtında və məhsuldar bir yolla müvafiq işçiləri cəlb etmək lazımdır. Bura aşağıdakı tədbirlər daxildir:

- İşə götürmə qaydalarının yaradılması (tərcümeyi-hal, test müsahibə, verilmiş zəmanətlərin yoxlanılması);
- İş analizinin aparılması və vəzifə təlimatlarının yazılması;
- Vəzifələr üzrə əsas iş funksiyalarının müəyyən edilməsi və sənədləşdirilməsi;
- Müəssisənin tələbatına uyğun işə götürmə meyarlarının müəyyən edilməsi;

- Potensial namizədləri müəyyənləşdirmək məqsədilə daxili işçi heyətinin, əmək bazarının və işəgötürmə agentliklərinin qiymətləndirilməsi;
- İşəgötürmə üsullarının müəyyənləşdirilməsi və onların müəssisədə tətbiq edilməsi;
- Müəssisəni potensial namizədlərə ən yaxşı iş yeri kimi tanıtmaq və təbliğ etmək üçün strategiyanın hazırlanması.

3. İnkişaf etdirmək və məsləhət vermək – müəssisənin məqsədlərinə nail olmaq üçün lazım olan bilik və bacarıqları inkişaf etdirmək, işçilərin şəxsi məsələlərinin həllində kömək göstərmək.

4. Mükafatlandırmaq və işdə saxlamaq – yüksək göstəriciləri olan işçilərin müəssisədə qalmasını nizamlayan, müəssisənin məqsədlərinə nail olmasını dəstəkləyən və yüksək effektivliyi təmin edən müavinat və mükafatlar sistemini yaratmaq. Səciyyəvi tədbirlərə aşağıdakılar daxildir:

- Müvafiq dərəcə və yüksəlmə strukturuna əsasən işçilərin mükafatlandırılması üçün müəssisə üzrə mükafatlandırma proqramlarının yaradılması, həyata keçirilməsi;
- Maliyyə və qeyri-maliyyə meyarları əsasında həvəsləndirici mükafatlandırma proqramlarının tərtib edilməsi, həyata keçirilməsi;
- İş yerində stimullaşdırma/ruhlandırma yaratmaq məqsədilə işçilər üçün həvəsləndirici mükafatların müəyyən edilməsi.

5. Xidməti fəaliyyəti qiymətləndirmək – İnsan resurslarının idarə edilməsi ilə əlaqədar informasiyanın effektiv və dəqiq təmin və emal edilməsinə, başqa biznes sistemləri və prosesləri ilə bütövlük təşkil etməsinə nail olmaq.

6. İşdən azad etmək və başqa vəzifəyə keçirmək – işdən azadetmə və vəzifə dəyişmənin işçilərə neqativ təsirini nəzərə alaraq onun pesəkar, ədalətli və işçiyə və kollektivə mümkün qədər az təsir göstərməsinin idarə olunması Azərbaycan Əmək Qanunvericiliyi çərçivəsində təmin edilməlidir [2, 21-23].

Müəssisələrdə İnsan Resursları Departamentinin qarşısında duran əsas vəzifələrə gəldikdə isə buraya aşağıdakılar aid edilir:

1. İşəqəbul prosesini planlaşdırmaq və təşkili:

- İşçi ehtiyacını müəyyən etmək;
- Müvafiq KİV-də vakansiyalarla bağlı məlumat yaymaq;
- Təşkilatda işləyən işçiləri açıq vakansiya üzrə dəyərləndirmək;
- Daxil olan CV-ləri dəyərləndirmək və intervyu üçün namizədləri seçmək;
- İşəqəbulla bağlı namizədlər üçün müvafiq qiymətləndirmə formaları (suallar, testlər və s.) hazırlamaq;
- Uyğun namizədlərlə görüşlər aparmaq, müvafiq meyarlar üzrə onları qiymətləndirmək və seçimlə bağlı yekun qərar vermək;
- Zərurət yarandıqda müvafiq işədüzəltmə agentliklərinə müraciət etmək və onlarla işi əlaqələndirmək;
- Müəssisədə namizədlərin CV-lərindən ibarət ehtiyat məlumat bazasını yaratmaq və saxlamaq;

- Müəssisəni əmək bazarı ilə bağlı tədbirlərdə təmsil etmək (sərgilər, yarmarkalar və s.);
- Müəssisə ilə təhsil müəssisələri arasında koordinasiyanı təmin etmək və istehsalat təcrübəsi ilə bağlı işləri aparmaq;
- Müəssisə ilə müvafiq dövlət qurumları (məşğulluq mərkəzləri) arasında işə qəbul prosesindən irəli gələn məsələlərdə koordinasiyanı təmin etmək.

2. İnsan resurslarının fəaliyyətini planlaşdırmaq və idarə etmək:
- Qanunvericiliyin tələblərinə və effektiv idarəetmə prinsiplərinə uyğun olaraq hər bir işçi üçün şəxsi uçot vərəqəsi hazırlamaq;
- Məsləhətçilər və podratçılar üçün iştirak şərtlərini aydınlaşdırmaq və hazırlamaq;
- İşlə tanışlıq (orientasiya) proqramlarını hazırlamaq və həyata keçirmək;
- İşçilərlə birlikdə iş planlarını hazırlamaq;
- Etik davranış qaydalarını (işçilərlə ünsiyyət) hazırlamaq və həyata keçirmək;
- Fəaliyyətin idarə edilməsi üzrə strategiyaları hazırlamaq və həyata keçirmək;
- Aşağı fəaliyyət göstəricisinə malik işçilərin əmək müqaviləsinə xitam verilməsi proseslərini müəyyənləşdirmək və zərurət olduğu təqdirdə həyata keçirmək;
- Ehtiyat kadr potensialını planlaşdırmaq;
- Biznesin insan amili ilə bağlı dövri müqayisəli və ya spesifik təhlillər aparmaq, hesabatlar hazırlamaq və təqdimatlar keçirmək;
- Biznesin insan amili ilə bağlı statistik məlumatların təhlili və konkret həll variantlarının, təkliflərin hazırlanması;
- Müəssisənin kadr siyasətinin formalaşdırılmasında və təkmilləşdirilməsində iştirak etmək;
- Biznesin insan amili ilə bağlı proses yaxşılaşdırması, optimallaşdırma fəaliyyətlərini
- yürütmək;
- Əmək qanunvericiliyinin tələblərinə riayət olunmasını təmin etmək;
- Biznesin insan amilinin idarə edilməsi ilə bağlı İT ehtiyaclarının araşdırılması və proqram təminatı ilə bağlı məsələlərin həllində iştirak etmək [6, 52-52].

3. İşçilərin fərdi inkişafını, təlimini və karyera yüksəlişini dəstəkləmək:
- Şirkət və şöbələrdə tələb olunan bacarıqlara uyğun təlim proqramlarını (ixtisasartırma daxil olmaqla) hazırlamaq;
- İşçilərin bilik və bacarıqlarındakı boşluqları aşkar etmək üçün müvafiq strategiyalar hazırlamaq və həyata keçirmək;
- İşçilərin fəaliyyət göstəricilərini yüksəltmək və iş yerində təhlükəsizliyi və ədalətlilik prinsiplərini təmin etmək üçün iş yerində təlimlər təşkil etmək;

4. İnzibati dəstəyi idarə etmək:
- İnsan resursları ilə bağlı sənədləşmələrin aparılması üçün müvafiq proses və prosedu-

raları hazırlamaq və həyata keçirmək;
- Qanunvericiliyin tələblərini yerinə yetirmək üçün inzibati prosedurları və prosesləri hazırlamaq və həyata keçirmək;
- Milli peşə-sərişdə standartlarının hazırlanmasında iştirak etmək və ya müvafiq mütəxəssislərin iştirakını təşkil etmək;
- Peşə standartları əsasında iş yerində insan resurslarının idarə edilməsini təşkil etmək;
- Peşəkar münasibətlər qurmaq və izləmək, mükafatlar vermək, müəssisəsinin razılaşmaları və ya əmək müqavilələri barədə danışıqlar aparmaq, müvafiq mübahisələri və problemləri həll etmək.

5. Qiymətləndirmə və attestasiya:
- Təcrübə və ixtisas (kvalifikasiya) səviyyəsini müəyyən etmək və buna uyğun olaraq müvafiq tədbirlər həyata keçirmək.

6. Əmək məhsuldarlığını təhlil etmək:
- İnsan resurslarının xərclərinin monitorinqi üçün müvafiq strategiyalar hazırlamaq;
- Müəssisənin fəaliyyətini təhlil etmək üçün əmək məhsuldarlığı ilə bağlı müqayisəli göstəriciləri müəyyən etmək və nəzərdən keçirmək;
- Əmək məhsuldarlığının yüksəldilməsi üçün müvafiq strategiyalar hazırlamaq və həyata keçirmək [3, 11-12].

7. Vəzifə təlimatları

Bu prosesdən yaradılan vəzifə təlimatı ancaq işəgötürmə prosesində deyil, həmçinin başqa insan fəaliyyətlərində də istifadə olunur, məsələn, təlim və ixtisasartırma, fəaliyyət nəticələrinin qiymətləndirilməsi və məvacib strukturunun təyin olunması kimi. Tipik vəzifə təlimatı aşağıdakılardan ibarətdir:
- işin adı;
- dərəcə/maaş norması;
- iş yeri;
- tabe olduğu şəxs;
- tabe olanların sayı (aid olduğu halda);
- işin əsas məqsədinin qısa məzmunu;
- əsas vəzifələrin siyahısı;
- başqa sənədlərə istinad, məsələn, həmkarlar ittifaqı ilə müqavilə.

8. Şəxsi xüsusiyyətlər:

Şəxsi xüsusiyyətlər işə aid olan vəzifələri deyil, işin yerinə yetirilməsində vacib olan şəxsi keyfiyyətləri vurğulayır. Şəxsi keyfiyyətlər aşağıdakılardan ibarətdir:
1. Fiziki quruluş - səhhət, bədən quruluşu, xarici görünüş, davranış və nitq;
2. Nailiyyətlər - təhsil, ixtisas, təcrübə və treyninqlər;

3. Ümumi idrak - əsaslı intellektual bacarıq;
4. Xüsusi qabiliyyətlər - mexaniki, fiziki bacarıq, sözlərdən və ya təsvirlərdən istifadə etmək bacarığı; dərketmə qabiliyyəti;
5. Maraqlar - intellektual, praktiki, konstruktiv, fiziki cəhətdən fəal, ictimai, bədii;
6. Rəftar - qəbuletmə, başqaları üzərində təsir, təmkinlilik, etibarlılıq, özünə inam;
7. Şərait - yerli şərait, ailənin məşğulliyyəti;
8. Tənzimləmə - təzyiqlərə davam və insanlarla yola getmək qabiliyyəti.

9. Yeni kadrların işə götürülməsi:

İşçilərə qarşı tələblər formalaşdıqdan və müəyyən edildikdən sonra, namizədləri tanımaq, onlar arasında müqayisə aparmaq, onların təyin olunduqları vəzifəyə, müəssisənin strukturuna uyğun olmalarını ayırd etmək və sonda kimin işə götürülməsi qərarını qəbul etmək üçün metodologiya yaradılmışdır [4, 18].

Yuxarıda qeyd olunan məsələlərə yekun olaraq bu qənaətə gəlmək olar ki, İnsan Resursları Departamentinin indi başlıca vəzifə kimi bu istiqamətlərdə inkişaf dinamikası ixtisaslı və yüksək ixtisaslı insan resurslarının hazırlanması və istifadəsinin yaxşılaşdırılmasından, mövcud təhsil qanununun müasir tələblər baxımından təkmilləşdirilməsindən ibarət olub, müəssisələrdə uğurlu və davamlı insan resurslarına sahib olmaq olar.

Ədəbiyyat :

1. Biznesin təşkili və idarə edilməsi. Dərslik. ADİU. Müəlliflər Qrupu, "İqtisad Universiteti" nəşriyyatı. Bakı 2011
2. R. Ferecov. İnsan kaynakları yönetimində performans deyerleme ve uygulama. Qafqaz Universiteti nəşriyyatı. Bakı 2011
3. www.dios.az/ İnsan resursları üzrə menecer. "GOPA Consultants" və "SEFT Consulting"
4. Х.Т. Грэхем, Р. Беннетт. Управление человеческими ресурсами. Перевод с английского под редакцией Т.Ю. Базарова и Б.Л. Еремина. Москва • 2003
5. Добровинский А.П. Управления персоналом в организации. Томск 2011
6. Потемкин В.К. Управления персоналом. Питер. 2010

Abstract

THE FUNCTIONAL DEVELOPMENT DYNAMICS OF HUMAN RESOURCES DEPARTMENT AND IMPACTING FACTORS

Asaf KAZIMOV
Ph.D student of Azerbaijan University

Reviewer: Ph.D on economics Sevda Mammadova
Key words: human resources, human resources department, functional development

The article deals with the investigation of general objectives of Human Resources De-

partment, with functions of the management of human resources as well as the opportunities of consideration and determination of sources for potential employees and the analysis of priorities of Human Resources Department.

Резюме

ДИНАМИКА ФУНКЦИОНАЛЬНОГО РАЗВИТИЯ ДЕПАРТАМЕНТА ЧЕЛОВЕЧЕСКИХ РЕСУРСОВ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЭТО

Асаф КАЗИМОВ

Докторант Университета «Азербайджан»

Ключевые слова: человеческие ресурсы, Департамент Человеческих ресурсов, функциональное развитие

В статье рассматриваются общие цели динамики функционального развития Департамента Человеческих Ресурсов на предприятиях, функции управления человеческими ресурсами, в том числе исследуются возможности выбора и определения источников потенциальных служащих, а также анализируется основные задачи стоящие перед Департаментом Человеческих Ресурсов.

KLASTER TƏŞƏBBÜSLƏRİNİN REALLAŞDIRILMASININ REGİONAL İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Asif HEYBƏTOV
AMEA, İqtisadiyyat İnstitutunun doktorantı,
Azərbaycan Universitetinin baş müəllimi

Rəyçi: i.ü.f.d. S.A. Hacıyeva
Açar sözlər: innovasiya məhsulları, klaster təşəbbüsü, rəqabət mühiti, dövlət tənzimlənməsi, yüksək texnologiyalar

Məqalədə başlıca məqsəd dünya təcrübəsində ayrı-ayrı ölkələrin innovasiyalı inkişaf strategiyalarında klasterlərin yaradılmasında dövlətin rolunu və bu proseslərin xüsusiyyətlərini aşkara çıxarmaq, bu tənzimlənmənin təsirini qiymətləndirməkdən ibarətdir. Bunun üçün məqalədə bir neçə vəzifə müəyyənləşdirilmişdir ki, bunlardan aşağıdakıları qeyd etmək olar: klasterləşdirmə prosesləri arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək, klasterlərin rəqabətqabiliyyətliliyinin güclənməsi və innovasiya fəaliyyətinin sürətlənməsində klasterlərarası kooperasiya əlaqələrinin rolunun qiymətləndirilməsi, klaster yanaşmasının, ilk növbədə, həm ayrıca regionun yaxud sahənin, həm də bütövlükdə dövlətin rəqabətqabiliyyətliliyini yüksəltməyə imkan yaradan yeni idarəetmə texnologiyası kimi xüsusiyyətlərinin açıqlanması, müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərən ənənəvi sənaye klasterləri ilə innovasiya klasterləri arasındakı iş prinsiplərində və fəaliyyət mexanizmlərindəki fərqli və ümumi cəhətlərin aşkarlanması, müxtəlif ölkələrdə klasterlərin yaradılmasında dövlətin rolunun və bu prosesdəki yerinin müəyyənləşdirilməsi və s.. Göstərilən vəzifələr sistemli yanaşma, konkret-tarixi, təhlil və ümumiləşdirmə kimi metodlardan geniş istifadə etməklə yerinə yetirilmişdir. Məqalənin sonunda ümumiləşdirmələr və nəticələr verilmişdir.

JEL Classification Codes: C 38

Dünya iqtisadiyyatının hazırki, qlobal böhrandan tədricən çıxdığı müasir mərhələdə, ənənəvi diversifikasiya üsulları lazımi səmərəni verə bilmədikdə, iqtisadiyyatın modernləşdirilməsinin adekvat aləti qismində biznesin təşkilində klaster modelindən istifadə edilməsinin alternativi mövcud deyil. Klasterləşdirmə prosesləri arasında qarşılıqlı şərtləndirmə və qarşılıqlı əlaqələr, rəqabətqabiliyyətliliyinin güclənməsi və innovasiya fəaliyyətinin sürətlənməsi – qlobal rəqabətin həmləsinə qarşı çıxmağa, milli və regional inkişafın tələblərinə lazımınca cavab verməyə imkan yaradan yeni iqtisadi fenomendir.

İqtisadiyyatın inkişaf etdirilməsinə klaster yanaşması – bu, ilk növbədə, həm ayrıca regionun, yaxud iqtisadi sahənin, həm də bütövlükdə dövlətin rəqabətqabiliyyətliliyini yüksəltməyə imkan verən idarəetmə texnologiyasıdır. İqtisadi ədəbiyyata "klaster" (cluster) anlayışı Maykl Porter (1990) tərəfindən daxil edilmişdir. Ona müvafiq olaraq, klaster –

müəyyən sahələrdə rəqabət aparan, lakin, bununla yanaşı, birgə iş quran qarşılıqlı əlaqəli şirkətlərin, ixtisaslaşmış tədarükçülərin, xidmətlər təqdim edən şirkətlərin, müvafiq sahələrdəki firmaların, eləcə də onların fəaliyyəti ilə bağlı olan təşkilatların (məsələn, universitetlərin, standartlaşdırma agentliklərinin, eləcə də ticarət birliklərinin) coğrafi əlamət üzrə təmərküzləşmiş qruplarıdır [1]. Beləliklə, klaster daxilində coğrafi cəhətdən qonşu olan qarşılıqlı əlaqəli şirkətlər və onlarla bağlı olan təşkilatlar müəyyən sferada fəaliyyət göstərməli, fəaliyyətin ümumiliyi və qarşılıqlı tamamlanma ilə xarakterizə olunmalıdırlar.

Klasterə daxilolma onun tərkibindəki şirkətlərin statusunu yüksəldir, onlara qarşı maliyyə agentliklərinin diqqətinin artmasına səbəb olur, onların beynəlxalq reputasiyasının və ticarət markasının populyarlığının artmasına şərait yaradır, regiona əlavə resursları cəlb edir. Öz növbəsində, klasterin mövcudluğu regional administrasiyaların rolunu yüksəldir, çünki o, regionun iqtisadiyyatını inkişaf etdirir və möhkəmlədir, iqtisadi artımı stimullaşdırır və sosial problemlərin həllini sürətləndirir, daha çox geridə qalmış ərazilərin uğurlu inkişafı üçün şərait yaradır.

Bununla əlaqədar, dünya təcrübəsinin göstərdiyi kimi, klaster siyasətinin aparılmasının təşəbbüskarları qismində həm klaster siyasətini "yuxarıdan" yönəldən mərkəzi idarəetmə orqanları, həm də "aşağıdan-yuxarı" klasterlərin inkişafını stimullaşdıran proqramların reallaşdırılmasını təklif edən regional hakimiyyət və yaxud yerli sahibkarlar birlikləri çıxış edə bilərlər. Belə proqramlar "klaster təşəbbüsü" adı almışdır, bu da müəyyən regionda, prosesə klaster firmalarını, dövləti və tədqiqat institutlarını cəlb etməklə, klasterin artım templərinin və rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin təşkil edilmiş cəhdi kimi müəyyən edilir [2].

Klaster təşəbbüslərinin Avropa İttifaqında köhnə üzv-dövlətlər arasında daha çox uğurlu inkişafı nümunələrini qeyd etmək olar – kiçik ölkələr arasında Avstriya (xüsusilə, Yuxarı Avstriya torpağındakı klaster təşəbbüsü, burada "klaster" termini regionun imicinin yaxşılaşdırılması və yerli müəssisələrə birbaşa xarici investisiyaların cəlb edilməsi üçün "brend" kimi effektiv istifadə edilmişdir), Böyük Britaniya (Şotlandiya), İspaniya (Kataloniya), Almaniya (Şimali Reyn-Vestfaliya), Mərkəzi-Şərqi Avropa ölkələri arasında isə - klaster təşəbbüslərinin inkişafında dövlət-özəl tərəfdaşlığı daha çox effektiv Sloveniyada fəaliyyət göstərirdi. Hal-hazırda müsabiqə əsasında Sloveniya hökuməti tərəfindən məqsədli maliyyələşdirmə üçün 11 klaster təşəbbüsü seçilmişdir, bunların arasında isə ən inkişaf etmişləri kimi üç klasteri göstərmək olar: avtomobil, dəzgahqayırma və nəqliyyat-logistik.

Qeyd edək ki, klaster siyasəti praktiki yanaşmaların müxtəlifliyi ilə seçilir və ən azından, dəqiq təyin olunmuş siyasi alətlər dəsti şəklində mövcud deyil (məsələn, investisiya siyasətindən fərqli olaraq). Eyni sözü mərkəzi və yerli hakimiyyət arasında səlahiyyətlərin bölüşdürülməsinin müxtəlifliyi haqqında da demək olar.

ABŞ-da federal hökumət ştatların regional klasterlərin inkişaf etdirilməsi sahəsindəki siyasətinə, onları dolayısıyla dəstəkləməsinə baxmayaraq, birbaşa müdaxilə etmək səlahiyyətinə malik deyil. Son üç-dörd ildə bu münasibətlər mərkəzi hökumətin ya ayrıca sahələrin (elektronikanın, İnternetin), yaxud ayrıca universitetlərin və tədqiqat mərkəzlərinin dəstəklənməsinə yönəlmiş proqramlarının reallaşdırılması çərçivəsində möhkəmlənməyə başlamışdır.

Regional hakimiyyət səviyyəsində regionun inkişaf etməsinə dəstəyi yerli administrasiya, universitetlər, sənaye qrupları və tədqiqat institutlarının nümayəndələrindən ibarət olan "əməkdaşlıq institutları" (institutions for collaboration) göstərirlər. Universitetlərə xüsusi rol məxsusdur, çünki onların bizneslə münasibətləri, universitetlərdən sənaye sektoruna texnologiyaların ötürülməsi prosedurları daxil olmaqla, ABŞ qanunvericiliyində təsbit olunmuşdur. Çox vacib məqam ondan ibarətdir ki, bu əməkdaşlıq rəqabət prinsipinə əsaslanır – universitetin özəl sektor tərəfindən maliyyələşdirilməsi, tədqiqatların nəticələrindən asılı olaraq, azalır yaxud artır. Bununla yanaşı, tədris prosesi ilə bizneslə iş arasında düşünülmüş tarazlığa riayət etmək zəruridir, çünki bizneslə işin müəllimlərin diqqətini tədris fəaliyyətindən yayındırmasına yol vermək olmaz.

Kanadada yüksək texnoloji innovasiya klasterlərinin yaradılmasında qiymətli təcrübə yığılmışdır. Bunlardan daha çox tanınmışları içərisində - biotexnoloji klasteri (Monreal, Toronto, Vankuver, Ottava, Qalifaks); informasiya-telekommunikasiya klasteri (Vankuver, Kalqari, Kvebek və b.); yüksək texnologiyalar klasteri (Monreal, Ontario və b.); multimedia klasteri (Monreal, Toronto, Vankuver); şərabçılıq klasteri (Niaqara); qida sənayesi klasteri (Toronto) və başqalarını göstərmək olar. Kanadada biznesin klaster təşəbbüslərinə himayəni hakimiyyətin bütün səviyyələri (federal, regional və munisipal (bələdiyyə)) göstərirlər, lakin dəstəklənmənin konkret formaları hər bir səviyyədə fərqlənir [3].

Kanadada klaster siyasətinin reallaşdırılmasının federal səviyyədə vahid konsepsiyası mövcud deyil. Ehtimal olunur ki, hökumətin əsas rolu iqtisadiyyat üçün ümumi olan qaydaların təyin edilməsi və xidmətlərin təqdim edilməsindən ibarət olmalıdır, konkret klaster təşəbbüslərinin reallaşdırılması isə əyalətlərin və bələdiyyələrin administrasiyalarına həvalə edilə bilər. Eyni zamanda, klaster strategiyası ölkənin milli innovasiya strategiyasının bir hissəsidir. Bu strategiyanın əlaqələndirilməsini elmi-tədqiqat inkişafı üzrə aparıcı federal agentlik – Milli Tədqiqat Şurası (MTŞ) həyata keçirir. Onun tərəfindən texnoloji klaster təşəbbüsləri irəli sürülmüşdür. Bundan savayı, federal səviyyədə Kanada hökuməti klasterlərə investisiyaların cəlb edilməsi siyasətinin həyata keçirilməsində, şirkətlərin məhsullarının xarici bazarlarda reallaşdırılmasına yardım etməkdə, işçi qüvvəsi bazarının tənzimlənməsində, perspektivli elmi tədqiqatlar və araşdırmalara investisiya qoyulmasında, təhsil proqramlarının yaradılmasında, intellektual mülkiyyətin qorunmasında və s. dəstək verir.

Kanadanın əyalətləri səviyyəsində klaster siyasəti elmi araşdırmaların maliyyələşdirilməsi, təhsil proqramlarının reallaşdırılması, xarici investisiyaların cəlb edilməsi və əlaqəli xidmətlərin göstərilməsi şəklində fəal dəstəklənir. Burada aparıcı rolu əyalətlərin hökumətləri yanında rəhbər şirkətlər – regional inkişaf agentlikləri oynayırlar. Klaster siyasətinin reallaşdırılmasında daha əhəmiyyətli rol yerli özünüidarəetmə orqanlarına məxsusdur. Onların vəzifələrinə geniş məsələlər dairəsi daxildir – təhsil proqramlarının yaradılmasından klasterlər üçün bütün açar infrastrukturların yenilənməsinə kimi.

Yaponiyada sənaye klasterlərinin formalaşması son zamanlara kimi müstəsna olaraq mərkəzi hökumətin himayəsi altında həyata keçirilirdi, lakin hal-hazırda bu prosesdə fəal olaraq həm də regional hakimiyyət iştirak etməyə başlamışdır. Regional ictimaiyyətə öz

resursları hesabına klaster təşəbbüslərini reallaşdırmaq, vençur (riskli) biznesi və yeni istehsalatlar yaratmaq imkanı verilir. Bu kontekstdə regional klasterlər sənayenin təmərküzləşməsinin yeni formasına çevrilir, burada universitetlər, tədqiqat institutları və korporativ klasterlər fəal kooperasiya olunur. Bunun sayəsində şirkətlərin tədqiqat və araşdırmaları daha çox kommersiya uğurlarına hədəflənməyə başlamışdır, xarici universitetlər və tədqiqat institutları ilə işləmələr mübadiləsi və əməkdaşlığın stimullaşdırılması məqsədilə xarici tədqiqatçılarla sazişlərin bağlanmasının tənzimlənməsi sadələşdirilmişdir.

Şirkətlərin tədqiqat və araşdırmaları getdikcə daha çox kommersiya uğuruna hədəflənir, universitetlərin nümayəndələri isə özlərinin cəmiyyət üçün faydalı olan fəaliyyətlərinin nəticələrini daha əyani şəkildə nümayiş etdirməyə səy göstərirlər. Xarici universitetlər və tədqiqat institutları ilə məlumat mübadiləsi və əməkdaşlığın stimullaşdırılması məqsədilə dövlət tərəfindən yaradılmış xüsusi zonalarda, həmçinin xarici tədqiqatçılarla müqavilələrin bağlanmasının tənzimlənməsi çox sadələşdirilmişdir.

Hazırda Yaponiyada ölkənin 18 regionunda klasterlərin inkişafını stimullaşdıran «Knowledge cluster initiative» proqramı fəaliyyət göstərir. Birgə layihələrə himayəçilik göstərilir, burada regional universitetlər kiçik innovasiya firmaları şəbəkəsi və iri sənaye şirkətləri tərəfindən yaradılmış klasterlərin nüvəsi rolunu yerinə yetirir [4].

Çində klaster siyasəti mərkəzi hökumətin razılığı ilə munisipal (bələdiyyə) hakimiyyət tərəfindən yüksək texnoloji sahələrin xüsusi zonalarının formalaşdırılması ilə bağlıdır. Mərkəzi hökumət, həmçinin, müstəsna imtiyazlara malik olan firmaları da özü seçir. Bundan savayı o, bizneslə universitetlərin əməkdaşlığını, bunun ölkənin öz texnoloji innovasiyalarının yaradılmasındakı, məhsulun texnoloji səviyyəsinin yüksəldilməsindəki vacibliyini dərk edərək, bu əlaqələri hərtərəfli stimullaşdırır. Hələlik belə əməkdaşlığın təşkilində uğura yalnız bir neçə sahədə nail olunmuşdur, məsələn, informasiya və biotexnologiyalar sahələrində, lakin bu təcrübə digər sahələrə də sürətlə yayılmaqdadır.

Çinin və inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətlilikləri arasında keyfiyyət uçurumunun azaldılması məqsədilə, ölkənin öz innovasiyalarının inkişafına, məhsulun texnoloji səviyyəsinin yüksəldilməsinə böyük önəm verərək, ölkə hökuməti tərəfindən universitetlərdə texnologiyaların lisenziyalaşdırılması ofislərinin yaradılması haqqında qərar qəbul edilmişdir. Bu addım bizneslə akademik mühitin əməkdaşlığının fəallaşmasına şərait yaratmaq, tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılmasına rəqabətin gücləndirilməsinə dəstək olmaq məqsədi daşıyırdı.

Çində elmtutumlu klasterlərin yaradılması üçün nümunə kimi Silikon vadisi və klasterləşmənin xarici təcrübəsinin digər uğurlu misalları hesab olunur. Hal-hazırda ölkədə təxminən 60 yüksək texnoloji zona fəaliyyət göstərir, lakin onların rentabelliyi yüksək deyil və regiondan regiona nəzərəçarpacaq dərəcədə fərqlənir. Buna görə, hökumət özünün əsas vəzifəsi kimi regionlararası fərqlərin aradan qaldırılmasını hesab edir.

İqtisadiyyata klaster yanaşmasının tətbiqinin ilk cəhdləri bu gün MDB ölkələrində baş verir. Məsələn, "Bazara dəstək" Beynəlxalq Fondun məlumatlarına əsasən, Ukraynada 25-dən artıq sənaye şirkətləri və strukturlarının aqlomerasiyaları formalaşdırılmış və praktiki

fəaliyyət göstərməkdədirlər ki, bunlar da klaster sxeminə yaxın olan sxem üzrə qarşılıqlı təmas qururlar. Buraxılan məhsulun həcminə görə ən iri və uğurlularının sırasına Xmelnitskiy şəhərindəki tikinti və toxuculuq klasterlərini aid etmək olar.

Beləliklə, aparılmış təhlil ölkənin və regionun innovasiya fəallığına təsir göstərən əsas problemləri müəyyənləşdirməyə və sistemləşdirməyə, eləcə də innovasiyaların mezosəviyyədə inkişafına mane olan amilləri identifikasiya etməyə imkan verir.

Ümumilikdə ölkənin və yaxud regionun innovasiya fəallığını xarakterizə edərkən, innovasiyaların inkişafına və klasterlərin yaradılmasına maneə törədən və innovasiya strategiyalarının və layihələrinin reallaşdırılmasına mənfi təsir göstərən bir sıra amilləri ayırmaq mümkündür (cədvəl 1).

Cədvəl 1. Mezosəviyyədə innovasiyaların inkişafına maneə törədən amillər

İNNOVASİYALARIN İNKİŞAFINA MANEƏ TÖRƏDƏN AMİLLƏR	
İQTİSADİ	yeniliklərin (innovasiyaların) yüksək dəyəri
	dövlət tərəfindən maliyyə dəstəklənməsinin kifayət etməməsi
	xüsusi pul vəsaitlərinin çatışmazlığı
İSTEHSAL	kiçik innovasiya potensialı
	ixtisaslı personalın çatışmazlığı
	innovasiya infrastrukturunun inkişaf etməməsi
	yeni texnologiyalar və satış bazarları haqqında informasiya çatışmazlığı
İNSTİTUSİONAL	ödəmə qabiliyyətli tələbin aşağı səviyyəsi
	normativ-hüquqi bazanın çatışmazlığı
	innovasiya infrastrukturunun inkişaf etməməsi

Mənbə: cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Beləliklə, cədvələ nəzər salsaq görərik ki, regional səviyyədə innovasiyaların inkişafına və klaster təşəbbüslərinin reallaşdırılmasına mənfi təsir göstərən amillərin ümumilikdə ölkə səviyyəsində mövcud olan amillərlə oxşarlığı və bir çox hallarda üst-üstə düşdüyü müşahidə olunur, xüsusilə iqtisadi amillər özünü qabarıq biruzə verir. Belə ki, iqtisadi subyektlərdə maliyyə vəsaitlərinin çatışmazlığı və bu sahədə dövlət tərəfindən güzəştli maliyyə dəstəklənməsinin yetərli olmaması Azərbaycanda innovasiyaların qəbul edilməsi, tətbiqi və inkişafını ləngidən əsas amillərdəndir.

Azərbaycanın iqtisadi inkişafının müasir mərhələsində regionların inkişafının təmin edilməsi mühüm prioritet vəzifələrdən biri kimi qarşıda durur. Ölkənin bütün regionlarının inkişafı ümumi inkişafın təmin edilməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Regional inkişaf siyasəti iqtisadi artımın və iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsinə yönəldilir. Ölkədə yaranmış struktur problemlərinin aşkar edilməsi və aradan qaldırılmasına əsaslanmaqla dövlət siyasəti, regionların inkişafının təmin olunması və onların rəqabət qabiliyyətlərinin artırılması üçün zəruri şərtlərin formalaşdırılmasına istiqamətlənir. Dövlətin regional inkişaf siyasətinə, regional inkişaf sahəsində qarşıya qoyulmuş vəzifələrin həlli məqsədilə uzunmüddətli iqtisadi qərarların birbaşa və dolayı

əlaqələndirilməsinə, bəzi hallarda isə regionlarda gəlir, istehlak, məşğulluq, investisiya və s. parametrlər üzərində nəzarətə istiqamətlənmiş dövlətin şüurlu cəhdləri kimi baxmaq olar. Bu siyasət, ilk növbədə, regionların inkişafı və sosial-iqtisali inkişaf səviyyəsinə görə onlar arasındakı fərqlərin aradan qaldırılmasına dair qarşıya qoyulmuş məqsədlərə yönəldilən dövlət xərclərinin həcmi ilə əlaqədardır. Belə ki, istənilən məqsədlərə nail olunması məhdud iqtisadi resursların bölgüsünüə dair qərarlarla bağlı olur. Bu isə, bilavasitə maliyyənin funksiyalarından birinə aiddir. İkincisi, regional inkişaf siyasəti təsərrüfat subyektlərinin istehsal və investisiya fəaliyyətinin ərazi üzrə yerləşdirilməsi ilə əlaqədar qərarlarına təsir etməyi əhatə edir. Ölkə iqtisadiyyatının innovasiyalı inkişaf yoluna qədəm qoyması və bu prosesin davamlı və dayanıqlı olması göstərilən sahədə dövlət dəstəyinin və güzəştli maliyyələşdirmənin həcmini ən azı 10 dəfə artırılmasını zəruri edir. Əks halda, həm ölkə səviyyəsində, həm də regional səviyyədə innovasiyalı inkişafın əsas elementlərindən olan və inkişaf etmiş ölkələr tərəfindən sınaqdan keçirilmiş klaster təşəbbüslərinin reallaşdırılması mümkünsüz olacaqdır.

Ədəbiyyat:

1. Bax: European Commission. Innovation Clusters in Europe — A Statistical Analysis and Overview of Current Policy Support (2006). Luxembourg: Office for Official Publications of the European Communities.

2. Bax: Synopsis of Policy Options for Creating a Supportive Environment for Innovative Development. ECE/CECI/2008/3, Geneva, 9 September 2008.

3. Bax: Эдилерская А.А. Кластерно-сетевые принципы организации современного предпринимательства //Актуальные проблемы развития общества, экономики и права / Сб. науч. трудов аспирантов, 2008.

4. Bax: Колошин А., Разгуляев К., Тимофеев Ю., Русинов В. Анализ зарубежного опыта повышения отраслевой, региональной конкурентоспособности на основе развития кластеров. http://politanaliz.ru/articles_695.html

Abstract

IMPACT OF THE IMPLEMENTATION OF THE CLUSTER INITIATIVES ON REGIONAL ECONOMIC DEVELOPMENT

Asif HEYBATOV

Senior lecturer of Azerbaijan University

Keywords: innovative production, cluster initiative, competitive environment, state regulation, high technologies

The main objective of the article is revealing the features of cluster approach in strategy of innovative development, an estimation of a present situation and definition of its role in world practice. For this purpose some problems are defined in the article: defining interrelation between clustering processes, the estimation of the role of inter-cluster cooperation in

competitive strengthening of clusters and acceleration of innovative activity, disclosing the features of cluster approach as the new administrative technology allowing the raise of competitiveness. The specified problems have been executed by using such methods as the systematic approach, the analysis and synthesis.

At the end of the article was given some valuable scientific conclusions.

РЕЗЮМЕ
ВЛИЯНИЕ РЕАЛИЗАЦИИ КЛАСТЕРНЫХ ИНИЦИАТИВ НА РЕГИОНАЛЬНОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

Асиф ГЕЙБАТОВ

докторант Института Экономики НАН Азербайджанской Республики, ст. преподаватель Университета "Азербайджан"

Ключевые слова: инновационная продукция, кластерная инициатива, конкурентная среда, государственное регулирование, высокая технология.

В статье главная цель состоит в выявлении роли государства в создании кластеров в стратегиях инновационного развития в мировой практике, а также оценке состояния этого регулирования. Для этого в статье определены несколько задач, из которых можно выделить следующие: определение взаимосвязи и взаимообусловленности между процессами кластеризации, оценка роли межкластерных кооперационных связей в усилении конкурентоспособности кластеров и ускорении инновационной деятельности, раскрытие особенностей кластерного подхода как новой управленческой технологии, позволяющей, в первую очередь, повысить конкурентоспособность отдельного региона или отрасли, и в целом государства, выявление общих и отличительных особенностей в принципах работы и механизмах деятельности между успешно функционирующими в различных странах традиционными промышленными и инновационными кластерами, определении роли и места государства в создании кластеров в различных странах. Указанные задачи были выполнены, используя такие методы как системный подход, конкретно-исторический, анализ и синтез. В заключении статьи сделаны выводы и обобщения.

«KİTABİ-DƏDƏ QORQUD»UN DİLİNDƏ MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏR

Yadigar ƏLİYEV
filologiya üzrə elmlər doktoru, professor

Rəyçi: f.e.n.dos. Ülviyyə Rəhimova
Açar sözlər: Sintaktik, sadə, bütöv, mətn, cümlə, mürəkkəb

«Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb sintaktik bütövləri təşkil edən tərkib hissələrin bir-biri ilə əlaqələnməsində bütün məlum vasitələrlə yanaşı, Komponentlərin bir-birinə bağlanmasında tematik və rematik informasiyaların (tema və rema) bir-birini izləməsi mühüm rol oynayır. Ancaq belə mətnlər «Kitabi-Dədə Qorqud»un dilində azlıq təşkil edir. Təsadüf edilənlər isə sintaktik bütöv boyu deyil, mətnin ayrı-ayrı hissələrində işlənirlər.

Dirsə xan oğlana bəglik verdi, təxt verdi. Oğlan təxtə çıqdı, babasının qırq yigidin anmaz oldı. Ol qırq yigid həsəd eylədilər [2, s. 36].

Mətndən nümunə gətirdiyimiz parçadakı tərkib hissələrin tema-rema quruluşundan asılı olaraq, birinci cümlənin reması («təxt verdi») ikinci cümlənin temasına («təxtə çıqdı»), ikinci cümlənin reması («qırq yigit») üçüncü cümlənin temasına çevrilir.

Bu məhəldə sultanım, Salur Qazanla Qaraca Çoban çapar yetdi. Çobanın üçyaşar tana dərisindən sapanının ayasıydı, üç keçi tüyindən sapanının qollarıydı, bir keçi tüyindən çatlağucıydı. Hər atanda on iki batman taş atardı. Atdığı taş yerə düşməzdi. Yerə dəxi düşsə, toz kibi savrılardı [2, s. 48].

Mətnin tema-rema quruluşu başqa bir məsələni – mətn komponentlərinin sıralanma qaydasını doğurur. Yeni və köhnə informasiyaların əvəzləndiyi mürəkkəb sintaktik bütövlərdə tərkib hissələr, bir qayda olaraq, ardıcıl birləşirlər. Yəni birinci cümlənin sonu (yeni informasiya) ikinci cümlənin əvvəlində (köhnə informasiya), ikinci cümlənin sonu üçüncü cümlənin əvvəlində, üçüncü cümlənin sonu dördüncü cümlənin əvvəlində və s. təkrarlanır, daxili rabitəni möhkəmləndirir.

Dəpəgöz bildi kim, Basat mağaradadır. Mağaranın qapusın alub bir ayağın bir qapunın bir yanına, birin dəxi bir yanına qodı, aydır: «mərə qoyun başları ərkəc, bir-bir gəl, keç!» -dedi. Bir-bir gəlüb keçdi. Hər birinin başların sığadı. «Toqlıcıqlar, dövlətim saqar qoc, gəl keç!» -dedi. Bir qoç yerindən qalqdı, gərinüb sündi. Dəfi Basat qoçı basub boğazladı, dərisini yüzdi, quyruğilə başını dəridən ayırmadı, içinə girdi. Basat Dəpəgözün öginə gəldi. Dəpəgöz də bildi kim, Basat dəri içindədir [2, s. 101].

Tərkib hissələrin paralel birləşməsində isə bu cür ardıcıllıq olmur. Burada paralel termini qeyri-ardıcıl əlaqələnməni ifadə etmək üçün şərti mənada işlədilir. Məsələn:

Basatın xəncəri vardı. Ədügini yardı, içindən çıqdı. Aydır: «Mərə qocalar, munın ölümi nədəndir?» Ayıtdılar: «Bilməziz. Amma gözündən qeyri yerdə ət yoqdır», -dedilər. Basat Dəpəgözün başı ucına gəldi. Qapaq qaldırdı. Baqdı gördi kim, gözi ətdir. Aydır: «Mərə qocalar, sügiligi ocağa qoun, qızsun!» -dedi. Sügiligi ocağa bıraqdılar, qızdı [2, s. 101].

Tədqiqatçılara görə, hər bir mətn üç hissədən ibarətdir: başlanğıc (tema), orta (inkişaf),

sonluq (nəticə) [1, s. 441]. «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb sintaktik bütövlərin komponentlərini struktur-semantik kompozisiya baxımından üç tipə ayırmaq olar: mürəkkəb sintaktik bütövün başlanğıcı, mürəkkəb sintaktik bütövün inkişafı, mürəkkəb sintaktik bütövün sonu.

Aslanı qoyu verdilər. Sürdi gəldi; Qanturalı bir kəpənəgi qapağına toladı. Aslanın pəncəsinə sunı verdi. Adı görklü Məhəmmədə salavat gətürdi. Aslanın alnın közədüb bir yumruq eylə urdı kim, yumruq çənəsinə toqundı, ovatdı. Süksünindən tutdı, belüni üzdi. Andan götürüb yerə urdı. Xurd oldı. Təkur öginə gəldi. Ayıtdı: «Yarın qızını mana vergil!» -dedi (2, s. 89).

Burada birinci cümlə sintaktik mətnin başlanğıcını, ikinci-səkkizinci cümlələr tam sintaqmların sintaktik mətnə doğru inkişafını, sonuncu cümlə isə sintaktik mətnin sonunu bildirir, mətn sonuncu cümlə ilə qapanır.

Mürəkkəb sintaktik bütövün sonunu (sonluğu) bildirən cümlə ilk və başlanğıc cümlə tiplərindən fərqli olaraq, müxtəlif məzmun çalarları yarada bilir:

Təsviredici məzmun çaları;

Bir gün Ulaş oğlı Tülü quşun yavrusu, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipək döşəmişdi. Səksən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdi. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi [2, s. 42].

Yekunlaşdırıcı məzmun çaları;

İçüb-içüb Ulaş oğlı Salur Qazanın alnına şərabın istisi çıqdı. Qaba dizi üzərinə çökdi, ayıtdı: «Ünim anlan, bəglər, sözüm dinlən, bəglər! Yata-yata yanımız ağrıdı. Tura-tura belümiz qurudı. Yüriyəlim, a bəglər! Av avlıyalım, quş quşlıyalım, sığun, keyik yığalım, qayıdalım, otağımıza düşəlim: yeyəlim, içəlim, xoş keçəlim!»

Qıyan Selcük oğlı Dəli Tondaz aydır: «Bəli, xan Qazan, məsləhətdir».

Qaragünə oğlı Qarabudaq aydır: «Ağam Qazan, məsləhətdir».

Anlar öylə digəc at ağuzlu Aruz Qoca iki dizinin üstinə çökdi, aydır: «Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan, ordun üstinə kimi qorsan?».

Qazan aydır: «Üç yüz yigidlən oğlum Uruz mənim evim üstinə tursun» -dedi. Qonur atın çəkdirdi, bütün bindi. Təpəl-qaşqa ayğırına Tondaz bindi. Gög bədəvisin tutdurdı, Qazan bəgün qarındaşı Qaragünə bindi. Ağ bədəvisin çəkdirdi, Bayındır xanın yağısın basan Şir Şəmsəddin bindi. Barasarın Bayburd hasarından parlayıb Beyrək boz ayğırına bindi. Qonur atlu Qazana «keşiş» deyən bəg Yegnək Turu ayğırına bindi. Saya varsam, dükənsə, olmaz Qalın Oğuz bəgləri bindi. Ala tağa ala ləşkər ava çıqdı [2, s. 42].

Nəticə-məzmun çaları;

Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer közətdi. Ol gün bir qiyamət savaş oldı, meydan tolu baş oldı, başlar kəsildi top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi. Ala-ala köndərlər süsəldi. Qara polat üz qılıclar çalındı, yılmağı düşdi. Üç yelənli qayın oqlar atıldı, dəmrəni düşdi. Qiyamətin bir güni ol gün oldu. Bəg nökərindən, nökər bəgindən ayrıldı [2, s. 50].

Bəzən bir mürəkkəb sintaktik bütövün komponentlərinin bağlanmasında bir deyil, bir neçə əlaqə forması özünü göstərir. Yuxarıda nümunə gətirdiyimiz mətnin birinci, ikinci, üçüncü və səkkizinci cümlələrini açar söz əlaqələndirir. Dördüncü, beşinci, altıncı, yeddinci cümlələr bir sintaktik quruluşun – dördüncü cümlənin ikinci tərəfinin modelində formalaşır. Doqquzuncu cümlə isə giriş ilə başlanmış informasiyanı tamamlayan yekun cümlədir.

Oğuz zəmanında Uşun Qoca deərlər bir kişi vardı. Ömründə eki oğlı vardı. Ulu oğlının adı Əgrək idi. Bəhadır, dəlü, yaxşı yigid idi. Bayındır xanın divanına qaçan istəsə, varırgəlürdi. Bəglər bəgi olan Qazan divanında buna heç qapu-baca yoğdı. Bəgləri basub Qazan ögində oturardı. Kimsəyə iltifat eyləməzdi [2, s. 110].

Mətnin komponentləri idi bağlamasının əlaqələndirici funksiyasına görə bir şəkildə (əvvəlincidən sonuncuya qədər bütün tərkib hissələr bir-biri ilə), açar sözün iştirakına görə başqa şəkildə əlaqələnir. Mətnin birinci, ikinci, üçüncü cümlələrini Uşun Qoca deərlər bir kişi ifadəsi, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci cümlələrini başqa açar söz (və ya funksiyaca buna bərabər tutulan) – Əgrək sözü idarə edir.

Qoca eşidüb şad oldı. Gumbur-gumbur davullar çalındı. Altun tuc borular ağrıldı. Ol gün ala bargah otaqlar dikildi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırıldı. Qoca bəg oğullarına qarşu gəldi. Atından endi, oğlanlarilə quca-quca görüşdi, «xoş gəlmisiz, oğullar», dedi. Günligi altunlıca odasına gəldilər. Şadlıq, yemək-içmək oldı. Ulu oğlına dəxi görkli gəlin gətürdi. Eki qardaş bir-birinə sağdıc oldılar, gərdəklərinə çapub düşdilər. Murada-məqsuda irişdilər [2, s. 115].

Mürəkkəb sintaktik bütövün komponentləri əlaqə üsuluna görə üç şəkildə qruplaşır: açar söz (Qoca bəg); sintaktik quruluş; morfoloji yol (xəbərdəki cəmlik şəkilçisinə görə);

«Kitabi – Dədə Qorqud»un dilində mürəkkəb sintaktik bütövləri əmələ gətirən cümlələrin quruluşuna görə də mətn tiplərini fərqləndirmək mümkündür:

-mürəkkəb sintaktik bütöv sadə cümlələrdən təşkil olunur. Yol üzərində kafərin Aya Sofyası vardı. Keşişlər bəklərdi. Ğayət sarb kəlisaydı. Atdan enüb tacir tonın geydilər. Bəzırgan surətində qatır-dəvə çəkdilər, gəldilər [2, s. 119].

-mürəkkəb sintaktik bütöv sadə və tabesiz mürəkkəb cümlələrdən ibarət olur. Böylə digəc qırq incə belli qız yayıldılar. Tağ çiçəgi döşürdilər. Oğlanın anası əmcəgin bir sıqdı, südi gəlmədi. İki sıqdı, südi gəlmədi. Üçüncidə kəndüyə zərb eylədi, qanı toldı. Sıqdı, südlə qan qarışıq gəldi. Tağ çiçəgilə südi oğlanın yarasında urdular. Oğlanı ata bindirdilər, alubanı ordısına gəldilər. Oğlanı həkimlərə ısmarladub Dərsə xandan saqladılar [2, s. 39].

-mürəkkəb sintaktik bütöv sadə və tabeli mürəkkəb cümlələrdən təşkil olunur. Eylə olsa, xanım, Beyrəgin qanı qaynadı. Ədəblə yab-yab gerü döndi. Qızlar keyiki götürdilər. Gözəllər şahı Banıçiçəgin öginə gətürdilər. Baqdı, gördi ki, bir sultan simüz sığın-keyikdir. Banıçiçək aydır: «Mərə qızlar, bu yigit nə yigitdir?» Qızlar aydır: «Vallah, sultanım, bu yigit yüzi niqablu yaxşı yigitdir. Bəg oğlı bəg imiş», -dedilər [2, s. 54].

-mürəkkəb sintaktik bütöv sadə cümlələrlə qarışıq tipli mürəkkəb cümlədən ibarət olur. Nagahi bəzırganlar gəldilər. Gördilər kim, ol yigit kim, baş kəsübdür, qan dökübdür, Baybörə bəgin sağında oturar. Bəzırganlar yüridilər. Yigidin əlin öpdilər [2, s. 53-54].

Ümumiyyətlə, «Kitabi-Dədə Qorqud»un dilindəki mürəkkəb sintaktik bütövlərdə sadə cümlələr mürəkkəb cümlələrə nisbətən çoxluq təşkil edir.

Ədəbiyyat:
1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili, Bakı, 1985
2. Kitabi-Dədə Qorqud. Bakı, 1989

Abstract
COMPLEX SYNTACTICAL UNITS IN THE LANGUAGE OF "KITABY DADA GORGUD"
Yadigar ALIYEV
doctor of philology, prof

Key words: Syntactic, simple, full, text, sentence, compound

The information is the most important element of the composition of any artistic text. The main point here is the ways of expressing information. All syntactical units (phroses, simple sentences, complex sentences) are included. The article analyzes the role of complex syntactical units in the language of "Kitaby Dada Gorgud".

Резюме
СЛОЖНАЯ СИНТАКСИЧЕСКАЯ ЕДИНИЦА (на основе языка «Китаби-Деде Коркут»)
Ядигар АЛИЕВ
д.ф.н. профессор

Ключевые слова: Синтаксический, простой, текст, предложение, сложноподчиненное.

Информация является самым важным элементом в образовании художественного текста. Здесь особое значение имеет и способы выражения информации. К ним относятся все синтаксические единицы без исключение (словосочетания, простое предложение, сложносочиненные и сложноподчиненные предложения, сложное предложение смешанного типа и сложная синтаксическая единица). В статье исследуется роль сложных синтаксических единиц в тексте «Китаби-Деде Горгуд».

NEO-VİKTORİAN ROMANI POSTMODERN JANR KİMİ

Xədicə CƏFƏROVA
Azərbaycan Dillər Universiteti

Rəyçi: fil.e.d., prof. Q.Quliyev
Açar sözlər: viktorian, neo-viktorian, postmodernizm

Mövzunun aktuallığı – Postmodernizm müasir ingilis romanına dərin kök sala bilməsə də, ingilislərin öz tarixi keçmişinə bağlılığı, hadisələrə daim tənqidi və bir qədər ironiyalı münasibəti, milli özünüdərk hissləri yeni bir janrın, neo-viktorianlığın yaranması ilə nəticələndi. Maraqlısı isə odur ki, neo-viktorian roman adlandıra bilməyəcəyimiz əsərlərdə belə viktorianlığın izlərinə rast gəlir, keçmiş ənənə ilə dialoqa girmək cəhdlərini görürük.

"İstər Fildinqin cəsur, səs-küylü romanı, istər Ostinin nəcib xarakterli ictimai komediyası, yaxud da Brontelərin tutqun və mistik məhəbbət romanları olsun; bunların hamısı həqiqətdə bizim başımıza gələnlərin yalnız zəif əks-sədası ola bilər" [1, s, 37].

Müasir ingilisin şüurunda viktorianlıq anlayışı, həmin dövrün ideallaşdırılması nostalji hisslərdən, Böyük Britaniyanın keçmiş qüdrətinə həsrətdən, onun estetik nailiyyətlərinə heyranlıqdan doğur və postmodern yazıçılar üçün dekonstruksiya mənbəyinə çevrilir. Viktorian dəyərlər, viktorian üslubu, viktorian düşüncə tərzi, centlmen kodeksi müasir viktorianlığın səhifələrində dəyişməz olaraq rekonstruksiya edilir. Viktorianlıq gah müəyyən təfəkkür tərzinə, dünyagörüşünə bərabər tutulur və müharibədən sonrakı Avropada əldə etdiyi mənfi mənanı (reqressivlik, emosional təmkinlilik, seksual əzilmə və köləlik, soyuqluq, qapalılıq) üzərindən atıb XX əsrin sonunda təqdirəlayiq məna kəsb edir, gah da müasir bəlaların kökündə duran hər cür geriliyin, qaragüruhun simvoluna çevrilir. Heç şübhə yoxdur ki, viktorian ədəbiyyatı İngiltərənin bütün sonrakı ədəbi ənənələrində mühüm iz qoymuşdur. Məhz buna görə də, onu haqlı olaraq, ingilis ədəbiyyatının qızıl fondu, dünya tarixinin ən parlaq səhifələrindən biri, yüksək klassika dövrü adlandırırlar. Lakin bu, heç də həmişə belə olmamışdır: "Bu üsullar bizim üsullarımız deyil (realist ənənə haqda), bu iş bizim işimiz deyil. Bizlər üçün bu ənənə məhv deməkdi, bu üsullar ölüm deməkdi" (Virciniya Vulf).

1966-cı ildə Cin Ris "Geniş Sarqas dənizi" əsərini Viktorian mif və hekayələri əsasında yazmaqla özünün də xəbəri olmadan sonradan Dana Şillerin neo-viktorian [2, s, 538] adlandıracağı yeni bir ədəbi hərəkatın əsasını qoymuş oldu. Bu əsər özü o qədər populyarlıq qazanmasa da, Con Faulzun 1969-cu ildə yazdığı "Fransız leytenantının qadını" Viktoriya dövrünə güclü maraq oyatdı və 1980-90-cı illərdə bu tipli bir çox əsərlər yazıldı ("Krişnapurun mühasirəsi" (1973), C.C.Farrel; "Osvald Fiş kim idi?" (1981), A.N.Vilson; "Londonun böyük yanğını" (1982), "Oskar Uayldın son vəsiyyəti" (1983), "Den Leno və Limhaus bədheybəti" (1994), P.Akroyd; "Oğrun baxan Tom" (1984), H.Ceykobson; "Yaxşı iş" (1988), D.Loc; "Beşlik" (1989), Ç.Palliser; "Xanımın qulluqçusu" (1990), M.Foster; "Qırmızı mətbəxdə" (1990), M.Roberts; "Mübtəlalıq" (1990) və "Mələklər və həşəratlar" (1992),

A.S.Bayett; "Ağıl şəhəri" (1991), P.Livli; "Yazıq məxluqlar" (1992), A.Qrey; "Şirin Temz" (1992) və "İngilis sərnişinləri" (2000), M.Nil; "Əbədiyyətə kimi" (1992), Q.Svift; "Tess" (1993), E.Tennant; "Panterlərlə şam yeməyi" (1996), T.Holand; "Tennisonun hədiyyəsi" (1996), L.Trass; "Piti" (1997), C.Bakston; "Sahib Corci" (1997), B.Beynbric; "Yeraltının adamı" (1997), M.Cekson; "Beybi gəmisi" (1998), L.Censen; "Məhdudiyyət" (1998), K.Makmahon; "Yaxınlıq" (1999), S.Uoters; "Ceyms Miranda Barri" (1999), P.Danker; "Laura Blundi" (2000), C.Mayerson; "Şarlot: Ceyn Eyrin son səyahəti" (2000), D.M.Tomas) və hələ yazılmaqdadır [3, s, 5-6].

Dekonstruksiya üçün məhz Viktoriya dövrünün seçilməsinin əsas səbəbi kimi bir tərəfdən onun Britaniya tarixində qızıl dövr olması, digər tərəfdən isə bu dövrdə cəmiyyətin pis davrandığı nümayəndələrinə qarşı (bunlar əsasən qadınlar, aşağı təbəqənin insanları, yaxud da homoseksuallar idi) ədalətsiz rəftarı pisləmək və onların həyatını işıqlandırmaq idi.

Neo-viktorian romanın yüksəlişi 1980-90-cı illərə təsadüf edir ki, bu zaman kəsiyi də siyasi dürüstlük hərəkatının (ayrı-seçkilik yaradan, heysiyyətə toxunan və insanın fiziki qüsurunu vurğulayan söz və hərəkətlərdən qaçınma. X.C.) başlanğıcı ilə üst-üstə düşür. Siyasi dürüstlük azlıqda qalan insanların müdafiəsindən ibarətdir: ictimai, cinsi, irqi, etnik ayrı-seçkilik qurbanlarının, fiziki, yaxud da əqli cəhətdən şikəstlərin, cəmiyyətin qəbul etmədiyi və tarixin günah keçilərinin. Bu cür insanların haqlarının müdafiəsinə, onlar üçün üstünlüklər qazanılmasına və onların xeyrinə qanunlar qəbul edilməsinə nail olmaqla siyasi dürüstlük sadəcə olaraq "təsir" olmaqla qalmayıb məcburi münasibətə çevrildi. İncəsənətdə bu hegemoniya marginal, periferiya və eksentriklərin zəruri təsviri ilə nəticələndi – bu zaman əsərin ideal qəhrəmanı olaraq məhrum olunmuşları, şikəstləri, zənciləri, lezbiləri seçmək ənənə halını aldı. Bir çox tənqidçilər qeyd edir ki, siyasi dürüstlüyün ən zərərli təsiri marginal olanın mərkəzə qoyulması, spesifik olanın normaya çevirmək cəhdidir. Bu ideoloji hərəkat sosial qrupların əsaslandığı fərqləri silməyə və ya onların əhəmiyyətini heçə endirməyə cəhd edir. Neo-viktorian romanın siyasi dürüstlük hərəkatı ilə eyni vaxtda inkişafı arasında əlaqə danılmazdır. Viktorian dövrü Britaniya imperializminin yüksəlişi dövrü idi və viktorian romanı imperialistik münasibətlərin, xüsusilə də irqi və etnik zehniyyətin güclənməsinə xidmət edirdi. Tarixin dili ilə söyləsək, Viktoriya dövrü "bərabərsizliklərin zəfəri" və xüsusilə də homoseksuallara qarşı repressiya ilə xarakterizə olunurdu [3, s, 167-68].

Viktorian ənənənin bu cür formada dirçəldilməsi, keçmişə bəzən riqqətlə, bəzən də ironiya ilə yanaşılması, onun dekonstruksiya edilməsi neo-viktorian romanları postmodernizm dalğasına qovuşdurur. Bu isə özünü bariz şəkildə eyni bir əsərdə pastiş və parodiyanın birgə mövcudluğunda göstərir: "Pastişin təqlidiliyini parodiyanın təhrifediciliyi tamamlayır" [3, s, 89]. Hamının çox yaxşı tanıdığı dünyaya, bədii ədəbiyyatda belə olsa, yenidən qayıdış nostaljik zövq verir, bu isə neo-viktorian romanların müvəffəqiyyətinin ilkin şərtini təşkil edir. Müasir yazıçıya görə, viktorian romanında "boşluqlar" vardır ki, onları yenidən yazmaqla oxucunun intizarda qaldığı məsələlərə geniş yer vermək və romanı "tamamlamaq" mümkündür. Ona görə də yazıçıların viktorian romanlara müraciətini, hətta başlıq seçərkən eyniadlı romana eyhamını opportunizm kimi qiymətləndirməmək olmur ("Tennisonun

hədiyyəsi", "Tess", "Oskar Uayldın son vəsiyyəti", "Şarlot: Ceyn Eyrin son səyahəti"). Neo-viktorian romanların digər bir qolunda isə viktorian konteksti götürülərək tamamilə yeni əhvalat nəql olunsa da, bu romanları "ruh əkizləri" olmadan şərh etmək olmur. Məsələn, Devid Locun "Yaxşı iş" romanını Elizabet Qaskellin "Şimal və Cənub", Çarlz Palliserin "Beşlik" əsərini Çarlz Dikkensin "Soyuq ev" əsərini oxumadan anlamaq mümkün deyil.

Kristian Qutlebenin "Nostaljik postmodenizm. Viktorian ənənəsi və müasir Britaniya romanı" [3] adlı kitabı boyunca səpələnmiş fikirləri bir yerə toplamağa çalışsaq, neo-viktorian romanının aşağıdakı xüsusiyyətlərə malik olması qənaətinə gəlmiş olarıq:

1) Postmodern yazıçılar öz əsərlərində müasiri olduqları yazarlardan epiqraflar gətirməsələr də, neo-viktorian romanlarda viktorian romanlarda olduğu kimi eyni dövrün yazıçılarından çoxlu epiqraflar var. Bu, özlüyündə sitat gətirilən əsərlərin təkzibedilməz dəyəri, naqislik kompleksi, yaxud da müasir ədəbiyyata müxalifliklə izah oluna bilər. Bu cür sitatlar, şübhəsiz ki, onların istifadə olunduqları əsərə müəllifinin nüfuzunu və hörmətini gətirir.

2) Neo-viktorian əsərlərdə pastişdən geniş istifadə (üslubun təqlidi) olunur.

3) Postmodernizmin ruhuna uyğun olaraq əsərlərdə istinad olunan sənədlərin əslində uydurma, saxta olması üzə çıxır. Məsələn, M.Fosterin "Xanımın qulluqçusu" əsərində xanım Brauninqin qulluqçusuna yazdığı məktub.

4) Keçmişə ironiyalı münasibət. Məsələn, yuxarıda sitat gətirilən əsərdə Uilson xanımının xarici dünya ilə təmasının cüzi olduğunu bilərək özü ilə birgə işləyən digər nökərə deyir: "Miss Elizabetin acından ölən və soyuqdan əziyyət çəkən kasıb uşaqlar haqqındakı şeirini oxumusan? Çox gözəl şeirdi, amma bu məqamda istər-istəməz gözümün özünə toyuq döşü yeyən Flaş (Xanım Brauninqin iti) düşür".

5) XIX əsr qəhrəmanlarının (məs., Oliver Tvist, Balca Dorrit, yaxud da Ceyn Eyr) əsərin sonunda zadəgan mənşəli olması üzə çıxdığı halda, onların XX əsr təqlidçiləri təbiətən heç bir ali pilləyə məxsus olmur. Burada, C.Faulzun "Fransız leytenantının qadını" əsərində mənşəyi bilinməyən, lakin hamının yüngül əxlaqlı qadın kimi tanıdığı Sara Vudrafı, A.S.Bayyetin "Morfo Yuciniya" əsərindəki "vulqar qana malik" Uilyam Adamsonu xatırlamaq yerinə düşər.

6) İdeoloji, etik və bəlkə də, ticari səbəblərdən cəmiyyətin qəbul etmədiyi insanların Viktoriya dövründə əsərin baş qəhrəmanı olması ağlasığmaz olduğu halda, neo-viktorian romanlarda "siyasi dürüstlük" ərəfəsində etnik, sosial və ya cinsi mənşəyi üzündən daim təzyiqlərə məruz qalan insanların əsərin mərkəzində dayanması adi bir haldır.

7) Neo-viktorian romanlarda viktorian romanlara xas "qalmaqal" vardır. Məs., A.S.Bayyetin "Mübtəlalıq" əsəri iki məşhur viktorian şairinin nigahdankənar övladını ortaya qoyur, E.Tenantın "Tess", M.Nilin "Şirin Temz" və C.Mayersin "Laura Blandi" əsərləri insest problemini işıqlandırır, C.Bakston "Piti" əsərində qəhrəmanın sonda qadın olması ortaya çıxır, P.Dankerin "Ceyms Miranda Barri" əsərində qadın qəhrəman bütün ömrünü kişi qiyafəsində həkim kimi yaşayır.

8) Neo-viktorian romanlarda viktorian romanlarda olduğu kimi tarixi faktlar, dövrün adət-ənənəsi, xüsusilə də məkan və zamanın dəqiq xüsusiyyətləri, məişəti öz əksini tapır. Bu cür

əsərlər sələfləri kimi: a) təhkiyəni əhvalatın baş verdiyi vaxtı və yeri göstərməklə başlayır; b) növbəti addım obrazların təqdimatı olub, əsasən cəmiyyətin nüfuzlu üzvlərinin təsviridir: din xadimi, zadəganların nümayəndəsi, elm adamı, hər hansı bir sənətkar və s.; c) bundan sonra müəllif cəmiyyətin qaymaqlarına, eləcə də əsərin qəhrəmanlarına qarşı açıq-aşkar sayğısızlıq sərgiləyir. Səbəb isə odur ki, viktorian romanından fərqli olaraq müasir romanın məqsədi obrazların apardığı ali mübarizənin, ümid, yaxud da nailiyyətlərinin ülviliyini nümayiş etdirmək olmayıb onların yanlışlıqları üzərində dayanmaqdır və harda səhv etdiklərini göstərməkdir ki, bunlar bir daha təkrarlanmasın. Bu cür ifşaediciliyin didaktik əhəmiyyəti komediyanın tipik elementləri ilə yanaşı getdiyindən oxucuda gülüş doğurur.

9) Neo-viktorian romanda oxucu ənənəvi qəhrəmanın ictimai model və mənəvi bələdçi kimi dekonstruksiyası ilə qarşılaşır. Bu cür romanlar viktorian romanlardan fərqli olaraq qəhrəmanın mənəvi cəhətdən kamilləşməsi ideyasını və "insanların ibrət götürməsi və daha yaxşı insan olmaları üçün hadisələri şərh edən" hazır düsturları rədd edir. "Piti" əsərində Avqust Koufinin şagirdliyi onun cinayətkar eksperimentləri ilə nəticələnir, "Ceyms Miranda Barri"də qəhrəmanın təhsili onu ömrünün sonunadək fırıldaqçı həyatına sürüküləyir, "Beybi gəmisi" əsərinin viktorian qəhrəmanı isə kollec təhsili və dini inanclarına baxamayaraq, sirk ədəbazına çevrilir. Bu əsərlərdə inkişaf, onun tarixi, ictimai və əxlaqi dəyəri ələ salınır, qəhrəmanlar heç bir məna daşımır, onlar sadəcə olaraq postmodernsayağı təqdim olunurlar və "heç bir şeyin mərkəzi"ni təşkil etmirlər. Günahsızlıqdan təcrübəyə, yaxud da sadəlövhlükdən müdrikliyə keçidi boşluqdan mənəviyyatsızlığa, mənasızlığa, yaxud da dəliliyə keçid əvəzləyir, bununla da dünyaya müasir baxış öz təsdiqini tapır; "nizami sistemlərin parçalanması, reallığa ənənəvi baxışların çöküşü, müəyyənliyin aşınması".

10) Postmodernizmin bir çox xüsusiyyətləri:

a) Postmodernizm metatəhkiyəsinə xas müxtəlif ontoloji səviyyələrdə oxucu il oyun. Məs., D.Locun "Yaxşı iş" əsərində müəllif əsərin qəhrəmanı Robini təqdim edərkən realist ənənədən uzaqlaşaraq sözügedən dekonstruktivist qəhrəmanı ilə bağlı özünün təhkiyə probleminə toxunur: "bu obraz, mənim üçün nə qədər qəribə səslənsə də, deməliyəm ki, obraz konsepsiyasına inanmır". "Fransız leytenantının qadını" əsərinin 13-cü fəslində Faulz deyir: "Mənim danışdığım hekayə tamamilə uydurmadır. Bu obrazlar mənim təxəyyülümdən qıraqda heç vaxt mövcud olmayıblar". Əsərin 55-ci fəslində Çarlzla eyni qatara minən və onun qarşısında yer alan müəllif-təhkiyəçi ona acıqla baxır və düşünür: "İndi mən sənin lə nə edim axı?" Bu cür müdaxilənin hər hansı bir funksiyasından söhbət gedə bilməz, çünki o özü ontoloji mümkünsüzlüyü ifadə edir.

b) Təhkiyənin heterogenliyi, müxtəlifformalılığı, çoxdiskurluluq (məs., "Mübtəlalıq"da məktublar, gündəlikdən parçalar, tərcümeyi-hallar, şeirlər və s. vardır).

c) Təhkiyənin qırılması, "formal və üslubi heteroqlossia (bədii əsərdə iki və ya ondan çox nöqteyi-nəzərin ifadə olunması)".

d) Fraqmentallıq.

e) Janrların müxtəlifliyi, "yüksək və alçaq" mədəniyyətlərarası fərqlərin silinməsi və s.

11) Viktorian romanlar kimi, neo-viktorian romanlar da özündə əyləncə və nəsihət ele-

mentlərini birləşdirməyə çalışaraq ictimai-tarixi məlumatları ötürür. Təbii olaraq, belə əsərlər viktorian yazarların yayındığı, görməməzlikdən gəldiyi səhnələri də özündə ehtiva edir ki, bu da müasir oxucunun zövqünü oxşamaq, onun tələbinə cavab vermək məqsədi güdür, bu isə özlüyündə viktorian romanın mərkəzində duran başlıca ideyadır.

12) Viktorian ənənəni gözdən salmaq, ifşa etmək üçün neo-viktorian roman ilk növbədə onun aparıcı nümayəndələrini hədəfə alır. Bu yolla müasir müəlliflər keçmişin miflərinə özlərinin alternativlərini yaradır, qaranlıq tərəflərə işıq salırlar. Məs., H.Ceykobsonun "Oğrun baxan Tom" romanında Tomas Hardi hərfən gözümüz önündə yenidən canlanır; məlum olur ki, əsərin qəhrəmanı Barni əslində viktorian yazıçının reinkarnasiya olunmuş şəklidir. T.Hardi "Tess" əsərində tənqid olunur: "yaraşıqlı, soyuqqanlı, Rafaelit dövrünəqədərki mələkləri xatırladan yüksək düşünən riyakar". Alfred Tennison A.S.Bayyetin "Nigah mələyi" və L.Trassın "Tennisonun hədiyyəsi" əsərlərində, Elizabet Barret Brauninq M.Fosterin "Xanımın qulluqçusu", Darvin "Cənab Darvinin nişançısı" əsərində müxtəlif obrazlar tərəfindən "ifşa" olunur.

13) Neo-viktorian əsərlərə konformizm, riyakarlıq və tabu yaddır. Buna ən gözəl nümunə D.M.Tomasın "Şarlot: Ceyn Eyrin sonuncu səyahəti" əsəridir. Göründüyü kimi, neo-viktorian romanlar viktorian dövrünün əfsanəyə çevrilmiş nümayəndlərini məsxərəyə qoymaqla qalmayıb keçmişin bütün bədii ənənəsini darmadağın edir.

14) Neo-viktorian romanlar viktorian dövrünün ictimai və intim münasibətlərdəki ədalətsizliklərini pisləyərək təsvir etdikləri dünyaya qarşı tənqidi mövqedə dururlar. Müasir roman viktorian dövrünə ən çox gender bərabərsizliyi məsələsində hücum edir. "Məhdudiyyət" əsərində qadınlara qarşı qərəzli münasibəti keşiş Riddel bu cür ifadə edir: "Ağıl sahibi. Pah! Qadınlar nisbi varlıqlardır, Miss Hardemon. Onlar gözəl görünməli və sakitliyə riayət etməlidirlər. Biz onların əksəriyyətindən bu ikisindən artığını gözləyə bilmərik". Təbii ki, romanda keşişi hörmətdən salmaq, Miss Hardemonun parlaq zəkasını vurğulamaq üçün hər bir şey edilir.

15) Bədii cəhətdən yenidən canlandırdıqları ənənədə neo-viktorian romanlar özünün prioritetlərini müəyyənləşdirir: kənarda qalan önə keçir, eşidilməyən səsləndirilir, gizli qalan aşkara çıxır, marginal mərkəzə dönür. Keçmişin unutduqlarını yada salmaq və onları işıqlandırmaq postmodernizmin başlıca xüsusiyyətlərindəndir.

16) Postmodernizmin viktorian romanının qaranlıq tərəflərini, girişin qadağan olduğu sahələrini və tabu mövzularını araşdırması sabitliyi, xristian dünyasının dəyərlərini dağıdır və oxucunu hər şeyə istehza ilə yanaşan Allahsız, hər hansı bir trassendent əsasdan məhrum postmodern vəziyyətlə üz-üzə qoyur.

17) Müasir dövrdə hər cür müəyyənliyin itirildiyini bədii ədəbiyyatda ifadə etmək üçün postmodern təhkiyə sadə, yaxud da asan şərh olunan sonluqdan imtina edir. Nəticədə, bədii əsər hər cür illüziyanı qıran mümkün sonluqlarla bitir, hər şey oxucunun öz iradəsinə buraxılır. Faulz "Fransız leytenantının qadını" əsərində oxucunu üç müxtəlif sonluqla baş-başa buraxır. P.Akroydun "Elizabet Krinin məhkəməsi" əsərinin sonunda məlum olur ki, qatilin gündəlikləri onun arvadı tərəfindən saxtalaşdırılıb, E.Tenantın "Tess" əsərində əvvəldən-axıra kimi

feminist olan qəhrəmanın sonda ata və babasının iyrənc əməllərinə ortaq olması üzə çıxanda oxucu nəyə inanacağını bilmir. A.Qreyin "Yazıq məxluqlar" əsəri isə eyni bir hadisənin müxtəlif təhkiyəçilər tərəfindən bir-birilə heç cür uyuşmayan, daban-dabana zidd şəkildə işıqlandırılmasından ibarətdir: müəllif əlyazmanın həqiqiliyini iddia edir, onun tarixçi dostu düşünür ki, bu, sadəcə olaraq qara yumordur, müəllif həkimin təhkiyəsini doğruluğuna inanıb, onun arvadının yazılarını "ağlını itirmiş qadının məktubları" hesab edir, tarixçi bununla razılaşmır və s.

Burada bir qədər haşiyəyə çıxıb iki növ roman arasındakı təhkiyə fərqlərinə nəzər salmaq yerinə düşər. Romanda bir təhkiyəçinin olması və əsərin əvvəldən sonadək onun nəzarəti altında olması obrazların taleyinin dəqiq və rabitəli təsvirinə imkan verir. Burdan isə belə bir nəticə çıxarmaq olar ki, viktorian romanın təhkiyəsi insanın nizami sistem yaratmaq qüvvəsinə inamı ifadə edən dünyagörüşü təmsil edir. Dəqiq başlanğıc və sonluqların olması biliyə inam və biliyi ötürməyin mümkünlüyündən xəbər verir. Və nəhayət, təhkiyənin qapalı dairə və sistemli şəkildə bir nəfər tərəfindən qurulmasını insanın fövqəlbəşəri qüvvə ilə əlaqələndirmək olar. Vahid təhkiyənin olmasının digər bir məntiqi nəticəsi əsər boyunca eyni bir prinsipdən çıxış edilməsi, yalnız bir nöqteyi-nəzərin olmasıdır. Digər bir tərəfdən isə neo-viktorian roman istənilən sabitliyə qarşı güclü skeptisizm nümayiş etdirir, onun ifadə etdiyi qeyri-müəyyənlik isə postmodernizmdə olduğu kimi epistemoloji xarakter daşıyır. Təhkiyəçilərin sayının artırılması, bununla bərabər nöqteyi-nəzərlərin artması onun göstərir ki, hekayənin bütün variantları müstəqildir; heç bir təhkiyəçi hadisələrin tam şəkildə necə baş verməsindən xəbərdar deyil, ona görə də bu versiyalar sadəcə olaraq hadisələrin mümkün gedişatının bəzi formalarıdır. Bu xüsusilə də tarixi bərpa etmək istəyən romanlara aid edilə bilər: hadisələrin müxtəlif, bəzən isə zidd variantları tarixi biliyi əldə etməyin mümkünsüzlüyünə işarə edir. Buna görə də belə demək olar ki, "postmodern tarixi roman"larda metanarrativ yoxdur, bu cür əsərlərdə yalnız şəxsiyyətlərin həyatından parçalar, bir neçə hekayə və tarixi xronika vardır. Fraqmentallıq burada nizamın, ahəngdarlığın iflasını, xaos və entropiyanın qələbəsini bildirir. Bu həmçinin, vahid və ehkama söykənən şərhlərdən imtina, çoxsaylı nöqteyi-nəzərlərin, müxtəlif həqiqətlərin və nisbiliyin təcəssümüdür. Fraqmentallığa bütün neo-viktorian romanlarda rast gəlmək olar [3, s, 139-142].

Neo-viktorian romanlar ümumi abı-havasına görə viktorian romanlardan kəskin şəkildə fərqlənir. Viktorian romanlarda nağıllarda olduğu kimi müsbət və mənfi qəhrəmanlar, eləcə də neytral obrazlar vardır; burada qəhrəman nə istədiyini bilir və sonda layiq olduğu mükafatı alır, yaxud da acı aqibətlə üzləşir. Təhkiyəçi isə bizi hər zaman istiqamətləndirir, nəyin yaxşı, nəyin isə pis olduğunu deyir. Müasir ingilis romanında isə bunlara rast gəlmək olmur, ülvi hisslər və bəşəri dəyərlər sanki önəm daşımır artıq. Bəs əslində necədir? Bu suala cavab tapmaq üçün əslən ingilis olan ədəbiyyatçı və mədəniyyətşünas Karen Hyuittdən sitat gətirmək istəyirəm: "Yazıçılar artıq "müsbət" və "mənfi" obraz kateqoriyaları ilə mühakimə yürütmürlər. "Müsbət" və "mənfi" kateqoriyaları yalnız o halda mümkündür ki, cəmiyyət sadəcə olaraq dəyişməz olan hər hansı bir dəyərlər qrupu barəsində razılaşmaqla qalmayıb, həm də bu dəyərləri paylaşdığınız üçün sizi hansı mükafatın gözlədiyini də elan edir. Liberal

demokratiyanın hökm sürdüyü bir ölkədə isə bunu təsəvvür etmək belə çətindir. Müəlliflərin tərəfində durduqları və müdafiə etdikləri isə xeyirxahlıq və səxavətlilikdir. Onlar bizə anlatmağa çalışırlar ki, həyatımızda gətirdiyimiz qarmaqarışıqlıq üçün yalnız özümüz məsuliyyət daşımalıyıq" [4].

Ədəbiyyat:

1. Thomas D.M. "Charlotte: The Final Journey of Jane Eyre", London: "Duck Editions", 2000, 288 s.

2. Shiller D. "The Redemptive Past in the Neo-Victorian Novel." Studies in the Novel 29.4 (1997): 538-560.

3. Gutleben C. "Nostalgic Postmodernism. The Victorian Tradition and the Contemporary British Novel", Amserdam: "Rodopi", 2013, 248 s.

4. http://magazines.russ.ru/voplit/2007/5/h3.html - 12 noyabr 2014, 22:00

Abstract

NEO-VICTORIAN NOVEL AS POSTMODERN SUBGENRE

Khadija JAFAROVA

PhD student of Azerbaijan University of Languages

Key words: Victorian, neo-Victorian, postmodernism

The purpose in writing this article is to explore the history, characteristics and development of neo-Victorian novels and thus make their affinity with postmodernism overt. Neo-Victorian novels shed 'postmodern' light on the 19th century Victorian conventions. They are usually considered a subgenre of postmodernism for their duality; they explore Victorian period and revive Victorian novel while simultaneously interpret it from a postmodern point of view. The article focuses on detailed characteristics of neo-Victorian novels and provides numerous examples from fiction.

Резюме

НЕОВИКТОРИАНСКИЙ РОМАН КАК ПОСТМОДЕРНИСТКИЙ СУБЖАНР

Хадиджа ДЖАФАРОВА

докторант Университета Языков

Ключевые слова: викторианский, неовикторианский, постмодернизм

Целью статьи является рассмотреть историю неовикторианского романа, его особенности, развитие, и таким образом выявить его родственность с постмодернизмом. Неовикторианский роман проливает "постмодернисткий" свет на реалистическую тра-

дицию XIX века. Он обычно считается субжанром постмодернизма за свою двойную природу; в нем присуствует викторианская тематика и роман, и в тоже время интерпретация с точки зрения постмодерна. Статья дает тщательные характеристики неовикторианского романа и подкрепляет их с многочисленными примерами из художественных произведений.

ÇAĞDAŞ DÖVRDƏ ROMAN JANRININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Sadıq QARAYEV
Azərbaycan Universitetinin dissertantı

Rəyçi: Buludxan Xəlilov, filologiya elmləri doktoru, professor
Açar sözlər: roman, çağdaş dövr, ədəbiyyat, Azərbaycan nəsri

Yazılı ədəbiyyatımız şeirlə doğulmuşdur. Özündə daha geniş təsvirləri, obrazları ifadə etmək üçün lirik növün içindən yazılı nəsr də doğulmuş və ilk vaxtlar hər ikisi yanaşı işlənmişdir.

Füzuli əsrində həyata vəsiqə almış yazılı nəsrimizin cücərtiləri üstündən uzun müddət keçəndən sonra S.Ə.Şirvaninin dövründə yenidən boy göstərməyə başlamışdır. Hazırda isə "nəsr - ədəbiyyatın ağır çaplı silahıdır. Ümumiyyətlə, hər hansı bir milli ədəbiyyatın mahiyyəti, ölçü-biçisi, səviyyəsi barədə nəsr daha obyektiv mənzərə yaradır" [1,səh.163].

1. Müasir dövrün populyar janrı

Bu gün nəsr dedikdə ilk növbədə ağıla böyük nəsr, yəni roman gəlir. Bu isə müasir dövrdə romanın populyarlaşması, bu janrın kütləviləşərək, aktuallıq kəsb etməsi ilə əlaqədardır. Lakin romanların sayca artması ədəbi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən heç də birmənalı qarşılanmır. Bu tendensiyanı "roman bumu, psevdoromançılıq, roman epidemiyası, həvəskarlığın peşəkarlığı üstələməsi, bir sözlə, janrın tənəzzülü" [2,səh.12] kimi xarakterizə edənlər, həmçinin Azərbaycan ədəbiyyatında romanların sürətlə artmasında müsbət işartılar sezənlər də var.

Müasir ədəbi prosesdə romanın belə qabarıq şəkildə özünü göstərməsi, janra intensiv şəkildə müraciət olunması heç də təsadüfi xarakter daşımır. Bu hər şeydən əvvəl ənənə və janrın ifadə imkanlarının genişliyi ilə bağlıdır. İnformasiya əsrində cəmiyyətdə cərəyan edən prosesləri, zamanı təqib etmək çox çətindir. Məhz belə bir zamanda dövrün ictimai-siyasi, mənəvi-əxlaqi problemlərini hərtərəfli və dolğun şəkildə əks etdirmək baxımdan roman böyük üstünlüklərə malikdir.

İlk nümunələri hələ antik dövrdə qələmə alınan roman janrı milli ədəbiyyatımızda da özünəməxsus inkişaf və təmakül yolu keçmişdir. Azərbaycan ədəbiyyatında romanın ilk nümunəsini əksər tədqiqatçılar Zeynalabdin Marağayinin 1887-ci ildə yazdığı "İbrahim bəyin səyahətnaməsi" əsərindən götürürlər.

Ötən əsrin 20-30-cu illərindən başlayaraq, Azərbaycan ədəbiyyatında janrın kamil nümunələri formalaşmışdır. İllər ötdükcə janrın nüfuzu artmış, ədəbi prosesdə sosial-siyasi tematikadan mənəvi-əxlaqi axtarışlar mövzusuna keçid, ədəbiyyatın kütlədən fərdin daxili dünyasına enməsi baş vermişdir. Siyasi "mülayimləşmə" dövründə daha fəal və cəsarətli şəkildə konkret ədəbi mövqe nümayiş etdirən yazıçılarımızın əsərlərində ideya-məzmun dəyişkənliyi ilə bərabər, metodoloji yeniləşmə prosesi də özünü göstərmişdir.

Müasir dövrdə ötən əsrin 60-80 illərilə müqayisədə kifayət qədər çoxlu roman yazılsa da, onların az qismi ədəbi aləmdə əks-səda doğura bilmişdir. Bu janrın meyarları hələ də konkretləşmədiyi üçün bəzi qələm sahibləri və ədəbiyyata yenicə qədəm qoyan gənclər heç bir roman texnologiyasını mənimsəmədən öz sərbəst düşüncələrini, xatirələrini, eşitdikləri və yaxud özlərindən uydurduqları son dərəcə müxtəlif əhvalatları primitiv təhkiyə ilə qələmə alıb bunu roman kimi təqdim etməyə çalışırlar. Başqa sözlə desək, indi «roman adı ilə çap olunan əsərlərin bir çoxunda gözə dəyən başlıca əlamət keyfiyyət yox, kəmiyyətdir» [3,səh.167]. Qlobal yeniliklərlə müşahidə olunan müasir dövr isə ədəbiyyatdan yeni mövzular, qəhrəmanlar tələb etməkdədir.

2. Ənənənin davamı

Müasir "nəsrin qaldırdığı problemləri sərf-nəzər eləyəndə əsasən, ənənəvi və populyar mövzulara üstünlük verildiyi məlum olur" [4]. Müstəqillik dövründə Azərbaycan romanı təkcə say baxımından deyil, həmçinin mövzu-tematika, forma-struktur baxımından da genişlənmişdir. Bu dövrdə "roman-reportaj, roman-dialoq, roman-xronoka, roman-utopiya, roman-pamflet, roman bestseller, roman-tədqiqat, roman-kino" [5,səh.182] və s. yeni roman tipləri yaranmışdır.

Milli söz sənətində yazıçılarımız tarixi keçmişimizlə bağlı hadisələri bədii nəsrin obyektinə çevirməyə hər zaman böyük maraq göstərmişlər. Qələmə alınan tarixi mövzular yaxın-uzaq keçmişimizin qaranlıq, az öyrənilmiş səhifələrinə işıq salmış, eyni zamanda, bu işığın ziyasında müasir insanı düşündürən suallara cavab axtarılmış, dövrün problemlərinin təhlilinə cəhd göstərilmişdir. İdeoloji təzyiqin aradan qaldırıldığı, yazıçı qələminə düşüncə sərbəstliyi verildiyi müstəqilik illərində roman janrının bu tipinə müraciət edənlərin sayı xeyli artmışdır.

"Aləmdə səsim var mənim" (1972) adlı ilk tarixi romanı ilə bu janra yeni nəfəs gətirən Xalq yazıçısı Əzizə Cəfərzadə ömrünün son illərində də ənənəvi mövzusuna sadiq qalmış, tarixi keçmişimizin səhifələrini bədiiləşdirərək "Zərrintac-Tahirə" (1996), "Rübabə-sultanım" (2001), "Eşq Sultanı" (2003) kimi sanballı romanlar qələmə almışdır. Xalqımızın etnoqrafik yaddaşının aparıcı cizgilərinin qabardıldığı bu romanlarda təsvir edilən dövrün ponoramı bütün təfərrüatı ilə verilmiş, canlı boyalarla tarixi şəxsiyyətlərin real bədii obrazı çəkilmişdir. "Tarixi roman ustası" bu əsərlərdə də diqqəti Azərbaycanın siyasi tarixinin ən aktual problemlərinə yönəldə bilmiş, milli-mənəviyyatımızın ağrılı məsələlərini qabartmışdır. Oxucuya yüksək vətənpərvərlik hissləri aşılayan bu tarixi salnamələr Xalq yazıçısının müstəqillik illərində yaradıcılığının mahiyyətcə yeni məzmun kəsb etdiyini təsdiqləyir.

Müasir dövrdə ənənəvi olaraq davam etdirilən tarixi roman janrına şairlərimiz də müraciət etmişlər. Sabir Rüstəmxanlının "Göy Tanrı"(2005), "Xətai yurdu", "Difai fədailəri", "Ölüm zirvəsi" (2007), Davud Nəsibin "Cavanşir"(2000), "Cavanşirsiz məmləkət" (2002) kimi tarixi romanları müasir dövrdə bu janrın aktuallığını, populyarlaşmasını ortaya qoyan bədii faktlardır. Əslində sənətkardan böyük istedad tələb edən nəzmin dar çərçivəsi şairin istedadını buxovlayaraq onu daşlaşmış qəlibə salır, bu isə bəzən məzmunun formaya qurban getməsi ilə nəticələnir. Müsahibələrinin birində (Ədəbiyyat qəzeti.- 2007.- 17 avqust) "şeirlə

tarixi həqiqətlərin hamısını demək mümkün deyil. Düşündüklərimin şeirlə ifadəsi məni doyuzdurmurdu", - deyən Sabir Rüstəmxanlının tarixi romanları da bu zərurətdən doğmuş və ədibin bir nasir kimi də özəl keyfiyyətlərini aşkara çıxartmışdır.

Xalq şairinin "Difai fədailəri" romanında ötən əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və bu faciənin dəhşətlərindən xilas olmaq üçün Əhməd bəy Ağoğlunun yaratdığı "Difai" hərəkatı tarixi fakt və məxəzlərin dili ilə bədii təcəssümünü tapmışdır. Romantik süjet ətrafında qurulan əsərdə tarixi həqiqətlərlə yanaşı, bədii təxəyyül də mühüm rol oynayır.

"Tarixi roman poetikasının tələbləri ilə" [5,səh.183] səsləşən "Ölüm zirvəsi" əsərində xanlıqlar dövrünün çox mürəkkəb və ziddiyyətli mərhələsinin indiyə qədər təhrif olunmuş siyasi mənzərəsi bədii düşüncə predmetinə çevrilərək, zamanın fəlsəfəsini ortaya qoymuşdur. Mürəkkəb kompozisiya və süjet xəttinə malik romanda müəllif oxucunu tarixin acı həqiqətləri ilə üz-üzə qoyaraq, XIX əsrin əvvəllərinin tarixi xronikasını vermiş, rəngarəng boyalarla Nadir şahın və Azərbaycan xanlarının gerçək simalarını yaratmışdır ki, bunların içində Cavad xan obrazı xüsusilə seçilir. Ümumiyyətlə, Cavad xan obrazı Sabir Rüstəmxanlı yaradıcılığında Azərbaycan anlayışının, vətən duyğusunun doğurduğu ilkin assosiasiyaları özündə ehtiva edir. "Ölüm zirvəsi" romanının motivləri əsasında (Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə) lentə alınmış "Cavad xan" (2009) filmi də şairin bu mövzuya nə dərəcədə bağlı olduğunu sərgiləyir.

Ümumiyyətlə, müasir ədəbi prosesin prioritet tarixi mövzusu daha çox XVII-XVIII əsrin siyasi hadisələri, Nadir şah və xanlıqlar dövrünün hadisələri təşkil etməkdədir. Roman janrının tarixi xronika nümunələrindən olan təkcə iki əsər –Hüseynbala Mirələmovın "Nadir şah" və Yunis Oğuzun "Nadir şah" romanları bu fikri təsdiqləyir. Çağdaş ədəbi prosesdə tarixi hadisələrə qeyri-ənənəvi baxış da diqqət çəkən məsələlərdəndir. Bu mənada, Elçin Hüseynbəylinin "Don Juan", "Şah Abbas", İlqar Fəhmi "Çənlibel tülküsü" ədəbi layihəsi altinda qələmə aldığı "İlk sui-qəsd", "Qarğa yuvası", "Kölgədə əqrəb" romanları maraqlı bədii örnəklərdəndir.

3. Nəsrdə Qarabağ mövzusu

Müstəqillik illərində tarixi roman ənənəsinin davam etdirilməsilə yanaşı, dövrün ictimai-siyasi hadisələrinin, cəmiyyəti düşündürən vacib məsələlərin, mənəvi-əxlaqi problemlərin də bədii nəsrin obyektinə çevrilməsi bu janrın mövzu-problematika baxımından zənginləşməsinə xidmət etmişdir.

Ötən əsrin 80-ci illərinin sonlarında Qarabağ və onun ətrafında baş verən hadisələrin gərginləşməsilə məsuliyyət yükü daha da artan milli ədəbiyyatımızda xalqımızın başına gətirilən faciələr həyəcanlı düşüncələr, yüksək vətənpərvərlik pafosu ilə bədii təqdim faktına çevrilmişdir. 90-cı illərin ortalarından isə vətənin müdafiə mövzusu bütün yönləri ilə roman janrında da bədii ifadəsini tapmağa başlamışdır. Beləliklə, "...ötən əsrin sonlarında erməni silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə Qarabağ mövzusu ədəbiyyatımızda aparıcı mövqeyə çıxmış, onun ideya istiqamətini dəyişdirmiş"dir [6,səh.141].

Hazırda ədəbi mühitdə belə bir təmayülün getdikcə güclənməsi konteksində roman nümunələrinin də çəkisi artmaqdadır. Qarabağ mövzusunda qələmə alınan romanların əsas sə-

ciyyəvi xüsusiyyəti "Qarabağda və onun ətrafında baş verən hadisələri qələmə almaq, onların inkişafında epik mahiyyəti, dolğunluğu hifz etmək, bu yolla dövrün dramatizmini bütün təzadları ilə bədii nəsrin predmetinə çevirmək istəyidir" [6,səh.284]. Bu mövzuya müraciət edən qələm sahibləri daha çox orta və yaşlı nəslin nümayəndələridir.

Amma 20 ildən çox ədəbi gündəmə gətirilən bu mövzuda qələmə alınmış əsərləri bədii dəyər, silqət və sənətkarlıq baxımından eyni səviyyədə qoymaq olmaz. Qaçqınlıq mövzusunun geniş yer aldığı, daha çox hadisəçilik üzərində qurulan sxematik əsərlərlə yanaşı, Aqil Abbasın "Dolu", Mövlud Süleymanlının "Erməni adındakı hərflər", Elçin Mehrəliyevin "Doxsanıncı illər", Sabir Əhmədlinin "Axirət sevdası", Mahirə Abdullanın "Əvvəl Axır", Hüseynbala Mirələmovun "Yanar qar", "Xəcalət", Kamil Əfsəroğlunun "Çadır" romanları Qarabağ mövzusunda Azərbaycan nəsrinə uğurlu möhürünü vuran əsərlərdəndir. Bunların sırasında yalnız "Aqil Abbasın əsərini sırf müharibə romanı adlandırmaq olar" [5,səh.185].

Tanınmış qələm sahibi Aqil Abbasın Qarabağ mövzusuna tez-tez müraciət etməsində vətənin, millətin taleyi üçün nigarançılığın ifadəsi dayanır. Yazıçının hər dəfə mövzuya yeni baxış bucağından yanaşması, bu mövzudan irəli gələn problemlərin bədii həll istiqamətində axtarışlarını gücləndirməsi müəllifin ən uğurlu əsərinin ("Dolu" (2008)) qələmə alınması ilə nəticələnmişdir. "Qarabağ savaşını şərti olaraq bir şəhər çərçivəsində çox canlı şəkildə təsvir edən, müharibə dövründə baş verən daxili çəkişmələri, gizli siyasi oyunları, müxtəlif xarakterli insanlar arasındakı gərgin psixoloji qarşıdurmaları bütün çılpaqlığıyla müasir oxucuya çatdıran Aqil Abbasın "Dolu" romanı"nda [7,səh.2-3] Qarabağ müharibəsinin alovları və ondan sonrakı dövr real səhnələrlə əks etdirilmişdir. Burada müharibə psixologiyasının insanların həyatında buraxdığı iz, "qanlı savaşların törətdiyi maddi və mənəvi itkilər" [5,səh.185] ön plandadır.

Müəllif əsərdə "Dünyanın Ən Varlı Şəhəri" adı altında Ağdamın müharibə illərini təsvir edərək, şəhəri romanın diqqət mərkəzinə çəkmişdir. Əvvəllər "...Dolu yağanda bu şəhərdə zurna-qavallı bir toy-bayram olardı" [8,səh.27]. Amma bir dəfə "şəhəri Dolu necə vurdusa, şəhər dik atıldı" [8,səh.27]. Əslində "Göydən dolu yağmırdı, Əzrayıl yağırdı. Kimi harada yaxalayırdısa, elə orada da cənginə alıb çeynəyirdi" [8,səh.29]. Amma şəhərə yağan dolu-ların-qradların səsi, ondan da bərk çıxan "colum-cocuğun" fəryadı nədənsə paytaxta gedib çatmırdı, orada sakitlik hökm sürürdü. Romanda ironik üslub çaları ilə təsvir olunan belə zidd vəziyyətlər, disharmoniya əsər boyu müxtəlif oxşar situasiyalarda təkrarlanaraq özünü aqressiv psixoloji ovqatla büruzə verir.

Müsahibələrinin birində "mən bir yazıçı kimi "Dolu" əsərində istəyimi ortaya qoya bilmişəm", - deyən müəllifin əsərinin uğurlarından biri də A.Abbasın bu müharibəni bir qələm sahibi kimi kənardan müşahidə etməməsi, eyni zamanda, hadisələrin canlı iştirakçısı olmasıdır. Yazıçının Qrabağ bölgəsinin tarixinə, ictimai-siyasi, sosial həyatına, ərazinin coğrafi mühitinə yaxından bələdçiliyi romanın daha inandırıcı bədii təqdim faktına çevrilməsinə xidmət etmişdir. Buna görə də "Dolu" romanında da müəllifin obraz, qəhrəman seçimində, onları təqdim-təsvirdə yaradıcı təxəyyülündən, yazıçı fantaziyasından daha çox yaxından tanıdığı şəxsiyyətlərin real cizgilərinə əsaslandığını görürük" [6,səh.285]. Lakin buna baxmayaraq, əsərdə bir-birindən fərqli obrazların canlı, sünilikdən uzaq, parlaq,

psixoloji portretlərinin təsviri ilə qarşılaşırıq və onların bəzilərini yeni qəhrəman axtarışlarının bəhrəsi kimi dəyərləndirmək olar. Romanın sonunda döyüşdə şəhid olmuş insanların ruhlarının yenidən komandirin ardınca işğal olunmuş torpaqlarımıza doğru irəliləməsi əsərin bədii ideyasının mayasını təşkil edir. Əsərin əsas məqsədi oxucuda bu ideyaya inam yaratmaqdır.

Qarabağ hadisələrinin mahiyyətini açmağa, mövcud faciənin bədii fəlsəfi təhlilini göstərməyə cəhd edilən bədii nümunələrdən biri də Mövlud Süleymanlının «Erməni adındakı hərflər» romanıdır. "Müasir oxucuları otuz-qırx il əvvələ aparan, hələ həmin nisbi sakitlik dövrlərində ermənilərin məkrli, mənfur xarakterlərini, azərbaycanlılara qarşı içindəki nifrəti, kin-küdurəti bütün dərinliyi ilə açıb göstərən" [7,səh.2] bu əsər müəllifin uğurlu yaradıcılıq nümunələrindəndir.

Amma bütün bunlarla yanaşı, "Qarabağ mövzusuna həsr olunan bəzi romanlarda ümummilli dərd, ağrı plakatçılığa çevrilib. Və hələ də spesifik müharibə psixologiyasını, çağdaş Azərbaycan gerçəkliyini əks etdirən monumental əsər ortada yoxdur» [2,səh.29]. Bu mövzuda saysız-hesabsız poeziya nümunələri, poemalar, publisistik əsərlər, hekayə və povestlər qələmə alınsa da, roman nümunələri hələ də azlıq təşkil edir.

4. Ədəbi proses və mənəvi-əxlaqi problemlər

Müasir "dünyanın qloballaşması və epoxal dəyişmə ekstremal həllini gözləyən çox ciddi problemlər ortaya çıxarmışdır. Yadlaşma, Şərq ailə yapısının dağılması, qlobalizasiyanın "dünya vətəndaşı" uydurması ilə milli kimlik, hətta milli məkan anlayışlarının öz qutsallığını itirməsi məhz bu cür ekstremal problemlərdəndir" [4]. Bu mənada, Elçin Hüseynbəylinin sayca yeddinci romanı - "Yol ayrıcında qaçış" əsəri milli ədəbiyyatımızda bu boşluğu doldurmağa xidmət edən az sayda bədii örnəklərdəndir.

Ədəbi-tənqidi fikrin diqqətini yeni roman axtarışları ilə çəkən Elçin Hüseynbəylinin "Tut ağacı boyunca" əsəri ilə başlayan roman yaradıcılığı müəllifin ədəbi fəaliyyətində yeni mərhələnin əsasını qoymuşdur. Yaşadığı dövrün sosial-ictimai, mənəvi-əxlaqi problemlərini bədii nəsrdə uğurla əks etdirən müəllif "Yol ayrıcında qaçış" əsərində mənəviyyat aləminin təzadlı mənzərələrini, cəmiyyətin dəyişən meyarlarını bədii ümumiləşdirmə yolu ilə əks etdirməyə çalışmışdır.

Əsərin başlanğıcında müəllifin "çaşmış insanlar haqqında çaşqın bir roman" mesajı əsərin məğzinin nədən ibarət olacağını əvvəlcədən oxucuya bəlli edir. Romanda bir ailənin təmsilçisi olan əkiz bacıların timsalında bir-birinə yad dünyagörüşlər cəmiyyətin sosial-mənəvi böhranı, yeni ictimai proseslərin axarında qarşı-qarşıya gətirilir. Əsərin başlıca fəlsəfəsinin ifadəçiləri olan bu iki obrazın mənəvi, fiziki ziddiyyətləri hələ ilk səhifələrdən diqqət çəkir: Fatma başıaşağı, tərbiyəli, dindar qız idi, Züleyxa isə "həddən artıq açıq-saçıq", son dərəcə gözəl, "bir sözlə, huri-mələk" [9,səh.9] idi. Ona görə də "Məhlə uşaqlarının hamısı Züleyxa-Malenanı sevirdi. O, bir şeytan idi. Kişilər bu mələksifət, dəcəl qıza vurulmuşdu" [9,səh.9] Romanda bədii konfliktin bütün şaxələri də məhz bu obrazla bağlanır.

Əsərdə hadisələri təsvir edən yazıçı obrazı, keçmişlə bu günü bir-birinə bağlayan real, bir az da sentimental xarakterdir. Keçmiş günlərin xiffətini çəkən bu obraz məhəllə "oğlanlarının

ilk sevgisi və qadın idealı" olan Züleyxanı gözəl qadın kimi qəlbində gəzdirəndə də, "Züleyxanı kimin və nəyin üstündə öldürməsi"ni araşdıranda da əslində "onun ruhu ilə birgə keçmişə qayıtmaq" istəyir. Keçmiş günlər onun üçün daha maraqlı idi. "Çünki orada biz vardıq". İndi isə "Keçmiş Bakı da alt-üst olmuşdu"... Bütün bu dəyişikliklər, yadlaşma, mənəvi-əxlaqi aşınmalar "çaşmış insanlar"ı həyatın dolanbaclarında azdıraraq, yolayrıcında çarəsiz və ümidsiz qoyur.

Əsərdə qloballaşan dünyamızın təbəddülatlarına, onun insan mənəviyyatını üstələməsinə dair fikirlər müasir dünyanın ən kəskin problemi kimi önə çəkir: "Konfransdakı çıxışım zamanı qloballaşan dünyada insanların çaşdığını, qərblimi, şərqlimi olmaq dilemması qarşısında qaldığını deyirdim.

- Qloballaşmadan danışırsınız. Qloballaşma dinsizliyi, dilsizliyi, imansızlığı, sərhədsizliyi təbliğ edir. Çünki mono dil dilsizlik, dinsizlik deməkdir. Hər quşun, ağacın dili olduğu kimi, millətlərin də öz dili olmalıdır..." [9,səh.56].

"Yol ayrıcında qaçış" romanında İstanbul şəhərinin, hadisələrin baş verdiyi məkanların natural lövhələrlə təsviri əsərin reallıq ruhunu daha da gücləndirir. Bəzi epizodların təsvirində lüzumsuz təkrarlara yol verilsə də, mövzu-tematika, milli reallığı, müasir gerçəkliyi əks etdirmək baxımından "Yol ayrıcında qaçış" romanını Azərbaycan nəsrində maraqlı ədəbi hadisə hesab etmək olar.

5. Yeni roman axtarışları

Son illər bir qisim yazarlar (Nəriman Əbdülrəhmanov, Afaq Məsud, Elçin Hüseynbəyli, Mübariz Cəfərli, Sadıq Elcanlı və başqaları) qələmə aldıqları bədii örnəklərlə ədəbiyatımızda psixoloji nəsrin yaradılmasına cəhd göstərmişlər. Bu baxımdan tanınmış yazıçı Mübariz Cəfərlinin romanları ("Bərpaçı", "Bənna", "Bağban") müasir ədəbiyyatımızda psixoloji nəsrin uğurlu nümunələrindən hesab etmək olar. Uzun illərin gərgin axtarışlarının bəhrəsi olan bu əsərlər istər struktur, istərsə də süjet və ideya-məzmun baxımından müəllifin yaradıcılığında yeni mərhələ təşkil edir.

Yazıçının digər nəsr əsərləri kimi, roman yaradıcılığı da ədəbi tənqidin diqqətindən yayınmayıb. Xalq yazıçısı Elçin "Axtarışların uğurlu bəhrəsi" məqaləsində müəllifin nəsr yaradıcılığını təhlil süzgəcindən keçirərkən yazır ki, M.Cəfərlinin əsərlərində «ənənəvi süjet xətti yoxdur, yəni süjet xətti boyunca inkişaf edən vaqeə, hadisə yox, vəziyyət, psixoloji durumdur və bu, əlbəttə, nasir fəhmi, səriştəsi tələb edir. Mübariz Cəfərlidə belə bir fəhm və səriştə var» [10,səh.19].

Tanınmış tənqidçi Cavanşir Yusifli isə yazıçının romanlarını belə təhlil edir: «Ən önəmli cəhətlərdən biri odur ki, bizim çağdaş nəsr təcrübələrindən fərqli olaraq bu mətnlərdə rəngbərəng hadisə selini deyil, hadisəni tədqiq edən yazıçı düşüncəsini görürük» [11].

M.Cəfərli öz sözünü roman janrında yeni deməyə başlasa da, hər üç əsərində fərqli ədəbi üsullardan istifadə etməyə çalışmışdır. Onun romanlarında ümumi bağlılıq hiss olunsa da, struktur oxşarlığı, demək olar ki, müşahidə edilmir. Bununla da yazıçı eyni üsluba sadiq qalmadığını, daim yeni strukturlar təqdim etməyi müasir yazıçının vacib xüsusiyyəti kimi sərgiləyir.

Təhkiyə və kompozisiya poetikası orijinal və mükəmməl olan bu mətnlərdə bədii mətləb incə ustalıqla açılır. Hər üç romanda yer alan ayrı-ayrı ibrətamiz əhvalatlar süjet xəttini şaxələndirməklə yanaşı, oxucunu həyatın dərin qatlarına baş vurmasına, bu dünyanın hüdudlarını aşmasına kömək edir. Beləliklə, mövcud qaydalar, mənalar sərhədi arxada qalır. Bu ali məqamdan boylanıb geri baxmaq isə yeni bir dünyanı kəşf etməyə bərabər olur.

Zaman anlayışını həmişə ikinci planda saxlayan yazıçı demək istədiklərini əsərin içinə çox sadə yolla yerləşdirməyə çalışır, ideyanın açılması üçün maraqlı, yeni üsullar axtarıb tapır. Bu baxımdan, «Bənna» romanı struktur yeniliyi baxımından diqqəti cəlb edir. Burada heç vəchlə gözə soxulmayan, məişət xarakterli qrafik cizgilərlə canlı, inandırıcı surətlər yaradılmışdır. Bənna obrazı əsərə daxil olandan sonra özündən əvvəlki səpələnmiş, qırıq hadisələri bir yerə cəmləyir və onları «bərpa edir». Lakin axırda o da hadisələri tamamlayıb sona çatdıra bilmir, həm də öz həqiqəti içində azıb qalır... Beləliklə, mətn açıq qalsa da, əsər bitib-tamamlanmasa da, "Bənna"da mətləbin oxucuya düzgün çatdırılması əsərin ideyasını aydınlaşdırır.

"Bərpaçı" romanında da süjet mahiyyətə çatana qədər hadisələr sadəcə, oxucunu müəmmaya, sirrə aparan oyuna bənzəyir. Mahiyyətə varanda isə oyun bitir və mahiyyət süjetlə birləşir. Romanın strukturunda isə bir növ "Min bir gecə" nağıllarının motivlərinə bir bənzərlik duyulmaqdadır: burada hadisələr ümumi kökdən ayrılmasa da, bir-birinin içindən çıxır.

«Bağban» romanı onun trilogiyasının sonuncu əsəridir, demək, eyni zamanda tamamlayıcı həlqə rolunu oynayır» [11]. Bu əsərdə mistik-fəlsəfi mahiyyət bədii detal və ştrixlərlə, bəzən də istehza, ironiya ilə verilir. Bütün bu zahiri görüntülərin içindən həyatın əsl mənası, bu mənanın içindən isə saysız suallar doğur. Mübariz Cəfərlinin hər üç əsəri öz bədii məziyyətləri ilə çağdaş ədəbiyyat tariximizə öz möhürünü vurmuşdur.

Göründüyü kimi, müstəqillik dövründə yazılmış Azərbaycan romanlarında ədəbi prosesə müəyyən dərəcədə yenilik gətirən bədii nümunələr də olmuşdur. Ümumilikdə götürdükdə isə, "müasir milli romançılığımız qarşısında duran ədəbi məqsədlərə nail olmuşdur – janr inkişafı və məzmun baxımından əhəmiyyət kəsb edən əsərlər yaradılmış və oxuculara çatdırılmışdır" [12,səh.74].

Nəticə

Müasir ədəbi prosesdə roman janrı populyarlaşaraq, bədii nüfuz və aktuallıq qazanmışdır. Müstəqillik dövründə Azərbaycan romanı təkcə say baxımından deyil, həmçinin mövzu-tematika, forma-struktur baxımından da genişlənmiş, yeni roman tipləri yaranmışdır.

Bu dövrdə yazıçılarımız əsasən ənənəvi olaraq tarixi roman və populyar mövzulara üstünlük vermişlər. Dövrün mürəkkəb ictimai-siyasi hadisələri, çağdaş dünyanı və müasir Azərbaycan cəmiyyətini narahat edən ən mühüm məsələlər, o cümlədən Qarabağ problemi də mövzu obyektinə çevrilmişdir. İndiyə qədər bu mövzuda saysız-hesabsız poeziya nümunələri, poemalar, publisistik əsərlər, hekayə və povestlər qələmə alınsa da, roman nümunələri hələ də azlıq təşkil edir. Çağdaş Azərbaycan nəsrində sosial-ictimai, mənəvi-əxlaqı məsələlərə də xüsusi diqqət yetirilmişdir. Bir qisim yazarlar isə qələmə aldıqları bədii örnəklərlə ədəbiyyatımızda psixoloji nəsrin yaradılmasına cəhd göstərmişlər.

Ümumiyyətlə, müstəqillik illərində özünəməxsus inkişaf yolu keçmiş Azərbaycan romanları mövzu-problematika, forma-sənətkarlıq baxımından rəngarəng olmuş, janrın poetikası yeni çalarlarla zənginləşmişdir.

Ədəbiyyat:

1. Mustafa Firuz, "Roman janrının inkişaf trayektoriyası", Azərbaycan 2013 № 1.
2. "Çağdaş Azərbaycan romanı: problemlər, mülahizələr" «Azərbaycan» jurnalı 2014, №1.
3. Yusifli Vaqif. 2004-cu ilin nəsri, "Azərbaycan" jurnalı, № 2, 2006, səh.154.
4. Əlibəyli Bəsti, Azərbaycan Yazarlar Birliyi Tənqid və Publisistika seksiyasının qurultayqabağı məruzəsi (17 mart 2011-ci il) http://www.dgtyb.org/YAZI-/1404.html
5. Yusifli Vaqif. "Böyük kitab". (Müasir Azərbaycan romanı haqqında tənqidi-publisistik düşüncələr). "Azərbaycan" jurnalı, 2014 № 9.
6. Mehrəliyev Elçin, «Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri», Bakı, «Nurlan», 2008.
7. Fəhmi İlqar, "Nəsildən nəsilə - nəsrdən nəsrə…" (2005 - 2010-cu illər Azərbaycan nəsrinin panoram mənzərəsi) «Ulduz» 2011 № 4
8. Abbas Aqil, "Dolu", "Təhsil", Bakı-2008, səh. 254.
9. Elçin Hüseynbəyli, "Yolayrıcında qaçış", Bakı: "Qanun" nəşriyyatı, 2012, səh.196.
10. Elçin. "Axtarışların uğurlu bəhrəsi", "525-ci qəzet", 2010, 25 sentyabr.
11.Cavanşir Yusifli, "Bağban, yaxud Qadagan işarəsi", 4 dekabr 2013, http://avanqard.net/index.php?action=static_detail&static_id=55716
12. Şərifova Salidə, "Müasir Azərbaycan romanlarında ictimai-siyasi mühitin təsviri problemləri", Bakı 2007, səh.76.

Abstract

THE DEVELOPMENT FEATURES OF THE NOVEL GENRE AT THE MODERN TIMES

Sadig GARAYEV
Ph.D student of Azerbaijan University

Key words: novel, modern times, literature, Azeri prose

The of novel genre has gained great literary repulation and urgency in modern Azerbaijan prose. The Azeri novels during independence years were expanded not only in terms of number, but also in terms of the title-theme and the structural.

During this period, the authors gave preference to the traditional and popular topics. In addition to the historical novels the Karabakh problem appeared as the main subjectduring independence years. Modern Azerbaijan novels also paid special attention to social, moral and ethical issues. Some authors have tried to establish the psychological prose.

In general, the Azeri novels during independence years were richer in terms of subject-

problematic and shape-craft. The most important issues contemporary Azerbaijan society and the modern world became the concerning subject of the novels.

Резюме

ОСОБЕННОСТИ РАЗВИТИЯ ЖАНРА РОМАНА НА СОВРЕМЕННОМ ЭТАПЕ

Садых КАРАЕВ

Диссертант Университета "Азербайджан"

Ключевые слова: роман, современный период, литература, азербайджанская проза

Жанр романа в современной азербайджанской прозе получил еще более популярный характер и приобрел литературный авторитет и актуальность. В годы независимости азербайджанский роман обновился не только с точки зрения количества, но и по тематике и структурной форме.

В указанный период наши писатели давали предпочтение традиционной и популярной тематике. В годы суверенитета наряду с историческими романами, и Карабахская проблема превратилась в объект тематики. В современном азербайджанском романе привлекает особое внимание и социальные, и культурно-моральные вопросы. А некоторые писатели сделали попытки на создание психологической прозы.

В общих чертах, в годы суверенитета азербайджанский роман стал более богатым с точки зрения тематики и проблематики, формы и мастерства. Вопросы, которые беспокаивают современное азербайджанское общество и современный мир, стали объектами тематики.

AMERİKA ƏDƏBİYYATINDA O.HENRİNİN YERİ

Aytən MUSAYEVA
Azərbaycan Universiteti, dissertant

Rəyçi: prof. ,f.e.d. Qorxmaz Quliyev
Açar sözlər: O. Henri, Amerika ədəbiyyatı

XIX əsrin sonu XX əsrin əvəlləri Amerika tarixinin ən keşməkeşli, müxtəlif ədəbi, sosial, siyasi-ictimai hadisələrlə yadda qalan və bütün Amerika ədəbiyyatına ən çox təsir edən bir dövrdür. XVIII əsrdə formalaşan Amerika ədəbiyyatı artıq XIX - XX əsrlərdə dünya ədəbiyyatı tarixinə özünəməxsus töhvələr vermişdir. Məlumdur ki, ədəbiyyat yarandığı dövrün ab - havasını, həmin vaxt baş verən sosial - ictimai, tarixi hadisələri özündə ehtiva edir. Buna görə də hər hansı bir sənətkarın yaradıcılığını təhlil etməzdən öncə həmin ədibi yetişdirən ictimai - tarixi mühiti araşdırmaq lazımdır.

XIX-XX əsr Amerika ədəbiyyatına Cek London, Henri Ceyms, Con Rid, Mark Tven kimi unudulmaz şəxsiyyətlər bəxş etmişdir. Bu ədiblər Amerika ədəbiyyatını unudulmaz əsərləri ilə zənginləşdirmiş, dünya ədəbiyyatı sıralarına onun adını möhtəşəm hərflərlə yazdırmışlar. Bu sənətkarlar sırasında özünəməxsus üslubu, ideyaları, yaradıcılıq amalı ilə seçilən yazıçılardan biri də O.Henridir. Məhşur Amerika yazıçısı O.Henri də XIX əsrin sonu - XX əsrin əvəllərində yaşamış, yazıb-yaratmış sənətkardır. Əsl adı Vilyam Sidni Porter olan bu ədib kiçik hekayələr və bu hekayələrin gözlənilməz sonluqla bitməsi ilə şöhrət qazanmışdır. Bir çox Amerikan ədibləri kimi O.Henri də maddi imkansızlıq ucbatından təhsilini yarımçıq qoyaraq 15 yaşından aptek xidmətçisi işləyir. Əmisinə məxsus olan bu aptek kiçik bir şəhər üçün klub funksiyasını daşıyırdı və orada cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar günün xəbərlərini müzakirə etmək üçün toplaşardılar. Deyilənlərə görə, Bill Porter həmişə onlara qulaq asar, hətta qeydlər götürər, kiçik satirik hekayələr - komediyalar yazardı. Şəkil çəkmək onun hobbisi olduğu üçün yazdığı əsərlərə illustrasiyalar da çəkərdi və bütün bunlar kütlənin böyük gülüşünə səbəb olardı. Onun bir yazıçı kimi formalaşmasında 1898-1901-ci illərdə yaşadığı həbsxana həyatının da böyük təsiri olmuşdu. Hətta bəzi məlumatlara görə o, təxəllüsünü həbsxana gözətçisi Orrin Henrinin adından götürüb.

Hər bir yazıçının, ümumiyyətlə, yaradıcı insanın fəaliyyəti məxsus olduğu xalqa, həmin xalqın sosiologiyası, fəlsəfəsi, siyasətinə bağlı olduğu kimi, O.Henrinin də yaradıcılığı onun xalqının həyatından ayrılmaz idi. Lakin bununla yanaşı eyni bir dövrdə yaşayan yaradıcı insanın həmin hadisələrə nəzər nöqtəsi fərqli olur. Müəllif yaratdığı obrazları dövrünün insanlıq simasını itirən şəxslərinə qarşı qoyurdu. Lakin gözlənilməz sonluq ustası olan bu Amerikan yazıçısı müasiri olan Cek London kimi ictimai mühitdə insan mübarizəsini qabarıq əks etdirmirdi. Yaxud da onun digər müasiri M.Tven kimi dövrün ziddiyyətlərini satira, qara yumor vasitəsilə kəskin tənqid atəşinə də tutmurdu. (Onu da qeyd edək ki, O.Henrinin də satirik hekayələri vardır). Lakin T.Drayzer kimi əsərlərini faciəvi şəkildə deyil, nikbin,

xoşbəxt sonluqla bitirir və bununla da O.Henri qəhrəmanlarının mənəvi qələbəsinə inamını əks etdirirdi. O, sənətkarlıq istedadından istifadə edərək bir qədər mülayim tonda bu ziddiyyətləri əks etdirir, əsərlərinə yumoristik don geyindirirdi. Senzura sıxışdırmalarından qaçmağın, lakin həqiqəti bəyan etməyin daha təhlükəsiz yolu bu əsərləri bacardıqca şən səsləndirmək idi. Digər bir cəhəti də qeyd etmək yerinə düşərdi ki, O.Henrinin yaratdığı konflikt cəmiyyətdəki çatışmazlıqlarla şəxsiyyət arasındakı mübarizədən daha çox maddiliklə mənəviyyat, insanın həyatdakı arzuları, idealları ilə mövcud imkanlar arasında, yaxud obrazın xarakteri ilə onun situasiyadan, yaranmış şəraitdən asılı olaraq hərəkət etməsi, davranışı və s. arasında baş verən konfliktdir.

Amerika ədəbiyyat tarixinin tədqiqatçıları XIX-XX əsrdən danışarkən məhşur Amerika yazıçılarının nə üçün bədbin olduqlarını izah etməyə çalışırdılar. Həmin dövrdə Amerikada iri sənaye müəsisələri - trestlər yaradılmış, " sənaye kapitanları " maliyyə resurslarını ələ keçirmiş, sadə xalq isə bazarları, işlə təminatı və hətta hökuməti ələ keçirən bu iri trestlərdən asılı vəziyyətə düşmüşdü. " Maşın sənayesi və nəhəng var-dövlətin təsiri ilə minlərlə insanları işdən çıxarır, yaxud da onlar aşağı təminatlı əmək haqqı ilə işə götürülürdülər. Beləliklə, artmaqda olan "qeyri - insani" nəhəng istehsal kütləsi, maşın texnologiyası və maliyyə kapitalizmi və özünü bu hadisələrin qurbanı kimi görən sadə xalq kütlələri xalqın taleyini düşünən ədiblərin yaradıcılığından kənarda qala bilməzdi.

Dövrün bütün bu hadisələrini adekvat şəkildə, bütün ziddiyətləri və mürəkkəbliyi ilə əks etdirmək üçün Amerika ədəbiyyatında yeni bir cərəyan - tənqidi realizm yarandı. Bu bir faktdır ki, hər bir vaxt müəllifin mühiti və onun iqtisadi və sosial qüvvələri ədibin yaradıcılığına təsir edir, yaxud da onun ədəbi əsərlərinin təbiətini müəyyənləşdirir. Buna görə də ədəbi faktlara tarixi material kimi yanaşmaq olar. Başqa sözlə, Amerika müəlliflərinin əsərlərini linza kimi istifadə etsək, onu çevirdikdə günəşin şüalarını elə əks etdirər ki, millətin tarixindəki hadisələri işıqlandırar, yaxud da ən azı millətin mentalitetinin yaranmasını və inkişafını təsvir edə, xalqın mənəvi həyatını müəyyənləşdirən dəyərlərin toplusunu nümayiş etdirə bilər.

Bu dövrdə Amerika ədəbi səhnəsi son dərəcə mürəkkəb və ziddiyətli olduğu kimi O.Henrinin şəxsiyyəti və yaradıcılığı haqqında bir - birindən fərqli, təzadlı fikirlər irəli sürülmüşdür. Ümumiyyətlə, bir şəxsiyyət kimi O.Henri müəmmalı bir insan idi. O, həmişə oxucuların nəzərindən, ədəbi müsahibələrdən kənarda qalmağa üstünlük verirdi. Bəzi mənbələrdə bildirilir ki, yazıçı yalnız maddi vəziyyətini yaxşılaşdırmaq üçün yazdığını qeyd edirdi. Düzdür, bu fikrə müəyyən qədər haqq qazandırmaq olar, lakin bu tamamilə belə olsaydı, o zaman O.Henri dövrün ziddiyyətlərini əks etdirən unudulmaz hekayələrini yaza, xalqın üzləşdiyi problemləri ifadə edə bilməzdi. "O.Henri yalnız maddi qazanc üçün yazırdı", - deyərək onu ədəbiyyatda tutduğu mövqedən uzaqlaşdırmaq da düzgün olmazdı. Ədibin müasiri olan Amerikanın bir nömrəli yazıçısı Cek London 1903-cü ildə "Tənqidçi" tərəfindən nəşr olunan "Dəhşətli və tragik nəsr əsərləri" adlı məqaləsində belə deyir: " Təəssüf ki, yazıçı əvvəlcə çörək üçün, sonra isə şöhrət üçün yazır və çörək qazanmaq kimi bu tələblər elə artır ki, beləliklə, o heç vaxt şöhrətə çatmır və möhtəşəm əsərlər yazılmamış qalır" [1, səh.19]. Və bu belə bir əsaslı fikrə gətirə bilər ki, məhz XX əsrdə Amerika ədəbiyyatı onun inkişafına

təsir edən maneələrlə üzləşmişdir. Məhz buna görə də O.Henrinin əsərlərini təhlil edərkən bu maneələri nəzərə almaq lazımdır.

Məlumdur ki, qəzetlər onları maliyyələşdirən insanların əmrini icra edirdilər, beləliklə, onlar hər şeyi açıq - aşkar tənqid edən yazıçılardan imtina edirdilər, lakin bəzi jurnallar var idi ki, onlar intellektual üsyanın mərkəzi idilər. Beləliklə, yazıçıların əksəriyyəti, O.Henri də daxil olmaqla öz yazı üslublarını senzura tələblərinə uyğunlaşdırırdılar. O.Henri buna görə də öz hekayələrini kəskin tünd boyalarla çəkməkdən uzaq idi. Lakin bəzi tənqidçilərin: ədib " yalnız əyləndirmək üçün yazırdı " [2],- deməsi ilə də tamamilə razılaşmaq olmaz. O.Henri dövrünün ab - havasını əks etdirirdi, o, heç nədən çəkinmirdi, " Vilyam sarsılmamışdı, sadəcə maska geyinmişdi - zarafatçının, mimikaçının və xəyalpərvərin maskasını" [1, səh.110]. O.Henrinin bəzi əsərləri şəraitin təsirinə məruz qalmış kimi görünürdü. O.Henrinin hekayələrində dünya realist ənənələri ilə yanaşı, xalis amerikan izləri də var idi. Bu, əlbəttə, yazıçının mənsub olduğu millətin mənəvi həyatından, sosial sistemdən, milli ruhdan, cəmiyyətin quruluşu, sinfi münasibətlər və mübarizədən asılı idi və ədib tipik şəraitdə tipik xarakterlər yarada bilmişdi. Lakin bu obrazların əksəriyyəti sosial mühitdə deyil, təcrid olunmuş şəraitdə təsvir olunurlar. Bununla belə hər bir halda onlar mənsub olduqları cəmiyyətin üzvləri idilər.

O.Henri tapdanmış yoldan yayınmış, insan xislətini, insanın əsl dəyərini açmaq üçün onu adi məişət və yaşayış qayğıları fonunda təqdim etmiş, obrazların psixologiyasının ən gizli qatlarına yol açmağa çalışmışdır. Bu məqsədlə o, say-seçmə, fövqəladə bacarıqları və istedadları ilə fərqlənən şəxsiyyətlərin deyil, adi insanların obrazlarını yaratmışdı. Təsadüfi deyil ki, onun insan fədakarlığını təmsil edən qəhrəmanlarının demək olar ki, əksəriyyəti aşağı - orta təbəqənin nümayəndələridir və onlar adi məişət qayğıları fonunda təsvir olunurlar. (Məsələn, "Al-qırmızı paltar", "Rus samuru", "Ən əziz hədiyyə", "İncəsənətə məhəbbət naminə", "Yersiz marağın məzhəkəsi", "Sehirli kökələr", "Yanan şam" və s. hekayələrində) O.Henri nəsrinin qəhrəmanlar sərgisində əsas yeri nisbətən adi və sıravi adamlar təşkil edir. Lakin bu adilik primitivlik demək deyil, adidə mürəkkəbliyin, zənginliyin axtarılmasıdır. Bu o demək deyil ki, yazıçı yalnız kasıb zümrənin fədakarlığını təsvir edir. Məsələn, "Kaktus şəhərindən olan alıcı", "Qızıl və sevgi", "Şaftalı", "Üçüncü komponent", "Pianina" və s. hekayələrin qəhrəmanları maddi baxımdan zəngin insanlardır. Amma o da xüsusi qeyd edilməlidir ki, O.Henrinin yaratdığı obrazlarına simpatiyası və böyük sevgisi məhz birinci qrup əsərlərində duyulmaqdadır və təsadüfi də deyil ki, ədib bu hekayələrində kəskin konfliktlər fonunda qabarıq formada insan fədakarlığını tərənnüm etmişdir.

Bütün çatışmazlıqları və üstünlüklərinə baxmayaraq Porterin əsərlərini xalq sevirdi. Çünki o, xalqın qayğıları haqqında yazırdı. Ədib Qrinzboro şəhərində anadan olsa da, bütün varlığı ilə Nyu Yorka bağlı idi. Təsadüfi deyil ki, onun ən yaxşı əsərləri bu şəhərdə yaşadığı müddətdə yazılmışdı. Bəzi ədəbiyyat tarixçiləri onu "Nyu York nəğməkarı" adlandırırdılar [1, səh. 113]. Bəli, O.Henri maddi cəhətdən yoxsul, mənən zəngin olan nyu yorkluların – Mis Martaların, Dellaların, Cimlərin, Meydaların, Coların, Nənsilərin nəğməkarı idi. O, sanki kasıb, lakin yüksək keyfiyyətlərə malik olan bu nyu yorkluların dərdinə şərik olmaq, onların

bu haqsızlıqlar dünyasında ən yaxın dostu olmaq istəyirdi. O.Henri onların həyat nəğməsini oxuyurdu, həm sevincli, həm nisgilli!

1914-cü ilin payızında "Böyük Metropolitan" qəzeti Nyu York haqqında yazırdı: "Bu, çox yaxşı kitab idi, şərhçilər onu bəyəndilər. Onların verə bildiyi ən yüksək qiymət bu idi" : nəhayət, O.Henri kimi Nyu Yorku tanıyan və sevən başqa bir müəllif var. Onun dialoqlarındakı dialekt sözləri başqa ötəri ifadələrlə əvəz olunub, onun əsərlərinin səhnəsi kimi xidmət edən, yəni onun təsvir etdiyi restoranlar, hotellər bir nəsil əvvəl dağıdılıb, lakin O.Henri Manhetton adasının nəsr laureatı kimi xalqın qəlbində əzmkar olaraq qalır. Onun qoyub getdiyi yüzlərlə hekayənin arasında çoxu Mərkəzi Amerikada və Nyu Orleanda və Texasın dolaşıq düzənliklərində baş verir. Lakin onun hekayələrinin əksəriyyəti Nyu Yorkda mərkəzləşir. Yazıçı məhz bunu istəyirdi. Onun ürəyi Şərq çayı ilə Hudzon arasında yerfləşən dar zolağa - torpağa məxsus idi" [3, səh.VII].

1902-ci ildə o, ilk dəfə O.Henri kimi Nyu Yorka nəzər saldı. Və tezliklə hekayələri jurnallara sel kimi axmağa başladı. 1903-cü ilin dekabrından 1906-ci ilin yanvarınadək "Nyu York dünyası" üçün həftədə bir hekayə yazır və eyni zamanda əsərləri başqa jurnallarda da çap olunur. Sözlər və süjetlər onun təxəyyülündə asanlıqla formalaşırdılar - əlbəttə, çox asanlıqla. Çünki o, xalqa yaxın bir sənətkar idi və onun üçün sadə insanların həyatını, mənəviyyatını əks etdirmək çətin deyildi.

Bu qəbildən olan əsərlərdən biri "Ən əziz hədiyyə" (bəzi ədəbiyyatda "Kahin hədiyyəsi") idi. Əsərdə yenicə ailə quran gənc cütlük ən dəyərli əşyalarını sataraq bir-birinə hədiyyə alırlar. Bir şeyə yaramayan bu hədiyyələr onların fədakarlığının göstəricisi kimi yadda qalır. Əsərin orijinaldan adının birbaşa tərcüməsi "Sehrbazların hədiyyəsi"dir. Müəllif sonda özü onların xeyirxahlığına işarə edərək həm səmimi danlaq, həm də nəvazişlə belə deyir: "Beşikdəki körpəyə hədiyyə gətirən kahinlər (sehrbazlar), deyilənə görə, çox müdrik adamlar olublar. Milad bayramında hədiyyə verməyi də elə onlar dəb salıblar. Həm də onların özləri müdrik olduqlarından, hədiyyələri də müdrik idi. Hələ ola bilsin ki, hədiyyə gərəkli olmadıqda onu dəyişmək hüququ da şərt idi. Mənsə burada sizə olub - qalan sərvətlərini qeyri - müdrikcəsinə bir - birinə qurban eləyən, həftəsi səkkiz dollarlıq kiçik bir mənzildə yaşayan iki səfeh uşaq haqqında adicə hadisə danışdım - onların bir-birinin yolunda göstərdikləri fədakarlığı təsvir etdim. Qoy bizim zamanın müdrik adamlarına nəsihət olsun ki, bütün hədiyyə verənlər arasında bu iki nəfər ən müdrik insandır. Hədiyyə verən və hədiyyə alanlar içində əsil müdriklər yalnız bunlara bənzər olanlardır. Hər yanda və hər yerdə. Elə kahinlər də bunlardır ki var" [4, səh. 196], [5, səh. 62].

O.Henri bütün varlığı ilə Nyu Yorka bağlı idi. O, 48 yaşında vəfat edəndə düz 600 tam hekayəsi var idi və bunların arasında ona dünya şöhrəti gətirən ən gözəl əsərlər - insan fədakarlığının həqiqi simvolu olan hekayələr Nyu Yorkda yazılmışdı.

Yazıçının nəşr olunmuş ilk kitabı " Kələmlər və krallar " olsa da, iki il sonra çıxan növbəti kitabı, həqiqətən, onun ədəbi şöhrətini yaratdı. Bu kitab " Dörd milyon " adlanırdı. Bu kitab təkcə Nyu York hekayələrinin ən yaxşı nümunələrini birləşdirmir, həm də ictimaiyyətə yeni bir bəxşiş – təəccüb, yaxud gözlənilməz sonluq təqdim etdi. Bütün bu hekayələrə böyük uğur

gətirən sadə dillə yanaşı, müəllifin xalqın həyatını əks etdirməsi idi. Məsələn, O.Henri ən yaxşı əsərlərindən biri olan və fədakar, mehriban, səmimi insanların nümunəsi hesab ediləcək "Al qırmızı paltar" hekayəsində aylarla ac qalaraq pul yığıb Şükran bayramında özünə paltar tikdirmək istəyən, lakin öz şəxsi sevincini, səadətini fəda edərək bütün pulunu rəfiqəsinə verən gənc Meydaya bir ata nəvazişilə yanaşaraq onun əhvalını belə real, sadə cümlələrlə belə təsvir edirdi:

"Ekipajlarda mağazaları gəzən xanımlar, siz bunu başa düşməzsiniz. Qarderobları ata pulları hesabına dolan qızlar, siz başa düşməzsiniz, heç vaxt duya bilməzsiniz ki, Meyda Şükür Günündə soyuq yağış damcılarını nə üçün hiss etmədi.

Yenə təkrar edirəm, kisələri pulla dolu olan və qucaq-qucaq geyimləri olan xanımlar, siz bunu başa düşməzsiniz. Siz gözəl şeylər üçün arzularla yaşamağın, bayram günü al - qırmızı paltar geymək üçün səkkiz ay dalbadal ac qalmağın nə olduğunu təsəvvür eləyə bilməzsiniz. Yağış, dolu, qar yağsın, külək əssin, tufan qopsun, bunun nə əhəmiyyəti var!" [5, səh.102].

O.Henri eyni mövzunun hər mümkün variasiyasının kəşfində ustad idi. Buna baxmayaraq o, Amerikanın ən yaxşı, ən dahi hekayə ustadlarının sırasına daxil edilməyə layiqdir. Bütün bu əsərlər qiymətli, şirin dilli, yumoristik, ironiyalı və yaradıcı "insan marağı" kimi tanınan yüksək keyfiyyətlərlə yaradılmışdır. Təsadüfi deyil ki, onun ən məhşur yeddi hekayəsinin beşində hadisələr onun sevdiyi Nyu Yorkda baş verir.

"Ən əziz hədiyyə " (bəzi ədəbiyyatda "Kahin hədiyyəsi"), " İncəsənətə məhəbbət naminə", "Son yarpaq", "Şəhərin səsi", "Tutduğumuz yollar" da daxil olmaqla bu hekayələrində müəllif nyu yorkluların həyatını, yaşayışını tədqiq edirdi. Onun bu əsərlərinin əksəriyyətində oxşar bir fikir vardı- əzabları, ehtiyacları olan, lakin mənəviyyatını itirməyən bir insan. Daim yaxşılıq, fədakarlıq göstərməyə hazır olan bir insan.

Ədibin yaradıcılığının əsas qayələrindən biri də " xoşbəxt sonluq" idi. Amma əslində bu əsərlər nikbin səslənsələr də, dərinliklərə vardıqda isə onların kökündə böyük bir ictimai, mənəvi, psixoloji kədər dayanırdı. Başqa sözlə desək, onun yaradıcılığı "aysberqin görünən tərəfi" idi. Öz xoşbəxt sonluqlu hekayələrində müəllif unudulmaz portretlər yarada bilmişdi. Bill Porter tərəfindən sevgi ilə çəkilmiş bu portretlər həyatın qurbanlarını, məhrumiyyətləri yaxşı bilirlər və müəllifin onlara simpatiyası, onları anlamağı sərhədsizdir. Obrazların həyatının bu sferasında mənəvi kömək və fədakarlıq müşahidə oluna bilər. Bir çox tənqidçilər onun mehribancasına xarakterlərinə qayğıkeş münasibətini, böyük təskinlik verənin diqqət mərkəzində sadə amerikalıların sevinc və kədərinin durduğunu qeyd edirdilər.

Bu "Nyu York nəğməkarı" öz əsərlərində XX əsrin birinci rübündə aşağı - orta təbəqənin həyat və mənəviyyatını əks etdirirdi. Yazıçı özü "Dörd milyon" əsərində Nyu York vasitəsilə bütün Amerikanı təqdim edərək ifadə etdiyi ideyaların universal təbiətini belə vurğulayırdı: "Mənim Nyu York hekayələrimdəki iyirmi üçüncü küçəni sadəcə Meyn Stritə dəyişin, Flatiron Binasını sil və Taun hola qoy və hekayə istənilən ştat şəhərciyinə sadəcə həqiqət kimi uyğun gələcək" [1, səh. 114].

Professor Samarin - "O.Henri - həqiqətən, diqqətəlayiq yazıçı"məqaləsində yazır: "O, sistemin cəfəngiyyatının ümumi ideyasını verirdi, burada dəhşətli aclıq fantastik var - dövlət

yığmağın mənbəyidir, burada varlılar milyonların quluna çevrilmiş və bütün insan simalarını itirmişlər". Məhz buna görə də ədib öz hekayələrində insanlığını itirmiş şəxslərə qarşı səmimi, qayğıkeş, başqasının mənafeyini özünkündən üstün tutan insanları qoyurdu.

O.Henrinin yazı üslubunda təkcə amerikan hekayə yazmaq ənənələri istifadə olunmayıb, həmçinin hədsiz dərəcədə zənginləşdirilərək tamamilə orijinal və misilsiz yolla mükəmməlləşdirilərək ölməzlik qazanıb. Lakin hekayə janrının tələblərinə uyğun olaraq buradakı hadisələr qısa və lakonik şəkildə təsvir olunaraq bir çox mətləblərin açılması oxucunun ixtiyarına buraxılır. O.Henri təhlükəsiz bir yola əl ataraq xalq üçün xoşagəlməz həqiqətləri bacardıqca şən səsləndirirdi. Onun simpatiyası varlı kələkbazlara deyildi. Onlar həmişə karikaturalaşdırılırdılar. Bill Porter sadə amerikalıları - alçaldılmış, kələk gəlinmiş, istismar olunmuş, pulları az ödənilmiş, təmənnasız sadiqliyə, fədakarlığa, comərdlik kimi keyfiyyətlərə malik olan təbəqəni sevirdi və onların təəssüfünü çəkirdi.

XX əsrin ən məhşur yazıçıları arasında adı çəkilməyə layiq olan O.Henri təxəllüslü Vilyam Sidni Porter qısa, lakonik, lakin dərin məzmun və mənalı hekayələri ilə nəinki Amerika, hətta dünya ədəbiyyatının səhifələrini təkcə üslubi baxımdan deyil, həmçinin orijinal məna çalarları baxımından zənginləşdirmiş və xələflərinin yaradıcılıq yolunda mayak rolunu oynamışdır.

Ədəbiyyat:

1. V. S. Kuznetsova, American Literature, First Quarter of the XX Century, Kiev " Vysca Skola" Publishers Head Publishing House, 1987

2. Best stories of O.Henry. Garden City, New York, 335 pg.

3. R. Abeltina, Dz. Fleija, A. Misane, English and American Literature, Ed. By R. Abeltina, "Zvaigne" Publishing House Riga, 1976, 341 pg.

4. Amerika yazıçılarının povest və hekayələri, B. " Gənclik ", 1983, 224 səh.

5. O.Henri Hekayələr, Azərnəşr-Bakı, 1966, 135 səh.

6. http://www.online-literature.com/o_henry/ 06.11.2014 / 22:44

7. http://americanliterature.com/author/o-henry/bio-books-stories/ 06.11.2014 / 22:47

Abstract

O'HENRY'S ROLE IN AMERICAN LITERATURE

Ayten MUSAYEVA

Ph. D student of Azerbaijan University

Key words: period and literature, stories by O'Henry, the world of images, the position of the writer.

In the article the works of O'Henry as one of the representatives of American Literature and his specific position were illuminated. The author at the same time analysed the writer's works in comparison with other contemporary authors. The main idea of his works were stressed by giving samples about O'Henry's stories.

At the same time the author of the article explained the stylistic colors of the writer's works.

Резюме

МЕСТО О.ГЕНРИ В АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ

Айтен МУСАЕВА

Диссертант Университета "Азербайджан"

Ключевые слова: период и литература, рассказы у О.Генри, мир образы, положения у писателя.

В статье просветилось творчество и своеобразное место представителя Американской литературы XIX-XX веков О.Генри. Автор одновременно проанализировал творчество писателя, сравнивая с произведениями писателей той эпохи. Приведя примеры из произведений О.Генри, он акцентировал главные цели его рассказов.

Автор статьи одновременно открывает стилистические оттенки творчества этого Американского писателя.

СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ПОЯВЛЕНИЯ ИСЛАМА В ЕВРОПЕ

Нигяр АЛИЗАДЕ
мл. н. с. Института Востоковедения им. З. Бунятова НАНА

Отзыв: д.э.н.проф. Дунямалы Валиев
Ключевые слова: Ислам, Европа, глобализация, интеграция, традиция.

Эксперты считают, что Европейский ислам, тема последних лет. Она включает в себя разные социально-философские аспекты развития ислама в инородной почве, в частности в христианской среде.

Не секрет, что отношения христиан к мусульманам в Европе отличались отсутствием терпимости. Враждебность сопровождалась болезненным недоверием, непониманием и недооценкой ценностей ислама. Но при этом, с годами ислам со своими интегрирующими особенностями динамично участвовал в реконструкции новой социально-политической и культурной реальности Европы. К концу XX века мусульмане, наконец-то смогли адаптироваться к новой социальной среде, а христиане привыкли к тому, что рядом существует непохожая культура.

Можно считать, что европейский ислам является крайне дискуссионной темой современности. С проникновением ислама в западноевропейскую среду общественность задавалась отнюдь неординарными вопросами. Какова численность мусульман в современной Европе? Совместим ли ислам с европейскими ценностями? Угрожает ли Европе рост численности мусульман? Последние десятилетия эти вопросы часто звучат в научной литературе и на дискурсах СМИ.

Эксперты утверждают, что роль ислама в данном регионе, судя по демографическим тенденциям, будет только усиливаться. Многие публикации 8–10 летней давности уже считаются устаревшими, так, как число мусульман сильно меняется. Поэтому Европейский ислам можно отнести к динамичным темам современности [1].

Несмотря на важность проблемы европейского ислама, тема слабо представлена в нашей литературе, ограничиваясь несколькими научно-популярными статьями. Вопрос ислама в Европе несильно изучается также в России. Известный российский ученый С.Вородай считает, что это свидетельствует об очень слабом понимании европейской ситуации в русскоязычной среде. В принципе, такое положение можно отнести и к европейской общественности, так как традиционная мусульманская среда чужда для европейцев.

Исследователи утверждают, что в контексте рассматриваемого вопроса наибольший интерес представляет взаимодействие двух цивилизаций: ислама и христианства. Принято считать, что конфликт двух цивилизаций и их носителей происходил двумя основными способами. Первый - это, сложившаяся политическая ситуация между

европейскими и мусульманскими странами, а второй, приток населения в Европу и изменения демографической ситуации на континенте.

Данная статья посвящена положению современных европейских мусульман.

Мусульмане в Европе

Известно, что Европа на протяжении своей истории всегда находилась на различных стадиях религиозных конфликтов. Часто эти конфликты сочетались с культурными различиями народов населявшие ее.

Еще в древние времена Европа была ареной конфликтов ранних христиан и язычников. В разное время конфликтовали католики с православными и протестантами. Начиная с VIII-го века вторжения арабов в юго-западную Европу сопровождались столкновениями христианства и ислама.

Эгоцентричный характер Европейского христианства не смог допустить иной религии в религиозно-идеологическом пространстве «истинной» веры. Так, на протяжении нескольких столетий католики смогли вытеснить мусульманство до Африканских побережий Средиземного моря. Таким образом, враждебные отношения европейцев к исламу сформировались в более ранние времена. Еще в XI веке, призыв христиан к спасению священных мест, сопровождался захватническими войнами западноевропейских рыцарей, длившимися несколько веков, именуемыми крестовыми походами. Социально-историческая обусловленность крестовых походов, их связь с внутренними противоречиями, раздиравшими западноевропейские общества того времени не доходила до простого народа. А ученые в основном упирались на завоевания мусульман Иерусалима-колыбели христианства. С того времени европейцы стали утверждать что, ислам религия насилия и вражды.

Относительного пренебрежения к исламу не избежали и такие умы, как Данте и Компанелла. В «Божественной комедии» Данте отвел Мухаммеду место в аду среди раскольников. В «Городе Солнца» Кампанеллы среди прочих изображений на городских стенах был и портрет пророка мусульман [2,17].

К XV веку новая и сильная Османская империя вновь смогла потревожить расколотую реформацией католическую церковь. На этот раз мусульмане покончили с колыбелью восточного христианства — Византией, покорив Балканы и большую часть Восточной Европы, на что европейцы ответили многовековой борьбой устремленной к вытеснению турок из континента. В это время ислам для европейцев стал олицетворением захвата, вражды и нетерпения.

Ислам исторически является неотъемлемой частью европейской истории и жизни. Несмотря на борьбу христианских стран Европы с турками на континенте поселилось многочисленное мусульманское население, которое впоследствии образовал социальную предпосылку для становления таких стран как Албания, Босния, Македония. Но кроме этого в Восточной Европе появились страны со значительной частью мусульманского населения, как Болгария, Греция, Румыния. Мусульмане, живущие в этих

странах, в основном не были приезжими, они были людьми, считавшими себя коренным населением, так как жили здесь со времен средневековья. Их можно было понять: многие мусульмане региона были бывшими христианами принявшими ислам.

Демографические тенденции мусульманской семьи оказали значительное влияние на рост населения, вследствие чего был нарушен традиционный религиозный баланс региона. Но при этом на протяжении всего XX века на континенте кроме Турции существовала одна лишь мусульманская страна и Албания.

Начиная с XIX-го века, европейцы вновь столкнулись с исламом. В последствии активной колониальной деятельности Запада европейцы проникли в страны, где большая часть населения исповедовала Ислам. Неудачные попытки христианизации мусульманских народов сопровождали антизападные настроения. В результате национально-освободительных войн мусульманские народы приобрели независимость. А после второй мировой войны Европа стала основной гаванью мусульманской иммиграции Восточного мира. С ростом мусульманского населения в регионах их нетрадиционного проживания (Великобритания, Германия, Швеция, Франция), накапливался и значительный конфликтный потенциал. В результате, возрос уровень этнической и конфессиональной раздробленности населения тех государств Европы, которые еще несколько десятилетий назад были довольно однородными. После событий 11 сентября 2001 года мусульман посчитали религиозными фанатиками и членами фундаменталистических организаций.

2. Интеграция мусульман в демократическое общество

Некоторые думают что, выраженная деятельность мусульман и активизация фундаментализма в Европе, поражается не только исламской идеологией. Так, например, Э.Кауфман считает что, взаимодействие секуляризации и «непропорциональной» демографии порождает фундаментализм. Но, эта ситуация лишь частично связана с мусульманским миром. Упадок христианской набожности 60-х годов XX века привел к сокращению большинства церковных приходов. Начиная с 70-х, традиционалистически настроенные силы разрастались со скоростью 4 % в год, практически так же, как и мусульмане [3]. Религиозная демография замедлила угасание христианства в Европе, а для европейского ислама она послужила толчком в развитии.

Европа считается, немусульманским континентом. В конце второй мировой войны в Западной Европе фактически не было мусульман. Первые мусульмане прибыли в Старый свет в начале второй мировой войны, когда на заводах потребовалась дешевая рабочая сила. Первая иммиграционная волна была спровоцирована французским правительством, принявшим предателей национально-освободительной борьбы алжирского народа 1954-1962 годов. Сегодня мусульман 15 миллионов, и они составляют от 2 % до 6 % населения большинства европейских государств [3].

Иммиграция является более активной и драматичной стороной религиозной демографии. Некоторые считают, что из-за миграционных потоков в 2050 году практически

четверть западноевропейцев не будет принадлежать к белой расе. Так иммиграция делает Европу более «разноцветной» и при этом более религиозной. Росту численности европейских мусульман также способствовала поощряемая государственными социальными программами высокая рождаемость, и кризис традиционных семейных ценностей у коренных европейцев. В условиях прогрессирующего сокращения коренного населения Европы мусульмане охотно заполняют собой образовавшийся демографический вакуум. Нужно отметить, почти все последователи ислама по сравнению христианами являются религиозными людьми, они ежедневно совершают религиозные обряды и часто собираются в общины.

В большинстве стран религиозность мусульман выросла за последнее десятилетие. Нужно добавить, что первые годы миграции религия не стояла на первом месте среди проблем, испытываемых иммигрантами. Как рабочую силу, их, прежде всего, интересовала своя трудовая занятость. Они искали работу и жилье, им трудно было изучать язык и адаптироваться в местной культуре. Для них на первом месте стояли материальные задачи.

В период 70-80—х годов прошлого века, стремление мусульман сталкивалось со многими затруднениями. Впервые, мусульманам пришлось жить в секуляризованным обществе, где религиозные ценности не находились в центре социальной и политической жизни, и ограничивались частными рамками. Между мусульманскими общинами и гражданскими властями возникали конфликты из-за своих религиозных обрядов. Все это вызывало подозрения и рождало недоверие к последователям ислама среди местного населения. Только после удовлетворения частных требований и уверенности в себе, мусульмане стали выставлять требования, связанные с ритуальными нуждами. Общественность реагировала на эти требования по-разному.

Сближение с религиозными вопросами в Европе послужило толчком для развития отношений между религией и властью, даже в странах, где политическая и религиозная сферы строго разделены. Секуляризация во многом затрудняет понимание и признание ислама. Поэтому, вопрос ислама и Европы нужно искать в отношениях государства и церкви. Следовательно, благоустройство мусульман как верующих зависело от социальных и политических основ страны их проживания [4].

Сегодня ислам является крупнейшей и также самой быстрорастущей второй религией в Европе после христианства. По прогнозам исследователей, в 2030 году 8% жителей Западной Европы будут мусульманами [5], а в 2100 году — каждый четвёртый [6]. Эксперты считают, что если принять во внимание традиционное влияние Европы на весь мир, то влияние европейских мусульман на мировую общественность будет тоже расти.

Самая крупная мусульманская община находится во Франции. Сейчас там находится около семи миллионов мусульман. Кроме Франции значительная часть европейских мусульман живут в Германии (3-4 млн.), Великобритании (1-2 млн.), Италии (1 млн.), Голландии (1млн.)

3. Ислам и новый культурный облик Европы

Последнее время в западной прессе и в научных дискурсах стали звучать опасные мнения. Так, ведущий специалист по исламу из Принстонского университета, Бернард Льюис, в издании «Die Welt» язвительно заметил, что к концу XXI века Европу в основном будут населять мусульмане. Этот комментарий вызвал волну шоковых настроений и дебатов по поводу того, не превратится ли Европа в Еврабию. Ссылаясь на Льюиса, Фриц Болкестейн, известный голландский консерватор, сообщил своей аудитории, что «современные тенденции позволяют сделать только один вывод: Европа исламизируется»; этим он породил новую волну дебатов [3]. При этом, некоторые аналитики не принимают такие мнения и считают, что конфликты подобные «Рушди», или же «Тео Ван Гога» между мусульманами и принимающим обществом, в основном сводится к непониманию мусульманских принципов западной социально-политической жизни.

Эксперты считают, что передовые европейские страны сейчас преодолевают эпоху сегрегации этнорелигиозных меньшинств и вступают в период, когда меньшинства будут активно интегрироваться в социальную действительность, способствуя модификации самой этой действительности. Мусульмане являются самым крупным меньшинством Европы. Многие думают, что локализированные традиционными связями мусульмане не хотят интегрироваться, что потребности мусульман и немусульман различны, что мусульмане не участвуют в общественной и политической жизни, но, при этом поддерживают мнения о том, что в рамках интеграционного процесса мусульмане формируют специфическую форму «европейского ислама», который опирается на концепт гражданства. Этот концепт характеризируется ослабленной связью с неевропейскими этнокультурными традициями. В свою очередь, общество также меняется став более религиозным и консервативным.

Исследования Фонда Сороса бросают вызов мифу о сегрегации и отчуждению и показывают гораздо более позитивную картину интеграции на местном уровне. Отчеты показывают, что большинство мусульман и немусульман идентифицируют себя с городом и страной, где они живут. У большинства европейских мусульман есть сильное чувство принадлежности к стране, и имеют сильное чувство принадлежности к городу [7]. По отчетам этой организации потребности и опыт мусульман и немусульман в значительной степени совпадают. Люди, как правило, обеспокоены необходимостью повышения качества образования, улучшения жилищных условий, обеспечения чистоты улиц, борьбой с антиобщественным поведением и преступностью. Как и европейцы, мусульманские родители обеспокоены последствиями сегрегации своих детей, дискриминацией на рынке жилья. Не удивительно, что мусульмане хотят более этнически-смешанных школ, основываясь на том, что сегрегация негативно влияет на перспективы их детей.

Мусульманам по душе европейская среда, так как, большинство чувствуют, что их среда обитания является местом, где люди готовы помогать и доверять друг другу, и

где люди из разных слоев общества хорошо ладят друг с другом. Мусульмане, в основном молодые имеющие право голоса, принимают активное участие в местной гражданской и политической жизни. По отчетам более 70 % имеющих право голоса участвуют в голосованиях. Увеличивается число мусульман на политических должностях ведущих партий, при этом они сталкиваются с дополнительными контрольными вопросами и вопросами об их происхождении. Возрастает число мусульман, которые борются за политические посты в основных партиях. Например, идеолог и духовный лидер европейских мусульман Тарик Рамадан считает, что европейские мусульмане не должны замыкаться в своих общинах, они должны получать европейское образование и активно участвовать в европейской общественно-политической жизни. Он открыто говорит: «Я-европеец, но я-мусульманин» [7]. Этот тезис стал лозунгом почти для всех европейских мусульман.

Но нельзя утверждать о положительных изменениях занятости мусульманского населения Европы. Многие мусульмане работают на маргинальных и низкооплачиваемых работах, что приводит к созданию изолированной или параллельной трудовой жизни. Женщины подвергаются дискриминации на рынке труда, если они носят хиджаб. Мусульманин почти в три раза чаще является безработным, чем немусульманин, так, например, участвовавших в опросе Фонда Сороса, являлись безработными, по сравнению с 6,8 % немусульман [8].

Многие мусульмане, которые не являются гражданами ЕС, остаются не вовлеченными в гражданскую жизнь; особенно это характерно для Германии и Франции, где многие мусульмане не имеют права голосовать на местных выборах, несмотря на то, что живут там достаточно долго. Мусульмане имеют значительно более низкий уровень доверия в парламенте.

Европейские мусульмане считают, что непропорциональное освещение мусульманского вопроса в СМИ в различных европейских странах способствовало упрочению стереотипов и предрассудков в западноевропейских странах. Мусульмане считают, что для создания объективного образа мусульманина и Ислама в европейской среде необходимы поощрения и поддержки мусульман, работающих в средствах массовой информации.

Надо отметить что, культурное изменение Европы идет в разных направлениях. Так, многонациональный облик и распространение ислама на континенте, а также противоречивые тенденции внутри сообщества сформировывают в Европе неоднородное Исламское культурное общество. Миграция мусульман в Европейские страны подвергает ислам различным изменениям. Европейский ислам как бы «раздвоился». С одной стороны, традиционный ислам, хорошо инкорпорированный в местную культуру; с другой стороны, прибывающие мусульманские иммигранты размывают традиционные отношения. Но при этом, многие считают, что Ислам развивается в основном как светский ислам, индивидуальный ислам и как неофундаменталистический ислам.

Европейские мусульмане являются единым сообществом. Ислам развивается от

фундаментализма и национализма до универсализма. В Европе формируется независимая от Ближневосточного и Африканского Ислама универсальная мусульманская идентичность, основанная на этических принципах и преодолевающая националистические рамки. Действующей силой в этом процессе является мусульманское население, преимущественно его нижним социальным ярусом.

Существование Ислама в Европе позволяет говорить о мультикультурном характере этого континента. Но, как показывает К.Горак-Сосновска, это не препятствует существованию «платонической исламофобии» — негативного отношения к несуществующим мусульманам [9]. Данный феномен, предположительно, существует в основном в западноевропейской среде. Несмотря на это стремительный рост числа обращенных в ислам как в мире, отмечается так и в Европе. Европейские средства массовой информации почти каждый день пестрят статьями и репортажами о деятельности мусульман, такими как «Восхождение Ислама в Европе». Многие часто выступают с докладами о сути и нравственных принципах этой веры. Все это сопровождается вниманием и принятием этих принципов немусульманами Европы. Быстрый рост среди этнических европейцев-христиан, принимающих Ислам, отмечается всеми аналитическими центрами. Исследования показали, что с увеличением числа мусульман в Европе укрепляется и религиозное самосознание верующих.

Выводы:

Таким образом, за несколько десятилетий ислам превратился в неотъемлемую часть западноевропейских стран. Перемены в Европе связанные с Исламом происходят во всех уровнях социальной жизни. Динамичная интеграция мусульман превратила их в полноправных членов европейского общества. Нарастающий демографический рост приверженцев ислама изменил не только религиозно-культурный облик Европы, но и религию, а сложности признания ислама в Европе связаны только с вопросами мышления западноевропейского человека.

Литература:

1. С. Бородай “Ислам в современном мире” № 1-2 (29-30) 2013 - Введение 19.08.2013)

2. Е.С.Сеидбаев Ислам и общество Москва «Наука» 1984, ст.284

3. Э. Кауфман Скрытая сакрализация: религия возвращается в Европу///Ислам в современном мире № 1-2 (29-30) 2013

4. Цхурбаев Алан Влияние ислама на современные европейские процессы// Дарьял N5 Северная Осетия 2003

5. http://www.pewforum.org/uploadedfiles/Topics/Demographics/Muslimpopulation.pdf, p. 25.

6. Philip Jenkins, Demographics, Religion, and the Future of Europe, Orbis: A Journal of World Affairs, vol. 50, no. 3, pp. 533, summer 2006).

7. Т. Чодхури Мусульмане в Европе: отчет о жизни европейских мусульман в 11 городах ЕС Ислам в современном мире № 1-2 (29-30) 2013

http://www.idmedina.ru/books/islamic/?5480

8. Рамадан, Тарик

https://ru.wikipedia.org/wiki/%D0%A0%D0%B0%D0%BC%D0%B0%D0%B4%D0%B0%D0%BD,_%D0%A2%D0%B0%D1%80%D0%B8%D0%BA#cite_note-AcluTariqRamada2008-01-23-18

9. К. Горак-Сосновска Мусульмане в Европе: различные сообщества, один дискурс? Анализ перспектив Центральной и Восточной Европы Ислам в современном мире № 1-2 (29-30) 2013

Xülasə

AVROPADA İSLAMIN MEYDANA GƏLMƏSİNİN SOSİAL-FƏLSƏFİ TƏHLİLİ

Nigar ƏLİZADƏ

AMEA, Şərqşünaslıq İnstitutu, doktorant

Açar sözlər: İslam, Avropa, qloballaşma, inteqrasiya, ənənə

Müasir dövrdə Avropada islam daha çox müzakirə edilən məsələlərdən biridir. İslamın Avropa mühitinə nüfuz etməsi ilə cəmmiyyət müxtəlif suallarla çıxış etməyə başlamışdır. Avropa müsəlmanlarının sayı nə qədərdir? Müsəlman əhalisinin artımı Avropa dəyərləri üçün təhlükə hesab edilə bilərmi? Son zamanlar bu kimi suallar elmi ədəbiyyatda və KİV-in duskuslarında tez-tez səslənməkdədirlər.

Abstract

SOCIO-PHILOSOPHICAL ANALYSIS OF THE EMERGENCE OF ISLAM IN EUROPE

Nigar ALIZADEH

Ph.D student of the Institute of Eastern Studies of ANAS

Key words: Islam, Europe, globalization, integration, tradition

We can assume that European Islam is an extremely controversial topic of now days. The penetration of Islam to European society coused the public to ask different questions. What is the number of Muslims in Europe today? Is Islam compatible with European values? Does the growth of the number of Muslims in Europe poses any threat to western values? Recently these questions are often heard in the scientific literature and media discussions.

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SİSTEMİ VƏ TERRORİZM

Qərib ƏSGƏROV
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dissertantı

"Azərbaycan Respublikası daim bütün dünya üçün təhlükə olan terrorizmi pisləyir və ona qarşı aparılan beynəlxalq əhəmiyyətli mübarizəni dəstəkləyir".

Ümummilli lider Heydər ƏLİYEV

Rəyçi: i.ü.f.d., dos. Səkinə Hacıyeva

Açar sözlər: terrorizm, beynəlxalq təhlükəsizlik, milli mənafe, müasir terrorizmin xüsusiyyətləri , dövlət terrorizmi

Müasir beynəlxalq münasibətlərin qarşısında duran ən vacib məqsədlərdən biri də əməkdaşlıq əsasında beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasıdır. Bəşər cəmiyyətinin daim sülh arzusunda olmasına baxmayaraq, onların maraqları və mənafeləri bu sülhün tam təmin olunmasına hər zaman əngəl yaradır.

Cəmiyyətin inkişafının bu günkü dönəmində də müharibə və mübahisələrə inkişafın qaçılmaz amili kimi tez-tez rast gəlinir, ümumi sülhün və beynəlxalq təhlükəsizliyin təmin edilməsi müasir beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edir. Geniş mənada beynəlxalq təhlükəsizliyin təmin edilməsi problemi-sülhün təmini və müharibənin qarşısının alınması deməkdir.

Hər bir dövlət üçün beynəlxalq təhlükəsizlik ilk növbədə onun ərazi bütövlüyünü, şəxsiyyət və cəmiyyətin təhlükəsizliyini, suveren dövlət hüquqlarını xarici hərbi müdaxilə və hücumlardan qorumaqdan ibarətdir [1.səh167]. A.Avqustin fikrincə desək,"Kimlərinsə sülhü pozması onların sülhü arzulamamasından irəli gəlmir, onlar sadəcə öz istəklərinə cavab verəcək sülh istəyirlər". Bu istəklər də nəticə etibarı ilə uzun sürən müharibələrə, insan itgilərinə və böyük dağıntılara səbəb olur. Bəzən dövlətlər öz maraqlarını həyata keçirmək üçün ayrı-ayrı silahlı qruplaşmalardan, dini təşkilatlardan, hətta hakimiyyətə əks mövqedə dayanan siyasi qüvvələrdən istifadə etməkdən çəkinmirlər. Həmin qruplara dəstək göstərərək onları maliyyələşdirmək və silahlandırmaq yolu ilə müəyyən ad altında öz məqsədlərini həyata keçirirlər. Nəticə etibarı ilə geniş maliyyə dəstəyinə və silah ehtiyatına malik olan həmin qruplar getdikcə region üçün təhlükə mənbəyinə çevrilir. Regionda münaqişələrin sayı artır ki, bu da tədricən etnik, dini və separat xarakter almağa başlayır. Getdikcə dərinləşən belə münaqişələrin uzun müddət həll olunmamış vəziyyətdə qalmasından isə daha çox yerli əhali əziyyət çəkmiş olur. Dünyanın iri dövlətləri isə öz növbəsində belə münaqişəli vəziyyəti saxlamaqda maraqlı olaraq öz təsir imkanlarını həmin regionda bu yolla reallaşdırırlar. Ancaq nəzərə almaq lazımdır ki, belə münaqişəli vəziyyətlər beynəlxalq təhlükəsizlik sistemi üçün daim "partlamamış barıt" rolunu oynayır. Eyni zamanda belə vəziyyətlərdə nəzarətsiz ərazilər

meydana gəlir ki, bu da qanunsuz silah satışı, narkotik maddələrin becərilib satılması üçün əlverişli şərait yaratmış olur. Həmin satışdan əldə edilmiş maliyyə vəsaitləri isə qeyri-qanuni silahlı birləşmələrin saxlanılmasına sərf olunur. Ayrı-ayrı qruplaşmaların əlinə düşən belə silahlar sonralar müxtəlif terror aktlarında istifadə olunur. Nümunə üçün Azərbaycanla Ermənistan arasında baş verən Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş ərazilərimizi göstərmək olar. Həmin ərazilərin nəzarətsiz qalması da məhz ayrı-ayrı erməni terror qruplaşmalarının fəaliyyəti üçün geniş imkanlar açır.

Bütün bu göstərdiyimiz amillər beynəlxalq təhlükəsizliyin təmin olunması ideyasının zəruriliyi ortaya çıxardır. Beynəlxalq təhlükəsizlik və ictimai qaydalar əleyhinə olan cinayətlərin ən təhlükəlilərindən biri də son dövrlər daha geniş yayılmış terrorçuluq fəaliyyətidir.

Terrorçuluq əməli uzun illər gizli cinayətkar qruplaşmaların, hətta ayrı-ayrı dövlətlərin açıq və gizli şəkildə dəstəklədiyi, fəaliyyətində siyasi motivlərin olduğu təşkilatların əsas fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Amerika Birləşmiş Ştatlarında 11 sentyabr 2001-ci ildə bəşər tarixində yer almış ən qanlı terror hadisələrindən biri törədildikdən sonra beynəlxalq terrorçuluğun qarşısının alınması istiqamətində dövlətlərin birgə fəaliyyəti keyfiyyətcə yeni xarakter almağa başladı.

Son dövrlərdə beynəlxalq təhlükəsizliyin təmin olunmasına ən böyük maneələrdən biri terror və terrorizm fəaliyyətidir. Çox təəssüfləndirici haldır ki, bütün dünya dövlətləri nə qədər çalışsalar da XXI əsrin bu bəlasından tam xilas ola bilmirlər. Təbii ki, bunun da öz obyektiv və subyektiv səbəbləri var. Bu səbəblərdən biri kimi dövlət səviyyəsində ayrı-ayrı terrorçu qruplara dəstəyin verilməsidir ki, bunun nəticəsində həmin terror qruplaşmalarının əlində müasir silahlar, maddi vəsaitlər və digər texniki imkanlar cəmləşir.

Düzdür terror hadisələrinin tarixi qədim dövrə təsadüf etsə də, müasir dövrdə istifadə olunan terror və terrorizm anlayışları siyasi ədəbiyyata ilk dəfə Fransa inqilabından sonra daxil olmağa başladı. Ancaq həmin terrorizm növü əsasən inqilabi xarakter daşıyırdı. Onlar daha çox rəhbər elitanı qorxutmaq, öz hərəkətləri ilə hakimiyyətin verdiyi qərarlara təsir etmək xarakteri daşıyaraq, cəmiyyətin aşağı təbəqələrinin xeyrinə dəyişikliklərin olunmasına çalışırdılar. Lakin tədricən terrorizm özündə sosial problemlərlə yanaşı milli problemləri də birləşdirməyə başladı.

Bəs, terrorizm sözünün mənası nədir? Terrorizm latın dilində terror-qorxu, vahimə mənalarını verir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni gücün, hədənin tətbiq olunması formasıdır. Müasir dövrdə isə terrorizmdə təkcə iqtisadi siyasi deyil, daha çox separatist, dini meyillər güclənmişdir. Terrorizm ekstremizmin təzahür formalarından biri olmasına baxmayaraq, digər formalardan fərqli olaraq terrorizmin bütün təzahürləri hüquqa ziddir.

Müasir dünyada beynəlxalq terrorizmin geniş yayılmış forması kimi dini terrorizmdən müəyyən siyasi məqsədlərə çatmaq üçün istifadə olunur [2.səh 401]. Adı çəkilən terror növünün daşıyıcıları əsasən müxtəlif konsepsiyalara mənsub millətçi-ekstremist və ya dini-siyasi təşkilatlardır. Onların arasında İslam fundamentalizminə əsaslanan təşkilatların adı

daha çox hallanır. Bu təşkilatların adlarının terror hadisələrində hallanmasının səbəblərindən biri də xristian dövlətləri tərəfindən dünyada islam fobiyası yaratmaqdır. Çünki müsəlman əhalisinin sayının durmadan çoxalması və onların sayının tədricən xristian dininin yayıldığı ölkələrdə artması yerli hakimiyyət qurumlarında ciddi narazılıqlara səbəb olub. Nəzərə alsaq ki, öz qəddarlığı ilə fərqlənən terror təşkilatları arasında erməni terrorçu təşkilatlarının sayı heç də az deyil. XIX əsrin 70-ci illərindən başlayaraq ermənilər bir sıra terror təşkilatları yaratmağa başladılar ki, bunların da əsas amalı "böyük Ermənistan"yaratmaq və bu yolda öz fəaliyyətini Türkiyə və Azərbaycana qarşı yönəltmək idi.. Belə təşkilatlara 1975-ci ildə Livanda yaradılan Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu (ASALA), Hunçaq partiyasını, "Erməni gizli azadlıq ordusu", Fransada yaradılan"Orli qrupu" və s. göstərmək olar [3.səh.7]. Məhz bu faktın özü terror fəaliyyətinin dini amillərlə əlaqələndirilməsi fikrinin yanlış olduğunu bir daha göstərir.

Müasir dövrdə terrorizmin ən geniş yayılmış formalarından biri də dövlət terrorizmidir. Çox təssüfləndirici haldır ki, dünya dövlətləri bir tərəfdən beynəlxalq təhlükəsizliyi təmin etmək üçün antiterror əməliyyatlarında birləşirlər, digər tərəfdən ayrı-ayrı dövlətlər səviyyəsində terror qruplaşmalarına bu və ya digər dərəcədə dəstəklər göstərilir. Təbii ki, bu dəstəyin əsasında həmin dövlətlərin milli maraqları və həyata keçirmək istədiyi məqsədlər dayanır. Terrorizmin hədəfi olan ölkə tərəfindən cinayətkar və terrorist qruplaşma kimi qiymətləndirilən bir terror təşkilatı digər dövlətlər tərəfindən azadlıq döyüşçüləri kimi qiymətləndirilir. Son dövrlər Ukraynanın Donetsk və Luqansk vilayətlərində separatçı qüvvələrin həyata keçirdiyi əməliyyatları dediklərimizə nümunə göstərmək olar.

Ümumiyyətlə dövlət terrorizmi dedikdə nə başa düşülür?

Dövlət terrorizmi dedikdə bu və ya digər dərəcədə dövlət və onun xüsusi orqanları tərəfindən ayrı-ayrı terrorçu təşkilatlara müxtəlif adlar altında yardımın edilməsi, onların fəaliyyətindən dövlətin gizli maraqlarının təmin olunmasında istifadə başa düşülür. Dövlətlər terrorizmi üç səviyyədə dəstəkləyir:

- dövlətin birbaşa öz xalqı və ya bir başqa xalqa qarşı güc tətbiq etməsi;
- dövlətin birbaşa öz kəşfiyyat qurumları tərəfindən başqa ölkələrdə terrorçuluq fəaliyyətinin həyata keçirilməsi;
- dövlətin digər terrorçu təşkilatlarla əməkdaşlıq edərək, ya da onlara dəstək verərək onların vasitəsilə məqsədlərinə çatmağa çalışmasıdır.

Son dövrlər terrorizmin medianın sensasiyalı xəbərləri ilə təsirini artırmaq imkanına malik olması da geniş yayılmışdır. Məhz bu amilin özü də terror qruplaşmalarının arxasında təşkilatlanmış bir orqanın- dövlətin dayandığını bir daha göstərir. Müasir terrorizmin əsas xüsusiyyətlərindən biri də onların əvvəlki illərdən fərqli olaraq yüksək dərəcədə təşkilatlanmış olmasıdır. Belə ki, əksər terror təşkilatlarının kütləvi informasiya vasitələrinə malik olması və ya asanlıqla media orqanlarına yol tapması cəmiyyətdə ciddi təşvişə səbəb olur. Media qurumları çox zaman məqsədli şəkildə terrorizmin əsas məqsədləri arasında yer alan özünü nümayişetdirmə, təbliğat və kütlələr arasında vahimə yaratmaq məqsədinin həyata keçirilməsində mühüm bir əməliyyatı yerinə yetirməkdədir. Suriya və İraqda fəaliyyət göstərən

İŞID terror təşkilatının əcnəbi vətəndaşları tutması və amansızlıqla qətlə yetirilməsi faktlarının KİV vasitələri ilə geniş ictimaiyyətə göstərilməsi beynəlxalq ictimaiyyətdə ciddi narazılıqlara səbəb olmuşdur.

Azərbaycan Respublikası da terrorun ən böyük qurbanlarından biridir. Erməni terror təşkilatları tərəfindən müxtəlif illərdə həyata keçirilmiş terror aktları nəticəsində yüzlərlə həmvətənimiz öldürülmüş və yaxud şikəst edilmişdir. Bu gün ölkəmiz öz təhlükəsizliyini təmin etmək üçün beynəlxalq təhlükəsizliyə ən böyük təhdidlərdən olan terrorizmə qarşı ciddi mübarizə aparır və bu işi daha da səmərəli təşkil etmək üçün artıq özünün hüquqi bazasını formalaşdırmışdır. Ümummilli lider Heydər Əliyevin 1999-cu il 18 iyun tarixində imzaladığı "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi də dediklərimizin əyani sübutudur. Həmin qanunun 3-cü maddəsində terrorçuluğa qarşı mübarizədə ölkəmizin məqsədləri açıq-aydın göstərilmişdir [4.səh 3]:

- insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;
- terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;
- terrorçuluğun yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin, habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi.

Bu məqsədləri reallaşdırmaq üçün Azərbaycan Respublikası regionun və beynəlxalq birliyin digər dövlətləri ilə fəal əməkdaşlıq etməklə yanaşı antiterror əməliyyatlarında özünün silahlı birləşmələri ilə təmsil olunur və beynəlxalq təhlükəsizliyin təmin olunmsına öz töhvəsini verir. Ölkənin müharibə şəraitində olması, ərazilərinin işğalı və ən əsas işğal olunmuş torpaqların nəzarətsiz qalması beynəlxalq erməni terror şəbəkəsinin həmin ərazilərdə fəal inkişafına şərait yaradır [5.səh 245]. Bu amilin özü ölkənin atəşkəs rejimində də terror təhlükəsindən kənarda qalmadığını bir daha göstərir. Məhz bunları nəzərə alaraq, ölkə rəhbərliyi beynəlxalq terror qruplaşmalarının üzvlərinin, xüsusən də erməni terrorçularının ölkə ərazisinə daxil olması və ya tranzit ölkə kimi istifadə etməsinin qarşısını almaq üçün milli təhlükəsizlik qurumlarının hərtərəfli fəaliyyəti üçün geniş imkanlar yaratmışdır. Bu baxımdan Dövlət Sərhəd Xidmətinin fəaliyyətini və həyata keçirdiyi tədbirləri xüsusi vurğulamaq lazımdır.

Ümumiyyətlə terrorçuların və terrorçu təşkilatların hansı ideyanı irəli sürməsindən, qarşılarına hansı hədəfləri qoymalarından və hansı əsasları rəhbər tutmalarından asılı olmayaraq terrorizm, heç şübhəsiz ki, həm bütövlükdə cəmiyyətə, həm də fərdi qaydada hər bir insana təhlükədir. Bu təhlükənin qarşısını almaq bu gün beynəlxalq təhlükəsizliyi təmin etmək baxımından daha aktual xarakter daşıyır. BMT Baş Assambleyasının 1994-cü il 9 dekabr tarixində qəbul etdiyi Deklarasiyada göstərildiyi kimi terrorizmin qarşısının alınması və terrorizmlə mübarizə sahəsində informasiya mübadiləsi üzrə əməkdaşlıq müasir dövrün əsas tələblərindən biridir [6.səh 9]. Məhz bu təhlükənin qarşısını almaq və beynəlxalq təhlükəsizliyin təmin olunmasına nail olmaq üçün beynəlxalq əməkdaşlığı daha da gücləndirmək, bütün səy və imkanları birləşdirmək lazımdır.

Ədəbiyyat:

1. Ə.Həsənov.Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı-2011.Nəşriyyat evi.səh.423

2.H. Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər.Bakı-2010.səh 401

3.Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri. Bakı 2009. metodiki vəsait.

4. "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu 1999-cu il 18 iyun

5. Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası. Bakı 1999 səh 156.

6. Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında deklarasiya.BMT Baş Assambleyası.1994-cü il 9 dekabr. .səh 9

Резюме

СИСТЕМА МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ И ТЕРРОРИЗМ

Гариб АСКЕРОВ

диссертант Академии Государственного
Управления при Президенте Азербайджанской Республики

Ключевые слова: терроризм, международная безопастность, национальный интерес, государственный терроризм, особенность современного терроризма.

Терроризм постоянный спутник человечества, который относится к числу самых опасных и труднопрогнозируемых явлений современности, приобретающих все более разнообразные формы и угрожающие масштабы.

Различные преступные группировки совершают террористические акты для устрашения и уничтожения конкурентов, для воздействия на государственную власть с тем, чтобы добиться наилучших условий для своей преступной деятельности. Жертвой террористического акта может стать каждый – даже тот, кто не имеет ни малейшего отношения к конфликту, породившему террористический акт.

Террористические акты приносят массовые человеческие жертвы, оказывают сильное психологическое давление на большие массы людей, влекут разрушение материальных и духовных ценностей, не поддающихся порой восстановлению, сеют вражду между государствами, провоцируют войны, недоверие и ненависть между социальными и национальными группами, которые иногда невозможно преодолеть в течение жизни целого поколения. Терроризм как массовое и политически значимое явление – результат повальной "деидеологизации", когда отдельные группы в обществе начинают ставить под сомнение законность и права государства и этим оправдывают свой переход к террору для достижения собственных целей.

Abstract

SYSTEM OF INTERNATIONAL SECURITY AND TERRORISM

Garib ASKEROV

Ph.D. student of State Academy of Governance

Keywords: terrorism, international security, national interest, characters of modern terrorism, state terrorism

One of the most important purposes get up in front of the modern international relations is the provision of the security and international peace on the basis of collaboration. What is the difference between a terrorist and a common murderer? The first has a cause and claims to fight for an ideal, and murders. The second murders. The first murders indiscriminately, not caring whether his/her victims are men, women or children. The second is more likely to target fellow criminals, people associated with themself, and most likely, adult males.

Therefore we see that there is nothing heroic about the terrorist, for the terrorist fights from under cover, perpetrates his attacks against the defenceless, against innocent members of society and only makes his presence known moments before it is too late to do anything about it. Nothing brave, nothing courageous, nothing mystical, nothing manly.

REKLAMLARIN FORMALAŞMA TARİXİNDƏN

Sitarə ƏLİYEVA
Fil.ü.f.d., dos.

Rəyçi: fil.ü.f.d. R.A. Heydərov
Açar sözlər: reklam, dilçilik, biznes, kommunikasiya, forma

İşgüzar üsluba aid olan reklamlar informasiya vasitələri kimi insanların bu və ya digər həyat fəaliyyəti sahələri ilə əlaqələrinin intensivləşməsində mühüm yer tutur. Reklamlar cəmiyyətdəki kommunikativ əlaqələrin inkişafı zəminində müxtəlif xidmət sahələrinin cəlbedicilik vasitəsidir. "Reklam" sözülatın dilindəki "reklamare" feilindən olub mənası "hay vermək", "həmrəylik göstərmək", "etiraz etmək", "narazılıq bildirmək"dir.

Xidmət sahələrinin reklam edilməsi yayılma, təbliğ cəhətdən kütləvi xarakter daşıyır.Belə ki, istehsalçı öz malını bazara çıxarırsa, onu ümumi cəhətdən müştəriyə, sifarişçiyə təqdim edir. Lakin bu kütləvi təqdim edilmənin ödəniş cəhəti onun kütləvilik xarakterini aradan qaldırır. Əmtəə ödəniş vasitəsi ilə başqasının ixtiyarına keçdikdə artıq şəxsi təqdimetmə prosesi baş verir. Beləliklə, reklamdan məqsəd ümumi - naməlum sifarişçidən, xüsusi - konkret şəxsə təqdimetmə prosesinin meydana çıxarılmasından ibarətdir [1, s.60].

Reklamların kütləvilik xarakteri, həmçinin əmtəə və xidmətlərin istehsalçıdan istehlakçıya keçmə prosesinin meydana çıxması ilə əlaqədar belə bir fikir irəli sürmək mümkündür ki, həmin cəlbedicilik vasitəsinin tarixi insan cəmiyyətində kommunikativ əlaqələrin mövcud olduğu dövrdən bəri başlanır. Lakin ən sadə alqı-satqı prosesi reklamsız da baş tuta bilərdi. Reklam fəaliyyəti isə bilavasitə eyni istehlak vasitəsinin, xidmət növünün çoxalması ilə bağlıdır. Bu zaman, deyək ki, bazara eyni istehlak vasitəsinin bir çox növü çıxarılır və hər biri öz xarakterinə görə reklam olunur. İstehlakçı isə ödəniş cəhətlərinə, keyfiyyətinə, yararlılığına, həmçinin, öz zövqünə görə istehlak vasitəsini seçir.

Reklamlar kommunikativ əlaqələrin, bazar-ticarət müəssisələrinin, xidmət sahələrinin hələ az inkişaf etdiyi dövrdə sadə şəkildə olmuşdur. Bu dövrdə reklam fəaliyyəti əsasən xüsusi istehsalçıların və ya carçıların üzərinə düşürdü. Xüsusi istehsalçılar reklamın ən sadə üsullarından istifadə etmişlər. Bu üsul satılan malın nümayiş etdirilməsindən ibarət olmuşdur. Məsələn, parça satan parçanı görümlü yerə qoymuş, paltar satan paltarı asmış, ayaqqabı satan ayaqqabını müəyyən qaydada düzmüşdür və s. Reklamın bu üsulu,əsasən, istehlak mallarının satılması məqsədi ilə həyata keçirilmişdir. Ən qədimdə mövcud olan bu sadə üsuldan müasir dövrdə də istifadə edilir. Məsələn, mağazalarda paltarın, parçanın, ərzaq məhsullarının və s. müəyyən qayda ilə düzülüşünün özü bir növ qədim ənənənin davamıdır. Reklam tarixində əmtəənin xarakteri ilə əlaqədar lövhələrin hazırlanması üsulundan da istifadə olunmuşdur. Məsələn, ticarətlə məşğul olan bəzi xalqlar, xüsusən, qədim finikiyalılar ticarət yolları üzərində yaxşı nəzərə çarpan qaydalarda alqı-satqı xarakterli məlumat şəkilləri çəkmiş, yazılarda və məlumatlarda satılan mallar təriflənmişdir. Bunlar cəlbedicilik xarakterli müasir

reklamların əsasını təşkil etmişdir. Pompeydə aparılan qazıntılar göstərmişdir ki, burada mövcud olan hər bir dükanda, girişdən uzaq olmayan divarda ötənlərin nəzərini cəlb edən məlumatlar yazılmışdır. Həmin məlumatlara görə hansı dükanda çörək,şərab, dulusçuluq məmulatı vəs. satıldığı müəyyən olunmuşdur [2, s.15-16].

Bu ənənə müasir satış müəssisələrində bu gün də davam və inkişaf etdirilir. Yazıların iri lövhələrdə yazılıb müxtəlif növlü plakatlarda satış müəssisələri yaxınlığındakı küçələrdə yerləşdirilməsi məhz bu ənənənin davamıdır. Müasir dövrdə belə reklamlar işıqlandırma vasitələri ilə təchiz edilir və hətta hərəkətedici şəkildə düzəldilir ki, alıcıların mağazaya girib-çıxmasına maneçilik törənməsin.

Reklamların ən qədim üsullarından biri onun carçı vasitəsilə həyata keçirilməsi olmuşdur. Qədimdə satış yerlərində, bazarlarda malların qiyməti, dəyəri, xarakteri və s. carçılar tərəfindən reklam edilmişdir. Carçı funksiyası ya xüsusi şəxslərin, ya da istehsalçının öz üzərinə düşmüşdür. Müasir dövrdə xüsusi carçılıq ənə-nəsinə kənd təsərrüfatı məhsulları satılan bazarlarda rast gəlmək olur. Məsələn, meyvə satan meyvəni, göyərti satan göyərtini və s.tərifləyir. Bundan başqa, reklamın carçılıq üsulu müasir satış müəssisələrində radio vasitəsi ilə də həyata keçirilir.

Qədim Şərqdə şəhər carçıları küçələri gəzərək camaata yeni xəbərləri, baş verən hadisələri çatdırmışlar. Bu xəbərlərin içərisində şəhərə yeni gələn mallar, satış qiymətləri və s. barədə müxtəlif məlumatlar da olmuşdur. Carçılıq ənənəsi daha sonralar da davam etmişdir. İngiltərə və Fransada carçılar aktiv işləmiş və sex ittifaqlarında birləşmişlər.Onlar əllərində zınqırovla küçələri gəzmiş və zınqırov səsi ilə diqqəti cəlb etmişlər. Yeni xəbərləri çatdırdıqdan sonra onlar müştərilərinə, sifarişçilərinə aid pullu məlumat vermişlər. Bu məlumatlar çox vaxt meyxana həvəskarları ilə əlaqədar olurdu [3, s.33].

Reklam tarixində 1450-ci ildə Qutenberqin kitab çapını ixtira etməsi böyük hadisə oldu. İlk dəfə Qərb mədəniyyətində hərəkət edən mətbəə şriftləri tətbiq edildi. XV əsrin sonunda bu ixtira bütün Avropaya yayıldı. Yazı şriftlərinin ixtirası reklamın daha sürətlə yayılmasına təkan verdi. Yazı şriftləri reklamın özünün estetik cəhətdən maraqlı, gözəgəlimli olmasında mühüm rol oynamağa başladı.

İlk dəfə çap olunmuş reklam məlumatı 1473-cü ildə ingilis dilində meydana gəlmişdir. Qutenberqin ideyasını mənimsəyən ingilis çapçısı Vilyam Ronston həmin ildə dini məzmunlu bir kitabın satılması üçün alıcıların diqqətini cəlb edən bir reklam-vərəqə buraxdı. XVII əsrin ortalarında İngiltərədə "Merkuri" adlanan həftəlik qəzet buraxılmağa başlandı. Burada əhalinin savadlı qisminə reklam məlumatrları da çatdırılırdı. Reklam məlumatları importyorlara o dövrdə böyük müvəffəqiyyət qazandırmışdır. Belə ki, reklam vasitəsilə 1657-ci ildə İngiltərəyə kakao, 1659-cu ildə çay idxal edilmişdir [3, s.32-33].

Reklamlar xarakter etibarı ilə özlərinin kütləviliyi, əmtəə, ideya və xidmət növü haqqında ətraflı məlumat vasitəsi olmaqla başqa informasiya növlərindən fərqlənir. Məsələn, afişalarda da informativlik başlıca şərtdir. Lakin afişalarda alqı-satqı, müəyyən ideya, şəxsi təqdimetmə məqsədi yoxdur. Digər tərəfdən, reklamda sövqetmə güclüdürsə, afişalarda dəvətetmə informasiyası öz əksini tapır. Elanlar da informasiya məzmunludur. Lakin reklamdan fərqli

olaraq elanda təhriketmə, cəlbetmə, sövqetmə xüsusiyyəti yoxdur. Elanlar yalnız bir hadisə, iş, həyata keçiriləcək və ya keçirilmiş tədbir haqqında sadəcə məlumatdır. Reklamlar özlərinin sosioloji,texniki və tətbiqi sahələri ilə əlaqədar da mürəkkəb xarakterlidir.

Müasir dövrümüzdə reklamların formalarına görə aşağıdakı növlərini göstərmək olar:

a) Natural reklamlar

Natural reklamlar reklamların ən sadəformasıdır.Natural reklamlar qədim reklamların irsi kimi ənənə yolu ilə yaşayaraq dövrümüzə qədər gəlib çıxmışdır. Bu tip reklamlarda nəzərə çarpan başlıca cəhət ardıcıllıq, səliqəlilik, sistemlilikdir. Bütün bunlar başqalarının diqqətini cəlb etmək işində mühüm rol oynayan amillərdir. Məhz bu səliqəlilik və sistemlilik alıcının alacağı əşyanı daha tez ceçməsinə, satıcının isə əlavə vaxt itkisi olmadan seçilmiş əşyanı tezliklə müəyyənləşdirib ayırmasına əlverişli imkan yaradır.Bu qaydada həm satıcının alıcıya, həm də alıcının satıcıya nəzakəti öz əksini tapır. Natural reklamlar ayrı-ayrı çeşiddən olan malların müəyyən sıra ilə səliqəli düzülüşündə (məsələn, ayaqqabı, paltar və s. ölçüyə görə, kitabların mövzuya görə, ərzaq məhsullarının növə görə düzülüşündə) özünü göstərir. Natural reklamların bir növü də paltar və digər yüngül əşyaların müəyyən qayda ilə satış məntəqəsi qarşısında asqıya düzülməsindən ibarətdir. Bu tip reklamlar üçün əlavə yazı, izahat tələb olunmur, alıcı malı görür, tələbatına, imkanına və zövqünə uyğun olanları seçib alır. Natural reklamlarda kütləvi şəkildə təqdim olunan əşyanın özü göstərilir. Natural reklamlar təkcə alqı-satqı vasitələrindən ibarət deyildir. Beynəlxalq sərgilərdə, xalq istehlakı mallarının sərgisində, xalq təsərrüfatı mallarının nailiyyətləri sərgisində, rəssamlıq və sənət əsərlərinin sərgisində, kitab sərgisində və s. nümayiş etdirilən əşya və eksponatların düzülüşü də natural reklamlara misaldır.

b) Şəkil reklamlar

Şəkil reklamlar natural reklamların müəyyən mənada abstrakt formasıdır. Natural reklamlarda əşyanın özü nəzərə çatdırılırsa, şəkil reklamlarda əşya haqqında ümumiləşmiş təsəvvür yaradılır. Məsələn, kitabın özü əvəzinə şəkli verilir ki, bu da məktəb, kitabxana və ya elmi və təhsil müəssisəsi haqqında assosiativ təsir yaradır. Şəkil reklamlar əşya haqqında abstrakt təsəvvür yaratsa da, onların informasiya imkanları natural reklamlara nisbətən çox güclüdür. Şəkil reklamlarda əşyanın özünün meydanda olması başlıca şərt deyildir. Buna görə də belə reklamlarda assosiativ təsirdən başqa konkret məzmun da ifadə etmək mümkündür. Məsələn,elmi-texniki tərəqqini, iqtisadi inkişafı və s. təbliğ edən xüsusi plakat və şəkillərdə müəyyən məzmun da ifadə olunur.

c) Yazılı reklamlar

Müəyyən informasiya vermək məqsədi ilə tərtib olunmuş yazılı reklamlardan da istifadə olunur. Yazılı reklamlar müəyyən bir obyektə, hər hansı ictimai xidmət müəssisəsinə aid olmaqla yanaşı ideoloji xarakter də daşıyır. Yazılı reklamlar hər hansı bir obyekt və müəssisənin bilavasitə özündə olduğu üçün burada şəkilə heç bir ehtiyac qalmır. Məsələn, təsərrüfat malları mağazasının, kitab mağazasının və s.digər mədəni-məişət obyektlərinin qarşısındakı yazı reklamları bu tiplidir. Konkret şəkildə, deyək ki, “ Kitablar” yazı reklamı məhz kitab satılan

mağaza qarşısında yerləşdiyinə görə lövhədə həmin malların şəklini çəkmək lazım gəlmir. Yazılı reklamların aid olduğu obyektlər, bir növ, natural reklamları xatırladır. Lakin yazılı reklamlar natural və şəkil reklamlardan daha mükəmməl informasiya dilinə malik olan bir növüdür.

ç) İşıq reklamları

Elmi-texniki tərəqqi ilə əlaqədar işıq reklamlarından da çox istifadə olunur. İşıq reklamlarından daha çox şəhərlərdə istifadə olunur. İşıq reklamları, bir növ, gecə reklamlarıdır. Axşamlar hava qaranlıqlaşdıqdan sonra elektrik lampaları ilə birlikdə işıq reklamları da şəhərin gözəlliyinə əsrarəngiz rövnəq verir.İşıq reklamları ilə ictimai həyatın müxtəlif sahələrinə aid informasiya verilir. İşıq reklamlarında hərəkət edən və dəyişən yazılar xüsusilə maraq doğurur.

d) Etiket reklamlar

Etiket reklamlar qablaşdırılan müxtəlif satış məmulatlarına məxsusdur. Məsələn, çay, süd, mineral sular, konfet qutuları və s. müxtəlif çeşidli məmulatlar üzərindəki məlumatverici yazılar, təsvirlər etiket reklamlara aid nümunələrdir. Etiket reklamlarda həmin məmulatın adı, ona aid olan digər təsvirlər reklamdır. Bu tip etiket reklamlarda məmulatın özünə aid təsvirlərlə yanaşı, ictimai-tərbiyəvi, elmi-texniki tərəqqini təbliğ edən, təbiəti sevməyi və qorumağı tövsiyə edən və s. təsvirlərə də rast gəlmək olur. Məsələn, peçenye reklamında:

TUCVEB BANNERLƏRİ

kreativ və effektlilik

Yüngül aclığın var?

xama və soğan dadlı

e) Qəzet-jurnal reklamları

Mətbuat xalqın mənəvi həyatının ayrılmaz hissəsinə çevrildiyi üçün reklamlar da qəzet və jurnal səhifələrində özünəməxsus yer tutur. Bu reklamlar müxtəlif fəaliyyət sahələrini əhatə edir və burada ictimai iaşə müəssisələrinə, istirahət əyləncələrinə, yeniliklərə və s. aid məlumatlar verilir.Nümunə üçün qəzet materialından götürülmüş reklama diqqət yetirək:

Müəllimlərə

ƏLA KREDİT!

Təhsil işçilərinə özəl 5 faiz endirim!

Kampaniya müddəti: 10 sentyabr – 10 oktyabr

Kredit müddəti - 36 ay Kredit məbləği - 10.000 manat [4, s.8].

Qəzet-jurnal reklamları müasir dövrün tələbi ilə əlaqədar yaranmışdır. Onların estetik cəhətdən daha maraqlı olması üçün rəngli təsvirlərdən də istifadə edilməsinə xüsusi ehtiyac özünü göstərir. Qəzet və jurnal reklamlarında, həmçinin, elm və texnika yenilikləri, habelə yeni tədbirlər, tamaşalar haqqında məlumat da verilir.

ə) Radioteleviziya reklamları

Cəmiyyətin sosial-iqtisadi inkişafı ilə əlaqədar reklamların texniki vasitələrlə verilməsi, xüsusilə diqqəti cəlb edir. Radio-reklamlar, əsasən, ticarət müəssisələrinə aid olur. Alıcıların zövqü, ehtiyacı və mala olan tələbi nəzərə alınaraq radio ilə yay, qış və s. mövsüm geyim-

lərinin tikişi, materialı, satışı və s. haqqında reklam məlumatı verilir. Geyim mallarının, ev əşyalarının, məişət texnikasının və s. ucuzlaşması da radio-televiziya reklamlarının güclənməsində mühüm rol oynayır. Televiziya reklamları verilişlərarası kiçik fasilələrlə göstərilir. Televiziya reklamlarında informasiya ilə yanaşı əyanilik də çox güclüdür. Alqı-satqı, ictimai iaşə, mədəni xidmət növlərinə aid sujetlər çəkilir və televiziya ilə reklam olunur. Bu cür reklamlar cəlbediciliyi və təsirliliyi ilə diqqəti cəlb edir.

f) Kino-reklamlar

Tamaşaçıların marağının artması ilə əlaqədar, xüsusilə, kino-reklamlardan daha çox istifadə olunur. Kino-reklamlar ya televiziya ilə, ya da kino tamaşalarından əvvəl nümayiş etdirilən kino-jurnallar vasitəsilə verilir. Kino-reklamlarda yeni filmin maraqlı hissələrindən ayrı-ayrı sujetlər göstərilir ki, bunlar da tamaşaçı zehnində möhkəm iz buraxır, onu həmin filmin tamaşasına təhrik edir. Kino-reklamlarda kino yenilikləri ilə yanaşı, elmi-texniki tərəqqi, habelə ictimai-siyasi məzmunlu sujetlər də verilir.

Müsbət haldır ki, reklamlara meyil və maraq getdikcə daha da artmaqdadır. İctimai kommunikasiya, habelə biznes sahələri ilə əlaqədar reklamların müxtəlif növlərinin yaranması, yeni tərtibat axtarışları, həmçinin qəzet və jurnal səhifələrində reklamlar üçün xüsusi səhifələrin ayrılması və s. reklamın inkişafı yolunda irəliləyişləri göstərir.

Ədəbiyyat:

1. Фильчикова Н.Б. Реклама в процессе. Москва,1977
2. Усов В.В. Торговая реклама. Москва, 1976
3. Реклама за рубежом. Москва, 1977
4. “Azərbaycanmüəllimi”qəzeti.№38(8605). Bakı, 3oktyabr 2014-cü il

Abstract

THE HISTORY OF THE FORMATION OF ADVERTISEMENTS

Sitara ALIYEVA
Ph.D. on philology, asc. prof

Key words: advertisement, language, business, communication, form

The history of formation and the ways of development of the advertisements have been studied in this article. The types of the advertisements formed in connection with the social communication as well as the business fields nowadays and the forms of their arrangement have been analysed.

Резюме

ОБ ИСТОРИИ ФОРМИРОВАНИЯ РЕКЛАМ

Ситара АЛИЕВА

к.ф.н., доцент

Ключевые слова: реклама, языкознание,бизнес,коммуникация, форма

В статье прослеживаются история и пути развития реклам. Здесь также исследуется общественная коммуникация в современное время, в том числе виды и формы составления реклам, связанных с отраслями бизнеса.

ERNEST HEMİNQUEY AZƏRBAYCAN DİLİNDƏ

Mələknaz YUSİFOVA
Magistr, "Azərbaycan" Universiteti

Rəyçi: Dos. Cəfərova Kəmalə
Açar sözlər: Ernest Heminquey,Əlvida, silah!, I və II dünya müharibəsi, ədəbi mühit

Görkəmli Amerika yazıçısı Ernest Heminquey yaradıcılıq səhnəsinə çıxdığı gündən diqqət mərkəzində olmuş və tez bir zamanda məhşurlaşaraq dünyanın görkəmli yazıçılarından sayılmışdır. Həyat və yaradıcılığının dünyanı titrədən iki dünya müharibəsi (I və II Dünya müharibəsi) ilə sıx bağlı olması və bu müharibələrdə şəxsən iştirak etməsi müharibələrin dünya xalqlarının mənəvi psixoloji həyatında total psixor fikir sarsıntıları, ideya mübarizələri şəraitində onun bəşəri problemlərlə çıxış etməsi E. Heminqueyi zəmanəsinin ən oxunaqlı diqqət mərkəzində olan yazıçılarından birinə çevirmişdir. İstər yaradıcılığı, istərsədə şəxsiyyəti baxımından maraqlı orijinal adam olan yazıçı ideya fikir mövqeyi baxımından da bənzərsiz olmuşdur.

Bizim əsrin 20-ci illərindən ciddi yaradıcılıq yoluna çıxan E.Heminquey bu illərdə diqqəti cəlb edən "Bizim zəmanəmizdə" ("In Our Time", 1925), "Qadınsız kişilər" ("Men without women", 1927) kimi hekayələr kitabını, eləcə də "Günəş də doğur" ("The sun also rises", 1926), yaxud "Fiyesta" ("Fiesta") romanını, "Əlvida, silah!" ("A Farewell to arms", 1929) romanını yaradır. Bu əsərlərdə müharibə ağrıları, "itirilmiş nəslin " taleyinin izlənməsi başlıca mövzudur.

30-cu illər Heminqueyin yaradıcılığının daha məhsuldar dövrüdür. O bu illərdə "Günortadan sonra ölüm" ("Death in the afternoon", 1932), "Afrikanın yaşıl təpələri" ("Green hills of Afrika", 1935), "Klimancaronun qarları" ("The snows of Klimanjaro", 1936), "Var ilə yox" ("To have and have not", 1937), "Əcəl zəngi" ("For whom the bell tolls", 1940) və s. kimi əsərlərini çap etdirir.Sonra yazıçı "Çayın o tayında, ağacların kölgəsində" ("Across the river and into the trees", 1950) romanını yazır. Heminqueyin "Qoca və dəniz" ("The old man and the sea", 1952) povesti Nobel mükafatına layiq görülür. (1954).

E.Heminqueyin yaradıcılığı bu qeyd olunan əsərlərlə məhdudlaşmırdı. O, çoxlu kiçik hekayələr, novellalar, saysız publisistik əsərlər də yazmışdır.

E.Heminquey yaradıcılığı ilə Azərbaycan oxucusunun ilk tanışlığı 1938-ci ildə başlanır. Həmin il "Revolyusiya və kultura" jurnalında yazıçının "Əlvida, silah!" romanından otuzuncu fəsil Yusif Şirvanın rus dilində tərcüməsində çap olunur. Heminqueyin bu məşhur əsərinin dilimizə tərcüməsi və tərcümənin rus dilindən edilməsi təsadüfi olmayıb. Azərbaycan ədəbi-mədəni mühitinin də tərkib hissəsi kimi daxil olduğu SSRİ ədəbi-mədəni məkanının 30-cu illərə məxsus siyasi-ədəbi ovqatı ilə sıx bağlı idi. Bu baxımdan tərcümə olunan xarici ədəbiyyat sovet ideologiyasına, onun sinfilik mahiyyətinə zidd olmamalı idi. E.Heminqueyin "Əlvida, silah!" romanı çap olunan kimi bütün dünyada müharibə əleyhinə yazılmış ən yaxşı əsər kimi şöhrət qazandı.

E.Heminquey 1938-ci ildəki ilk təqdimatından sonra bir də 1958-ci ildə Azərbaycan oxucusu yenidən yazıçının yaradıcılığı ilə Azərbaycan dilində tanış olmaq imkanı tapır. Bu dəfə "Ədəbiyyat və incəsənət" qəzeti yazıçının iki kiçik hekayəsini – "İspaniya uğrunda həlak olmuş amerikalılar" ("On the Americans dead in Spain") və "Körpü başında qalmış qoca" ("Old man at the bridge") əsərlərini İ.İbrahimovun rus dilindən çevrilməsindən təqdim edir. Mütərcim hekayələrə kiçik bir ön söz də yazmış və burada E.Heminqueyin müasir Amerikanın ən nəhəng yazıçılarından olmasından, eləcə də altmış yaşının tamamlanmasından qısa halda bəhs etmişdir.

1959-cu ildə E.Heminqueyin "Qoca və dəniz" povesti ("The old man and the sea") C.Məmmədquluzadənin rus dilindən çevrilməsində çapdan çıxır. Nobel mükafatına layiq görülmüş bu əsərin Azərbaycan dilində çap olunması istər E.Heminquey yaradıcılığının, istərsə də dünya ədəbiyyatının ən yaxşı örnəklərinin Azərbaycan oxucusuna təqdimi baxımından təqdirəlayiq hadisə idi. C.Məmmədquluzadə tərcüməyə yarım səhifəlik bir müqəddimə də yazmışdır.

Tərcüməçi H.Hacıyev 1960-cı ildə E.Heminqueyin iri həcmli "Məğlubedilməz" ("The undefeated")hekayəsini "Azərbaycan gəncləri" qəzetinin üç nömrəsində rus dilindən çevirmədə çap etdirir. Tezliklə H.Hacıyevin E.Heminqueydən daha bir tərcüməsi yenə də rus dilindən çevirdiyi "Əlvida, silah!" romanı çapdan çıxır. Tərcüməçi eyni adlı kitaba "Məğlubedilməz" hekayəsini də əlavə etmiş və "Müəllif və kitab haqqında" adlı son söz yazmışdı.

E.Heminqueyin bu məşhur romanının dilimizə bütöv çap olunması diqqətəlayiq hadisə idi. Diqqət çəkən həm də o idi ki, E.Heminqueyəsərlərinin dilimizə çapını müşaiyət edən "qısa müqəddimələrdən" fərqli olaraq H.Hacıyevin "son sözü" öz həcmi və məzmunu baxımından əslində Azərbaycan ədəbi-mədəni fikrinin E.Heminquey haqqında ilk "ciddi sözü" idi. Yazıda H.Hacıyev E.Heminqueyin həyat və yaradıcılığı haqqında oxucuya təqdimat xarakterli məlumatlar verir. Diqqət çəkən odur ki, müəllif E.Heminquey yaradıcılığı haqqında filoloji təhlil haşiyələri də aparır. H.Hacıyev "Əlvida, silah!" romanından danışarkən bu roman haqqında sovet ədəbiyyatşünaslığındakı hakim fikirləri verməklə yanaşı, romanı fərdi qaydada qiymətləndirərək yazır: "Romanın rəğbətlə qarşılanmasının səbəbini isə hər şeydən əvvəl romanın sadəliyində, həqiqəti dərsindən əks etdirməsində, onun lirik bir dildə yazılmasında axtarmaq lazımdır". Müəllifin bu düzgün müşahidəsi E.Heminquey haqqında milli filoloji dəyərləndirmələrin ilk örnəyi kimi diqqəti cəlb edir.

"Əlvida, silah!"ın Bakı nəşrindən (1961) 2 il sonra E.Heminqueyin kiçik bir hekayəsi dilimizdə çap olunur. Hekayənin çapının ən əlamətdar cəhəti birincisi bu idi ki, "Körpü üzərində bir qoca" ("Old man at the bridge") adı altında çap olunmuş bu əsəri tərcüməçi İ.Şükürov birbaşa orijinaldan-ingilis dilindən çevirmişdir. İkincisi, bu kiçik hekayə dilimizə ikinci dəfə idi ki, tərcümə olunurdu. Belə ki, İ.İbrahimov onun "Körpü başında qalmış bir qoca" adı altında rus dilindən çevirmişdir. Beləliklə, E.Heminqueyin eyni bir əsəri dilimizə həm orjinaldan, həm də rus dilindən tərcümə edilmişdir və bu bir tərəfdən Azərbaycan ədəbi-mədəni fikrinin E.Heminquey yaradıcılığına getdikcə artan marağını əks etdirirdisə, ikinci

tərəfdən Azərbaycan tərcümə məktəbinin birbaşa orjinala çıxmaq, müstəqilləşmək səylərini ifadə edirdi.

"Azərbaycan" jurnalı 1964-cü ildəki 7-ci nömrəsində E.Heminqueyin "Milad bayramı hədiyyəsi" adlı bədii oçerkini oxuculara təqdim edir. Afrika səyahəti ilə bağlı bu oçerki dilimizə C.Məcnunbəyov rus dilindən çevirmişdir. Əlamətdar o idi ki, Azərbaycan oxucusu bu bədii oçerk vasitəsilə E.Heminquey qələminin peşəkar publisistik örnəyi ilə tanış olmaq imkanı əldə edirdi. E.Heminqueyin bədii nəsrinə xas "Publisistik çalar" üslubu bu əsərdə birbaşa janrın öz ifadə imkanları ilə tam gerçəkləşirdi ki, milli oxucu daha bu baxımdan əslində E.Heminquey "publisistikasının" özünə xas bədii aləmi ilə ünsiyyətdə olurdu.

Azərbaycan dövrü mətbuatı 60-cı illərdə E.Heminqueylə bağlı yeniliklərə həssaslıq göstərirdi. Bu anlamda "Ədəbiyyat və incəsənət" qəzetinin 7 yanvar 1967-ci il tarixli nömrəsindəki "Yeniliklər" adlı guşəsində "E.Heminquey haqqında yeni kitab" adlı müəllifsiz məlumat da bu "həssaslığın" əlaməti idi. Yazıda Amerikanın kitab mağazalarına Konstans Keppel Montqomerin "Heminquey Miçiqanda" adlı yeni bir kitabının daxil olduğu haqda qısaca xəbər verilirdi.

1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuş başqa bir yazı isə "E.Heminquey və Azərbaycan" əlaqələri baxımından diqqətə layiq hadisə idi. "E.Heminquey ilə görüş" adlanan bu yazı şair-alim A.Abdullazadənin qələmindən çıxmışdır. Yazının ən diqqətə layiq cəhəti onun Azərbaycan ədəbi-mədəni mühitinin E.Heminqueyə "Birbaşa çıxışının" məhsulu olmasında idi. Bu yazıda müəllif gördüklərini canlı, bədii-publisistik E.Heminquey haqqında bioqrafik təsəvvürlərinin genişləndirilməsində böyük əhəmiyyəti vardır.

Ümumiyyətlə, 1967-ci ildə Azərbaycan ədəbi-mədəni fikri E.Heminqueyə dolğun bir maraq yetirir. Həmin il Azərbaycan oxucuları yazıçının yeni bir əsəri – "Qatillər" ("The Killers") novellası ilə tanış olurlar. Diqqətəlayiq o idi ki, novellanı R.Qurbanov orjinaldan tərcümə etmişdir (1.5).

Bu, Azərbaycan tərcümə məktəbinin Avropa ədəbiyyatının orijinaldan çevirmək sahəsində ciddi addımlar atdığını göstərirdi.

E.Heminquey şəxsiyyəti və yaradıcılığı ilə bağlı ümumittifaq, xüsusilə rusdilli ədəbiyyatda görülən işlərdən geridə qalmamağa çalışan milli ədəbi mühit reallığını öz imkanları dairəsində gerçəkləşdirməyə çalışırdı. Bunu 2 dekabr 1967-ci il tarixli "Ədəbiyyat və incəsənət" qəzetinin "Dünya mədəniyyəti aləmi" guşəsində E.Heminquey haqqında çap olunmuş "Yazıçının jurnalistik fəaliyyəti" adlı yazı da aydın göstərir. Bu yazıda E.Heminqueyin yazdığı məqalə və xəbərlərdən ibarət bir kitabın xaricdə nəşr olunmasından söhbət gedirdi.

60-cı illərin sonunda E.Heminquey yaradıcılığına filoloji fikrin üz tutması həm də sanki milli ədəbi-mədəni mühitin 6-cı onillik ərzində yazıçı ilə bağlı gördüyü işlərə yekun vurmaq təsiri də bağışlayır. Belə ki, 1969-cu ildə H.Abbaszadənin "İnsan gücünə inam" məqaləsi çap olunur. E.Heminqueyin anadan olmasının 70 illiyinə həsr olunmuş bu yazıda yazıçının yaradıcılığı E.Heminqueyin başlıca insan idealı baxımından səciyyələndirilirdi. H.Abbaszadənin bu məqaləsi yubiley-icmal səciyyəsi daşısa da, Azərbaycan nəsrinin oxunaqlı yazıçılarından biri olan müəllifin amerikan yazıçısı haqqında söylədiyi səmimi fikir və mülahizələr öz hərarəti ilə seçilir.

Ədəbiyyat:
1. Abdullazadə A. Heminqueylə görüş. "Ədəbiyyat və incəsənət" qəzeti, 11 fevral 1967.
2. Ernest Heminquey. A Farewell to arms. Progress publishers. M.,1976.
3. Hacıyev H. Müəllif və kitab haqqında. E. Heminquey. Əlvida, silah! B.,1961.

Abstract
ERNEST HEMINGWEY IN AZERBAIJAN LANGUAGE
Malaknaz YUSIPHOVA
Graduate student of Azerbaijan University

Reviewer: Jafarova Kamala, Associate Professor
Key words: Ernest Hemingway, A Farewell to Arms, World War I and II, literary environment

The article deals with Ernest Hemingway in the Azerbaijan language. As the article mentions the importance of including Hemingway to American literature anthologies cannot be overestimated. Hemingway's style and subject are archetypal of American writing. Hemingway opened new literary stage when he began publishing his short stories. Furthermore, being an American writer, he was not an ivory-tower esthete; he was a man's man.

Резюме
ЭРНЕСТ ХЕМИНГУЭЙ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ
Мелекназ ЮСИФОВА
Магистр Университета "Азербайджан"

Референт: доц. Джафарова Кямаля
Ключевые слова: Ернест Хемингуэй, Прощай оружие!, I и II мировая война, литературная среда

В данной статье повествуется о повести выдающего писателе Э. Хемингуэя. В большую литературу Э. Хемингуэй вошел во второй половине 20-х годов, когда вслед за книгой рассказов «В наше время» появляются его первые романы – «И восходит солнце» и «Прощай, оружие!». Эти романы дали повод к тому, что Хемингуэя стали считать одним из наиболее выдающихся художников «потерянного поколения». Вторая половина 30-х годов – роман «Иметь и не иметь» рассказы об Испании и знаменитый роман «По ком звонит колокол».

DİALEKTLƏRİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ, COĞRAFİ DİALEKTLƏR

Rəna ƏLİYEVA
"Azərbaycan" Universiteti, magistr

Rəyçi: f.e.n, dos. Hüseyn Hüseynov
Açar sözlər: qlottal-stop, Yod-dropinq, milli müxtəlifliklər, fonetik xüsusiyyətlər, epenteza

İngilis dili özünün danışıq formasında Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının, Avstraliya, Yeni Zellandiya və Kanada əhalisinin böyük bir hissəsinin milli dilidir.

Ayrı - ayrı ingilis dialektlərinin xüsusiyyətlərinin təsvirinə həsr edilmiş xüsusi tədqiqatların əksəriyyəti İngiltərədən kənarda və qeyri - ingilislər - H. Orton, E. Dit, H. Şillinq, H. Mutşman və s. dilçilər tərəfindən yazılmış və dərc edilmişdir (5.31).

Bu məqalənin məqsədi Müasir İngilis dilinin standartı ilə onun variantları arasındakı fərqləri, milli müxtəlifliklərini, spesifik xüsusiyyətləri fonetik nöqteyi – nəzərdən araşdırmaqdır.

Dialektlər bir qrup insanlar tərəfindən danışılan və ya müəyyən ərazilərin xarakteristikaları kimi başa düşülə bilər.

Zaman – zaman müxtəlif alimlər, dilçilər tərəfindən dialektlər haqqında, onların bölünmə xüsusiyyətləri, özünəməxsus daşıyıcıları barəsində müxtəlif fərziyyələr irəli sürülmüşdür. N.Homski qeyd etmişdir ki, aksent evdəki dil mühitini mənimsəməklə əldə edilir, uşağın eşitdiyi və onunla doğulan anadangəlmə öyrənmə qabiliyyətinə əsaslanır.

Aksentlər haqqında danışarkən, əcnəbilər İngiltərə və Britaniya arasındakı fərqlər haqqında diqqətli olmalıdırlar; İngiltərədə müxtəlif aksentlər vardır, ancaq Şotlandiya, Uels və Şimali İrlandiya (Şotlandiya və Uels Britaniyaya daxildir, Şimali İrlandiya ilə birlikdə Birləşmiş Krallığı formalaşdırır) dialektlərini də nəzərə aldıqda cərgə kifayət qədər genişlənir (3.4).

A.Ellisin sxeminə əsaslanaraq müasir ingilis dili dialektlərini bu şəkildə bölmək olar:

a. Şimal dialektləri
b. Mərkəzi dialektlər
c. Şərq Dialektləri
d. Qərb Dialektləri
e. Cənub Dialektləri

Hər bir dialekt fonetik, lüğət tərkibi və qrammatik xüsusiyyətlərinə görə biri digərindən fərqlənən keyfiyyətlərə malikdir. İndi isə bu dialektlərin fonetik xüsusiyyətlərini ayrı – ayrılıqda şərh edək.

a. Şimal dialektləri – Şimal dialektləri İngiltərənin şimal hissəsində formalaşan dialektlərdir. Şimal dialektlərinə Nortamberlənd, Şimali Darem, Cənubi Darem, Kamberləndin böyük bir hissəsi, Vestmorlənd, Şimali Lənkəşir, Yorkşirdə Qərbi – Raydinqin dağlıq hissəsi, Yorkşirdə Şərqi – Raydinq və Şimali – Raydinq və s. daxildir. Bu dialektlərdə "RP" dən

(Qəbul Olunmuş Tələffüz) fərqli olaraq [ʌ] səsi [u] kimi tələffüz olunur, məs., love [lʌv] – [luv]. "RP" sonda gələn [i] səsi Şimal dialektlərində [i:] kimi tələffüz olunur: city ['siti] – ['siti:] və s. Digər bir fərqə baxaq: dance, chance kimi sözlər "RP" də [ɑ:] kimi tələffüz olunduğu halda şimal dialektlərində [æ] kimi tələffüz olunur: [dæns], [ʧæns] və s. Tərkibində "al" hərf birləşməsi olan sözlər - talk, call, all tələffüzdə [a:] [ta:k], [ka:l], [a:l] kimi səslənir. "RP" də [ɜ:] səsi ilə tələffüz olunan sözlər Şimal dialektlərində [ɔ:] kimi tələffüz olunur: first [fɜ:st] = [fɔ:st], shirt [ʃɜ:t] [ʃɔ:t]. Fərqlər təkcə monoftonqlar arasında deyil, diftonqlar arasında da mövcuddur, yəni [aɪ] diftonqu [ɛɪ] kimi tələffüz olunur: right [raɪt] = [rɛit], "RP"də [au] diftonqu ilə tələffüz olunan sözlər isə Şimal dialektlərində [u:] kimi səsləndirilir, məsələn, about [ə'baut] = ['əbu:t]. Bundan başqa [l] bütün şimal ərazilərdə yumşaq tələffüz olunur, [h] adətən bütün pozisiyalarda (mövqelərdə) iştirak edir. Digər dialektiv fərq isə "-ing" in [ɪŋ] kimi yox, [ɪn] kimi tələffüz olunmasıdır - shilling ['ʃ iliŋ] yerinə ['ʃ ilin] . Bundan əlavə [p, t, k] saitlər arasında işlənirsə qlottal stopla tələffüz olunur: pity ['pɪtɪ] = ['pitdi:].

b. Mərkəzi dialektlər – bu şimal və cənub bölgələri arasında olan dialektlərdir. Mərkəzi dialektlər bölmünə Linkolnşir, Cənubi – Şərqi Lənkəşir, Şimali – Şərqi Çeşr, Şimali - Qərbi Darbişir, Şimali – Qərbi Lənkəşir, Cənubi Ribl, Bedfordşir, Nottinqemşr, Flint, Yorkşrin böyük bir hissəsi, Cənubi Stədfordşir və s. ərazilər daxildir. Şimal dialektlərində olduğu kimi, Mərkəzi dialektlərdə də [ɑ:] dan istifadə olunmur, beləliklə cast sözü [kast] kimi tələffüz olunur, [ka:st] kimi yox. Mərkəzi dialektlərdə həmçinin şimal dialektlərində olduğu kimi qısa [u] istifadə olunur. Old [ould] və cold [kould] sözləri [oud] və [koud] kimi tələffüz olunur. Mərkəzi – Şərqi dialektlər adətən "qeyri - rotik"dir. "Yod-dropinq"ə, Şərqi – Anqliada olduğu kimi bəzi ərazilərdə rast gəlinir, məs., new [nju:] sözü [nu:] (noo) kimi səsləndirilir. Linkolnşirdə belə səslər hətta şimalda olduğundan da qısadır. Şimali Nottinqemşirdə "ee" ə qısa sözlərdə rast gəlinir və iki heca kimi tələffüz olunur, məsələn feet [fi:t] bərabər olur "fee-yut"a, tələffüz olunur [ˈfijəd] kimi (və bu zaman da sonu "qlottal stop" la bitir). Linkolnşrin cənubu "RP"ə yaxındır, baxmayaraq ki, onun hələdə şimal dialektlərindəki sözlərdə olduğu kimi qısa [a]sı var, məsələn bath. Bu ərazidə ənənəvi olaraq "an" hərf birləşməsindən sonra /f/, /s/ və ya /θ/ gəlmişsə uzun /a:/ səsindən istifadə olunub. Daha gənc nəsil isə daha çox "RP"ə yaxın olan /ɑ:/ səsindən istifadə edirlər. Cənubi – şərqi dialektlə ümumilik təşkil edərək, about, pound, sound, və s. sözlərdə /aʊ/ diftonqunun yerinə [ɛʊ] işlənə bilər. Bu ərazidə yaşayan sakinlər üçün xarakterkdir ki, ölkə adlarının sonunda "shire" Oksford lüğətində istifadə olunduğu kimi /ʃə/ yox, /ʃɪə/ kimi tələffüz olunsun, məs., Bəzi ərazilərdə [aɪ] diftonqu [oɪ] səsinə çevrilir. Məsələn, nineteen ninety five [naɪnti:n naɪnti faɪv] bu şəkildə deyilə bilər - noineteen noientee foive [noɪnti: noɪnti foɪv] .

c. Şərq Dialektləri – İngiltərənin şərq hissəsində yaranmış, Standart İngilis dilinin formalaşmasında və Amerika İngiliscəsinin inkişafında böyük rol oynamışdır. Şərq dialektləri qrupuna Kembricşir, Esseksin böyük bir hissəsi, Norfolk, Saffolk, Hantingqdonşr, Bukinqemşrin böyük bir hissəsi, cənubi Hartfordşr, cənubi – şərqi Bukinqemşr və s. daxildir. Bu qrup dialektlərdə [t] səsi saitlər arasında adətən "qlottal stop"a çevrilir. [ai] diftonqu [oi] diftonquna çevrilir: time [taɪm] = [toim]. RP [ju] [n, t, d] səslərindən sonra [u:] səsinə çevrilir.

Epenteza (səs artımı (adətən sözün daxilinə) Norfolk dialektində olduğu kimi bəzən Saffolk dialektində də baş verir. "Film" kimi sözlər "filum" şəklinə keçə bilir. Yod - dropinq "dew", "queue", "new" and "tune" - [ˈdju:], [ˈkju:], [ˈnju:], [ˈtju:n] kimi sözlər üçün xarakterik haldır, həmin sözlər müvafiq olaraq "doo", "koo", "noo" and "toone" - [ˈdu:], [ˈku:], [ˈnu:], [ˈtu:n] formasına keçir. Saffolk dialekti "qeyri-rotik"dir, başqa sözlə "r" "hard" və oxşar sözlərdə İngiltərənin qərb hissəsindən fərqli olaraq tələffüz olunmur. Saffolk dialektində "glottal stop"un güclü istifadəsi vardır. Bu "'amara" and "e'" sözlərində aydın görünür ('tomorrow' and 'it'). Dialekt RP/BBC də olduğu kimi adətən "qeyri-rotik"dir, beləliklə /r/ yalnız sait səsdən sonra istifadə olunur. İngiltərənin bir çox regional aksentlərindən fərqli olarak Norfolk dialektində adətən h- dropinq mövcud olmur. /h/ səsi ümumən 'hat', 'ahead' kimi sözlərdə istifadə olunur, ancaq bütün Norfolk sakinləri tərəfindən yox. Norfolk tələffüzündə fərqləndirici ritm sayəsində bəzi vurğulu saitlər RP/BBC də olduğu ekvivalentlərindən fərqli olaraq daha uzun olur, əksinə bəzi vurğusuz saitlər isə əksinə daha çox uzun olur. /ɒ/ sait səsi, məsələn lot sözündə adətən Amerikan İngiliscəsinin bir çox formalarında olduğu kimi dodaqlanmayan uzun [ɑ:] kimi tələffüz olunur. Near və square arasındakı fərq [ɪə] və [eə] Norfolkda mövcud deyil. Beləliklə 'beer' və bear' eyni cür səslənir, sait keyfiyyəti [ɛ:] olur. 'Coming' kimi sonu '-ing' suffiksi ilə bitən və tələffüzü "RP/BBC"də [ɪŋ] olan sözlər adətən [ən] kimi səslənir, məsələn 'coming' /kʌmɪŋ/ sözü [kʌmən] kimi səslənir. Bu əsasən "g - dropinq" kimi tanınır. "Yod - dropinq"ə alveolyar (yuvaq) ([t, d, s, z, n, l]) samitlərindən sonra bir çox İngilis aksentləri və geniş Amerikan tələffüzlərində rast gəlinir, beləliklə "tune", "due", "sue", "new" ([tju:n], [dju:], [su:n], [nju:]) sözləri [tu:n], [du:], [su:], [nu:] ("toon", "doo", "soo", "noo") kimi səslənir, ancaq Norfolk dialektində yod - dropinq qeyri - alveolyar (qeyri – yuvaq) samitlərdən sonra baş verir və bu özünəməxsus olur. Yod - dropinq nəticə etibarı ilə bütün samitlərdən sonra baş verməsinə rast gəlinir, beləliklə RP/BBC [Cju:] Norfolk [Cu:] su kimi səslənir (C hər hansı bir samitin yerində durur). Məsələn, "beautiful", "few", "huge", "accuse" sözləri "bootiful", "foo", "hooge", "akooz" - [bju kimi səslənir. Qlottal stop Norfolk tələffüzündə geniş istifadə olunur. /t/ samiti vurğulu saitlər sonra gəldikdə adətən "glottal stop"a çevrilir, beləliklə "better" ə [bedə] kimi tələffüz olunur.

d. Qərb Dialektləri - İngiltərənin qərb bölgəsində formalaşan dialektlərdir. Bu qrupa daxildir: Qərbi və Cənubi Şropşir, Herdfordşir, Breknok və s. Qərb dialektlərində öndə gələn [s] adətən [z] a çevrilir, məsələn; singer - zinger. Qərb dialektlərində öndə gələn [f] isə [v] a çevrilir, məs.; finger - vinger. Bu dialektdə saitlər uzadılır. Qərb dialektləri bir çox Şimali Amerika və Şimali İrlandiya aksentləri kimi rotikdir, bu o deməkdir ki, "r" səsi bütün sözlərdə tələffüz olunur (aproksimant kimi), beləliklə qeyri – rotik aksentlərlə ziddiyyət təşkil edir, məsələn "RP"də "r" yalnız saitlərdən əvvəl tələffüz olunur. Qərb dialektinin bir çox hissələrində [ɑ:] grass, ask və Bath bir çox sözlərdə [æ] və ya [a:] səsi ilə təqdim olunur (RP belə sözlərdə [ɑ:] var). H - dropinq : öndə gələn (initial) /h/ səsi bəzi hallarda bu şəkildə buraxılır: hair [ˈhɛə], air [ˈɛə] = hair [ˈɛə], air [ˈɛə]. Bu zaman "hair" və"air" homofona çevrilir. Bu İngiltərənin bir çox bölgələrində fəhlə sinfi üçün xarakterikdir. Sonda gələn "y" /ei/ kimi tələffüz olunur. Məsələn, party /pa:ɹtei/, silly /sılei/ və s. Daxili frikativ samitlər cingiltili ola

bilər, beləliklə "s" səsi Standart İngilis dilindəki "z", "f" isə Standart İngilis dilindəki "v" kimi tələffüz olunur. Bristolda, terminal (məhdudlaşdırılmış) "a" səsi [ɔ:] kimi realizə edilə bilər– məsələn, cinema "cinemaw" [sinemɔ:], America "Americaw" [ə′merikɔ:]kimi tələffüz olunur. Tərkibində saitdən əvvəl "r" səsi olan sözlərdə, tez – tez meteteza (yerdəyişmə) baş verir – "gurt" (great), "Burdgwater" (Bridgwater) və "chillurn" (children) olur. Tərkibində "l" hərfi olan sözlərdə sözün sonuna yaxın yerlərdə, məsələn gold və ya cold kimi sözlərdə "l" tez – tez tələffüz olunmur, məsələn "an old gold bowl" bu cür səslənəcək - "an ode goad bow".

e. Cənub Dialektləri – Temza çayının cənub və cənubi – qərb hissəsində formalaşan dialektlərdir. Cənub dialektləri qrupuna Hempşir, Yorkşir, Şimali Qlosterşir, Qərbi Herfordşir, Vusterşir, Oksfordşir, Oksfordşir qraflığının böyük bir hissəsi, Kent, Uiltşr, Berkşrin böyük bir hissəsi və s. ərazilər daxildir. Bu dialektlərdə RP [ʌ] səsi [æI] kimi tələffüz olunur: blood [blʌd] – [blæɪd]. Digər bir fərqdə isə [æ] səsi [ɛ] və ya [ɛɪ] kimi tələffüz olunur: bag [bæg] – [bɛg], [bɛɪg] və s. Bundan başqa [i] səsi sözün sonunda [i:] kimi səslənir; city ['siti] – ['siti:], [ɔ:] səsi isə sözün sonunda gəlməyəndə o daha qapalı [o:]kimi tələffüz olunur, məsələn: pause [pɔ:z] - [po:z]; ancaq sözün sonunda gəldikdə isə [ɔ:ə] kimi səslənir; paw [pɔ:] - [pɔ:ə]. Digər dialektlərdə olduğu kimi cənub dialektlərində də diftonqlar arasında da fərqlər mövcuddur, yəni [eɪ] diftonqu [æɪ] və ya [aɪ] kimi tələffüz olunur: lady ['leɪdi] – [læɪdi:], [laɪdi:], [ai] diftonqu [ɔɪ]və ya [aɪ] kimi səslənir, məsələn, price [præɪs] = [prɔɪs], [əu] diftonqu [æu] kimi səslənir, məsələn, load [ləud] = [læud], [au] diftonqu [a:] kimi səslənir, məsələn, loud [laud] = [la:d], RP [ɜu] [æu] kimi səslənir: soaked [sɜukt] – [sæukt], RP [au] [æə] kimi səslənə bilər: now [nau] – [næə]. Əlavə olaraq qeyd edə bilərik ki, [θ] və [f] arasındakı ziddiyyətlər bu dialektlərdə tamamilə itirilir; thin [θın] = [fın], booth [bu:θ] = [bu:f]. Burun sonor səsi [ŋ] sözün sonunda [n] ilə əvəz olunur: dancing [dɑ:nsıŋ] = [dɑ:nsın]. Cənub dialektlərində [p, t, k] "RP" dan fərqli olaraq daha güclü nəfəsli tələffüz olunur.

İnkişafın xüsusi istiqamətlərinə yiyələnərək hər bir milli müxtəliflik bir sıra xüsusiyyətlərlə xarakterzə olunur. Bu gün İngilis dilinin hər bir milli müxtəlifliyi öz inkişaf modelinə sahibdir. İngilis dilinin milli müxtəlifliklərinin müqayisəli təhlili göstərir ki, onların dilin fonetik sisteminin bütün səviyyələrində - sait və samit fonemlər sistemi, sözlər və intonasiyanın aksentual strukturunda oxşar xüsusiyyətləri vardır. Nəticə olaraq qeyd edə bilərik ki, İngilis dilinin milli müxtəlifliklərı hələ gələcək çox tədqiqatların mövzusu olacaqdır.

Ədəbiyyat :

1. Claude Merton Wise and others, "Introduction to Phonetics", LSU press.

2. Bauer L. "An Introduction to International Varieties of English", Edinburgh Univ. Press, 2002.

3. Roach P. "English Phonetics and Phonology." Cambridge University Press, 1991.

4. Wells, J. C. "Longman Pronunciation Dictionary", London, 2000.

5. Маковский М.М. Английская диалектология / М.М. Маковский. – М.: Ком-Книга, 2005.

Abstract

THE SPECIFIC FEATURES OF DIALECTS, GEOGRAPHIC DIALECTS

Rana ALIYEVA

Graduate student of Azerbaijan University

Key words: glottal stop, Yod-dropping, national varieties, phonetic features, epenthesis

The main subject of this article is to define specific features of dialects in England. These specific features include phonetic differences of different dialects. Every dialectical area is characterized by its own specific features. Defining accentual structure of language is one of the main problems of linguistics. And such tasks are investigated by scholars such as Noam Chomsky, Victor Klein, Harold Orton, Eugen Dieth, Harold K. Schilling, Heinrich Mutschmann.

Резюме

СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ДИАЛЕКТОВ, ГЕОГРАФИЧЕСКИЕ ДИАЛЕКТЫ

Рена АЛИЕВА

магистрант Университет "Азербайджан"

Референт: к.ф.н, доц. Гусейн Гусейнов

Ключевые Слова: глотал стоп (тяжёдый приступ), Yод-дропинг, национальные сорта (различия), фонетические особенности, эпентеза

Основной темой данной статьи является определение особенностей диалектов в Англии. Эти особенности включают фонетические различия в разных диалектах. Каждый диалектический район характеризуется своими специфическими особенностями. Определение акцентной структуры языка одна из основных проблем в языкознании. И такие задачи исследованы различными учеными, такими как Ноам Хомский, Виктор Клайн, Х. Ортон, Э. Дит, Х. Мутшман, К. Шиллинг.

İNTERFERENSİYA LİNQVİSTİK TƏDQİQATLARIN OBYEKTİ KİMİ

Bəyim ƏLİYEVA
Azərbaycan Universiteti, magistr

Rəyçi: F.e.n., dos. Hüseynov Hüseyn
Açar sözlər: interferensiya, ikidillilik, ana dili, müqayisə

"İnterferensiya" termini əvvəllər ancaq fizikada işlədilmişdir və dalğaların üst-üstə düşdüyü vaxt onların qarşılıqlı güclənməsi və zəifləməsini bildirir. Latın dilindən tərcümədə inter "arasında" + ferens (ferentis) "daşıyıcı" , "aparıcı" mənasını verir. Müasir dövrdə bu termin psixologiyada, dilçilikdə və xarici dillərin tədrisi metodikasında geniş istifadə edilir.

Dilçilik ədəbiyyatında bu terminin müxtəlif izahlarına rast gəlinir. İlk dəfə bu terminin Praqa dilçilik dərnəyinin üzvləri tərəfindən işlənildiyi qeyd edilir.

Lakin ilk olaraq, bu barədə U.Vaynrayxın fikrinə diqqət yetirmək lazımdır. Özünün "Dil təmasları" adlı fundamental monoqrafiyasında görkəmli amerikan dilçisi ilk olaraq dil təması və ikidilliliklə yanaşı interferensiya termininin də izahını verir. U.Vaynrayx interferensiyanı dil təmasları nəticəsində bir neçə dil bilən ikidillilərin nitqində dillərdən hər hansı birinin normadan kənara çıxması kimi izah edir [1, səh. 22] .

İkidilliliyin elmi problem kimi əhəmiyyətindən danışan məşhur dilçi R.Yakobson yazır ki, uzun müddət lazımınca əhəmiyyət verilməyən, yaxud ümumiyyətlə nəzərdən keçirilməyən ikidilliliyin öyrənilməsi tədricən dilçilik elminin mərkəzi vəzifələrindən birinə çevrilir (R.Yakobson) [2, səh. 75] . Bu sahədə yerinə yetirilən tədqiqat işlərində danışıq aktında qarşılaşan dillərin, qrammatik strukturları və fonetik sistemləri arasındakı oxşar və fərqli xüsusiyyətlər araşdırılır və onlara münasibət bildirilir.

İngilis dilində danışan azərbaycanlılar bu dilin qrammatik strukturu və fonoloji sistemi ilə üzləşirlər. Onlar öyrəndikləri ingilis dilinin qrammatik strukuturunu və fonem sistemini ana dilindəki müvafiq struktur və sistemlərlə müqayisə edirlər. Danışıq prosesində ingilis dili üçün xarakterik olan qrammatik konstruksiya və ya seqment əvəzində bəzən ana dilinin oxşar qrammatik konstruksiyası və sait tələffüz edilir. Nitq prosesindəki bu hadisəyə görkəmli dilçi akademik L.V.Şerba ana dilini xarici dillərin öyrənilməsində böyük çətinlikər yaratdığını qeyd edir [3, səh. 348].

Dildə interferensiya hadisəsinin tədqiqi ilə məşğul olan V.V.İvanov və V.A.İvanova özlərinin "Qrammatik interferensiya və rus dilində danışıq mədəniyyəti problemi" əsərində qeyd edirlər ki, interferensiya özünü danışıqda göstərir, lakin yaranışına görə o, dilin sistemi ilə bağlıdır [4, səh. 5.8]

Dillərin bir birinə qarşılıqlı təsiri və bilavasitə ana dilinin – Azərbaycan dilinin təsiri nəticəsində öyrənilən ingilis dilinin normalarından yayınmalar dilçilik ədəbiyyatında interferensiya hadisəsi kimi tanınır.

Problemə ümumi dilçilik səviyyəsində yanaşan qermanist Y.Yanos da ana dilinin təsiri ilə xarici dildə danışanın normadan yayınmalarını interferensiya hadisəsi kimi şərh edir.

S.Y.Bernşteynin isə tədqiq olunan problemə münasibəti başqalarından fərqlənir. O qeyd edir ki, mütaliədə və yazılı ünsiyyətdə tələffüz sahəsində dəqiq vərdişlərə yiyələnməyin o qədər də əhəmiyyəti yoxdur. S.Y.Bernşteyn interferensiya hadisəsi ilə əlaqədar şərhindən aydın olur ki, xarici dili öyrənənlərin heç də hamısına düzgün tələffüz vərdişlərinə yiyələnmək vacib deyil.

İrəli sürülən bu fikrin gerçəkliklə uyğunlaşması mübahisəlidir. Fikrimcə öyrənənlərə bunu şamil etmək səhv olardı. İngilis dilini öyrənən azərbaycanlılar ya bu dili başqalarına tədris edir, ya da müxtəlif şəraitlərdə bu dildən ünsiyyət vasitəsi kimi istifadə edirlər. Hər iki halda ingilis dilini öyrənən azərbaycanlılar nəinki gözəl yazılı nitqə, eləcə də aydın və rəvan şifahi nitqə yiyələnirlər. Əks halda ünsiyyətin iştirakçıları olan danışan və dinləyən bir-birlərini başa düşməkdə çətinlik çəkirlər.

Danışan zamanı özünü göstərən interferensiya hadisəsinə fərqli münasibət bəsləyən N.İ.Samuylova qeyd edir ki, xarici dildə danışıq fəaliyyəti ana dilinin danışıq avtomatikası əsasında formalaşır və bu xarici dildə düzgün tələffüz vərdişlərinə yiyələnməkdə ilkin etapda imkan yaradır. Ana dilində məlum olan danışıq qaydalarına istinad etmə xarici dilin öyrənilməsində bəzən müsbət, bəzən də mənfi faktor kimi çıxış edir. Tədqiqatçı tələffüzdə oxşarlığı müsbət, fərqi isə ləngidici təsir kimi qəbul edir. Qeyd olunan fərqlərdən çıxış edən dilçi öyrəndiyi ikinci dildən ünsiyyət vasitəsi kimi istifadə edənlərin nitqində iki prosesin aşkar olduğunu irəli sürür. Transpozisiya İnterferensiya.

Təhlil göstərir ki dilçilik ədəbiyyatında interferensiya hadisəsi ilə əlaqədar irəli sürülən fikirlər heç də eyni məzmunlu olmayıb, çox cəhətli və rəngarəngdir.

Problemin həlli ilə bağlı yaranan müxtəliflik onun hansı səviyyədən araşdırılması ilə bağlıdır. Elə bu səbəbdən də elmi ədəbiyyatda göstərilir ki, interferensiyanı üç nöqteyi-nəzər əsasında araşdırmaq olar.

Dilçiliyə aid sonradan yazılan tədqiqat işlərində də interferensiya, demək olar, eyni mənada verilib.

Xarici dil öyrənərkən səs sistemlərinin qarşılıqlı təsirinin özünəməxsus spesifik xüsusiyyətləri var. Ruslara ingilis, alman, fransız və s. dilləri öyrədərkən öyrənilən dildə səslərin tələffüzü ilə bağlı interferensiya "pis" və yaxud "o qədər də yaxşı olmayan" tələffüz kimi dəyərləndirilir. Kontrastiv dilçiliyinin meydana gəlməsi, dillərin kontrastiv müqayisə yolu ilə öyrənilməsi interferensiya prosesinin hər tərəfli öyrənilməsinə marağı artırmışdır. Aparılan tədqiqat işləri və əldə edilən nəticələr bu sahədə yerinə yetirilən işlərin uğurla getdiyindən xəbər verir.

Kontrastiv dilçilikdən bəhs edən A.Axundov yazır ki, dilləri tipoloji surətdə öyrənilməsinin müqayisəli - tarixi dilçilik qədər yaşı var.

Tipoloji dilçiliyin qazandığı uğurlar V.Humboldtun dövründən indiyədək qohum olmayan dillərin müqayisəli öyrənilməsi ilə bağlıdır. Digər tərəfdən, kontrastiv dilçiliyin nəzəri əhəmiyyəti özünü onda biruzə verir ki, qohum olmayan dillərin müqayisəli öyrənilməsi ana

dilində müşahidəyə çətin gələn bir sıra xüsusiyyətləri meydana çıxarmağa imkan verir. Görkəmli dilçi alim akad. L.V.Şerbanın məşhur kəlamını bir daha təkrar etmək yerinə düşər : "Ana dilində nə tapsan onda hər şey sadə və öz-özünə aydındır və heç nə şübhə doğurmur" [3] . Müqayisə yolu ilə öyrənilən ikinci dil isə LV.Şerbaya görə "ana dilindəki bütün ifadə formalarını açıb meydana çıxarmağa kömək edir" [3] .

F. de Sössürün şagirdlərindən olan görkəmli fransız dilçisi Şarl Balli qohum olmayan dillərin müqayisəli öyrənilməsinin ana dilini gözlənilməz bir nurla işıqlandıracağını vəcdlə demişdir [5, səh. 36] . Kontrastiv dilçiliyin təcrübi əhəmiyyəti də böyükdür. Rus dilinin habelə xarici dillərin milli məktəblərdə öyrənilməsi üçün və həmin dillərin tədrisi metodikası üçün kontrastiv dilçilik qiymətli material verir.

Kontrastiv dilçilik tədqiqat zamanı tutuşdurmanın əsaslarını əvvəlcədən müəyyənləşdirməldir. Bu iki yolla: linqvistik və sahəli tutuşdurma yolları ilə ola bilər. Linqvistik tutuşdurma zamanı dillərdən biri əsas götürülür və ikinci dil əsas götürülən dilin işığında öyrənilir. Sahəli tutuşdurma müəyyən bir dilin hər hansı konkret bir sahəsi əsas götürülür. Həmin sahə müqayisəyə cəlb olunmuş dillərin ən müxtəlif səviyyələrinə aid ola bilər.

Aparılmış tədqiqat işləri sayəsində əldə edilən nəticələr bu sahədə yerinə yetirilən işlərin uğurla getdiyindən xəbər verir. Tədqiqat işlərinin nəticələri müqayisə olunan dillərin tarixi və müasir inkişaf səviyyəsinə öz müsbət təsirini göstərir. Və nəticə etibarı ilə ümumi dilçilik nəzəriyyəsinin yaranmasına xidmət edir.

Konfrontativ tədqiqat işlərinin obyekti kimi, sözsüz ki, minimum iki dil material götürülür ki, bunlardan da biri ana dili, ikincisi isə öyrənilən xarici dilin materialıdır. Bu cür müqayisəli işlərdə dillərin tipoloji yaxınlığının və uzaq olmasının müqayisə üçün heç bir əhəmiyyəti yoxdur. Bu tədqiqat işində müqayisə olunan xarici dil kimi, ingilis dili nəzərdə tutulur. İngilis dilini xarici dil kimi öyrənən azərbaycan auditoriyası üçün bu tipli işlərin tədqiqata cəlb olunmasının əhəmiyyəti böyükdür. Məhz bu yolla dillər arasında mövcud oxşar və fərqli xüsusiyyətlər müəyyənləşir. Burada ingilis və Azərbaycan dillərinin sait səsləri ilə bağlı konfrontasiyası nəzərdə tutulur.

N.Xomski yazır ki, öyrənilən dildə olan yaradıcı münasibət və bacarıq imkan verir ki, dili öyrənənlər balaca uşaq kimi özləri üçün qaydalar sistemi yaradırlar ki, bunun da əsasında onlar öyrənilən dildə yeni-yeni söz və ifadələr yaradırlar (3). Onun konsepsiyasına görə dil onu ünsiyyət prosesində konkret situasiyada işlətməyi bacaran insana məxsusdur [6, səh. 22-25]

Konfrontativ tədqiqatların ilkin bariz nümunəsi kimi, M.A.Kazımbəyin "Türk-tatar dillərinin ümumi qrammatikası" əsərini göstərmək olar. Bu əsərdə türk və digər dillərin səs sistemləri müqayisə olunur. Lakin qeyd etmək lazımdır ki, o dövrlərdə bu cür əsərlərdə konkret olaraq "interferensiya" termini işlədilməyib.

Xarici dillərin öyrənilməsi prosesində ana dilinin öyrənilən dilə mənfi təsirini ilkin göstəricilərindən biri də V.A.Boqoroditski olmuşdur. Hələ 1989-cu ildə o, çavuşların rus dilində danışarkən etdikləri tələffüz səhvlərini fərqləndirmişdir. Lakin o da əsərlərində problemdən bəhs etsə də "dil interferensiyası" anlayışını işlətmir.

V. fon Humboldt və A.Şleyxer və s. kimi görkəmli dilçilər də əsərlərində interferensiyadan ayrıca bəhs etməsələr də, interferensiyanı termin kimi işlətməsələr də, ana dilinin öyrənilən dilə həlledici təsir göstərməsini qeyd etmişlər. Onların problemə münasibətindən aydın olur ki, dillərin bu cür qarşılaşdığı prosesdə onları daha çox dəyişikliyin "niyə" deyil "necə" baş verməsi maraqlandırır.

XX əsrin 60-cı illərindən başlayaraq, interferens səhvlər problem öz həllini tapmağa başlayır. Xarici dillərin öyrənilməsi prosesində ana dilinin maneə olduğunu göstərən L.V.Şerba problemlə əlaqədar fikrini belə izah edir : "Etiraf olunmalıdır ki, ana dili xarici dilin öyrənilməsində əsas düşməndir. Çünki o bizi saysız-hesabsız səhvlər etməyə məcbur edir" [7, səh. 348] .

Beləlikə müəllif haqlı olaraq, ana dilini xarici dili öyrənmədə böyük maneçilik törətdiyini göstərir və bu fikir bir çox dilçilər tərəfindən təsdiqlənir.

Bu da onunla izah oluna bilər ki, xarici dili öyrənənlər öyrənilən dildə danışıq təcrübəsinə malik olmurlar. Ona görə də çox təbiidir ki, dil öyrənənlər danışıq prosesində xarici dilin elementləri əvəzinə bəzən ana dilində mövcud olan oxşar vahidləri işlədirlər. Danışanın nitqində ana dilinin sistemi yad normaya üstün gəlir. Bunun sayəsində də xarici dildə danışanın nitqində saysız-hesabsız tələffüz səhvləri yaranır.

Xarici dilin öyrənilməsində ana dilinin mənfi təsiri böyük alim N.S.Trubeskoyun da əsərində özünə yer tapıb. O yazır ki, xarici dili öyrənərkən, biz həmin dilin fonoloji sistemi ilə rastlaşırıq və bunu o, ələklə müqayisə edir. Xarici dilin səsləri danışanda qeyri-dəqiq fonoloji interpretasiya yaradır. Xarici dilə xas səslər ana dilinin "fonoloji ələyindən" buraxılır.

Dillərin müqayisəli öyrənilməsi problemindən bəhs edən İ.A.Boduen de Kurtene yazır ki, biz dilləri, ümumiyyətlə, onların qohum olub-olmamasından aralarında tarixi əlaqələrin mövcud olub-olmamasından asılı olmayaraq, müqayisə edə bilərik. Nəticədə dillər arasındakı bütün fərqlər və oxşarlıqlar üzə çıxır [8] .

U.Vaynrayx xarici dilin öyrənilməsində kontaktda olan dillərin bir-birinə təsir etdiyini və bunun qaçılmaz olduğunu söyləyir [1, səh. 263] . Onun fikrincə, ikidillilik şəraitində danışanın nitqində normadan yayınmalar müşahidə olunur. Bu hadisəni müəllif interferensiya hadisəsi kimi qəbul edir.

İnterferensiya hadisəsinin yaranma situasiyasını və səbəblərini araşdıran V.V.İvanov və V.A.İvanova belə bir fikir irəli sürürlər ki, interferensiya işlənməsinə görə nitqlə, yaranma səbəbinə görə isə dil sistemi ilə bağlıdır [4,səh. 8] . Buradan aydın olur ki, tədqiqatçılar interferensiya hadisəsinin məhz danışıq aktında baş verdiyini vurğulayırlar.

Bu problemlə əlaqədar yerinə yetirilmiş tədqiqat işləri arasında görkəmli germanist Y.Yoxaşın əsəri xüsusi maraq doğurur. O, yazır ki, biliqvin danışığında öyrənilən dil üçün xarakterik olan norma pozulur. Bu da ana dilinin təsiri altında baş verir. Başqa dillərin təsiri ilə danışıqda müşahidə olunan normadan yayınma hallarını Y.Yoxaş interferensiya hadisəsi adlandırır. Müəllif hətta interferensiyanın iki növünü fərqləndirir. Eyni dil daxilində baş verən interferensiya və müxtəlif dillər arasında baş verən interferensiya. Şübhəsiz ki, bu məqalədə də söhbət interferensiyanın ikinci növündən, yəni ana dili ilə xarici dil kimi öyrənilən ingilis

dili arasında baş verən interferensiyadan gedir. İnterferensia hadisəsi o zaman özünü göstərir ki, ana dili qarşılaşan dillərdən biri kimi, öyrənilən xarici dilə nisbətdə yüksək təsir gücünə malik olur.

Mövcud ədəbiyyatın təhlilindən aydın olur ki, müasir dilçilik ədəbiyyatında ikidillilik və interferensiyaya münasibətdə ciddi fikir ayrılığı mövcuddur. Bu sahədə L.V.Şerbanın irəli sürdüyü fikri daha məqbul saymaq olar. O yazır ki, ikidillilik dedikdə bu və ya digər əhali qrupunun iki dildə ünsiyyət saxlama qabiliyyəti nəzərdə tutulur [7] .

Ədəbiyyat:

1. Вайнрайх У. Языковые контакты. Киев : Вища школа, 1979, 22 с.

2. Якобсон Р. О теории фонологических союзов между языками.

3. Л.В.Щерба. О взаимоотношениях родного и иностранного языка. В кн.:

4. Иванов В.В., Иванова В.А. Грамматическая интерференция и проблемы культуры русской речи. В кн. : Граммати ческая интерференция условиях национально-русского двуязычия. М.,1990, 5.8.с

5. Ferdinand de Sössür Ümumi dilçilik kursu. B.: BDU nəşr., 2003.

6. Xomski N. Dil və təfəkkür. B.: BSU, «Kitab aləmi» nəşriyyat–poliqrafiya mərkəzi, 2006.

7. Л.В.Щерба. Языковая система и речевая деятельность. Л., 1974, с..

8. Бодуэн де Куртенэ И.А. Избранные труды по общему языкознанию. Том I, М.: Издательство АН СССР, 1963.

9. Axundov A.A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları. Bakı: Maarif, 1979.

10. Language and Learning: The Debate between Jean Piaget and Noam Chomsky (edited by Massimo Piattelli-Palmarini), Cambridge: Harvard University Press, 1980.

Abstract

INTERFERENCE AS OBJECT OF LINGUISTIC RESEARCHES

Bayim ALIYEVA

Graduate student of Azerbaijan University

Key words: interference, bilingualism , mother tongue, comparison

The present article deals with studying the interference from the historical point of view. Here the author of the article compares some writers' thoughts about interference. She herself shares A.A. Axundov, Ferdinand de Saussure, Noam Chomsky, Max Weinreich, V.V. Ivanov, Roman Jakobson, Lev Shcherba, Baudouin de Courtenay's thought. The author of the article considers this problem very important and interesting.

Резюме

ИНТЕРФЕРЕНЦИИ С ТОЧКИ ЗРЕНИЯ ЛИНГВИСТИЧЕСКИХ ЗУЧЕНИЙ

Байим АЛИЕВА

Магистр Университета "Азербайджан"

Ключевые слова: интерференция, билингвизм, родной язык, сравнения

В настоящей статье рассматривается изучение интерференции с точки зрения истории постановки вопроса. Автор статьи сравнивает мнения различных иностранных авторов об интерференции. Она сама разделяет свои мнения с Агамуса Ахундовым, Ф. де Соссюр, Аврам Ноам Хомский, Вайнрайх У. , Ивановым В.В., Ивановой В.А. , Якобсон Р. , Л.В.Щерба , Бодуэн де Куртенэ. Она считает эму проблему очень важной и интересной.

POSITIONS OF U.S. AND RUSSIA ON THE NUCLEAR PROGRAM OF IRAN

Nermin GULIYEVA
Graduate student of «International Relations and Economics» of Baku State University

Reviewer: BSU, prof. E.N. Dadashov
Key words: Iran, nuclear, USA, Russia, interests, resolution

For nearly ten years the development of Iran's nuclear program continues attracting the attention of the world community; the beginning of 2012 was accompanied by strengthening of international political and economic pressure on Iran.

Since 2006, the "Iranian nuclear problem" was referred to the Security Council of United Nations; however, despite a series of restrictive resolutions, Tehran did not slow down the pace of development of national nuclear program. Such an intransigence of the state is largely explained by an understanding of the current situation by its leadership, which is characterized by raging disagreements between Russia and the United States on how to settle the Iranian nuclear problem. Despite the fact that Washington and Moscow are considered the founders of the nuclear nonproliferation regime, and both are determined to protect and preserve this regime, their views on Iran's situation is paradoxically different (1, p.128). While Washington prefers to act by hard pressure on Iran, Moscow sees the possibility of achieving results through appeasement of the Islamic Republic and its involvement in the process of cooperation.

It appears that these differences between the political methods and the interests of the United States and Russia can play a critical role in the further fate of the Non-Proliferation Treaty regime. The main objective of the analytical report is the analysis of the three components of the problem:

- commonality and controversies in the positions of the United States and The Russian Federation regarding the Iranian nuclear program, their principal causes;
- the possibility of the two states to develop a common compromise on "Iranian nuclear problem" for the sake of effective resolution of the problem;
- The consequences that will have the appearance of a nuclear Iran for interests of Moscow and Washington (in this case both strategies on retaining Tehran outside of the nuclear club will fail). (2, p-59)

Regarding the first question, it should be noted, that the Middle East is the subject of geopolitical dispute between Moscow and Washington since "Cold War." At the same time, the change of epochs associated with the collapse of the Soviet Union was accompanied by a sharp drop in Russian capabilities in the region by the growing influence of the United States.

Determining the current US strategy in the Middle East, it is necessary to note the two main strategic objectives of Washington's policy:

- preservation of global flows of oil transportation (33% of which pass through Strait of Hormuz),
- ensuring the security of its allies in the region. Iran's nuclear program could be an obstacle for both purposes (3, p-11).

On the one hand the strong nuclear Iran's being able to dictate its policy in the region, including controlling the Strait of Hormuz, in the case of increase of conflict may affect the stability of the global flows of oil transportation, and therefore inflict considerable damage to US strategic interests. On the other hand, both of Washington's allies - Israel and Saudi Arabia, consider Iran's nuclear program one of the most serious threats to regional balance of power, as well as for the security of Israel (4, p-9).

The well-known slogan of Iranian leaders to "wipe Israel off the map" is often interpreted in Tel Aviv as an existential threat to the Jewish state that makes a nuclear Iran the number one threat to Israel. Saudi Arabia, in turn, sees Iran as the main rival for hegemony in the Muslim world, as well as, regional opponent, that often drives Saudi royals to radical statements that nuclear choice of Iran is able to push Riyadh to the same direction. In this way, limitation of Iran's nuclear program may be considered as one of the strategic priorities for the United States, the implementation of which is possible by the use of a wide variety of tactics, from economic pressure (sanctions) to cybersabotage (according to experts, Stuxnet virus in 2010 was able to delay the development of Iran's nuclear program from a period of 18 months to 2 years), or the threat of military action (3, p-12).

Russia has lost much of its Middle Eastern customers immediately after the collapse of the USSR. The remnants of former influence preserved only partly due to a rather sporadic economic cooperation with such countries as Syria, Libya and Iran. Latest eventually acquires a special importance in the region for being the largest importer of Russian weapons as well as Russian services in the field of development of peaceful nuclear energy. Importance of Iran to Russia's Middle East policy increased also for the reason of the full or temporary loss of other customers, in particular, the fall of the Gaddafi regime in Libya and the growth of domestic and international tensions around the Assad regime in Syria.

In this context, Iranian nuclear program (which partially supports cooperation with Russia) is regarded by Moscow not only as a symbol of its presence in the Middle East, but also as a means of demonstrating the strong position of Russia in the UN Security Council. Thus, while the strategic goal of Russia in the Middle East is to secure its fading influence, main task of Russian management becomes patronage over development of Iran's nuclear program. And Russia's tactic in this case is the pacification of Iranian leadership by blocking the most radical UN Security Council sanctions, which gives Moscow erroneous illusion of control over Iranian nuclear development. In addition, "the Iranian nuclear problem" is considered by Russia as a tool of possible manipulation in negotiations with Washington (5).

Is it possible to find a common ground? This question brings us to the second point of dis-

cussion, namely the analysis of possibilities of rapprochement between Russia and the US on finding joint solutions on Iranian problem. Opportunities exist; in particular, precedent was established in 2009, when, after coming to power, Obama administration seriously hinted Moscow at the possibility of a compromise on European missile defense system in exchange for Russian cooperation on Iranian issue. Moreover, the deal seems proved effective as Russia suspended its deliveries of S-300 to Islamic Republic and supported another UN Security Council resolution against a number of Iranian companies (6). At the same time, the new administration's plans on the deployment of the European missile defense founded temporary character of Russian-US deal on "Iranian nuclear problem", which in turn has encouraged Iran on further opportunities for the development of its nuclear program.

